## *ÖN SÖZ*

İslam dünyasına hakim kəsilən şəraitə agah olanlar yaxşı bilirlər ki, bu gün islam dünyası müxtəlif ümmətlər, qruplar şəklinə düşmüşdür, hər ümmətin də özünəməxsus qayda-qanunları vardır. Onlara elə adamlar rəhbərlik edir ki, özlərinin qalıb davam etməsini ümmətlər arasında ixtilaf yaratmaqda görürlər. Buna görə də bu kimi məsələlərdə müxtəlif cür sərmayə qoyur, mümkün olan hər bir vasitədən istifadə edirlər.

Şübhəsiz, islam məzhəbləri arasında müəyyən ixtilaflı məsələlər vardır, hərçənd onların əksəriyyəti islam mütəkəllimləri tərəfindən irəli sürülən kəlam məsələləri ilə əlaqədardır və əksər müsəlmanlar da bu kimi ixtilaflardan xəbərsizdirlər, lakin ixtilaflı məsələlər müqabilində müştərək cəhətlər vardır ki, onların arasında birliyin əsasını təşkil edir, hətta demək olar ki, müştərək cəhətlər ixtilaflı cəhətlərdən qat-qat artıqdır. Bununla belə ixtilaf yaradanlar məhz həmin ixtilaflı məsələlərə istinad edir, üsül və füruidin məsələlərindəki müştərək məsələləri xatırlatmaqdan çəkinirlər.

"İslam məzhəbləri arasında yaxınlaşdırma" ilə əlaqədar keçirilən konfransların birində nikah, təlaq, irs və s. kimi şəxsi məsələlərdə fiqhi məzhəblərin mövzusunu bəyan etmək mənə həvalə etmişdir. Bir yazıçı konfransa bu barədə elə bir məqalə təqdim etmişdi ki, iştirakçıların hamısını heyrətləndirmişdi. Həmin məqaləni əvvəlcədən oxumazdan qabaq bizim (yuxarıda qeyd edilən) üç məsələ ilə əlaqədar sünnülərin dörd məzhəbi ilə vahid nəzərdə olmağımız məsələsi onun üçün qəbul olunası deyildir.

Onlar həqiqətə uzaqdan tamaşa edərək şiəliyi islam tayfalarından ayrı düşmüş bir firqə hesab edir, gecə-gündüz kütləvi informasiya vasitələri ilə tarix boyu zülmə mə`ruz qalmış bu firqənin əleyhinə təbliğat aparırlar. Halbuki, onların islamın qatı və qansız düşmənlərinə xidmət etməkdən, düşmən dəyirmanına su tökməkdən başqa bir işləri yoxdur. Müəllif agah olmayan bu cür şəxslərə tövsiyə edir ki, şiələrlə yaxından əlaqə yaratsınlar, onların alim və mütəfəkkirləri ilə təmasda olsunlar ki, gözlərindən qəflət pərdələrini çəkə bilsinlər, şiələri özlərinin qardaşları hesab etsinlər və nəticədə aşağıdakı ayəni gerçəkləşməsinə şərait yaratsınlar: "Həqəqətən sizin ümmətiniz vahid bir ümmətdir, Mən də sizin Rəbbinizəm, (belə isə) Mənə ibadət edin."

İstismarçı qüvvələrin islam millətləri arasında apardığı məkrli siyasətlərdən biri də əzəmətli islama zərbə vurmaq üçün müəyyən şübhələr yaratmaqdır. Bu, son əsrlərdə Şərq ölkələrində və dünyanın başqa yerlərində müxtəlif şəkillərdə irəli sürülən qədim bir üslubdur.

Həcc mövsümündə bir tərəfdən İran İslam İnqilabı ilə tanışlığı olan, digər tərəfdən isə beynləri düşmənlərin zəhərli əks təbliğatları nəticəsində xarab olan bə`zi ziyarətçilər iranlı hacılarla görüşdükləri zaman müəyyən suallar irəli çəkərək cavablarını almışlar. Bu ehtiyacları tə`min etmək üçün əksər hallarda dini və mədəni yönə malik olan sualların böyük qismini hörmətli mühəqqiq Seyyid Rza Hüseyninəsəb bir yerə yığmış və mənim nəzarətim altında tənzim edərək çapa hazırlamışdır. Cavab məqamında ixtisara riayət olunsun deyə zəruri miqdarla kifayətlənmiş və əlavə izahatlar digər məqamlara həvalə edilmişdir.

Ümidvarıq ki, bu kiçik xidmət İmam Zaman (ə)-ın razılığına səbəb olsun!

Qum, elmiyyə hövzəsi, Cəfər Sübhani, 1374

SUAL: 1

## “İTRƏTİ” DÜZGÜNDÜR, YOXSA “SÜNNƏTİ”?

İslam aləmində çox məhşur olan “Səqəleyn” hədisini nəql edənlər bunu iki cür rəvayət etmişlər. Onların hansının daha səhih olduğunu araşdırırıq.

a) “Kitabəllahi və itrəti Əhlə-beyti”æ

b) “Kitabəllahi və sünnəti”.

Cavab: Peyğəmbəri Əkrəm (s.ə.v.v)-dən nəql olunan səhih və sabit hədis məhz “Əhlə-beyti” kəlməsi olan hədisdir. “Əhlə-beyti” kəlməsinin yerinə “sünnəti” deyə qeyd olunan rəvayət sənəd baxımından batil və rədd olunur, amma Əhli-beyti hədisinin sənədi tam kamilliyə malikdir.

*“Və Əhlə-beyti” hədisinin sənədi*

Bu mətni iki böyük şəxsiyyətli mühəddis nəql etmişdir. Müslim özünün “Səhih” kitabında Zeyd ibn Ərqəmdən nəql edir ki, Peyğəmbəri Əkrəm (s.ə.v.v) bir gün Məkkə-Mədinə arasında yerləşən “Xum” adlı bir suyun kənarında xütbə söylədi, Allaha həmd-səna etdikdən sonra camaata nəsihət edərək buyurdu:

اَلاَ اَيُّهَا النَّاسُ،فَاِنَّمَا اَنَا بَشَرٌ يُوشِكُ اَنْ يَاْتِيَ رَسُولُ رَبِّي فَاُجِيبَ،وَ اَنَا تَارِكٌ فِيكُمْ ثَقَلَيْنِ **K** اَوَّلُهُماَ كِتَابُ اللهِ، فِيهِ الْهُدَي وَ النُّورُ فَخُذُوا بِكِتَابِ اللهِ وَاسْتَمْسِكُوا بِهِ - فَحَثَّ عَلَيَ كِتَابِ اللهِ وَ رَغَّبَ فِيهِ ثُمَّ قَالَ **K** وَ اَهْلُ بَيْتِي، اُذَكِّرُكُمُ اللهَ فِي اَهْلِ بَيْتِي،اُذَكِّرُكُمُ اللهَ فِي اَهْلِ بَيْتِي،اُذَكِّرُكُمُ اللهَ فِي اَهْلِ بَيْتِي

**“Ey insanlar! Mən də sizin kimi bir bəşərəm. Pərvərdigarımın elçisinin (Əzrailin) gəlişi yaxındır, mən də onun də\`vətini qəbul edəcəyəm. Mən sizin aranızda iki ağır əmanət qoyub gedirəm: Biri Allahın kitabıdır ki, onda hidayət və nur var. Allahın kitabından bərk-bərk yapışın və ona sarılın.** (Peyğəmbəri Əkrəm (s.ə.v.v) Allahın kitabına əməl etməyi tə\`kid etdikdən sonra buyurdu:) **Və (ikincisi) mənim Əhli-beytimdir. Əhli-beytim barəsində Allahı sizə xatırladıram. Əhli-beytim barəsində Allahı sizə xatırladıram. Əhli-beytim barəsində Allahı sizə xatırladıram.”**[1]

Bu mətni Darəmi də özünün “Sünən” kitabında[2] qeyd etmişdir, hər iki hədisin sənədi gün kimi aydındır və onda azacıq irada yol yoxdur.

2-Tirmizi bu mətni “və itrəti Əhlə-beyti” kəlməsi ilə nəql etmişdir. Onun mətni belədir:

اِنِّي تَارِكٌ فِيكُمْ مَا اِنْ تَمَسَّكْتُمْ بِهِ لَنْ تَضِلُّوا بَعْدِي،اَحَدُهُمَا اَعْظَمُ مِنَ الاَخَرِ **K** كِتَابَ اللهِ حَبْلٌ مَمْدُودٌ مِنَ السَّمَاءِ اِلَي الاَرْضِ وَ عِتْرَتِي اَهْلَ بَيْتِي، لَنْ يَفْتَرِقَا حَتّي يَرِدَا عَلَيَّ الْحَوْضَ فَانْظُرُوا كَيْفَ تَخْلُفُونِي فِيهَا.

**“Mən sizin aranızda iki əmanət qoyuram. Onlara sarılıncaya qədər heç vaxt yolunuzu azmazsınız. Bunlardan biri digərindən daha böyükdür: Allahın kitabı asimandan yerə doğru çəkilmiş rəhmət ipidir, digəri isə mənim itrətim – Əhli-beytimdir. Onlar hovuzun kənarında mənə gəlib çatana qədər bir-birindən ayrılmazlar. Baxın görün, mənim əmanətlərimlə necə rəftar edəcəksiniz!”**[3]

“Sihah” və “Sünən” müəlliflərindən olan Müslim və Tirmizi hər ikisi “Əhlə-beyti”

---

1 “Səhihi-Müslim”, 4-cü cild, səh.1803, 2408 nömrə (Əbdül-Baqi çapı.)

2 2-ci cild, səh.431-432

3 “Sünəni Tirmizi”, 5-ci cild, səh.663, 37788-ci nömrə

kəlməsinə tə`kid etmişlər, bu da bizim nəzəriyyəmizin sübuta yetməsində kifayətdir. Hər ikisinin də sənədi son dərəcə mö`təbər və xüsusi e`tibar dərəcəsinə malikdir.

## "VƏ SÜNNƏTİ" MƏTNİNİN SƏNƏDİ

"Əhlə-beyti" kəlməsinin yerinə "sünnəti" kəlməsi qeyd olunan rəvayət saxta hədislərdən olmaqdan əlavə, sənədi də zəifdir. Onu, əməvilərə tabe olan "ravilər" özlərindən icad etmişlər.

1-Hakim Nişapuri "Müstədrək" kitabında həmin mətni aşağıdakı sənədlərlə qeyd etmişdir: Abbas ibni Əbu Üveys, Əbu Üveysdən, o da Sur ibni Zeyd Deyləmidən, o da Əkrəmədən, o da ibni Abbasdan nəql edir ki, Rəsulullah (s.ə.v.v) belə buyurur:

يَا اَيُّهَا النَّاس اِنِّي قَدْ تَرَكْتُ فِيكُمْ مَا اِنِ اعْتَصَمْتُمْ بِهِ فَلَنْ تَضِلُّوا اَبَدًا كِتَابَ اللهِ وَ سُنَّةَ نَبِيِّهِ!!

*"Ey insanlar, mən sizin aranızda iki şeyi qoyub gedirəm, onlara sarılıncaya qədər öz yolunuzu azmazsınız: Allahın və Peyğəmbərin sünnəti."*[4]

Bu rəvayəti nəql edənlər arasında onun sənədinə irad gətirən şey ata və onun oğludur: Əbu Üveys və onun oğlu İsmail ibni Əbu Üveys. Onların heç birinin e`tibar dərəcəsinə malik olmamasından əlavə, üstəlik yalançılıqla və saxta hədis yaratmaqla da müttəhim olunurlar.

## RİCAL ALİMLƏRİNİN BU İKİ ŞƏXS BARƏSİNDƏKİ SÖZLƏRİ

Hafiz Məzzi özünün "Təhzibul-kamal" kitabında İsmail və onun atası barəsində rical elminin məşhur mühəqqiq və şəxslərindən belə nəql edir: Yəhya ibni Muin (rical elmində böyük şəxsiyyətli alimlərdəndir) deyir: *"Əbu Üveys və onun oğlu zəifdir."* Həmçinin Yəhya ibni Muindən nəql olunmuşdur ki, belə deyir: *"Bu iki nəfər hədisi oğurlayırdılar."* O, Əbu Üveysin oğlu barəsində deyir: *"Ona e`timad etmək olmaz."* Nəsai onun oğlu barəsində demişdir: *"O, zəifdir və e`tibar olunası deyildir."* Əbul Qasim Lalikai demişdir: *"Nisai onun əleyhinə çox sözlər demişdir... (nəhayət sözü bura çatır:) onun hədisləri tərk edilməlidir."*

İbni Ədi (o, rical alimlərindəndir) deyir: *"İbni Əbu Üveys öz dayısı Malikdən qəribə hədislər rəvayət etmişdir ki, heç kəs onu qəbul etmir."*[5]

İbni Həcər "Fəthul-Bari" kitabının müqəddiməsində qeyd edir: *"Heç vaxt ibni Əbu Üveysin hədislərinə istinad etmək olmaz, çünki Nəsai onun barəsində qədh etmişdir (güclü eyb tutmuşdur)."*

Hafiz Seyyid Əhməd ibni Siddiq "Fəthul-milkil-ula" kitabında Səlmət ibni Şeybdən nəql edir ki, o, İsmail ibni Əbi Üveysin belə dediyini eşitmişdi: *"Mədinə əhli hər hansı bir məsələ barəsində iki dəstə olanda mən hədis quraşdırırdım."*[6]

Deməli oğul (İsmail ibni Əbi Üveys) saxta hədis düzəltməklə müttəhim olunmuş və ibni Muin onun yalançı olduğunu demişdir. Bundan əlavə, onun hədisi nə Tirmizinin, nə də Müslimin səhih kitablarında, eləcə də digər səhih kitabların heç birində qeyd olunmamışdır. Əbu Üveysin barəsində isə Əbu Hatəm Razinin "Cərh və tə`dil" kitabında yazdığını qeyd etmək kifayətdir. O yazır: *"Onun hədisi yazılır, lakin istinad*

---

[4] "Müstədrək" (Hakim), 1-ci cild, səh.93

[5] "Təhzibul-kamal" (Hafiz Məzzi), 3-cü cild, səh.127

5 "Müqəddimətu Fəthul-Bari" (İbni Həcər), səh.391 ("Darul-mə`rifət" çapı)

[6] "Fəthul-milkil-ula" (Hafiz Seyyid Əhməd), səh.15

*edilmir. Onun hədisi güclü və möhkəm deyildir."*[7] Həmçinin Əbu Hatəm, ibni Muindən nəql edir ki, *Əbu Üveys e`timad olunası şəxs deyildir.*

Sənədində bu iki nəfərin olduğu rəvayət heç vaxt səhih ola bilməz. Bundan əlavə onlardan nəql olunan hədis səhih və sabit rəvayətlə müxalifdir.

Qeyd olunmalıdır ki, hədisi nəql edən şəxs, yə`ni Hakim Nişapuri onun zəif olduğunu e`tiraf etdiyindən bunun sənədini təshih etməmişdir, lakin onun məfhumunun səhih olmasına dair elə bir şahid gətirmişdir ki, o da sənəd baxımından çox zəif olub e`tibar dərəcəsindən düşür. Buna görə də hədisi gücləndirmək əvəzinə, onun zəifliyini daha da artırır. İndi isə onun süst və zəif olmasının şahidlərini qeyd edirik:

## "VƏ SÜNNƏTİ" RƏVAYƏTİNİN İKİNCİ SƏNƏDİ

Hakim Nişapuri aşağıda qeyd olunacaq sənədlərlə Əbu Hüreyrədən mərfu`[8] şəkildə belə nəql edir:[9]

اِنِّي قَدْ تَرَكْتُ فِيكُمْ شَيْئَيْنِ لَنْ تَضِلُّوا بَعْدَهُمَا كِتَابَ وَ سُنَّتِي وَ لَنْ يَفْتَرِقَا حَتَّي يَرِدَا عَلَيَّ الْحَوْضَ

Hakim onu bu sənədlərlə nəql edir: Əz-Zəbiyy, ən Saleh ibni Musəl-Təlhi, ən Əbdul-Əziz ibni Rəfi`, ən Əbi Saleh, ən Əbi Hüreyrə

Bu hədis də əvvəlki hədis kimi saxtadır və onu nəql edənlərin arasında Saleh ibni Musa Təlhinin adı qeyd olunur. Biz böyük rical alimlərinin onun barəsindəki sözlərini qeyd edirik:

Yəhya ibni Muin deyir: *"Saleh ibni Musa e`timad olunası şəxs deyil."* Əbu Hatəm Razi deyir: *"Onun hədisləri zəif və münkərdir (inkar olunandır)."* Nəsai deyir: *"Onun hədisi yazılmır."* Başqa yer də deyir: *"Onun hədisləri mətrukdur (tərk olunmuşdur)."*[10]

İbni Həcər "Təhzibut-təhzib" kitabında yazır: *"İbni Hibban deyir: Saleh ibni Musa e`tibarlı şəxslərə elə şeyləri istinad verir ki, onların sözlərinə oxşamır. (Axırda deyir:) Onun hədisi höccət deyildir."* Əbu Nəim deyir: *"Onun hədisi mətrukdur və daim münkər (inkar olunmuş) hədisləri nəql edir."*[11]

İbni Həcər "Təqrib" kitabında (2891-ci nömrədə) deyir: *"Onun hədisi mətrukdur."* Zəhəbi "Kaşif"də (2412-ci nömrədə) deyir: *"Onun hədisi süstdür."* Zəhəbi "Mizanul-e`tidal" kitabında (2-ci cild, səh.302) bizim araşdırdığımız hədisi ondan nəql edir və deyir: *"Bu, onun münkər (inkar olunmuş) hədislərindəndir."*

## "VƏ SÜNNƏTİ" HƏDİSİNİN ÜÇÜNCÜ SƏNƏDİ

İbni Əbdul-Birr "Təmhid" kitabında (24-cü cild, səh.331) bu mətni aşağıda qeyd olunan sənədlə nəql etmişdir: Əbdur-Rəhman ibni Yəhya Əhməd ibni Səiddən, o da Məhəmməd ibni İbrahim Dəbilidən, o da Əli ibni Zeyd Fərarizidən, o da Hüneyidən, o da Kəsir ibni Abdullah ibni Əmr ibni Ovfdan, o da atasından, o da babasından nəql edir.

İmam Şafei, Kəsir ibni Abdullah barəsində deyir: *"O yalanın sütunlarından*

---

[7] "Əl-cərhu vət-tə`dil" (Əbu Hatəm Razi), 5-ci cild, səh.92

[8] Ravinin, mə`suma istinad vermədiyi hədis "mərfu`" adlandırılır.

[9] "Müstədrək", 1-ci cild, səh.93

[10] "Təhzibul-kamal" (Hafiz Məzzi), 13-cü cild, səh.96

[11] "Təhzibut-təhzib" (İbni Həcər), 4-cü cild, səh.355

*biridir".*[12]

Əbu Davud deyir: *"O yalançılardan və kəzzablardan biridir."*[13] İbni Həbban deyir: *"Əbdullah ibni Kəsir atasından və babasından elə hədis kitabı nəql edir ki, onun əsası saxtadır, o kitabdan hədis nəql etmək və Əbdullahdan rəvayət etmək haramdıræ yalnız təəccüb və tənqid etmək məqamı istisna olunur."*[14]

Nisai və Darqutni demişlər: *"Onun hədisi mətrukdur."* İmam Əhməd deyir: *"Onun sözü inkar olunur və e`timad olunası deyildir."* İbni Müin də həmin nəzərə malikdir.

İbni Həcərin "Ət-təqrib" kitabında yazdığı çox qəribədiræ belə ki, onun tərcümeyi-halını şərh edərkən yalnız "zəifdir" kəlməsi ilə kifayətlənmiş, onu yalançılıqla müttəhim edənləri də ifratçı adlandırmışdır, halbuki məşhur rical alimləri onu yalançılıq və saxta hədis deməkdə müttəhim etmişlər, hətta Zəhəbi demişdir ki, *"onun adi danışığı belə süst və puçdur."*

## SƏNƏDSİZ NƏQLLƏR

Malik "Əl-müvəttə" kitabında onu sənədsiz və mürsəl şəkildə nəql etmişdir. Hamının bildiyi kimi belə bir hədisin dəyəri yoxdur.[15]

Bu araşdırmalar gözəl şəkildə aydınlaşdırır ki, "və sünnəti" kəlməsi ilə olan hədis saxtadır, yalançı və əməvi sülaləsinə bağlı olan ravilər onu, "və itrəti" kəlməsi ilə olan səhih hədisin müqabilində özlərindən düzəltmişlər. Buna görə də məscidlərin xətiblərinə, imam camaatlara və təbliğatçılara vacibdir ki, Peyğəmbər (s.ə.v.v)-dən nəql olunmayan hədisləri tərk edib onun yerinə səhih hədisləri camaata bəyan etsinləræ o hədisi ki, Müslim öz "Səhih" kitabında "Əhlə-beyti" surətində, Tirmizi isə "itrəti və Əhlə-beyti" şəklində nəql etmişlər. Elm axtaranlara vacibdir ki, hədis elmini öyrənsinlər, səhih hədisi zəif hədisdən seçə bilsinlər.

Sonda bunu qeyd etməyi lazım görürük ki, "Əhlə-beyti" kəlməsində Peyğəmbər (s.ə.v.v)-in məqsədi onun nəslidir, o cümlədən Fatimeyi Zəhra (ə.s), İmam Həsən və Hüseyn (ə). Çünki Müslim öz "Səhih"ində (4-cü cild, səh.1883, 2424-cü hədis) və Tirmizi öz "Sünən" kitabında (5-ci cild, səh.663) Ayişənin belə dediyini nəql edirlər:

وَ سَلَّم اِنَّمَا يُرِيدُ اللهُ لِيُذْهِبَ عَنْكُمُ الرِّجْسَ اَهْلَ ″نَزَلَتْ هَذِهِ الآيَةُ عَلَي النَّبِيِّ صَلَّي اللهُ عَلَيْهِ وَآلِه
وَ سَلَّمَ فَاطِمَةَ وَ حَسَنًا وَ ″وَآلِهِ٭الْبَيْتِ وَ يُطَهِّرَكُمْ تَطْهِيرًا فِي بَيْتِ اُمِّ سَلَمَةَ فَدَعَا النَّبِيُّ صَلَّي اللهُ عَلَيْهِ
اَللّهُمَّ هؤُلَاءِ اَهْلُ بَيْتِي فَاَذْهِبْ عَنْهُمُ **K**حُسَيْنًا فَجَلَّلَهُمْ بِكِسَاءٍ وَ عَلِيٌّ خَلْفَ ظَهْرِهِ فَجَلَّلَهُ بِكِسَاءٍ ثُمَّ قَالَ
وَ اَنَا مَعَهُمْ يَا نَبِيَّ اللهِ؟ قَالَ اَنْتِ عَلَي مَكَانِكَ وَ اَنْتِ اِلَي **K**الرِّجْسَ وَ طَهِّرْهُمْ تَطْهِيرًا قَالَتْ اُمُّ سَلَمَةَ
الْخَيْرِ

**"Təthir" ayəsi Ümmü Sələmənin evində nazil oldu. Peyğəmbəri Əkrəm** (s.ə.v.v) **Fatimə, Həsən və Hüseyni öz əbasının altına aldı, Əli də onun arxasında dayandı. Onları öz əbası ilə örtdü, dedi: "Pərvərdigara! Bunlar mənim Əhli-beytimdir, hər növ çirkinliyi onlardan uzaq et, onları pak-pakizə qərar ver!" Ümmü Sələmə dedi: Ey Peyğəmbər! Mən də onlardanammı? (Ayədə qeyd olunan Əhli-beytdən hesab olunurammı?) Buyurdu: Sən öz yerində ol (əbanın altına girmə) sən yaxşı və xeyir**

---

12 "Təqrib" 8-ci cild, səh.377æ "Təhzibul-kəmal", 24-cü cild, səh.138

13 Yenə orada

14 "Əl-məcruhin" (İbni Həbban), 2-ci cild, səh.221

15 "Əl-müvəttəə" (Malik), səh.889, 3-cü hədis

**yoldasan."**[16]

## "SƏQƏLEYN" HƏDİSİNİN MƏFHUMU

Peyğəmbər (s.ə.v.v)-in öz itrət və Əhli-beytini Qur`anla yanaşı qərar verməsi və hər ikisini ümmət arasında Allahın höccəti kimi vəsf etməsindən iki nəticə almaq olar:

1-Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in itrətinin sözləri Qur`anın özü kimi höccətdir və dini işlərdə – istər əqidəvi, istərsə də hüquqi – onların sözünə istinad etmək lazımdır, onların tərəfindən bir dəlil mövcud olduqda başqa şeyə istinad etmək lazım deyil.

Müsəlmanların Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in vəfatından sonra xilafət və islam ümmətinin siyasi işlərinin idarə olunması kimi məsələlərdə iki qrupa ayrılmasına, hər birinin özünə məxsus məntiq və dəlillərinin olmasına baxmayaraq Əhli-beytin elmi müraciət yeri olmasında heç bir ixtilaf etməməlidirlər, çünki "Səqəleyn" hədisinin düzgünlüyündə hamı yekdil fikirdədir. Bu hədis əhkam və əqidə ilə əlaqədar məsələlərdə müraciət yerini Qur`an və Peyğəmbər (s.ə.v.v)-in itrəti hesab edir. Əgər islam ümməti bu hədisə əməl edərsə ixtilaf dairəsi azalar, vəhdətə böyük şərait yaranar.

2-Qur`an Allah kəlamı olmasına görə hər növ xəta və səhvdən uzaqdır. Onda necə xətaya necə ehtimal vermək olar, halbuki Allah onu vəsf edərək belə buyurur:

لاَ يَأْتِيهِ الْبَاطِلُ مِنْ بَيْنِ يَدَيْهِ وَ لاَ مِنْ خَلْفِهِ تَنْزِيلٌ مِنْ حَكِيمٍ حَمِيدٍ

**"Batil ona nə arxadan, nə də öndən yol tapa bilməz. (O,) hikmət sahibi və tə`rifə layiq olan Allah tərəfindən nazil olan bir kitabdır."**[17]

Əgər Qur`an xətadan amandadırsa, təbii olaraq onun tayı-bərabəri olan Əhli-beyt də xətadan uzaqdır. Çünki xətakar bir şəxsin, yaxud şəxslərin Qur`anın bərabəri ola bilməsi yalnış fikirdir.

Bu hədisdən Əhli-beytin hər növ xəta və günahdan uzaq (mə`sum) olmasını anlamaq olar. Diqqət yetirmək lazımdır ki, bir şəxsin ismətli olması onun peyğəmbər olmasını gərəkli etmir. Bir şəxsin günahdan mə`sum olması və eyni halda peyğəmbər olmaması mümkündür. Həzrəti Məryəm "Ali-İmran" surəsinin 42-ci ayəsinin

يَا مَرْيَمُ اِنَّ اللهَ اصْطَفَاكِ وَ طَهَّرَكِ وَاصْطَفَاكِ عَلي نِسَاءِ الْعَالَمِينَ

**(Mələklər Məryəmə dedilər:) Ey Məryəm, həqiqətən Allah səni seçmiş, paklamış və bütün dünya qadınlarından üstün etmişdir."** hök-münə görə hər bir günahdan uzaqdır, lakin peyğəmbər deyil.

---

[16] Həsən ibni Əli Səqaf, "Səhihu sifəti səlatin-Nəbi" kitabı, səh.287-294.

[17] "Fussilət" surəsi, ayə:42

SUAL:2

## ŞİƏ DEDİKDƏ MƏQSƏD KİMDİR?

Cavab: "Şiə" ərəb lüğətində "ardıcıl" mə`nasını daşıyır. Qur`ani Kərim buyurur:

وَ اِنَّ مِنْ شِيعَتِهِ لَاِبْرَاهِيمَ

**"Nuhun ardıcıllarından biri İbrahimdir."**[18]

Müsəlmanların istilahında isə "şiə" sözü Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in öz vəfatından öncə müxtəlif münasibətlərlə əlaqədar olaraq müsəlmanlara xəlifə tə`yin etməsinə inanan şəxslərə aid edilir. Bu münasibətlərdən biri də "Qədir günü" adı ilə məşhur olan (hicrətin 10-cu ili, zil-həccənin 18-i) gündür ki, bu gündə Peyğəmbəri Əkrəm (s.ə.v.v) böyük bir cəmiyyətin iştirak etdiyi yığıncaqda bu məsələni bəyan etmiş və Əli (ə)-ı özündən sonra müsəlmanların siyasi, elmi və dini rəhbəri kimi tə`yin etmişdir.

**İzah:** Peyğəmbəri Əkrəm (s.ə.v.v)-dən sonra mühacir və ənsar iki dəstəyə bölündü:

1-Bə`ziləri inanırdılar ki, Peyğəmbəri Əkrəm (s.ə.v.v) xilafət məsələsinə ciddi şəkildə əhəmiyyət vermiş və özü üçün canişin tə`yin etmişdir, o da Peyğəmbər (s.ə.v.v)-ə iman gətirən ilk şəxs – Əliyyibni Əbi Talib (ə)-dır.

Başlarında Bəni-Haşimin bütün böyük şəxsiyyətləri olmaqla mühacir və ənsardan təşkil olunan bir qrup səhabə, o cümlədən Salman, Əbuzər, Miqdad, Xəbab ibni Ərrət və s. kimi şəxslər olan bu qrup elə həmin əqidədə qaldılar və "Əli şiələri" adlandırıldılar.

Əlbəttə, bu ləqəbi (şiə) Peyğəmbəri Əkrəm (s.ə.v.v) öz sağlığında Əmirəl-mö`minin Əli (ə)-ın ardıcıllarına vermişdi. Belə ki, Əli (ə)-a işarə edərək buyurdu:

وَ الَّذِي نَفْسِي بِيَدِهِ اِنَّ هذَا وَ شِيعَتَهُ لَهُمُ الْفَائِزُونَ يَوْمَ الْقِيَامَةِ

**"Canım əlində olana (Allaha) and olsun ki, bu (Əli) və onun ardıcılları qiyamət günündə nicat tapanlardır."**[19]

Deməli "şiə" islamın ilk əvvəllərində vilayət və rəhbərlik məqamının Allah tərəfindən tə`yin olunmasının e`tiqad bəsləyən bir qrup müsəlmandır, onlar indiyə qədər də Peyğəmbər (s.ə.v.v) Əhli-beytinin ardıcılları olan və onların yolunda qalan şəxslərdir.

Şiənin məqam və mövqeyi həmin yollarla müəyyən olunur. Bununla da bə`zi cahillərin və ya qərəzli şəxslərin şiələrin sonrakı dövrlərdə yarandığını iddia etmək əsasında olan sözlərinin tam əsassız olması aydınlaşır. Şiə tarixini daha geniş şəkildə araşdırmaq üçün "Əsluş-şiə və üsuluha", "Əl-müraciat, "Ə`yanuş-şiə" kitablarına müraciət edə bilərsiniz.

2-Digər bir qrup inanırdı ki, xilafət məqamı seçki yolu ilə olan bir məqamdır. Buna görə də Əbu Bəkrlə bey`ət etdirlər və sonralar "Əhli-sünnət", yaxud "Əhli-təsənnün" ləqəbi aldılar. Nəticə e`tibarı ilə hər iki islam firqəsi arasında üsuli-dində çoxlu müştərək cəhətlərə malik olmaqla yanaşı, xilafət və Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in canişinliyi məsələsi ilə əlaqədar ixtilaf yarandı, hər iki qrupun ilkin özəyini təşkil edənlər də mühacir və ənsar idi.

---

[18] "Saffat" surəsi, ayə:83

[19] "Əddurrul-mənsur" (Cəlaləddin Suyuti), 6-cı cild, "Bəyyinə" surəsinin 7-ci ayəsinin təfsirində.

SUAL:3

## NƏ ÜÇÜN ƏLİ İBNİ ƏBİ TALİB (Ə) PEYĞƏMBƏRİ ƏKRƏM (S.Ə.V.V)-İN CANİŞİNİ VƏ VƏSİSİDİR?

Cavab: Yuxarıda qeyd olunduğu kimi, şiələr xilafət məqamının Allah tərəfindən tə`yin olunmasına inanır və deyirlər ki, Peyğəmbəri Əkrəm (s.ə.v.v)-dən sonra imamət məqamı müəyyən cəhətlərdən eynilə nübüvvət (peyğəmbərlik) kimidir: yə`ni Peyğəmbəri Əkrəm (s.ə.v.v) Allah tərəfindən tə`yin olunduğu kimi, onun canişini də Allah tərəfindən tə`yin olunmalıdır.

Peyğəmbər (s.ə.v.v)-in həyat tarixi bu müddəaya canlı şahiddir. Çünki o həzrət çoxlu münasibətlərlə əlaqədar olaraq Əli (ə)-ı özünün xəlifəsi ünvanı ilə tə`yin etmişdir. Biz onlardan üçünü qeyd edirik:

1-Be`sətin əvvəlində

Allah tərəfindən Peyğəmbəri Əkrəm (s.ə.v.v)-ə əmr olunmuşdu ki, “və ənzir əşirətəkəl-əqrəbin” (“Şüəra” surəsi, ayə:214) ayəsinin hökmünə görə öz qohum-əqrəbasını tovhid ayininə də`vət etsin. Bu yığıncaqda Peyğəmbəri Əkrəm (s.ə.v.v) onlara xitabən buyurmuşdu:

فَاَيُّكُمْ يُوَازِرُنِي فِي هذَا الاَمْرِعَلَي اَنْ يَكُونَ اَخِي وَوَزِيرِي وَخَلِيفَتِي وَوَصِيِّي فِيكُمْ

**“Sizlərdən hansı biriniz bu işdə mənə kömək edər ki, mənim qardaşım, vəzirim, vəsim və sizin aranızla canişinim olsun?”**

Bu asimani çağırışa müsbət cavab verən yeganə şəxs Əliyyibni Əbi Talib (ə) oldu. Bu zaman Peyğəmbəri Əkrəm (s.ə.v.v) öz qohum-əqrəbalarına xitabən buyurdu:

اِنَّ هذَا اَخِي وَ وَصِيِّي وَ خَلِيفَتِي فِيكُمْ فَاسْمَعُوا لَهُ وَ اَطِيعُوهُ

**“Bu (yə`ni Əli) mənim qardaşım, vəsim və sizin aranızdakı canişinimdir. Onun sözlərinə qulaq asın və ona itaət edin.”**

2-”Təbuk” qəzvəsi

“Təbuk” qəzvəsində Peyğəmbər (s.ə.v.v) Əli (ə)-a buyurdu:

اَمَا تَرْضَي اَنْ تَكُونَ مِنِّي بِمَنْزِلَةِ هَارُونَ مِنْ مُوسَي اِلاّ اَنَّهُ لاَ نَبِيَّ بَعْدِي

**“Razı olmazsanmı ki, səninlə mənim münasibətim Harunla Musanın münasibəti kimi olsunæ bu fərqlə ki, məndən sonra heç bir peyğəmbər yoxdur.”**[20] (Yə`ni Harun həzrəti Musandan sonra onun vəsisi və canişini olduğu kimi, sən də mənim xəlifəm və canişinimsən.)

3-Hicrətin 10-cu ilində

Peyğəmbəri Əkrəm (s.ə.v.v) vida həccindən qayıdanda “Qədir-Xum” adlı bir diyarda Əli (ə)-ı böyük bir cəmiyyət arasında müsəlmanların rəhbəri və mö`minlərin əmiri kimi təqdim edərək buyurdu:

مَنْ كُنْتُ مَوْلاَهُ فَهذَا عَلِيٌّ مَوْلاَهُ

**“Mən (indiyə qədər) hər kəsin rəhbəri və ixtiyar sahibi idimsə, (bundan sonra da) bu Əli onun mövlası və rəhbəridir.”**

Diqqət olunmalı mühüm məsələ budur ki, Peyğəmbər (s.ə.v.v) sözünün əvvəlində belə buyurmuşdu:

---

[20] “Tarixi Təbəri”, 2-ci cild, səh.62-63, “Tarixi Kamil”, 2-ci cild, səh.40-41æ “Müsnədi Əhməd”, 1-ci cild, səh.111æ “Nəhcül-bəlağə”nin şərhi (İbni Əbil Hədid), 13-cü cild, səh.210-212æ “Sireyi ibni Hişam”, 2-ci cild, səh.520æ “Əssəvaiqul-muhriqə” (İbni Həcər), Misir çapı, 2-ci çap, 9-cu bab 2-ci fəsil səh.121.

اَلَسْتُ اَوْلَي بِكُمْ مِنْ اَنْفُسِكُمْ

**“Mən sizə, sizin özünüzdən artıq ixtiyar sahibi deyiləmmi?”** Müsəlmanlar da hamılıqla bu sözü təsdiq etdilər. Deməli, o həzrət “mövla” kəlməsi ilə “mö`minlərin tam ixtiyar sahibi və rəhbəri” mə`nasını nəzərdə tutmuşdu. Buradan belə nəticə alınır ki, Peyğəmbəri Əkrəm (s.ə.v.v) özünün malik olduğu “övləviyyət” məqamını (vilayət və rəhbərliyi) Əli üçün də isbat etmişdir. Məhz həmin gündə Həssan ibni Sabit tarixi Qədir hadisəsini nəzmə çəkmişdir. Onun bir qismi belədir:[21]

*يُنَادِيهِمْ يَوْمَ الْغَدِيرِ نَبِيُّهُم بِخُمٍّ وَ اَسْمِعْ بِالرَّسُولِ مُنَادِيًا*
*فَقَالَ فَمَنْ مَوْلَاكُمْ وَ نَبِيُّكُم فَقَالُوا وَ لَمْ يَبْدُوا اَهُنَاكَ التَّعَامِيَا*
*اِلَهُكَ مَوْلَانَا وَ اَنْتَ نَبِيُّنَا وَ لَمْ تَلْقَ مِنَّا فِي الْوِلَايَةِ عَاصِيَا*
*فَقَالَ لَهُ K قُمْ يَا عَلِيُّ فَاِنَّنِي رَضِيْتُكَ مِنْ بَعْدِي اِمَامًا وَ هَادِيًا*
*فَمَنْ كُنْتُ مَوْلَاهُ فَهذَا وَلِيُّهُ فَكُونُوا لَهُ اَتْبَاعَ صِدْقٍ مَوَالِيَا*
*هُنَاكَ دَعَا K اَللَّهُمَّ وَالِ وَلِيَّهُ وَ كُنْ لِلَّذِي عَادَي عَلِيّاً مُعَادِيًا*

**Qədir günü Peyğəmbərlrəri onlara nida etdi**
**Xum adlı bir yerdə, Rəsulun carçısı necə də yaxşı eşidəndir!**
**Buyurdu: Kimdir sizin mövlanız və nəbiniz?**
**Dedilər: Sənin Allahın bizim mövlamızdır, sən də bizim Peyğəmbərimizsən,**
**Bizim içərimizdə vilayətə asi olan bir kəs görməzsən.**
**Peyğəmbər əliyə buyurdu: Qalx ayağa, həqiqətən mən**
**Sənin özümdən sonra imam və hidayətçi olmağına razı oldum**
**Mən hər kəsin mövlasıyamsa, bu Əli dəonun vəlisi, rəhbəridir,**
**Siz də ona sadiq itaət edənlərdən olun!**
**Orada belə dua etdi: Pərvərdigara, onu sevənləri sev**
**Əli ilə düşmənçilik edənlərlə düşmən ol!**

“Qədir” hədisi islam tarixində mütəvatir hədislərdəndir, şiə alimlərindən əlavə təqribən 360 sünnü alimi də onu nəql etmişdir.[22] Onların sənədləri 110 nəfər səhabəyə çatır. Böyük islam alimlərindən 26 nəfəri bu hədislərin sənədləri və təriqləri barəsində ayrıca kitab yazmışdır. Məşhur islam tarixçisi Əbu Cə`fər Təbəri kimi hədisin sənədlərini iki cildli böyük kitabda bir yerə toplamışdır. Əlavə mə`lumat üçün “Əl-Qədir” kitabına müraciət edə bilərsiniz.

---

[21] “Əl-Mənaqib” (Xarəzmi Maliki), səh.80æ “Təzkirətu xəvassil-ummət” (Sibt ibni Covzi Hənəfi), səh.20æ “Kifayətut-talib”, səh.17 (Gənci Şafei) və s.

[22] Nümunə üçün: “Əs-səvaiqul-muhriqə” (ibni Həcər), 2-ci çap, (Misir çapı), 9-cu bab, 2-ci fəsil, səh.123.

SUAL: 4

## İMAMLAR KİMLƏRDİR?

Cavab: Peyğəmbəri Əkrəm (s.ə.v.v) öz sağlığında açıq-aşkar şəkildə buyurmuşdur ki, ondan sonra on iki nəfər xilafətə çatacaqdır ki, hamısı Qüreyşdəndir və islamın izzət və başıucalığı onların xilafəti sayəsində olacaqdır. Cabir ibni Səmrət deyir:

لَا يَزَالُ الاِسْلَامُ عَزِيزًا اِلَي اِثْنَي عَشَرَ خَلِيفَةً ثُمَّ قَالَ كَلِمَةً لَمْ اَسْمَعْهَا **K** يَقُولُ سَمِعْتُ رَسُولَ اللهِ
كُلُّهُمْ مِنْ قُرَيْشٍ**K**فَقُلْتُ لِاَبِي مَا قَال فَقَالَ

“Peyğəmbər (s.ə.v.v)-in belə buyurduğunu eşitdim: **“İslam on iki xəlifə və rəhbər vasitəsilə əziz olacaqdır.”** Sonra bir söz dedi, eşidə bilmədim. Atamdan nə dediyini soruşduqda cavab verdi ki, hamısı Qüreyşdəndir.”[23]

Tarixdə islamın izzət və başıucalığının qoruqçusu olan on iki xəlifə şiələrin inandığı on iki imamdan başqası ola bilməz. Çünki Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in təqdim etdiyi on iki xəlifə o həzrətin vəfatından bilavasitə sonra onun xəlifələri ünvanı ilə təqdim edilmişdir.

İndi bu on iki nəfərin kim olduğunu araşdırırıq. Sünnülərin istilahında “Raşidin xəlifələri” adlandırılan dörd xəlifədən keçəndə digər xəlifələr islamın izzətli olmasına səbəb olmamışlar. Əməvi və abbasi xəlifələrinin həyat tarixi bu müddəaya şahidlik edir. Amma hər biri öz əsrində təqva və pərhizkarlıq simvolu olan on iki imam Peyğəmbər (s.ə.v.v) sünnəsinin keşikçiləri kimi səhabənin, tabeinlərin və onlardan sonrakı nəsillərin diqqət mərkəzində olmuşlar. Tarixçilər onların elmli və e`timadlı olmalarına şəhadət vermişlər. Onlar aşağıdakılardan ibarətdir:

1-Əliyyibni Əbi Talib (ə)
2-Həsən ibni Əli (Müctəba) (ə)
3-Hüseyn ibni Əli (ə)
4-Əliyyibni Hüseyn (Zeynul Abidin) (ə)
5-Muhəmməd ibni Əli (Baqir) (ə)
6-Cə`fər ibni Muhəmməd (Sadiq) (ə)
7-Musa ibni Cə`fər (Kazim) (ə)
8-Əli ibni Musa (Riza) (ə)
9-Muhəmməd ibni Əli (Təqi) (ə)
10-Əli ibni Muhəmməd (Nəqi) (ə)
11-Həsən ibni Əli (Əskəri) (ə)
12-İmam Məhdi (Qaim) (ə)

(Peyğəmbəri Əkrəm (s.ə.v.v)-dən mütəvatir şəkildə nəql olunan rəvayətlərdə o, “və`dəsi verilmiş Məhdi” ünvanı ilə qeyd olunur.)

Adları Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in dilindən deyilən bu böyük rəhbərlərin həyatı ilə tanış olmaq üçün aşağıdakı kitablara müraciət edə bilərsiniz:

1-”Təzkirətul-xəvas” (“Təzkirətu xəvassil-ümmət)æ
2-”Kifayətul-əsər”æ
3-”Vəfəyatul-ə`yan”æ

---

23 “Səhihi Müslim”, 6-cı cild, səh.2, Misir çapı.

4-”Ə`yanuş-şiə” (müəllif: Seyyid Möhsin Əmin Amuli).

SUAL:5

**NƏ ÜÇÜN PEYĞƏMBƏR (S.Ə.V.V)-Ə SALAVAT GÖNDƏRƏRKƏN O HƏZRƏTİN AİLƏSİNİ DƏ ONA BAĞLAYARAQ "ALLAHUMMƏ SƏLLİ ƏLA MUHƏMMƏDİN VƏ ALİ MUHƏMMƏD" DEYİRSİNİZ?**

Cavab: Şübhəsiz, Peyğəmbər (s.ə.v.v)-in özü ona salavat göndərməyi müsəlmanlara öyrətmişdir: "Əhzab" surəsinin 56-cı ayəsi nazil olanda

اِنَّ اللهَ وَمَلاَئِكَتَهُ يُصَلُّونَ عَلَي النَّبِيِّ يَا اَيُّهَا الَّذِينَ آمَنُوا صَلُّوا عَلَيْهِ وَسَلِّمُوا تَسْلِيمًا

müsəlmanlar "Ya Rəsuləllah, sənə necə salavat göndərək?"-deyə soruşduqda Peyğəmbər (s.ə.v.v) buyurdu:

لاَ تُصَلُّوا عَلَيَّ صَلَوةً بَتْرَاءَ

**"Mənə yarımçıq salavat göndərməyin!"** Yenidən "necə salavat göndərək?" - dedikdə Peyğəmbər buyurdu:

اَللَّهُمَّ صَلِّ عَلَي مُحَمَّدٍ وَ عَلَي آلِ مُحَمَّدٍ

**"Allahummə səlli əla Muhəmmədin və Ali Muhəmməd."**[24]

Peyğəmbər (s.ə.v.v) övladlarının məqamı elə yüksək birdir ki, imam Şafei özünün məhşur şe`rində deyir:

*يَا اَهْلَ بَيْتِ رَسُولِ اللهِ حُبُّكُمْ فَرْضٌ مِنَ اللهِ فِي الْقُرْآنِ اَنْزَلَهُ*

*كَفَاكُمْ مِنْ عَظِيمِ الْقَدرِ اَنَّكُمْ مَنْ لَمْ يُصَلِّ عَلَيْكُمْ لاَ صَلَوةَ لَهُ*

**"Ey Peyğəmbər ailəsi! Sizə məhəbbət bəsləmək Allahın nazil etdiyi Qur`anda bir fərizədir**

**Sizin məqam və mənzilətinizin yüksəkliyində bu kifayətdir ki: Hər kəs sizə salavat göndərməsə onun üçün salavat olmaz (namaz olmaz)."**[25]

---

24 "Əssəvaiqul-muqriqə" (ibni Həcər), 2-ci çap, Misrin "Məktəbətul Qahirə" çapxanası, 11-ci bab, 1-ci fəsil, səh.146. Bunun oxşarını Süyuti "Əddurrul-Mənsur", 5-ci cild, "Əhzab" surəsinin 56-cı ayəsinin təfsirində mühəddislərdən, "Sihah" və "Müsnəd" sahiblərindən nəql etmişdir, o cümlədən Əbdur-Rəzzaq, ibni Əbi Şeyx, Əhməd, Buxari, Müslim, Əbu Davud, Tirmizi, Nəsai, ibni Macə, ibni Mərdəvəyh, Kə`b ibni Əcrə, Peyğəmbəri Əkrəm (s.ə.v.v)-dən nəql edir.

25 "Əs-səvaiqul-muhriqə", 11-ci bab, səh.148, Şəbravinin "İtihaf" kitabının 1-ci fəslinin 29-cu səhifəsindən nəqlən. "Məşariqul-ənvar" (Həmzavi Maliki), səh.88æ "Əl-məvahib", (Zərqani) və "Əs`af" (Səbban), səh.119.

SUAL:6

## NƏ ÜÇÜN ÖZ İMAMLARINIZI MƏ`SUM (GÜNAHSIZ) ADLANDIRIRSINIZ?

Cavab: Hamısı Peyğəmbər (s.ə.v.v) Əhli-beytindən olan şiə imamlarının ismət və günahsızlığına dair çoxlu dəlillər vardır. Biz onlardan birini qeyd edirik: Şiə və sünnü alimlərinin Peyğəmbəri Əkrəm (s.ə.v.v)-dən nəql etdiyinə görə o həzrət həyatının son anlarında belə buyurmuşdur:

اِنّي تَارِكٌ فِيكُمُ الثَّقَلَيْنِ كِتَابَ اللهِ وَ اَهْلَ بَيْتِي وَ اَنَّهُمَا لَنْ يَفْتَرِقَا حَتَّي يَرِدَا عَلَيَّ الْحَوْضَ

**“Mən sizin aranızda iki ağır və dəyərli əmanət qoyub gedirəm. Onlardan biri Allahın kitabı (Qur`an), digəri isə Əhli-beytimdir. Onlar qiyamət günü Kovsər hovuzunda mənə çatana qədər bir-birindən ayrılmazlar.”**[26]

Şübhəsiz, Qur`ani-Məcid hər növ səhvdən, xətadan və inhirafdan amandadır. İnhiraf və təhrif ilahi vəhyə necə yol tapa bilər, halbuki onu göndərən Allah, gətirən vəhy mələyi, qəbul edəni isə Peyğəmbəri Əkrəm (s.ə.v.v)-dir?! Hər üçünün ismət və günahsızlığı gün kimi aydındır və bütün dünya müsəlmanları Peyğəmbəri Əkrəm (s.ə.v.v)-i vəhyi alıb qorumaqda və təbliğ etməkdə səhvdən amanda bilirlər. Aydındır ki, Allahın kitabı belə əzəmətli ismətə malikdirsə Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in Əhli-beyti də hər növ səhvdən və sapmalardan amanda olacaqdır. Çünki yuxarıda qeyd olunan hədisdə Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in itrəti ümmətə yol göstərmək, onları hidayət etmək məqamında Qur`anın bərabəri kimi təqdim edilmişdir. Onların hər ikisinin yanaşı qeyd olunmasının hökmü ilə hər ikisi ismət məqamına malikdir. Başqa sözlə desək, mə`sum olmayan şəxs və ya şəxslərin Allahın kitabı ilə yanaşı qeyd olunmasının mə`nası yoxdur.

İmamların ismət məqamında olmasının ən aydın dəlili Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in öz buyurduğudur:

لَنْ يَفْتَرِقَا حَتّيَ يَرِدَا عَلَيَّ الْحَوْضَ

**“Bu ikisi (ümmətə hidayət və rəhbərlikdə) Kovsər hovuzunun yanında mənə gəlib çatana qədər heç vaxt bir-birindən ayrılmazlar.”**

Əgər Peyğəmbər (s.ə.v.v)-in Əhli-beyti günah və sapmalardan amanda olmasa və müəyyən hallarda xətaya yol verərsə onda xətanın yol tapmadığı Qur`andan ayrılar və yolunu azar, halbuki Peyğəmbəri Əkrəm (s.ə.v.v) bu məsələni (onların bir-birindən ayrılmasını) şiddətlə inkar etmişdir.

Əlbəttə Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in buyurduğu “Əhli-beyt” dedikdə məqsədi o həzrətin nəsəbi və səbəbi qohumları deyildir, çünki mə`lum məsələdir ki, onların hamısı sapmalardan amanda olmamışdır.

Deməli onun itrətindən olan xüsusi bir qrup bu iftixara nail olmuşlar və bu bu məqam və mövqe də onların yalnız xüsusi bir qrupuna aid edilmişdir. Onlar tarix boyu ümmətin yolunu işıqlandıran, Peyğəmbər (s.ə.v.v) sünnəsini və şəriətini hifz edən Əhli-beyt imamlarıdır.

---

[26] “Müstədrək” (Hakim), 3-cü cüz, səh.148, “Əs-səvaiqul-muhriqə”, 11-ci bab, 1-ci fəsil, səh.149, bunun oxşar məzmunu “Kənzul-ummal” kitabının 1-ci hissəsinin “e`tisam bil-kitab vəs-sünnə” babında, səh.44-də, “Müsnədi Əhməd”in 5-ci cüz`ünün 182 və 189-cu səhifələrində və sair yerlərdə qeyd olunmuşdur.

SUAL: 7

## NƏ ÜÇÜN ŞİƏLƏR AZANDA "ƏŞHƏDU ƏNNƏ ƏLİYYƏN VƏLİYYULLAH" DEYƏRƏK ƏLİNİN VİLAYƏTİNƏ ŞƏHADƏT VERİRLƏR?

Cavab: Bu sualın cavabında aşağıdakı mətləbləri qeyd etmək yerinə düşərdi:

1-Şiə fəqihlərinin hamısı öz fiqhi kitablarında – istər istidlali, istərsə də sair kitablarda – aşkar şəkildə qeyd etmişlər ki, Əli (ə)-ın vilayətinə şəhadət vermək azan və iqamənin tərkib hissəsi deyildir və heç kəsin, onu əzan və iqamənin tərkib hissəsi ünvanı ilə dilə gətirməyə haqqı yoxdur.

2-Qur`an nəzərindən Əli (ə) Allahın dostlarından biridir və elə aşağıdakı ayədə də onun mö`minlər üzərində vilayət haqqına işarə olaraq buyurulur:

اِنَّمَا وَلِيُّكُمُ اللهُ وَرَسُولُهُ وَ الَّذِينَ آمَنُواْ الَّذِينَ يُقِيمُونَ الصَّلَوٰةَ وَ يُؤْتُونَ الزَّكَوٰةَ وَ هُمْ راكِعُونَ

**"Sizin rəhbəriniz yalnız Allah, Onun Rəsulu və iman gətirib namaz qılaraq ruku halında zəkat verən şəxslərdir."**[27]

Sünnülərin "Sihah" və "Müsnəd" kitablarında nəql etdikləri rəvayətlərdə aşkar şəkildə qeyd edilir ki, yuxarıdakı ayə Əli (ə)-ın öz üzüyünü rüku halında sailə (fəqirə) verdiyi zaman nazil olmuşdur.[28] Bu ayə Əli (ə)-ın şə`nində nazil olan zaman Həssan ibni Sabit o hadisəni nəzmə çəkdi:

*وَ اَنْتَ الَّذِي اَعْطَيْتَ اِذْ اَنْتَ رَاكِعٌ فَدَتْكَ نُفُوسُ الْقَوْمِ يَا خَيْرَ رَاكِعٍ*
*فَاَنْزَلَ فِيكَ اللهُ خَيْرَ وِلَايَةٍ وَ بَيَّنَهُمَا فِي مُحْكَمَاتِ الشَّرَائِعِ*

*"Sən o kəssən ki, rüku halında bəxşiş etdin,*
*Canlar sənə fəda olsun, ey rüku edənlərin ən yaxşısı!*
*Allah ən yaxşı vilayəti sənin barəndə nazil etdi,*
*Və onu, şəriətin xələl yetməyən hökmlərində bəyan etdi."*

3-Peyğəmbəri Əkrəm (s.ə.v.v) buyurur:

اِنَّمَا الاَعْمَالُ بِالنِّيَّةِ

**"Hər əməlin həqiqətinin me`yarı insanın niyyətinə bağlıdır."**

Deməli hərgah Əli (ə)-ın vilayəti Qur`anın aşkar şəkildə buyurduğu prinsiplərdən biri olsa, digər tərəfdən də cüz` olmasına e`tiqad olmadan deyilsə və azan-iqamənin bir hissəsi hesab olunmazsa onda bu həqiqətin Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in risalətinə verilən şəhadət kəlməsi ilə yanaşı deyilməsinin nə eybi var?

Qeyd olunmalıdır ki, əgər azana bir cümlə artırılması bəyənilməyən bir işdirsə və elə buna görə də şiələrə irad tutulursa aşağıdakı halları necə izah edə bilərsiniz:

1-Düzgün tarixlərin verdiyi şəhadətə görə **"həyyə əla xəyril-əməl"** cümləsi əvvəllər azanın bir hissəsi olmuşdur.[29] Amma ikinci xəlifənin xilafəti dövründə camaat bunu eşitməklə namazın ən yaxşı əməl olduğunu bilib artıq cihada getmədiklərindən bə`ziləri

---

[27] "Maidə" surəsi, ayə:55

[28] Bu ayənin şə`ni-nüzulu ilə əlaqədar sənədlər, qeyd olunacağından qat-qat artıqdır, lakin çoxlu mənbələrdən aşağıdakıları qeyd etmək olar: 1-"Təfsiri Təbəri", 6-cı cild, səh.186æ 2-"Əhkamul-Qur`an" (Cəssasın təfsiri), 2-ci cild, səh.542æ 3-"Təfsiri Beyzavi", 1-ci cild, səh.345æ 4-"Əddurrul-mənsur", 2-ci cild, səh.293.

[29] "Kənzul-ummal", kitabus-səlat, 4-cü cild, səh.266æ "Sünəni Beyhəqi", 1-ci cild, səh.424 və 425, "Əl-müvəttəə" (Malik), 1-ci cild, səh.93.

onu azandan çıxartdılar.[30]

2-"Əssəlatu xəyrun minən-novm" cümləsi Peyğəmbər (s.ə.v.v)-in dövründə azanın bir hissəsi olmamış, sonralar ona əlavə edilmişdir.[31] Buna görə də Şafei "Əl-Üməm" kitabında deyir:

اَكْرَهُ فِي الأَذَانِ الصَّلَوةُ خَيْرٌ مِنَ النَّوْمِ لِاَنَّ اَبَا مَحْذُورَةَ لَمْ يَذْكُرْه

*"Mən azanda "əssəlatu xəyrun minən-novm" cümləsini deməyi xoşlamıram, çünki Əbu Məhzurə (ravi və hədis söyləyənlərdən biridir) onu öz hədisində gətirməyibdir."*[32]

---

30 "Kənzul-irfan", 2-ci cild, səh.158, "Əssiratil-mustəqim və cəvahirul-əxbar vəl-asar", 2-ci cild, səh.192, "Şərhu təcrid" (Quşçi), imamət bəhsi, səh.484.

31 "Kənzul-ummal", kitabus-səlat 4-cü cild, səh.270.

32 "Dəlailus-sidq", 3-cü cild, səh.97

SUAL: 8

## “ALİ-MUHƏMMƏDİN (S.Ə.V.V) MƏHDİSİ” KİMDİR VƏ NƏ ÜÇÜN ONUN GƏLİŞİNİ GÖZLƏYİRSİNİZ?

Cavab: Asimani şəriətlərin yekdil fikirdə olduğu məsələlərdən biri də dünya səviyyəsində bir islahatçının gəlişidir ki, zəmanənin axırlarında zühur edəcəkdir. Təkcə islam cəmiyyətlərində deyil, yəhudi və məsihi cəmiyyətlərində də dünya səviyyəli belə bir ədalət hakiminin gəlişi gözlənilir. “Əhdi-ətiq” (Tövrat) və “Əhdi-cədid” (İncil) kitablarına müraciət etməklə bu həqiqət aydınlaşır.[33] İslam mühəddisləri Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in belə buyurduğunu nəql etmişlər:

لَوْ لَمْ يَبْقَ مِنَ الدَّهْرِ اِلاَّ يَوْمٌ لَبَعَثَ اللّهُ رَجُلاً مِنْ اَهْلِ بَيْتِي يَمْلَأُهَا عَدْلاً كَمَا مُلِئَتْ جَوْرًا

**“Əgər dünyanın axırına hətta bir gün qalmış olsa belə, Allah mənim Əhli-beytimdən olan bir nəfəri seçəcək, o, yer üzünü haqsızlıq və zülm ilə dolduğu kimi haqq-ədalətlə dolduracaqdır.”**[34]

Deməli, yuxarıda da qeyd olunduğu kimi, belə bir islahatçının gəlişinə e`tiqad bəsləmək asimani şəriət sahiblərinin fikir birliyidir. Eləcə də sünnülərin “Sihah” və “Müsnəd” kitablarında və`dəsi verilmiş Məhdi ilə əlaqədar çoxlu rəvayətlər nəql edilmiş, hər iki firqədən (sünnü və şiə) olan islam məhəqqiqləri və mühəddisləri o həzrətin barəsində çoxlu kitablar yazmışlar.[35]

Bu rəvayətlərin məcmusu o həzrətin xüsusiyyətlərini və əlamətlərini elə dəqiq şəkildə müəyyən edir ki, o, yalnız imam Həsən Əskəri (ə)-ın övladına və şiələrin on ikinci imamına uyğun gəlir.[36] Bu rəvayətlərə əsasən o həzrət, Peyğəmbəri Əkrəm (s.ə.v.v)-lə eyni adladıræ[37] On ikinci rəhbər[38] və Hüseyn ibni Əliyyibni Əbi Talib (ə)-ın nəvələrindəndir.[39]

Və`dəsi verilmiş Məhdi 255-ci hicri ilində Allahın əmri ilə dünyaya gəlmişdir və hal-hazırda da sair insanlar kimi, tanınmaz halda öz həyatını davam etdirir.

Qeyd olunmalıdır ki, bu qədər uzun ömür nə elm ilə ziddir, nə də vəhy məntiqi ilə. Müasir elm insanların təbii ömürlərini artırmaq qərarına gəlib. Alimlər inanırlar ki, insanın uzun müddət yaşamağa qabiliyyəti vardır. Əgər müəyyən bəlaların və xəstəliklərin qarşısı alınarsa ömrün daha çox artırılmasına imkan yaranacaq. Tarixdə də uzun ömür sürən şəxslərin adı qeyd olunmuşdur. Qur`an həzrəti Nuh (ə) barəsində buyurur:

فَلَبِثَ فِيهِمْ اَلْفَ سَنَةٍ اِلَّا خَمْسِينَ عَامًا

**“Nuh öz qövmü arasanda min ildən əlli il əskik (950 il) yaşadı.”**[40]

Həzrəti Yunis (ə) barəsində buyurulur:

---

33 “Əhdi ətiq”, Məzamiri Davud, Məzmur-96 və 97, Kitabi Daniyal Nəbi, 12-ci bab.
“Əhdi cədid”: Mətta İncili, bab 24æ Mərqos İncili, bab 13, Luka İncili, bab 21 “Dünyanın gəlişini gözlədiyi şəxs” kitabından nəqlən.

34 “Səhihi Əbu Davud”, Misir çapı, “Əl-Mətbəətut-taziyyə”, 2-ci cild, səh.207, “Yənabiul-məvəddət”, səh.432, “Nurul-əbsar”, səh.154.

35 Məsələn: “Əl-bəyan fi əxbari Axirizzəman” (Məhəmməd ibni Yusif ibni Gənci Şafei)æ “Əl-burhan fi əlamati Məhdi Axirizzəman” (Əli ibni Hisamuddin, Müttəqi Hindi adı ilə məşhurdur), “Əl-Məhdi vəl-Məhdəviyyə” (Əhməd Əmin Misri)

36 “Yənabiul-Məvəddət”, 76-cı bab

37 “Səhihi Tirmizi”, Dehli çapı, 1342-ci il, 2-ci cild, səh.46æ “Müsnədi Əhməd”, Misir çapı, 1313-cü il, 1-ci cild, səh.376

38 “Yənabiul-Məvəddət”, səh.443

39 Yenə orada

40 “Ənkəbut” surəsi, ayə:14

لَوْلَا اَنَّهُ كَانَ مِنْ الْمُسَبِّحِينَ لَلَبِثَ فِي بَطْنِهِ اِلَي يَوْمِ يُبْعَثُونَ

**“Əgər o, təsbih edənlərdən olmasaydı qiyamət gününə qədər onun (balığın) qarnında qalardı.”**[41]

Həmçinin Xızr (ə) və İsa (ə) da Qur`an nəzərindən və bütün dünya müsəlmanların fikir birliyinə əsasən diridir və öz həyatlarını davam etdirirlər.

---

[41] “Saffat” surəsi, ayə:144

SUAL: 9

## ƏGƏR ŞİƏLƏR HAQQDIRSA NƏ ÜÇÜN AZLIQDADIR VƏ DÜNYA MÜSƏLMANLARIN ƏKSƏRİYYƏTİ ONLARI QƏBUL ETMİRLƏR?

Cavab: Haqq ilə batilin ayırd edilməsi onların ardıcıllarının az və ya çox olması ilə deyildir. Müasir dövrdə müsəlmanlar, kafirlərlə müqayisədə dünya əhalisinin beşdə birini, yaxud altıda birini təşkil edir. Uzaq şərqin sakinlərinin əksəriyyətini bütpərəstlər və ilahi qüvvələri inkar edən sair qövmlər təşkil edir. Çinin bir milyarddan artıq olan əhalisi dinsiz kommunizm ideyalarına inanır, Hindistanın təqribən bir milyarda yaxın olan əhalisinin əksəriyyəti inəyə və bütə pərəstiş edirlər.

Deməli, əksəriyyət təşkil etmək haqq olmaq nişanəsi deyildir. Qur`ani-Məcid çox yerlərdə əksəriyyət təşkil edənləri məzəmmət etmiş, bunun müqabilində isə azlıq təşkil edənləri tə`rifləmişdir. Nümunə olaraq aşağıdakı ayələri qeyd edirik:

1- وَلاَ تَجِدُ اَكْثَرَهُمْ شَاكِرِينَ

**"Onların əksəriyyətinin şükr edən olmadığını görərsən."**[42]

2- اِنْ اَوْلِيَآؤُهُ اِلاَّ الْمُتَّقُونَ وَلَكِنَّ اَكْثَرَهُمْ لاَ يَعْلَمُون

**"Onun (Allahın) dostları yalnız pərhizkarlardır, lakin insanların əksəriyyəti bunu bilmir."**[43]

3- وَ قَلِيلٌ مِنْ عِبادِيَ الشَّكُورُ

**"Mənim bəndələrimdən az bir qismi şükr edənlərdir."**[44]

Deməli, real görüşə malik olan bir insan heç vaxt öz din və məzhəbinin ardıcıllarının az olmasından qorxmamalı, eləcə də onların çox olması ilə öyünməməlidir, əksinə həmişə əql nurundan istifadə etməlidir.

Bir nəfər Əli (ə)-dan soruşdu: "Necə mümkün ola bilər ki, "Cəməl" müharibəsində nisbi əskəriyyət təşkil edən müxaliflər batil yolda olsun?" İmam (ə) buyurdu:

اِنَّ الْحَقَّ وَالْبَاطِلَ لاَ يُعْرَفَانِ بِاَقْدَارِ الرِّجَالِ،اِعْرِفِ الْحَقَّ تَعْرِفْ اَهْلَهُ،اِعْرِفِ الْبَاطِلَ تَعْرِفْ اَهْلَهُ

**"Haqq və batil, ardıcıllarının miqdarı ilə ölçülmüræ haqqı tanı (əgər haqqı tanısan) onun əhlini də tanıyarsan. Batili tanı (əgər batili tanısan) onun əhlini də tanıyarsan."**

Hər bir müsəlman şəxs bu məsələ barəsində elm və məntiq əsasında təhqiqat aparmalı, **"elmin olmadığı şeylərə tabe olma"**[45] ayəsini özünə nümunə götürməlidir.

Şiələrin sayca sünnülərə çatmamasına baxmayaraq əgər dəqiq şəkildə araşdırılma aparılsa dünya müsəlmanlarının dörddə-birinin şiələrdən ibarət olduğu mə`lum olar. Onlar adətən müsəlman əhalisi olan ölkələrdə yaşayırlar.[46] Bütün dövrlərdə onların arasından böyük alimlər, yazıçılar, müxtəlif kitab və əsər sahibləri çıxmışdır. Yaxşı olar ki, islam aləmindəki mövcud elmlərin əsasını qoyanların şiə olduğu mə`lum olsun deyə, onlardan bə`zilərinin adlarını qeyd edək:

Əbul-Əsvəd Duəli: Nəhv elminin banisi.

---

[42] "Ə`raf" surəsi, ayə:18

[43] "Ənfal" surəsi, ayə:34

[44] "Səba" surəsi, ayə:13

[45] "İsra" surəsi, ayə:36

[46] Əlavə mə`lumat üçün "Ə`yanuş-şiə", 1-ci cild, 12-ci bəhs, səh.194-ə müraciət et.

Xəlil ibni Əhməd: Əruz elminin banisi.

Məaz ibni Müslim ibni Əbi Sarə Kufi: Sərf elminin banisi.

Əbu Əbdillah Məhəmməd ibni İmran Katib Xorasani (Mərzibani): Bəlağət elminin ustalarından biri.[47]

Şiə alimlərinin sayı və onların yazıb irs qoyduqları dəyərli əsərlərdən agah olmaq üçün (bu, çox da asan iş deyildir) "Əzzəriətu ila təsanifiş-şiə" kitabına, şiə aləminin böyük şəxsiyyətləri ilə tanış olmaq üçün "Ə`yanuş-şiə" kitabına, şiələrin tarixindən mə`lumat kəsb etmək üçün "Tarixuş-şiə" kitabına baxa bilərsiniz.

[47] Seyyid Həsən Sədrin "Tə`sisuş-şiə" kitabına müraciət edə bilərsiniz.

## SUAL: 10.

### RƏC`ƏT NƏDİR VƏ NƏ ÜÇÜN ONA E`TİQAD BƏSLƏYİRSİNİZ?

Cavab: "Rəc`ət" lüğətdə "qayıtmaq", istilahda isə "insanların öldükdən sonra elə bu dünyada və qiyamətdən öncə qayıtması" mə`nasınadır. Bu, imam Zaman (ə)-ın dünya səviyyəli hərəkatı zamanı baş verəcəkdir. Bu müddəanın nə əql ilə ziddiyyəti vardır, nə də vəhy məntiqi ilə.

İslam dini, eləcə də digər ilahi dinlər nəzərindən insanın cövhərini və əsasını mücərrəd ruh təşkil edir ki, ona nəfs də deyilir. Bədən çürüdükdən, fani olub aradan getdikdən sonra ruh qalır və öz əbədi həyatını davam etdirir. Digər tərəfdən, böyük Allah qadiri-mütləqdir və heç bir maneə Onun qüdrətini məhdudlaşdıra bilməz.

Bu iki müqəddimə ilə aydın olur ki, rəc`ət məsələsi əql baxımından tamamilə mümkün olan bir işdir. Çünki azacıq təfəkkür etməklə mə`lum olur ki, insanlardan bir qrupunun həyata qaytarılması onların ilkin yaradılışından qat-qat asandır. Deməli insanları ilk dəfə yaradan Allah, şübhəsiz onları yenidən qaytarmağa da qadirdir.

Vəhy məntiqi əsasında rəc`ətin nümunələri keçmiş ümmət-lərdə mövcud olmuşdur. Qur`ani-Məcid bu barədə buyurur:

وَاِذْ قُلْتُمْ يَا مُوسَي لَن نُّؤْمِنَ لَكَ حَتَّي نَرَي اللَّهَ جَهْرَةً فَاَخَذَتْكُمُ الصَّاعِقَةُ وَاَنتُمْ تَنظُرُونَ ثُمَّ بَعَثْنَاكُمْ مِنْ بَعْدِ مَوْتِكُمْ لَعَلَّكُمْ تَشْكُرُونَ

**"Yada salın o zamanı ki, siz (yəhudilər) dediniz: Ey Musa, biz böyük Allahı aşkar şəkildə görməyincə sənə iman gətirməyəcəyik. Bu zaman saiqə sizi tutdu, halbuki siz baxırdınız. Sonra sizi, öldüyünüzdən sonra diriltdik, bəlkə şükr edəsiniz."**[48]

Digər bir ayədə həzrət İsa (ə)-ın dilindən buyurulur:

وَ اُحْيِ الْمَوْتَي بِاِذْنِ اللهِ

**"Ölüləri Allahın izni ilə dirildirəm."**[49]

Qur`ani-Kərim təkcə rəc`ətin mümkünlüyünü təsdiq etmir, əksinə bə`zi insanların bu dünyada öldükdən sonra və qiyamətdən öncə yenidən həyata qayıtmalarını da təsdiq edir. Qur`an aşağıda qeyd olunacaq iki ayədə insanlardan bir qrupunun öldükdən sonra və qiyamətdən öncə bu dünyaya qayıtmasına işarə edir:

وَاِذَا وَقَعَ الْقَوْلُ عَلَيْهِمْ اَخْرَجْنَا لَهُمْ دَابَّةً مِنَ الْاَرْضِ تُكَلِّمُهُمْ اَنَّ النَّاسَ كَانُوا بِآيَاتِنَا لَا يُوقِنُونَ
وَيَوْمَ نَحْشُرُ مِن كُلِّ اُمَّةٍ فَوْجًا مِمَّن يُكَذِّبُ بِآيَاتِنَا فَهُمْ يُوزَعُون

**"Elə ki, Bizim sözümüz onlara vaqe oldu, onların arasından bir varlığı yerdən çıxardarıq ki, camaatla Bizim sözümüzə inanmadıqları barəsində danışsın. O gün ki, hər ümmətin arasından Bizim ayələrimizi təkzib edənlərin bir qrupunu dirildərik və onlar tutularlar."**[50]

Rəc`ət məsələsini bu iki şərif ayə əsasında isbat etmək üçün yaxşı olar ki, aşağıda qeyd olan məsələyə də diqqət yetirək:

1-İslam müfəssirlərinin inancına görə bu iki ayə qiyamətlə əlaqədar məsələni bəyan edir. Birinci ayədə qiyamətdən öncə baş verən hadisələrə işarə edilir. Belə ki, Cəlaləddin

---

[48] "Bəqərə" surəsi, ayə:55-56

[49] "Ali-İmran" surəsi, ayə:49

[50] "Nəml" surəsi, ayə:82-83

Süyuti özünün "Əddurrul-Mənsur" adlı təfsirində ibni Əbi Şeybədən, o da Hüzeyfədən nəql edir ki, (ayədəki) "xürucul-dabbə" qiyamətdən öncə baş verən hadisələrdir.[51]

2-Şübhəsiz, qiyamət günündə müəyyən bir ümmətin arasından bir qrup deyil, bütün insanlar dirildiləcəkdir. Qur`an qiyamətdə bütün insanların dirildilib məhşər səhnəsinə gətiriləcəyi barəsində belə buyurur:

ذٰلِكَ يَوْمٌ مَجْمُوعٌ لَهُ النَّاسُ

**"O (Qiyamət) elə bir gündür ki, bütün insanlar bir yerə toplanar."**[52]

Başqa bir ayədə buyurulur:

وَيَوْمَ نُسَيِّرُ الْجِبَالَ وَتَرَى الْأَرْضَ بَارِزَةً وَحَشَرْنَاهُمْ فَلَمْ نُغَادِرْ مِنْهُمْ أَحَدًا

**"O gün (Qiyamət günü) ki, dağları hərəkətə gətirərik, yeri aşkar şəkildə görərsən və onların hamısını bir yerə toplayarıq, heç kəs qalmaz."**[53]

Deməli, qiyamət günündə bütün insanlar dirildiləcəkdir və bu, hər hansı qrupa məxsus deyildir.

3-Qeyd olunan ikinci ayə isə bütün insanların deyil, müəyyən ümmətlərin arasından xüsusi bir qrupun dirildiləcəyini aşkar şəkildə bəyan edir. Çünki həmin ayədə buyurulur:

وَيَوْمَ نَحْشُرُ مِن كُلِّ أُمَّةٍ فَوْجًا مِمَّن يُكَذِّبُ بِآيَاتِنَا فَهُمْ يُوزَعُون

**"Və o gün hər ümmətin arasından Bizim ayələrimizi təkzib edən bir qrupu dirildərik."**

Bu cümlə həmin gündə bütün insanların dirildiləcəyinə aşkar dəlildir.

## NƏTİCƏ

Bu üç müqəddimədən aydın olur ki, ilahi ayələri təkzib edən insanlardan xüsusi bir dəstənin dirildilməsi ilə (bu, ikinci ayədən mə`lum olur) qiyamətdən öncə baş verən bir hadisəyə işarə olunur. Çünki qiyamət günündə insanların dirildilməsi bütün bəşər övladına şamildir və heç də xüsusi bir qrupla məhdudlanmır. Deməli buradan bir qrup insanın qiyamət baş verməmişdən öncə (və öləndən sonra) dirildilməsi isbat olunur ki, bu da rəc`ət adlanır. Qur`anın bərabərləri və vəhy müfəssirləri olan Peyğəmbər (s.ə.v.v) Əhli-beyti bu barədə əlavə izahlar da vermişlər. Biz ixtisara riayət edərək onların birini qeyd edirik. İmam Sadiq (ə) buyurur:

اَيَّامُ اللهِ ثَلَاثَةٌ يَوْمُ الْقَائِمِ وَ يَوْمُ الْكَرَّةِ وَ يَوْمُ الْقِيَامَةِ

**"Allah günləri üçdür: Həzrəti Məhdinin qiyam etdiyi gün, rəc`ət günü və qiyamət günü."**

Digər yerdə buyurur:

لَيْسَ مِنَّا مَنْ لَمْ يُؤْمِنْ بِكَرَّتِنَا

**"Bizim dünyaya yenidən (həyata) qayıdışımızı qəbul etməyən şəxs bizdən deyildir."**

Yaxşı olar ki, burada iki mühüm məsələni qeyd edək.

## 1- RƏC`ƏTİN FƏLSƏFƏSİ

Rəc`ətdən məqsədin nə olmasında düşünməklə bu hadisənin yüksək hədəflərindən

---

[51] "Əddurul-Mənsur", 5-ci cild, səh.77æ "Nəml" surəsinin 82-ci ayəsinin təfsirində

[52] "Hud" surəsi, ayə:103, "Əddurul-Mənsur", 3-cü cild, səh.349. Bu gün qiyamət günü kimi təfsir edilmişdir.

[53] "Kəhf" surəsi, ayə:47

ikisi ilə qarşılaşırıq: biri islamın həqiqi əzəmət və cəlalını göstərib kafirlərin zəlilliyini və həqirliyini aşkar etmək, digəri isə imanlı və əməlisaleh insanları mükafatlandırıb kafir və zalımlara cəza verməkdir.

## 2- RƏC`ƏTİN TƏNASÜXLƏ BARİZ FƏRQLƏRİ

Qeyd olunmalıdır ki, şiələrin nəzərində olan rəc`ət heç vaxt tənasüxə e`tiqadı gərəkli etmir, çünki tənasüx nəzəriyyəsi Qiyamətin inkar olunması əsasındadır. Bu nəzəriyyə ardıcılları dünyanın daimi dövr etmə əsasında cərəyan etdiyinə inanır və deyirlər ki, hər dövr özündən əvvəlki dövrün təkrarıdır.

Bu nəzəriyyəyə əsasən hər insan öldükdən sonra onun ruhu, bir daha dünyaya qayıdır və başqa bir bədənə nəql olunur. Əgər ruh keçmiş dövrdə yaxşı əməl sahiblərinin bədənində olmuşsa sonrakı dövrü xoşluqla keçirən bir bədəndə qərarlaşır. Əgər pis əməl sahibi olmuşsa sonrakı dövrü çətinlik və məşəqqətlə keçirəcək bir bədənə nəql olunur. Və bu qayıdış da onun qiyamətdəki dirçəlişi kimidir! Halbuki rəc`ətə inananlar islam şəriətinə tabe olaraq qiyamətə və məada iman gətirir, digər tərəfdən də ruhun ayrıldığı bədəndən başqa bir bədənə nəql olunmasını qeyri-mümkün hesab edirlər. Yalnız buna inanırlar ki, insanların bir qrupu qiyamət baş verməzdən öncə elə bu dünyada diriləcək və onların hikmət və məsləhətləri gerçəkləşdikdən sonra yenidən əbədi dünyaya doğru tələsəcəklər ki, qiyamət günündə sair insanlarla birlikdə dirilsinlər. Bir ruh bədəndən ayrıldıqdan sonra heç vaxt başqa bədənə nəql olunmur.

SUAL: 11

## ŞƏFAƏT NƏDİR Kİ, SİZ ONA İNANIRSINIZ?

Cavab: Şəfaət islamın danılmaz əqidə üsullarından biridir ki, bütün islam firqələri və məzhəbləri Qur`an ayələrinə və rəvayətlərə istinad edərək onu qəbul etmişlər. Amma şəfaətin nəticəsi ilə əlaqədar müəyyən ixtilaflar nəzərə çarpır. Şəfaətin həqiqəti bundan ibarətdir ki, Allah dərgahında müəyyən yüksək məqama malik olan, hörmətə layiq görülən bir insan Mütəal-Allahdan digər bir insanın günahlarının bağışlanmasına və ya onun dərəcəsinin yüksəldilməsinə vasitəçi olsun. Rəsuli Əkrəm (s.ə.v.v) buyurur:

أُعْطِيْتُ خَمْسًا...وَ أُعْطِيْتُ شَفَاعَةً فَادَّخَرْتُهَا لِأُمَّتِي

**"Mənə beş şey əta olunmuşdur... Və mənə şəfaət (etmə məqamı) əta olunmuşdur ki, onu da öz ümmətim üçün ehtiyat saxlamışam."**[54]

## ŞƏFAƏTİN MƏHDUDİYYƏTİ

Qur`an nəzərindən mütləq, yə`ni heç bir qeyd-şərt olmadan nəzərdə tutulan şəfaət rədd olunur. Şəfaət yalnız aşağıdakı hallarda tə`sirlidir:

1-Şəfaət edən şəxs Allah tərəfindən şəfaət etməyə icazəli olsun. Yalnız o kəslər şəfaət edə bilər ki, Allah dərgahına mə`nəvi yaxınlıqdan əlavə, Onun tərəfindən də icazəli olsunlar. Qur`anda bu barədə buyurulur:

لَا يَمْلِكُونَ الشَّفَاعَةَ إِلَّا مَنِ اتَّخَذَ عِندَ الرَّحْمَنِ عَهْدًا

**"Şəfaətə heç kəs malik olmazæ yalnız o kəs malik olar ki, Rəhman Allahın yanında əhd almış olsun."**[55]

Digər bir ayədə buyurulur:

يَوْمَئِذٍ لَّا تَنفَعُ الشَّفَاعَةُ إِلَّا مَنْ أَذِنَ لَهُ الرَّحْمَنُ وَرَضِيَ لَهُ قَوْلًا

**"Qiyamət günündə bir kəsin başqasının barəsindəki şəfaəti qəbul olunmaz. Yalnız o kəs üçün qəbul olunar ki, Allah ona izn versin və onun danışığından razı olsun."**[56]

2-Şəfaət olunan şəxs də şəfaətçinin vasitəsilə ilahi feyzi almaq ləyaqətinə malik olsun. Yə`ni onun Allahla imani əlaqəsi, şəfaətçi ilə ruhi bağlılığı kəsilməmiş olsun. Deməli Allahla heç bir iman rabitəsinə malik olmayan kafirlərə, bə`zi günahkar müsəlmanlara, o cümlədən şəfaətçi ilə ruhi bağlılığa malik olmayan namazsız, adam öldürən və s. kimi şəxslərə şəfaət olunmaz. Belə ki, Qur`anda namaz qılmayan və qiyamət gününü inkar edənlər barəsində buyurulur:

فَمَا تَنْفَعُهُمْ شَفَاعَةُ الشَّافِعِينَ

**"Şəfaətçilərin şəfaətinin onlara heç bir faydası olmaz."**[57]

Zalımların barəsində isə buyurulur:

مَا لِلظَّالِمِينَ مِنْ حَمِيمٍ وَ لَا شَفِيعٍ يُطَاعُ

**"Zalımlar üçün heç bir xoşluq, şəfaəti qəbul olunacaq bir şəfaətçi**

---

[54] "Müsnədi Əhməd", 1-ci cild, səh.301, "Səhihi Buxari", 1-ci cild, səh.91 Misir çapı

[55] "Məryəm" surəsi, ayə:87

[56] "Taha" surəsi, ayə:109

[57] "Müddəssir" surəsi, ayə:48

**olmayacaqdır."**[58]

## ŞƏFAƏTİN FƏLSƏFƏSİ

Şəfaət də tövbə kimi günahdan, azğınlıq yolunun yarısından qayıdaraq bu əməlləri tərk etmək istəyənlər üçün ümid yoludur ki, ömrünün qalan hissəsini Allaha itaətlə keçirmək fikrinə gəlsinlər. Çünki günahkar bir insan hər vaxt məhdud bir şəraitdə (bütün şəraitlərdə yox) şəfaətçinin şəfaətinə nail olacağını hiss edərsə bu həddi-hüdudu qorumağa və ondan kənara çıxmamağa çalışar.

## ŞƏFAƏTİN NƏTİCƏSİ

Təfsirçilərin arasında şəfaətin günahın bağışlanmasımı, yoxsa dərəcənin yüksəldilməsi ilə əlaqədar nəticəsi barəsində fikir ayrılığı vardır. Lakin Peyğəmbər (s.ə.v.v)-in buyurduğu:

اِنَّ شَفَاعَتِي يَوْمَ الْقِيَامَةِ لِأَهْلِ الْكَبَائِرِ مِنْ أُمَّتِي

**"Qiyamət günündə mənim şəfaətim ümmətimdən o kəslərə aiddir ki, kəbirə günahlara mürtəkib olmuşlar"** – kəlamına diqqət yetirməklə birinci nəzəriyyə daha aydın olur.[59]

---

[58] "Mö`min" surəsi, ayə:18

[59] "Sünəni ibni Macə", 2-ci cild, səh.583æ "Müsnədi Əhməd", 3-cü cild, səh.313, "Sünəni Əbu Davud", 2-ci cild, səh.537æ "Sünəni Tirmizi", 4-cü cild, səh.45

SUAL: 12

## HƏQİQİ ŞƏFAƏTÇİLƏRDƏN ŞƏFAƏT İSTƏMƏK ŞİRKDİRMİ?

Sualın izahında deyilməlidir ki, şəfaət Allaha məxsus olan bir haqqdır. Qur`anda bu barədə buyurulur:

قُلْ لِلّهِ الشَّفَاعَةُ جَمِيعًا

**“De: Şəfaət haqqı bütünlüklə Allaha məxsusdur.”**[60]

Deməli, Allahdan başqasından şəfaət istəmək Allahın mütləq haqqını Onun bəndəsindən istəməkdir və belə istək də həqiqətdə Allahdan başqasına pərəstiş – şirk olub ibadətdə tovhidlə uyğun gəlmir.

Cavab: Sualda şirk dedikdə Allahın zatında, xaliqiyyətində və ya tədbirində şərik qoşmaq deyil, təbiidir ki, ibadət və pərəstişdə Ona şərik qoşmaq iddia olunur. Aydındır ki, bu məsələnin bəyanı ibadətin və pərəstişin dəqiq təfsirinə bağlıdır. Bildiyimiz kimi, ibadətin mə`nasının təfsiri bizim ixtiyarımıza verilməmişdir ki, məxluq qarşısında hər növ xüzu və bəndədən bir şey istəmək ibadət hesab olunsun.

Qur`an buyurur ki, mələklər Adəmə səcdə etdilər:

فَاِذَاسَوَّيْتُهُ وَنَفَخْتُ فِيهِ مِن رُوحِي فَقَعُوا لَهُ سَاجِدِينَ فَسَجَدَالْمَلَائِكَةُ كُلُّهُمْ اَجْمَعُون

“**Onun xilqətini kamil etdikdə, ona Öz ruhumuzdan üfürdükdə (mələklərə əmr etdik:) ona səcdə edin, hamısı səcdə etdilər.”**[61]

Eyni halda bu səcdənin Allahın fərmanı ilə olmasına baxmayaraq mahiyyət baxımından Adəmə ibadət etmək deyildi. Çünki Allah heç vaxt belə bir işə (Adəmə iadət etməyə) fərman verməz.

Həmçinin həzrət Yə`qubun övladları və hətta onun özü belə Yusifə səcdə etdi:

وَرَفَعَ اَبَوَيْهِ عَلَي الْعَرْشِ وَخَرُّواْ لَهُ سُجَّدًا

**“O, atasını və anasını taxtda oturtdu və onlar ona (Yusüfə) səcdə etdilər.”**[62]

Əgər belə bir xüzu (tə`zim, ehtiram) Yusifə pərəstiş və ibadət olsaydı nə ismət məqamına malik olan Yə`qubun özü bu işi görər və nə də övladlarının bu işi görməsinə razı olardı. Halbuki səcdədən yüksək bir xüzu yoxdur.

Deməli, xüzunun və ya başqasından kömək istəməyin məfhumunu ibadətin mə`nasından ayırmalıyıq. İbadət və pərəstişin həqiqəti budur ki, insan hər hansı bir varlığı özünə mə`bud seçsin, onun qarşısında ibadət etsin, yaxud hər hansı bir varlığı Allahın məxluqu hesab etsin, bununla belə Allahın dünyanı idarə etmək, günahları bağışlamaq kimi işlərinin o məxluqa həvalə edildiyini güman etsin. Amma əgər bizim hər hansı bir şəxsin qarşısında tə`zim etməyimiz onun ilahiləşdirilməsi, yaxud Allaha aid olan işlərin ona həvalə edilməsi əsasında olmazsa belə bir ehtiram və tə`zim mələklərin Adəm qarşısında, Yə`qubun övladlarının Yusifin müqabilində tə`zim və ehtiram etmələrindən başqa bir şey olmayacaqdır.

Sualın fərz olunduğu halda da demək lazımdır ki, hər vaxt şəfaət haqqının həqiqi şəfaətçilərə həvalə edildiyini, onların heç bir qeyd-şərt olmadan şəfaət etmələrini və bəndələrin günahlarını bağışlatmalarını təsəvvür etsək belə bir e`tiqad şirk olacaqdır.

---

[60] “Zumər” surəsi, ayə:44

[61] “Sad” surəsi, ayə:72-73

[62] “Yusif” surəsi, ayə:100

Çünki bu halda Allahın işini Ondan başqasından istəmiş oluruq. Amma əgər Allahın pak bəndələrindən bə`zilərinin şəfaət məqamına malik olmadan müəyyən hüdudlarda günahkarların barəsində şəfaət etmə haqqına malik olmalarını və onun da ən mühüm şərtinin Allahın razılığı və izni olduğunu fikirləşsək bu halda belə bir şəfaətin saleh bir bəndədən istənilməsi onun mə`bud hesab edilməsini, eləcə də Allahın işlərinin ona həvalə edilməsini gərəkli etmiræ əksinə bu, bir iş şə`ninə yaraşan şəxsdən həmin işi istəməkdir.

Tarixdən mə`lumdur ki, Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in həyatında günahkarlar günahlarının bağışlanması üçün o həzrətin hüzuruna gəlir və o həzrət də onlara şirk nisbəti vermirdi. İbni Macənin "Sünən" kitabında Peyğəmbəri Əkrəm (s.ə.v.v)-dən belə rəvayət olunur:

أَتَدْرُونَ مَا خَيَّرَنِي رَبِّي اللَّيْلَةَ؟ قُلْنَا اللهُ وَ رَسُولُهُ اَعْلَمُ قَالَ فَإِنَّهُ خَيَّرَنِي بَيْنَ اَنْ يَدْخُلَ نِصْفُ أُمَّتِي الْجَنَّةَ وَ بَيْنَ الشَّفَاعَةِ فَاخْتَرْتُ الشَّفَاعَةَ قُلْنَا يَا رَسُولَ اللهِ أُدْعُ اللهَ اَنْ يَجْعَلَنَا مِنْ اَهْلِهَا قَالَ هِيَ لِكُلِّ مُسْلِمٍ

**"Bilirsinizmi ki, Allah bu gecə məni hansı şeyləri seçməkdə ixtiyar sahibi etdi?" Dedilər: "Allah və Onun Peyğəmbəri daha yaxşı bilər." Buyurdu: "O, məni iki işin hansı birini seçməkdə ixtiyar sahibi etdi: Mənim ümmətimin yarısını behiştə daxil etmək və şəfaət etmək. Mən şəfaəti seçdim." Biz dedik: "Ey Peyğəmbər, öz Pərvərdigarından istə, bizi şəfaətə layiqli etsin." Buyurdu: "Şəfaət hər bir müsəlman üçün olacaq."**[63]

Bu hədisdə Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in dostları aşkar şəkildə onlara şəfaət etməsini istəyir və "udullahə..." deyirlər.

Qur`an buyurur:

وَلَوْ اَنَّهُمْ اِذ ظَّلَمُواْ اَنفُسَهُمْ جَآؤُوكَ فَاسْتَغْفَرُواْ اللّهَ وَاسْتَغْفَرَ لَهُمُ الرَّسُولُ لَوَجَدُواْ اللّهَ تَوَّابًا رَّحِيمًا

**"Və əgər onlar özlərinə zülm etdikləri zaman sənə tərəf gəlib Allahdan bağışlanmaq istəsələr və Allahın Rəsulu da onlar üçün bağışlanmaq istəsə Allahın tövbələri qəbul edən və mehriban (olduğunu) görərlər."**[64]

Başqa bir ayədə Yə`qubun (ə) övladlarının dilindən buyurulur:

قَالُواْ يَا اَبَانَا اسْتَغْفِرْ لَنَا ذُنُوبَنَا اِنَّا كُنَّا خَاطِئِينَ

**"(Yə`qubun övladları) dedilər: Ey ata, Allahdan bizim günahlarımız üçün məğfirət (bağışlanmaq) istə, həqiqətən biz xətakarlardan olduq."**[65]

Həzrəti Yə`qub (ə) da onlar üçün istiğfar etmək və`dəsi verdi və heç vaxt onları şirklə müttəhim etmədi:

قَالَ سَوْفَ اَسْتَغْفِرُ لَكُمْ رَبِّيَ اِنَّهُ هُوَ الْغَفُورُ الرَّحِيمُ

**"(Yə`qub) dedi: Tezliklə Rəbbimdən sizin üçün məğfirət istəyəcəyəm, həqiqətən O, bağışlayan və mehribandır."**[66]

---

63 "Sünəni ibni Macə", 2-ci cild, "Zikruş-şəfaət" babı, səh.586

64 "Nisa" surəsi, ayə:64.

65 "Yusif" surəsi, ayə:97

66 "Yusif" surəsi, ayə:98

SUAL: 13

## ALLAHDAN BAŞQASINDAN KÖMƏK İSTƏMƏK ŞİRKDİRMİ?

Cavab: Əql və vəhy məntiqi baxımından nəinki insanlar, hətta bütün dünya varlıqları belə öz yaradılışlarında Allaha möhtac olduqları kimi özlərinin tə`sir qoymaqlarında belə Ona ehtiyaclıdır:

يَا اَيُّهَا النَّاسُ اَنتُمُ الْفُقَرَاءُ اِلَي اللَّهِ وَاللَّهُ هُوَ الْغَنِيُّ الْحَمِيدُ

**“Ey insanlar, siz Allaha ehtiyaclısınız və yalnız Allah ehtiyacsız, bəyənilmiş və tə`rifə layiqdir.”**[67]

Başqa bir ayədə bütün qələbələrin aləmlərin Rəbbinə məxsus olduğunu bildirir və buyurur:

وَمَا النَّصْرُ اِلاَّ مِنْ عِندِ اللهِ الْعَزِيزِ الْحَكِيم

**“Nüsrət və kömək yalnız əziz və həkim Allah tərəfindəndir.”**[68]

İslamın bu danılmaz prinsipi əsasında biz müsəlmanlar bütün namazlarda aşağıdakı şərif ayəni dəfələrlə təkrar edirik:

اِيَّاكَ نَعْبُدُ وَ اِيَّاكَ نَسْتَعِينُ

**“(Pərvərdigara!) Yalnız Sənə pərəstiş edir və yalnız Səndən kömək istəyirik.”**[69]

İndi yuxarıdakı sualın cavabının aydınlaşması üçün deyirik: Allahdan başqasından kömək istəmək iki cür təsəvvür olunur:

1-İnsandan, yaxud hər hansı bir varlıqdan elə kömək istəyək ki, onu varlığında, yaxud öz əməllərində müstəqil, kömək çatdırmaqda Allahdan ehtiyacsız hesab edək. Şübhəsiz, Allahdan başqasından bu cür kömək istəmək sırf şəkildə şirkdir ki, Qur`ani-Kərimin aşağıdakı ayəsində onun əsassız olduğu bəyan edilir:

قُلْ مَنْ ذَا الَّذِي يَعْصِمُكُمْ مِنَ اللَّهِ اِنْ اَرَادَ بِكُمْ سُوءًا اَوْ اَرَادَ بِكُمْ رَحْمَةً وَلَا يَجِدُونَ لَهُم مِّن دُونِ اللَّهِ وَلِيًّا وَلَا نَصِيرًا

**“De: Əgər Allah sizin barənizdə əzab iradə etsə sizi ondan amanda saxlayan kimdir?! Yaxud əgər rəhmət iradə etsə (onun qarşısını kim ala bilər?!) Və onlar özləri üçün heç bir dost və köməkçi tapmazlar.”**[70]

2-Digəri isə bundan ibarətdir ki, başqa insandan kömək istəyərkən onun Allahın yaratdığı bilək, Ona ehtiyaclı hesab edək və onun özündən heç bir müstəqilliyi olmadığını, onun tə`sir qoymasının da yalnız böyük Allahın tərəfindən, Onun icazəsi ilə olduğunu, bəndələrinin bə`zi çətinliklərini həll etmək üçün bu tə`siri ona verdiyini bilək.

Bu təfəkkürə əsasən kömək istənilən şey vasitə hökmündədir, belə ki, böyük Allah onun bə`zi ehtiyaclarının tə`min olunmasında bir vəsilə qərar vermişdir. Bu cür kömək istəmək həqiqətdə Allahdan kömək istəməkdir, çünki yalnız Allah bu vasitələrə və səbəblərə varlıq bağışlamış, başqalarının ehtiyaclarını tə`min etməkdə tə`sir və qüvvəni O vermişdir. Ümumiyyətlə bütün insanların həyatı bu səbəb-nəticə qanunu əsasında qurulmuşdur. Belə ki, insan başqalarından kömək almadan yaşamaq istəsə, həyatında çox çətinliklərlə üzləşər. Burada da onlara, Allahın köməyinin gerçəkləşməsində sadəcə

---

67 “Fatir” surəsi, ayə:15

68 “Ali İmran” surəsi, ayə:126

69 “Həmd” surəsi, ayə:5

70 “Əhzab” surəsi, ayə:17

bir amil və vasitə olmaları, öz varlıqlarının əslinin Allahdan olması, eləcə də onların tə`sir qoymasının Allah tərəfindən olması nəzəri ilə baxsaq, bu cür köməyin tovhid və yeganəpərəstliklə heç bir ziddiyyəti yoxdur.

Əgər Allahı tanıyan tovhidçi bir əkinçi torpaq, su, hava, günəş və s. kimi amillərdən istifadə edib kömək alırsa və taxılı cücərdib məhsul əldə edə bilirsə həqiqətdə Allahdan kömək istəyir, çünki o bilir ki, bu kimi səbəb və vasitələrə qüvvə və iste`dad verən məhz Allahdır. Aydındır ki, bu cür kömək istəmək tovhid və yeganəpərəstlik ruhu ilə tamamilə uyğundur, hətta Qur`an bu kimi kömək istəməyi bizə fərman verərək buyurur:

وَاسْتَعِينُوا بِالصَّبْرِ وَ الصَّلَوةِ

**“Səbr və namazla kömək istəyin.”**[71]

Aydındır ki, səbr və müqavimət bəşərin işidir və bizə də onlardan kömək almaq əmr olunub. Eyni halda belə bir kömək istəmək **“iyyakə nə`budu və iyyakə nəstəin”** ayəsindəki həsr ilə (yə`ni yalnız Allahdan kömək istəməklə) zidd deyildir.

---

71 “Maidə” surəsi, ayə:45

SUAL: 14.

## BAŞQALARINI ÇAĞIRMAQ ONLARA PƏRƏSTİŞİ GƏRƏKLİ EDİRMİ VƏ ŞİRKDİRMİ?

Bu sualın mənşəyi bə`zi Qur`an ayələrinin zahiri mə`nalarıdır. Belə ki, onlar zahiri baxımdan Allahdan başqasını çağırmağı qadağan edir:

وَاَنَّ الْمَسَاجِدَ لِلَّهِ فَلَا تَدْعُوا مَعَ اللَّهِ اَحَدًا

**“Məscidlər Allaha məxsusdur, belə isə Allahla birgə bir kəsi çağırmayın.”**[72]

وَلاَ تَدْعُ مِنْ دُونِ اللهِ مَا لاَ يَنْفَعُكَ وَلاَ يَضُرُّكَ

**“Allahdan başqa, sənə nə xeyir verən, nə də zərər verən heç kəsi çağırma.”**[73]

Bə`ziləri bu ayələri əsas tutaraq Allah övliyalarını və salehləri onların vəfatından sonra çağırmağı şirk və onlara ibadət hesab edirlər.

Cavab: Bu sualın cavabı aydın olsun deyə, yaxşı olar ki, “dua” və “ibadət” kəlmələrinin mə`nalarını bir qədər izah edək.

“Dua” ərəb dilində “nida etmək”, “çağırmaq”, “ibadət” isə “pərəstiş etmək” mə`nasını ifadə edir və bu iki kəlməni heç vaxt birbiri ilə eyni mə`nalı (sinonim) hesab etmək olmaz. Yə`ni heç vaxt demək olmaz ki, hər bir nida ibadətdir, çünki:

1-Qur`anda də`vət kəlməsi elə yerlərdə işlədilmişdir ki, onun ibadət olduğunu heç vaxt iddia etmək olmaz:

قَالَ رَبِّ اِنِّي دَعَوْتُ قَوْمِي لَيْلًا وَنَهَارًا

**“Nuh dedi: Pərvərdigara, mən gecə-gündüz öz qövmümü Sənə tərəf də`vət etdim.”**[74]

Məgər Nuhun məqsədinin “gecə-gündüz öz qövmünə ibadət etməsini” demək olarmı?!

Deməli, heç vaxt iddia etmək olmaz ki, də`vət və ibadət bir-birilə sinonimdir və əgər bir şəxs Peyğəmbəri Əkrəm (s.ə.v.v)-dən, yaxud saleh bir insandan kömək istəyib onu çağırdısa ona ibadət etmişdiræ çünki də`vət və nida pərəstişdən daha ümumi mə`na ifadə edir.

2-Bu ayələrin məcmusunda dua dedikdə məqsəd ümumi şəkildə olan çağırmaq deyil, əksinə xüsusi şəkildə də`vət etməkdir ki, bu da pərəstişi gərəkli edə bilər. Çünki bu ayələrin məcmusu öz bütlərini kiçik mə`budlar hesab edən bütpərəstlər barəsində nazil olmuşdur. Şübhəsiz, bütpərəstlərin öz bütləri qarşısında xüzu etmələri, onları çağırıb onlardan kömək istəmələri bu məqsədlə baş verirdi ki, onları şəfaət, məğfirət və s. kimi Allaha məxsus olan haqların malikləri, dünya və axirət işləri ilə əlaqədar məsələlərdə birbaşa rol oynayan hesab edirdilər. Aydındır ki, bu kimi şəraitlərdə hər növ də`vət və çağırmaq bu varlıqlara ibadət və pərəstiş hesab olunur. Bu müddəanın ən aydın dəlili budur ki, onlar bu kimi varlıqları, onların ilahiləşdirilməsinə e`tiqadla yanaşı çağırırdılar:

فَمَا اَغْنَتْ عَنْهُمْ آلِهَتُهُمُ الَّتِي يَدْعُونَ مِنْ دُونِ اللهِ مِنْ شَيْءٍ

**“Allahdan başqa çağırdıqdarı (pərəstiş etdikləri) mə`budlar onları ehtiyacsız**

---

[72] “Cin” surəsi, ayə:18

[73] “Yunis” surəsi, ayə:106

[74] “Nuh” surəsi, ayə:5

**etmədi.”**[75]

Deməli, sözü gedən ayələrin bizim bəhsimizlə heç bir əlaqəsi yoxdur. Bizim bəhsimiz bir bəndənin digər bir bəndədən kömək istəməsidir, halbuki nə onu rəbb və mə`bud hesab edir, nə də dünya və axirət ilə əlaqədar olan işlərdə özünün maliki və tam ixtiyar sahibi. Sadəcə olaraq onu Allahın əziz və hörmətli bəndəsi hesab ediræ Allah onu risalət və imamət məqamına seçmiş və və`də vermişdir ki, onun bəndələr barəsindəki duasını qəbul edəcəkdir:

وَلَوْ اَنَّهُمْ اِذْظَلَمُواْ اَنفُسَهُمْ جَآؤُوكَ فَاسْتَغْفَرُواْ اللّهَ وَاسْتَغْفَرَ لَهُمُ الرَّسُولُ لَوَجَدُواْ اللّهَ تَوَّابًا رَّحِيمًا

**“(Ya Peyğəmbər,) əgər onlar özlərinə zülm etdikləri zaman sənin yanına gəlib Allahdan bağışlanmaq istəsələr və Peyğəmbər də onlar üçün bağışlanmaq istəsə, şübhəsiz, Allahın tövbələri qəbul edən və mehriban olduğunu görərlər.”**[76]

3-Qeyd olunan ayələr aşkar şəkildə göstərir ki, “də`vət” dedikdə məqsəd hər hansı bir iş və hacət barəsində mütləq və qeydsiz istək deyil, əksinə pərəstiş yönə malik olan də`vətdir. Bu cəhətdən də aşağıdakı ayədə də`vət sözündən sonra dərhal həmin mə`naya olan ibadət kəlməsi gətirilir:

وَقَالَ رَبُّكُمُ ادْعُونِي اَسْتَجِبْ لَكُمْ اِنَّ الَّذِينَ يَسْتَكْبِرُونَ عَنْ عِبَادَتِي سَيَدْخُلُونَ جَهَنَّمَ دَاخِرِينَ

**“Və sizin Pərvərdigarınız buyurur: Məni çağırın (də`vət edin) ki, sizin istəklərinizi yerinə yetirim. Həqiqətən Mənə ibadətdən üz döndərib inadkarlıq edənlər tezliklə zillət və xarlıqla cəhənnəmə varid olarlar.”**[77]

Göründüyü kimi ayənin əvvəlində “uduni” kəlməsi, axırında isə “ibadəti” kəlməsi işlədilmişdir. Bu da göstərir ki, burada də`vət kəlməsindən məqsəd ilahi sifətlərlə tanınan varlıqlar müqabilində xüsusi kömək istəməkdir.

## NƏTİCƏ

Qeyd olunan üç məqəddimədən belə nəticə alınır ki, bu ayələrdə Qur`anın əsas hədəfi bütpərəst qrupların də`vətini qadağan etməkdir, çünki onlar bütləri Allaha şərik qərar verir, onları şəfaətin malikləri və tədbirçiləri hesab edirdilər. Onların qarşısında məhz buna görə xüzu edir, zəlillik göstərir, nalə edib kömək, şəfaət və hacət istəyirdilər ki, onları kiçik mə`budlar hesab edir, ilahi işləri yerinə yetirməyi öhdələrinə aldıqlarına e`tiqad bsləyirdilər. Bütpərəstlər inanırdılar ki, Mütəal-Allah dünya və axirətlə əlaqədar olan işlərin bir qismini onlara həvalə etmişdir. Belə isə, bu ayələrin də`vət edənin (çağıranın) nəzərindən bəndəlik həddini zərrə qədər aşmayan, əksinə Allahın sevimli bəndəsi olan pak bir ruhdan kömək istəməklə nə kimi əlaqəsi ola bilər?! Qur`anın buyurduğu:

وَاَنَّ الْمَسَاجِدَ لِلَّهِ فَلَا تَدْعُوا مَعَ اللَّهِ اَحَدًا

**“Həqiqətən məscidlər Allaha məxsusdur, belə isə Allahla yanaşı heç kəsi çağırmayın.”** (“Cinn” surəsi, 18) ayəsində məqsəd cahiliyyət dövründəki ərəblərin pərəstiş etdikləri bütlər, yaxud göy cisimləri, mələk və cinlərdir. Bu və bu kimi sair ayələr mə`bud hesab edilən şəxs və ya şeyləri çağırmağı qadağan edir. Şübhəsiz, bu kimi varlıqları çağırmaq bu e`tiqadla yanaşı olarsa onlara pərəstiş etmək sayılır. Lakin görəsən, bu ayələrin bir şəxsdən dua etməsini istəməklə nə kimi əlaqəsi ola bilər,

---

[75] “Hud” surəsi, ayə:11

[76] “Nisa” surəsi, ayə:64

[77] “Ğafir” surəsi, ayə:60

halbuki kömək istəyən şəxs onun üçün heç bir ilahi-rübubi məqam olmasına inanmır, əksinə onu Allahın bəyənilən və sevimli bəndəsi hesab edir?!

Burada deyilə bilər ki, Allahın layiqli bəndələrini çağırmaq yalnız onların sağlığında caizdir, vəfatlarından sonra isə bu iş şirk sayılır. Cavabda deməliyik:

1-Biz Qur`anın aşkar buyurduğuna görə həmişə diri olan və şəhidlərdən daha yüksək bir məqamda bərzəx həyatını davam etdirən imam və peyğəmbərlər kimi saleh şəxsiyyətlərin ruhundan kömək istəyirik, onların torpaq altında yatan bədənlərindən yox. Bizim onların qəbirləri kənarında dayanaraq bir şey istəməyimizin səbəbi budur ki, bu halət bizimlə onların müqəddəs ruhları arasında daha möhkəm əlaqə yaradır. Bundan əlavə bir çox ayə və rəvayətlərə əsasən bu kimi yerlər duaların qəbul olunma yeridir.

2-Onların diri və ya ölü olması tovhidin me`yarı ola bilməz, halbuki bizim sözümüz bu duaların faydalı olub-olmamasında deyil, şirk və tövhidin me`yarındadır. Əlbəttə bu məsələ barəsində də (onlardan kömək istəməyin faydalı olub-olmaması) öz yerində bəyan olunmuşdur.

SUAL: 15

## BƏDA NƏDİR VƏ NƏ ÜÇÜN ONA İNANIRSINIZ?

Cavab: “Bəda” kəlməsi ərəb dilində “aşkar” və “zahir” olmaq, şiə alimlərinin istilahında isə bəyənilən və saleh əməllər nəticəsində bir insanın taleyinin təbii yolunun dəyişməsinə deyilir. Bəda məsələsi mütərəqqi şiə ideologiyasının yüksək təfəkküründən biridir, özü də əql və vəhy məntiqindən qaynaqlanır. Qur`an baxımından insan öz taleyi və müqəddəratı qarşısında həmişə məcbur (əli bağlı) deyildir, əksinə səadət yolu onun üçün açıqdır, o, haqq yolunda layiqli rəftarlara malik olmaqla öz həyatının axır-aqibətini dəyişdirə bilər. Buna görə də bu həqiqəti ümumi və daimi bir prinsip kimi belə bəyan edir:

إِنَّ اللهَ لاَ يُغَيِّرُ مَا بِقَوْمٍ حَتَّي يُغَيِّرُواْ مَا بِأَنْفُسِهِمْ

**“Həqiqətən Allah heç bir qövmü, onların özləri öz vəziyyətlərini dəyişməyincə, dəyişməz.”**[78]

Başqa bir ayədə buyurulur:

وَلَوْ اَنَّ اَهْلَ الْقُرَي آمَنُواْ وَاتَّقَواْ لَفَتَحْنَا عَلَيْهِمْ بَرَكَاتٍ مِنَ السَّمَاء وَالأَرْضِ

**“Əgər qəryələrin (abadlıqların) əhalisi iman gətirib pərhizkar (təqvalı) olsaydılar asimanın və yerin bərəkət qapılarını onların üzərinə açardıq.”**[79]

Həzrəti Yunis (ə)-ın taleyinin dəyişdirilməsi barəsində buyurulur:

فَلَوْلاَ اَنَّهُ كَانَ مِنْ الْمُسَبِّحِينَ لَلَبِثَ فِي بَطْنِهِ اِلَي يَوْمِ يُبْعَثُونَ

**“Əgər o, təsbih deyənlərdən olmasaydı qiyamət gününə qədər onun (balığın) qarnında qalardı.”**[80]

Sonuncu ayədən mə`lum olur ki, hadisələrin zahiri gedişatı Yunis peyğəmbərin qiyamətə qədər o xüsusi bir “zindanda” qalmasını tələb edirdi, lakin o həzrətin layiqli əməli (yə`ni təsbih deməsi) onun həyat yolunu, müqəddəratını tamamilə dəyişdirdi və ona nicat verdi. Bu həqiqət islami rəvayətlərdə də bəyan edilmişdir. Peyğəmbəri Əkrəm (s.ə.v.v) buyurur:

اِنَّ الرَّجُلَ لَيَحْرُمُ الرِّزْقَ بِالذَّنْبِ يُصِيبُهُ وَ لَا يَرُدُّ الْقَدرَ اِلاَّ الدُّعَاءُ وَ لَا يَزِيدُ فِي الْعُمْرِ اِلاَّ الْبِرُّ

**“Bir insan günah səbəbi ilə ruzidən məhrum olur, dua etməkdən başqa heç bir şey onun təqdirini və taleyini dəyişdirə bilməz. Onun ömrünü yaxşılıq və ehsan etməkdən başqa bir şey də uzada bilməz.”**[81]

Bu və bu kimi sair rəvayətlərdə bəyan olunur ki, insan Allahın əmr və fərmanlarına qarşı üsyankarlıq və günah edərək ruzidən məhrum olunmağa məhkum olunur. Lakin layiqli rəftar və əməllərlə, o cümlədən dua etməklə öz taleyini, müqəddəratını dəyişdirə bilər, başqalarına yaxşılıq etməklə ömrünü uzada bilər.

## NƏTİCƏ

Qur`an ayələrindən və Peyğəmbər (s.ə.v.v) sünnəsindən aydın olur ki, insan çox

---

78 “Rə`d” surəsi, ayə:11

79 “Ə`raf” surəsi, ayə:96

80 “Saffat” surəsi, ayə:143-144

81 “Müsnədi Əhməd”, 5-ci cild, səh.277æ “Müstədrək” (Hakim), 1-ci cild, səh.493æ bunun oxşarı “Əttacul-camiu lil-üsul” kitabının 5-ci cildinin 111-ci səhifəsində gəlmişdir.

vaxt özünün adi rəftarları çərçivəsində təbii səbəblər nəzərindən, eləcə də işlərin adi gedişatının əksül-əməli ilə xüsusi bir taleyə məhkum olunur və ya bə`zən Allah övliyalarından biri – Peyğəmbər və imam ona xəbər verib deyir ki, əgər onun bu rəftar tərzi davam edərsə filan taleyə düçar olacaqdır. Lakin gözlənilməz bir dəyişiklik nəticəsində əvvəlkindən tamamilə fərqlənən rəftara malik olar və bu yolla öz axır-aqibətini dəyişdirə bilir.

Vəhy məntiqindən, Peyğəmbər (s.ə.v.v) sünnəsindən və sağlam əqldən qaynaqlanan bu həqiqət şiə alimlərinin istilahında "bəda" adlanır. "Bəda" tə`biri şiəyə xas olan istilah deyil, əksinə sünnülərin mənbələrində və Peyğəmbər (s.ə.v.v)-in sözlərində də gözə dəyir. Məsələn, Peyğəmbər (s.ə.v.v) yuxarıda qeyd olunan hədisdə bəda kəlməsindən istifadə etmişdir:

بَدَاَ اللهِ عَزَّ وَ جَلَّ اَنْ يَبْتَلِيَهُمْ

Qeyd olunmalıdır ki, bəda məsələsi Allahın müqəddəs dərgahında, Onun elmində dəyişiklik mə`nasına deyil, çünki Allah əzəldən insanların rəftarının təbii gedişatından, eləcə də bu gedişatı dəyişdirə biləcək amillərin tə`sirindən agahdır (bu amillər bədaya səbəb olur). Qur`anın özü də bəda barəsində xəbər verərək buyurur:

يَمْحُو اللهُ مَا يَشَاءُ وَ يُثْبِتُ وَ عِنْدَهُ اُمُّ الْكِتَابِ

**"Allah istədiyi şeyi məhv edir, istədiyi şeyi saxlayır və Ümmül-kitab (Lövhi-məhfuz) Onun yanındadır."**[82]

Deməli bəda baş verən zaman Mütəal-Allah sadəcə olaraq Öz yanında əvvəlcədən mə`lum olan bir həqiqəti bizə aşkar edir. Buna görə də imam Sadiq (ə) buyurur:

مَا بَدا اللهُ فِي شَيْءٍ اِلاَّ كَانَ فِي عِلْمِهِ قَبْلَ اَنْ يَبْدُوَ لَهُ

**"Allah üçün bəda baş verən elə bir şey yoxdur ki, (Allah) əzəldən ona agah olmamış olsun."**[83]

## BƏDANIN FƏLSƏFƏSİ

Şəksiz, insan öz həyatını və müqəddəratını dəyişdirməyə qadir olduğunu bilsə gələcəyini daha yaxşı şəkildə qurmaq qərarına gələr, daha artıq ruh yüksəkliyi və daha artıq ciddiyyətlə öz həyatını islah etmək fikrinə düşər. Başqa sözlə desək, tövbə və şəfaət insanı ümidsizlikdən, həyata bədbinlikdən və soyuq yanaşmadan nicat verdiyi kimi, bəda da həqiqətdə onun şad və yüksək ruhiyyəyə malik olmasına səbəb olur, onu aydın gələcəyə ümidvar və nikbin edir. Çünki bu görüş əsasında insan bilir ki, böyük Allahın hökmü ilə öz həyat yolunu və müqəddəratını dəyişdirə bilər, daha yaxşı gələcəyə, xeyir aqibətə doğru qədəm götürə bilər.

---

[82] "Rə`d" surəsi, ayə:39

[83] "Üsuli-Kafi", 1-ci cild, kitabi-tovhid, babul-bəda, hədis:9

SUAL: 16

## ŞİƏLƏR QUR`ANIN TƏHRİF OLUNMASINA İNANIRMI?

Cavab: Məşhur şiə alimlərinin nəzəri budur ki, Qur`anda heç bir təhrifə yol verilməmişdir. Hal-hazırda bizim əlimizdə mövcud olan Qur`an elə Peyğəmbəri Əkrəm (s.ə.v.v)-ə nazil olan asimani kitabdır və onda heç bir artırılmaya və ya əsgildilməyə yol verilməmişdir. Bu sözün aydın olması üçün bu barədə bir neçə dəlilə işarə edirik:

1-Allah-taala müsəlmanların asimani kitabının hər növ təhrifdən amanda qalacağına zəmanət verir:

اِنَّا نَحْنُ نَزَّلْنَا الذِّكْرَ وَاِنَّا لَهُ لَحَافِظُونَ

**"Həqiqətən Biz Qur`anı nazil etdik və şübhəsiz Biz də onu qoruyub saxlayacağıq."**[84]

Aydındır ki, dünya şiələri öz təfəkkür və rəftarlarında Qur`anı özlərinə sərlövhə və nümunə qərar verdiklərindən bu şərif ayəyə dəyər vermiş, bu kitabın qorunması və təhrifdən amanda qalması ilə əlaqədar onun verdiyi xəbərə iman gətirmişlər.

2-Şiənin böyük rəhbəri – Əli (ə) özü Peyğəmbər (s.ə.v.v)-lə yanaşı və vəhy yazıçılarından idi. O, müxtəlif münasibətlərlə əlaqədar camaatı həmin Qur`ana tərəf də`vət etmişdir. Onun bə`zi kəlamlarını qeyd edirik:

وَاعْلَمُوا انَّ هذَا الْقُرْآنَ هُوَ النَّاصِحُ الَّذِي لَا يَغشُّ وَ الْهَادِي الَّذِي لَا يُضِلُّ

**"Bilin ki, həqiqətən bu Qur`an heç vaxt xəyanət etməyən bir moizəçi, insanı heç vaxt azdırmayan bir hidayətçi, yol göstərəndir."**[85]

اِنْ اللهَ سُبْحَانَهُ لَمْ يَعِظْ اَحَدًا بِمِثْلِ هذَا الْقُرْآنِ فَاِنَّهُ حَبْلُ اللهِ الْمَتِينُ

**"Həqiqətən Sübhan Allah heç vaxt bir kəsi bu Qur`an kimi nəsihət etməmişdir. Qur`an möhkəm ilahi ip və Allahın möhkəm vəsiləsidir."**[86]

ثُمَّ اَنْزَلَ عَلَيْهِ الْكِتَابَ نُورًا لَا يُطْفَأُ مَصَابِيحُهُ وَ سِرَاجًا لَا يخْبوا تَوَقُّدُهُ وَ مِنْهَاجًا لَا يَضِلُّ نَهْجُهُ وَ فُرْقَانًا لَا يمْخدُ بُرْهَانُهُ

**"...Sonra Allah ona bir kitab nazil etdi ki, onda heç vaxt sönməyən bir nur, işığı aradan getməyən bir çıraq, heç vaxt öz yolçularını azdırmayan bir yol, haqq və batili ayıran bir vasitədir ki, onun bürhanları əyriliyə düçar olmaz."**[87]

Şiələrin böyük rəhbərinin sözlərindən aydın olur ki, Qur`ani-Kərim çox işıqlı bir çıraq olub əbədiyyətə qədər ona tabe olanların yolunu işıqlandıracaqdır, onun nurunun sönməsinə, yaxud insanların azmasına səbəb olacaq heç bir dəyişiklik ona yol tapa bilməz.

3-Şiə alimlərinin yekdil fikrinə görə Peyğəmbəri Əkrəm (s.ə.v.v) belə buyurmuşdur: **"Mən sizin aranızda iki ağır əmanət qoyub gedirəm: biri Allahın kitabı (Qur`an), digəri isə mənim Əhli-beytim, itrətimdir. Onlara sarılıncaya qədər heç vaxt yolunuzu azmayacaqsınız."**

Bu hədis islam aləmində nəql olunan mütəvatir hədislərdəndir ki, həm sünnülər, həm də şiələr onu nəql etmişlər. Bununla aydın olur ki, şiə nəzərindən Allahın kitabı –

---

84 "Hicr" surəsi, ayə:9

85 "Nəhcül bəlağə" (Sübhi Saleh), 176-cı xütbə

86 "Nəhcül bəlağə", 176-cı xütbə

87 "Nəhcül bəlağə", 198-ci xütbə

Qur`an heç bir təhrifə mə`ruz qalmayacaqdır, çünki əgər onda təhrif baş verərsə ona sarılmaq insanların hidayət olunmasına, azğınlıqdan nicat tapmasına səbəb olmaz. Bu da qeyd olunan mütəvatir hədisin aşkar buyuruğu ilə uyğun deyildir.

4-Bizim fəqih və alimlərimiz tərəfindən nəql olunan şiə rəhbərlərinin kəlamlarında bu həqiqət aşkar şəkildə göstərilir ki, Qur`an haqq və batilin ayırd edilmə me`yarı, düzün nadürüstdən seçilmə vasitəsidir. Belə ki, hər bir kəlam, hətta rəvayət adı ilə bizə çatan şeylər belə, Qur`anla müqayisə edilməlidir. Əgər onun ayələri ilə uyğun gələrsə haqq və düzgün, əks halda isə batil və nadürüst olacaqdır. Bu barədə mövcud olan rəvayətlər şiələrin fiqh və rəvayət kitablarında çox gözə dəyir. Onlardan birini qeyd edirik: İmam Sadiq (ə) buyurur:

مَا لَمْ يُوَافِقْ مِنَ الْحَدِيثِ الْقُرْآنَ فَهُوَ زُخْرُفٌ

**“Hər şey (söz) Qur`anla uyğun gəlməsə əbəs və batildir.”**[88]

Bu rəvayətlərdən aydın olur ki, Qur`anda heç bir təhrif baş verməmişdir. Buna görə də bu müqəddəs kitab haqq və batilin bir-birindən ayırd edilib seçilməsi me`yarı kimi qələmə verilir.

5-Şiə, xüsusilə mütərəqqi islam mədəniyyətinin daimi keşikçiləri olan böyük islam alimləri e`tiraf etmişlər ki, Qur`ani-Kərimdə heç bir təhrif baş verməmişdir. Bu böyük şəxsiyyətlərin hamısının adını sadalamaq çox çətindir, lakin nümunə olaraq onlardan bir neçəsinin adını qeyd edirik:

1-Əbu Cə`fər Məhəmməd ibni Əli ibni Hüseyn Babəveyh Qumi (Şeyx Səduq adı ilə məşhurdur, 381-ci ildə vəfat edib) buyurur: *“Qur`an barəsində e`tiqadımız budur ki, o, Allahın sözü və vəhydir, batil və düzgün olmayan mətləblər ona yol tapa bilməz, hikmətli və elmli Allah tərəfindən nazil olunmuşdur, Allah onu göndərən və qoruyandır.”*[89]

2-Seyyid Mürtəza Əli ibni Hüseyn Musəvi Ələvi (Ələmul-Huda adı ilə məşhurdur və 436-cı hicri ilində vəfat etmişdir) buyurur: *“Peyğəmbəri Əkrəm (s.ə.v.v) səhabələrindən bir qrupu, o cümlədən Əbdullah ibni Məs`ud, Übeyy ibni Kə`b və başqaları dəfələrlə Qur`anın hamısını əvvəldən axıra qədər Peyğəmbər (s.ə.v.v)-ə oxumuşdular. Bunların hamısı bu həqiqəti göstərir ki, Qur`an əvvəldən bir yerə toplanmış və pərakəndə vəziyyətdə olmamışdır, ondan heç bir şey əskildilməmiş, nizamlı şəkildə olmuşdur.”*[90]

3-Əbu Cə`fər Məhəmməd ibni Həsən Tusi (Şeyxut-Taifə adı ilə məşhurdur və 460-cı hicri ilində vəfat etmişdir) deyir: *“Qur`anın artırılıb-əskildilməsi barəsində sözə gəldikdə isə, bu söz bu kitaba layiq deyildir. Çünki bütün müsəlmanlar Qur`ana bir şey artırılmaması barəsində yekdil fikrə malikdirlər. Ondan bir şeyin azaldılmasına gəldikdə isə müsəlman məzhəblərinin zahiri bunun əksinədir və bu fikir (Qur`ana bir şeyin artırılmaması) bizim məzhəbə daha layiqdir. Bu sözü Seyyid Mürtəza qəbul edərək onu təsdiqləmişdir. Rəvayətlərin zahiri də bu həqiqəti sübuta yetirir. Camaatdan az bir qrupu bə`zi rəvayətlərə əsasən ayələrin azaldılması və onların yerlərinin dəyişdirilməsinə işarə edirlər və bu (zəif) rəvayətlər də həm sünnü, həm də şiə təriqi ilə gəlib çatmışdır, lakin bu kimi rəvayətlər “vahid xəbər” qəbilindəndir ki, onun barəsində*

[88] “Üsuli-Kafi”, 1-ci cild, fəzlul-elm kitabı, Əl-əxzu bis-sunəti və şəvahidil-kitab” babı, 4-cü rəvayət

[89] “Əl-e`tiqadat”, səh.93

[90] “Məcməul-bəyan”, 1-ci cild, səh.10, “Əl-məsailul-Turablusiyyat” kitabının cavabından nəqlən

*elmə, yaxud ona uyğun əməl etməyə səbəb olmur, yaxşı olar ki, onlar tərk edilsin."*[91]

4-Əbu Əli Təbərsi ("Məcməul-bəyan" təfsirinin müəllifi) yazır: *"Qur`ana bir şey artırılması məsələsinə gəldikdə, demək lazımdır ki, bütün islam ümməti bu sözün əsassız olduğu barədə yekdil fikirdədirlər. Amma ondan müəyyən ayələrin azaldılmasına gəldikdə isə bizim səhabələrdən (alimlərdən) bə`ziləri və sünnülərin həşəviyyə firqəsindən bir qrupu (bu iddianı isbat etmək üçün) müəyyən rəvayətlər gətirmişlər, lakin bizim məzhəbimizdə qəbul olunan və səhih sayılan nəzər tam onun əksinədir."*[92]

5-Əli ibni Tavus Hilli (Seyyid ibni Tavus adı ilə məşhurdur və 664-cü ildə vəfat etmişdir) deyir: *"Şiənin nəzəri budur ki, Qur`anda heç bir dəyişiklik olmayıb."*[93]

6-Şeyx Zeynuddin-Amili (877-ci ildə vəfat edib) **"İnna nəhnu nəzzəlnəz-zikrə"** ayəsinin təfsirində buyurur: *"Yə`ni Biz Qur`anı hər növ təhrifdən qoruyub saxlayacağıq."*[94]

7-Qazi Seyyid Nuriddin Tüstəri ("Ehqaqul-həqq" kitabının müəllifidir və 1019-cu ildə vəfat edib) buyurur: *"Qur`anın təhrif edilməsi ilə əlaqədar nəzərin bə`zi imamiyyə şiələrinə aid edilməsi bütün şiələr tərəfindən qəbul olunmur. Yalnız onlardan bir qrupu belə bir əqidəyə malikdirlər ki, şiələrin arasında onlara e`tina olunmur."*[95]

8-Məhəmməd ibni Hüseyn (Bəhauddin Amili adı ilə məşhurdur və 1030-cu ilində vəfat edib) deyir: *"Səhih nəzər budur ki, əzəmətli Qur`an hər növ təhrifdən – həm artırılmadan, həm də azaldılmadan amandadır. Bə`zilərinin iddia edərək dediyi "Əli (ə)-ın adı Qur`andan çıxarılmışdır!" - sözü alimlərin arasında qəbul olunmur. Tarix və rəvayətlərdə tədqiqat aparan hər kəs bilir ki, mütəvatir rəvayətlər və səhabələrdən minlərləsinin nəql etməsinə əsasən Qur`an sabit və möhkəmdir və onun hamısı Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in dövründə bir yerə toplanmışdır."*[96]

9-Feyz Kaşani ("Vafi" kitabının müəllifidir və 1091-ci ildə vəfat edib) Qur`anın dəyişdirilməməsinə, təhrif edilməməsinə dəlalət edən **"İnna nəhnu nəzzəlnəz-zikrə"** kimi ayələri qeyd etdikdən sonra deyir: *"Belə olduqda necə mümkün ola bilər ki, Qur`anda təhrifə və dəyişikliyə yol verilsin? Bunu da nəzərə alaq ki, onun təhrif olunmasını iddia edən rəvayətlər Allahın kitabı ilə müxalifdir. Deməli, bu rəvayətləri əsassız hesab etməliyik."*[97]

10-Şeyx Hürr Amili (1104-cü ildə vəfat edib) buyurur: *"Tarix və rəvayətlər barəsində tədqiqat aparan bir insan gözəl şəkildə bilir ki, mütəvatir rəvayətlərə və səhabədən minlərləsinin nəql etdiyinə əsasən Qur`ani-Kərim sabit və dəyişilməzdir, o, Peyğəmbər (s.ə.v.v)-in dövründə bir yerə yığılmış və tənzim edilmişdir."*[98]

11-Dahi mühəqqiq Kaşiful-Ğita özünün "Kəşful-ğita" adlı kitabında buyurur: *"Şəkk yoxdur ki, Qur`an Allah tərəfindən olan qorunma sayəsində hər növ dəyişiklikdən və azaldılmadan amanda qalmışdır. Belə ki, Qur`anın aşkar buyuruğu və alimlərin bütün*

---

91 "Tibyan", 1-ci cild, səh.3

92 "Məcməul-bəyan", 1-ci cild, səh.10

93 "Sə`dus-suud", səh.144.

94 "İzharul-həqq", 2-ci cild, səh.130

95 "Alaur-Rəhman", səh.25

96 "Alaur-Rəhman", səh.25

97 "Təfsiri Safi", 1-ci cild, səh.51

98 "Alaur-Rəhman", səh.25

*dövrlərdəki fikir birliyi buna şəhadət verir. Azacıq bir qrupun müxalifət etməsinə isə e`tina olunmamalıdır."*

12-İslam İnqilabının dahi rəhbəri mərhum Ayətullahul-üzma imam Xomeyni bu barədə digər bir bəyan irəli sürmüşdür. O yazır: *"Hər kəs müsəlmanların Qur`anın bir yerə toplanması, qorunub-saxlanması, düzgün tilavət olunması və yazılması barəsində necə diqqətli olmalarından agah olsa Qur`anın təhrif olunmasının əsassız bir iddia olduğuna şəhadət verəcək və onu inanılası olmayan bir söz olduğunu dərk edəcəkdir. Bu barədə gəlib çatan rəvayətlər ya istidlala yararlı olmayacaq dərəcədə zəifdir, yaxud da sənədi namə`lumdur ki, bu da onların saxta olmasını göstəriræ və yaxud elə rəvayətlərdir ki, onların məzmunu Qur`anın tə`vil və təfsiridiræ yaxud digər bir qismdir ki, onların bəyan olunması bu barədə müfəssəl bir kitab yazılmasını tələb edir. Əgər mövzudan xaric olma ehtimalı olmasaydı Qur`anın tarixi və əsrlər boyunda baş verən hadisələri şərh və aşkar edərdim ki, Qur`ani-Məcid eynilə bizim əlimizdə olan Qur`andır, Qur`an qariləri arasında mövcud olan nəzər ixtilafları da sonradan yaranan yeni bir məsələdir və bunların Cəbrəili-Əminin Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in pak qəlbinə nazil etdiyi şeylərlə heç bir əlaqəsi yoxdur."*[99]

## NƏTİCƏ

Bütün müsəlmanlar – istər sünnü, istərsə də şiələr – inanırlar ki, asimani kitab eynilə Peyğəmbəri Əkrəm (s.ə.v.v)-ə nazil onunan Qur`andır və o, hər növ təhrifdən və dəyişiklikdən – artırılmadan və azaldılmadan amandadır. Bununla da şiələrə isnad verilən sözlərin əsassız və yersiz olduğu aydınlaşır. Əgər bu barədə zəif sənədli (mö`təbər olmayan) rəvayətlərin nəql olunması bu ittihamın yaranmasına səbəb olmuşsa deməliyik ki, bu kimi rəvayətlərin nəql olunması şiələrin içində olan az bir qrupa məxsus deyildiræ çünki sünnü müfəssirlərindən bir qrupu da belə zəif rəvayətləri nəql etmişlər ki, onların bə`zilərini qeyd edirik:

1-Əbu Əbdillah Məhəmməd ibni Ənsari Qurtəbi öz təfsirində Əbu Bəkr Ənbazidən, o da Übeyy ibni Kə`bdən rəvayət edir ki, *"Əhzab" surəsi (73 ayəsi ilə birlikdə) Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in zamanında "Bəqərə" surəsi qədər idi (286 ayəyə malik idi) və "Nəcm" surəsi də bu surənin içində idi, indi isə "Əhzab" surəsində belə bir ayədən heç bir əsər-əlamət görünmür."*[100]

Həmin kitabda Ayişənin belə dediyi nəql olunur: "*Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in dövründə "Əhzab" surəsi 200 ayə idi. Müshəf yazıldıqdan sonra hazırda yazıldığından artıq bir şey tapılmadı."*[101]

2-"Əl-itqan" kitabının müəllifi nəql edir ki, "*Übeyyin nüsxəsindəki surələrin sayı 116 imiş. Çünki onda "Həfd" və "Xəl`" adlı iki surə də var idi."*[102]

Halbuki Qur`an 114 surədən ibarətdir və onda "Həfd" və "Xəl`" adlı heç bir surə yoxdur.

3-Hibətullah ibni Sələmət "Ənnasixu vəl-mənsux" adlı kitabında Ənəs ibni Malikin belə dediyini nəql edir: *Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in dövründə "Tövbə" surəsi qədər olan bir surə oxuyurduq ki, mən də onun yalnız bir ayəsini əzbərləmişəm. O ayə budur:*

---

[99] "Təhzibul-üsul" (mərhum İmam Xomeyninin dərslərinin təqriratı), 1-ci cild, səh.96 (Ustad Cə`fər Sübhaninin qələmi ilə)

[100] "Təfsiri Qurtəbi", 14-cü cüz, səh.113, "Əhzab" surəsinin təfsirində

[101] "Təfsiri Qurtəbi", 124-cü cüz, səh.113 "Əhzab" surəsinin təfsirinin əvvəllərində

[102] "İtqan", 1-ci cild, səh.67

لَوْ اَنَّ لِابْنِ آدَمَ وَادِيَيْنِ مِنَ الذَّهَبِ لَابْتَغَي اِلَيْهِمَا ثَالِثًا وَ لَوْ اَنَّ لَهُ ثَالِثًا لَابْتَغَي اِلَيْهَا رَابِعًا لو لَايَمْلَأُ جَوْفَ اِبْنِ آدَمَ اِلاَّ التُّرَابُ وَ يَتُوبُ اللهُ عَلَي مَنْ تَابَ

Halbuki Qur`anda belə bir ayə yoxdur və ümumiyyətlə Qur`anın bəlağəti ilə uyğun deyildir.

4-Cəlaləddin Süyuti özünün "Əd-Durrul-Mənsur" adlı təfsirində Ömər ibni Xəttabdan rəvayət edir ki, *"Əhzab" surəsi "Bəqərə" surəsi qədərincə idi və onda "rəcm" ayəsi vardı."*[103]

Deməli həm sünnü, həm də şiələrin içində az bir qrup Qur`anda dəyişiklik və təhrif olmasını iddia edən zəif və süst hədisləri nəql etmişlər. Bu zəif rəvayətlər müsəlmanların təqribən əksəriyyətini təşkil edənlər tərəfindən – istər sünnü, istərsə də şiə – qəbul edilmir. Əksinə Qur`an ayələri, səhih və mütəvatir islam hədisləri, eləcə də Peyğəmbər (s.ə.v.v) səhabələrinin, dünya müsəlmanlarının fikir birliyinə əsasən Qur`anda heç bir təhrif, dəyişiklik, artırılma və azaldılma mövcud deyildir.

---

[103] "Durrul-Mənsur", 5-ci cild, səh.180 "Əhzab" surəsinin təfsirinin əvvəllərində.

SUAL: 17

## ŞİƏLƏRİN SƏHABƏ BARƏSİNDƏ NƏZƏRİ NƏDİR?

Cavab: Şiələrin nəzərindən Peyğəmbəri Əkrəm (s.ə.v.v)-i görüb onunla müsahib (yoldaş) olanlar bir neçə qismə bölünür. Biz bu qismləri şərh etməzdən öncə səhabənin tə`rifini qısa şəkildə deyirik. "Peyğəmbər səhabəsi" ilə əlaqədar müxtəlif tə`riflər qeyd olunmuşdur. O cümlədən:

1-Səid ibni Müseyyib deyir: "*Səhabə o kəsdir ki, bir, yaxud iki il müddətində Peyğəmbəri Əkrəm (s.ə.v.v)-lə yanaşı olmuş, onunla birlikdə bir, yaxud iki müharibədə iştirak etmiş və vuruşmuşdur."*[104]

2-Vaqidi deyir: *"Alimlərin nəzərinə görə hər kəs Peyğəmbəri Əkrəm (s.ə.v.v)*-i *görüb və islamı qəbul edibsə, həmçinin din işində təfəkkür edərək ona razı olmuşsa bizim nəzərimizdə Peyğəmbər səhabəsi hesab olunur, hətta günün bir saatı qədər olmuş olsa belə."*[105]

3-Məhəmməd ibni İsmail Buxari belə deyir: *"Müsəlmanlardan hər kəs Peyğəmbər (s.ə.v.v)-lə müsahib olmuşsa, yaxud onu görmüşsə o həzrətin səhabəsi adlanır."*[106]

4-Əhməd ibni Hənbəl deyir: *"Hər kəs bir ay, yaxud bir gün, yaxud bir saat Peyğəmbər (s.ə.v.v)-lə müsahib olmuşsa, yaxud o həzrəti görmüşsə səhabələrdən sayılır."*[107]

Sünnü alimlərinin nəzərində istisnasız olaraq bütün səhabələrin ədalətli olması məsələsi danılmaz bir prinsip kimi qəbul edilmişdir. Yə`ni hər kəs Peyğəmbər (s.ə.v.v)-lə müsahib olmuşsa hökmən adildir.[108]

İndi isə Qur`anın aydınlıq verən ayələrinin sayəsində bu nəzəriyyələri araşdırır, şiənin vəhy məntiqindən qaynaqlanan nəzərini qeyd edirik:

Tarixdə on iki mindən artıq adam "Peyğəmbər (s.ə.v.v) səhabəsi" kimi qeyd edilmişdir ki, onların arasında müxtəlif simalar gözə dəyir. Şübhəsiz, Peyğəmbəri Əkrəm (s.ə.v.v)-lə müsahib olmaq böyük bir iftixardır ki, müəyyən insanlara nəsib olmuşdur və islam ümməti də onlara həmişə ehtiram nəzərləri ilə baxırlar. Çünki onlar islam dinini qəbul edən ilk şəxslər olmuş, islamın izzət və şövkətli bayrağını ilk dəfə olaraq ucaltmışlar. Qur`an da daim bu hərəkatın önündə gedən belə bayraqdarları tə`rifləyərək buyurur:

لَا يَسْتَوِي مِنكُمْ مَنْ اَنفَقَ مِنْ قَبْلِ الْفَتْحِ وَقَاتَلَ أُوْلَئِكَ اَعْظَمُ دَرَجَةً مِنَ الَّذِينَ اَنفَقُوا مِنْ بَعْدُ وَقَاتَلُوا

**"Məkkənin fəthindən qabaq mal-dövlətlərini (Allah yolunda) ehsan edib mübarizə edənlər bu işdən sonra infaq və cihad edənlərlə bərabər deyilləræ əksinə onlar yüksək bir dərəcəyə malikdirlər."**[109]

Eyni halda bunu da e`tiraf etməliyik ki, Peyğəmbər (s.ə.v.v)-lə müsahib olmaq elə bir kimya deyildi ki, bütün insanların mahiyyətini dəyişdirsin, onların hamısına, ömürlərinin axırına qədər zəmanət versin və aqillər cərgəsində qərar versin. Bu

---

104 "Usdul-ğabə", 1-ci cild, səh.11-12, Misir çapı.

105 "Usdul-ğabə", 1-ci cild, səh.11-12

106 Yenə orada

107 Yenə orada

108 "Əl-istiy`ab fi əsmail əshab", 1-ci cild, səh.2, "Usdul-ğabə"nin haşiyəsində, 1-ci cild, səh.3, ibni Əsirdən nəqlən.

109 "Hədid" surəsi, ayə:10

məsələnin aydın olması üçün hər şeydən öncə bütün müsəlmanlar tərəfindən qəbul edilən Qur`ana üz gətirir və onun həll olunmasında bu müqəddəs asimani kitabdan kömək istəyirik:

## QUR`AN NƏZƏRİNDƏN SƏHABƏ

Vəhy məntiqində Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in hüzuruna çatan və onunla müsahib olan (yoldaşlıq edən) şəxslər iki dəstədir:

## BİRİNCİ DƏSTƏ

Onlar Qur`an ayələrində tə`riflənmiş, islamın şövkətinin və əzəmətli sarayının bünövrəsini qoyanlar kimi qeyd olunanlardır. Biz burada həmin dəstədən olan səhabələrlə əlaqədar bə`zi ayələri qeyd edirik:

1-İlk iman gətirənlər

وَالسَّابِقُونَ الاَوَّلُونَ مِنَ الْمُهَاجِرِينَ وَالاَنْصَارِ وَالَّذِينَ اتَّبَعُوهُمْ بِاِحْسَانٍ رَضِيَ اللهُ عَنْهُمْ وَرَضُواْ عَنْهُ وَاَعَدَّ لَهُمْ جَنَّاتٍ تَجْرِي تَحْتَهَا الاَنْهَارُ خَالِدِينَ فِيهَا اَبَدًا ذَلِكَ الْفَوْزُ الْعَظِيمُ

**“Mühacir, ənsar və onlara tabe olan ilk iman gətirənlər... Allah onlardan, onlar da Allahdan razıdır və Allah, ağaclarının altından çaylar axan behişt bağlarını onlar üçün hazırlamışdır, bu, həqiqətən də böyük qurtuluşdur.”**[110]

2-Ağacın altında bey`ət edənlər

لَقَدْ رَضِيَ اللَّهُ عَنِ الْمُؤْمِنِينَ اِذْ يُبَايِعُونَكَ تَحْتَ الشَّجَرَةِ فَعَلِمَ مَا فِي قُلُوبِهِمْ فَاَنْزَلَالسَّكِينَةَ عَلَيْهِمْ وَاَثَابَهُمْ فَتْحًا قَرِيبًا

**“Allah, səninlə ağacın altında bey`ət edən mö`minlərdən razı oldu və onların qəlblərindən keçənləri bildi. Bundan sonra onların qəlbinə aramlıq nazil etdi və yaxın olan qələbəni onlara mükafat verdi.”**[111]

3-Mühacirlər

لِلْفُقَرَاءِ الْمُهَاجِرِينَ الَّذِينَ اُخْرِجُوا مِن دِيَارِهِمْ وَاَمْوَالِهِمْ يَبْتَغُونَ فَضْلًا مِنَ اللَّهِ وَرِضْوَانًا وَيَنصُرُونَ اللَّهَ وَرَسُولَهُ اُوْلَئِكَ هُمُ الصَّادِقُونَ

**“Öz ev-eşiklərindən qovulub uzaqlaşdırılan mühacir müsəlmanlar, Pərvərdigarın fəzl və mərhəmətini axtaran, Allaha və Peyğəmbərinə kömək edənlər üçün... Onlar həqiqətən doğruçulardır.”**[112]

4-Fəth səhabələri

مُحَمَّدٌ رَّسُولُ اللَّهِ وَالَّذِينَ مَعَهُ اَشِدَّاءُ عَلَي الْكُفَّارِ رُحَمَاءُ بَيْنَهُمْ تَرَاهُمْ رُكَّعًا سُجَّدًا يَبْتَغُونَ فَضْلًا مِّنَ اللَّهِ وَرِضْوَانًا سِيمَاهُمْ فِي وُجُوهِهِم مِّنْ اَثَرِ السُّجُودِ

**“Məhəmməd Allahın Rəsuludur, onun köməkçiləri və onunla olanlar kafirlərə qarşı qəliz, bir-birləri arasında mehribandırlar. Onları rüku və səcdə halında görərsən ki, Allahın fəzl və mərhəmətini axtarırlar, onların üzlərində səcdənin əsərləri vardır.”**[113]

## İKİNCİ DƏSƏTƏ

---

[110] “Tövbə” surəsi, ayə:100

[111] “Fəth” surəsi, ayə:18

[112] “Həşr” surəsi, ayə:8

[113] “Fəth” surəsi, ayə:29

İkinci dəstə Peyğəmbər (s.ə.v.v)-lə müsahib olmalarına baxmayaraq batinləri ilə zahirləri düz gəlməyən müna-fiqlərdir. Qur`ani-Kərim onların mahiyyətini, iç üzünü ifşa edərək Peyğəmbər (s.ə.v.v)-i onların varlığından qorxudur. Burada nümunə olaraq onlardan bir neçəsini qeyd edirik:

1-Tanınmış münafiqlər

اِذَا جَاءَكَ الْمُنَافِقُونَ قَالُوا نَشْهَدُ اِنَّكَ لَرَسُولُ اللهِ وَاللَّهُ يَعْلَمُ اِنَّكَ لَرَسُولُهُ وَاللَّهُ يَشْهَدُ اِنَّ الْمُنَافِقِينَ لَكَاذِبُونَ

**“(Ey Peyğəmbər,) o zaman ki, münafiqlər sənin yanına gəlib dedilər: “Biz şəhadət veririk ki, sən Allahın peyğəmbərisən.” Allah bilir ki, sən Onun Rəsulusan və o həm də şahidlik verir ki, münafiqlər yalan danışırlar.”**[114]

2-Tanınmayan münafiqlər

وَمِمَّنْ حَوْلَكُمْ مِنَ الاَعْرَابِ مُنَافِقُونَ وَمِنْ اَهْلِ الْمَدِينَةِ مَرَدُواْ عَلَي النِّفَاقِ لاَ تَعْلَمُهُمْ نَحْنُ نَعْلَمُهُمْ

**“Sizin ətrafınızda olan bə`zi çöl ərəbləri münafiqdirlər və Mədinə əhlindən bə`ziləri nifaqa (ikiüzlülüyə, münafiqliyə) qərq olmuşlar. Sən onları tanımırsan, Biz onları tanıyırıq.”**[115]

3-Qəlbləri xəstə olanlar

وَاِذْ يَقُولُ الْمُنَافِقُونَ وَالَّذِينَ فِي قُلُوبِهِم مَّرَضٌ مَّا وَعَدَنَا اللَّهُ وَرَسُولُهُ اِلَّا غُرُورًا

**“Münafiqlər və qəlblərində xəstəlik olanlar Allahın və Peyğəmbərin və`dəsini eşitdikləri zaman “bu yalandan başqa bir şey deyildir” - deyirdilər.”**[116]

4-Günahkarlar

وَآخَرُونَ اعْتَرَفُواْ بِذُنُوبِهِمْ خَلَطُواْ عَمَلاً صَالِحًا وَآخَرَ سَيِّئًا عَسَي اللهُ اَن يَتُوبَ عَلَيْهِمْ اِنّ اللهَ غَفُورٌ رَحِيمٌ

**“Öz günahlarına e`tiraf edən bə`ziləri yaxşı əməllərini pis əməllərlə qarışdırmışlar, bəlkə Allah onların tövbəsini qəbul edə. Allah bağışlayan və mehribandır.”**[117]

Qeyd olunan ayələrdən başqa, Peyğəmbər (s.ə.v.v)-dən nəql olunmuş çoxlu rəvayətlərdə bə`zi səhabələr məzəmmət edilir. Misal olaraq, onlardan ikisini qeyd edirik:

1-Əbu Hazim, Səhl ibni Sə`ddən rəvayət edir ki, Peyğəmbəri Əkrəm (s.ə.v.v) buyurdu:

اَنَا فَرَّطُكُمْ عَلَي الْحَوْضِ مَنْ وَرَدَ شَرِبَ وَ مَنْ شَرِبَ لَمْ يَظْمَاْ اَبَدًا وَ يَرِدَنَّ عَلَيَّ اَقْوَامٌ اَعْرِفُهُمْ وَ يَعْرِفُونَنِي ثُمَّ يُحَالُ بَيْنِي وَ بَيْنَهُمْ

**“Mən (qiyamətdə) sizi hovuza tərəf göndərirəm, hər kəs ona varid olursa ondan içir, hər kəs də içirsə onun susuzluğu əbədi olaraq aradan qalxır. Bir qrup mənim yanıma gəlir, mən onları tanıyıram, onlar da məni tanıyırlar, sonra mənimlə onlar arasında fasilə salınır.”**

Əbu Hazim deyir: Mən bu hədisi oxuyan zaman No`man ibni Əbi Əyyaş eşidib dedi: Səhldən belə eşitdinmi? Dedim: Bəli. Dedi: Şəhadət verirəm ki, Əbu Səid Xidri də

---

114 “Munafiqun” surəsi, ayə:1

115 “Tövbə” surəsi, ayə:101

116 “Əhzab” surəsi, ayə:12

117 “Tövbə” surəsi, ayə:102

bu hədisi aşağıdakı əlavə ilə Peyğəmbər (s.ə.v.v)-dən nəql edirdi:

اِنَّهُمْ مِنِّي فَيُقَالُ اِنَّكَ لاَ تَدْرِي مَا اَحْدَثُوا بَعْدَكَ فَاَقُولُ سَحْقًا سَحْقًالِمَنْ بَدَّلَ بَعْدِي

**“(Mən deyəcəyəm: Pərvərdigara, axı) onlar məndəndir?! Deyiləcək: Sən bilmirsən ki, onlar səndən sonra nələr etdilər! Sonra mən deyirəm: Allahın rəhmətindən uzaq olsun o kəslər ki, (məndən sonra Allahın hökmlərini) dəyişdirdilər.”**[118]

**“Mən onları tanıyıram, onlar da məni tanıyırlar,** eləcə də **“məndən sonra dəyişdirdilər”** cümləsindən mə`lum olur ki, “onlar” dedikdə məqsəd bir müddət Peyğəmbərlə yoldaş olan səhabələrdən bə`ziləridir.

2-Buxari və Müslim Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in belə buyurduğunu nəql etmişlər:

يَرِدُ عَلَيَّ يَوْمَ الْقِيَامَةِ رَهْطٌ مِنْ اَصْحَابِي -اَوْ قَالَ مِنْ اُمَّتِي- فَيُحْلَؤُونَ عَنِ الْحَوْضِ فَاَقُولُ يَا رَبِّ اَصْحَابِي، فَيَقُولُ اِنَّهُ لاَ عِلْمَ لَكَ بِمَا اَحْدَثُوا بَعْدَكَ اِنَّهُمْ اِرْتَدُّوا عَلَي اَدْبَارِهِمُ الْقَهْقَرِيِّ

**“Qiyamət günündə mənim səhabələrimdən (yaxud “ümmətimdən” deyə buyurdu) bir qrupu mənim yanıma gələr, sonra onlar hovuzdan (“Kovsər” hovzundan) uzaqlaşdırılar. (Onların Kovsər hovuzuna yaxınlaşıb daxil olmalarının qarşısı alınar.) Mən deyərəm: Pərvərdigara, bunlar ki, mənim səhabələrimdir?! Allah buyurar: Sən onların, səndən sonra etdikləri əməllərdən agah deyilsən. Onlar əvvəlki vəziyyətlərinə (cahiliyyət dövrünə) qayıtdılar.”**[119]

## NƏTİCƏ

Qur`an ayələrindən və Peyğəmbər (s.ə.v.v) sünnəsindən aydın olur ki, Peyğəmbəri Əkrəm (s.ə.v.v)-lə müsahib olmaq iftixarına nail olan səhabələrdən hamısı (əqidə cəhətindən) eyni səviyyədə olmamışlaræ onların bir qrupu təqvalı və layiqli insanlar olmuşlar və onların dəyərli xidmətləri nəticəsində islam dini inkişaf edib genişlənmişdir. Digər bir qrupu isə ilk əvvəldən ikiüzlü, münafiq, qəlbi xəstə və günahkar insanlar olmuşlar.[120]

Deməli şiələrin Peyğəmbər (s.ə.v.v) səhabəsi barəsində olan nəzəri elə Allahın və Peyğəmbər (s.ə.v.v)-in buyurduğundan ibarətdir.

---

118 “Camiul-üsul” (ibni Əsir), 11-ci cild, səh.120, 7972-ci hədis

119 “Camiul-üsul”, 1-ci cild, səh.120, 7973-cü hədis

120 Əlavə mə`lumat almaq üçün “Münafiqun” surəsinə müraciət edə bilərsiniz.

SUAL: 18

## MÜT`Ə İZDİVACINDAN MƏQSƏD NƏDİR VƏ NƏ ÜÇÜN ŞİƏLƏR ONU HALAL BİLİRLƏR?

Cavab: Nikah–ərlə arvad arasında olan bir bağlılıqdır. Bu bağlılıq bə`zən daimi olur və əqddə onun həddi-hüdudu bəyan olunmur. Bə`zən də həmin mahiyyət məhdud surətdə, müvəqqəti olaraq müəyyən müddətlə həyata keçirilir. Hər ikisi də şər`i izdivac ünvanı ilə yerinə yetirilir. Yeganə fərq onların daimi və ya müvəqqəti olmasındadır, amma sair xüsusiyyətlərdə eynilə bir-biri kimidir. Aşağıda qeyd olunan şərtlər daimi izdivacda olduğu kimi müt`ə nikahında da şərtdir:

1-Qadın və kişi üçün izdivacda nəsəb, səbəb və s. kimi şər`i maneələr olmamalıdır, əks halda onların əqdi batildir.

2-Tərəflərin razılaşdığı mehriyyə əqddə qeyd olunmalıdır.

3-İzdivacın müddəti müəyyən olunmalıdır.

4-Şər`i əqd icra olunmalıdır.

5-Onlardan dünyaya gələn övlad onların qanuni övladıdır. (Daimi nikahdan dünyaya gələn övladlar rəsmi qeydiyyata alındığı kimi, müvəqqəti nikahdan da dünyaya gələn övladlar da rəsmi qeydə alınmalıdır və bu barədə daimi və müvəqqəti əqd arasında heç bir fərq yoxdur.)

6-Övladların nəfəqəsi (xərcliyi) atanın öhdəsinədir və övlad ata-anadan irs aparır.

7-İzdivacın müddəti sona çatan zaman qadın yaisəlik həddində olmazsa şər`i iddə saxlamalıdır. Əgər iddə əsnasında hamilə olduğu mə`lum olarsa uşağı dünyaya gətirən vaxta qədər hər növ izdivacdan çəkinməlidir.

Daimi izdivacın sair hökmləri də müt`ə izdivacında riayət olunmalıdır. Yeganə fərq bundan ibarətdir ki, müt`ə izdivacı müəyyən zərurətlərin aradan qaldırılması üçün qanuni hala salındığından qadının xərcləri və nəfəqəsi ərin öhdəsinə deyildir və əqd zamanı qadın miras aparacağını şərt edərsə öz ərindən irs aparacaqdır. Aydındır ki, bu iki təfavüt nikahın mahiyyətinə heç bir tə`sir göstərmir.

Hamımız inanırıq ki, islam dini əbədi şəriət və dinlərin sonuncusudur ki, bəşəriyyətin qiyamətə qədər olan bütün ehtiyaclarına cavab verməlidir. İndi belə bir məsələ yaranır ki, misal üçün, öz təhsilini davam etdirmək üçün qərib bir ölkədə, yaxud qərib şəhərdə uzun illər qalmalı olan və imkanları məhdud olduğuna görə daimi izdivac edə bilməyən bir şəxs özünün qarşısında üç yoldan birini müşahidə edir və onlardan birini seçməlidir:

a) Elə subaylıq halətində qalsınæ

b) Əxlaqsızlıq bataqlığına süqut etsinæ

v) Qeyd olunan çərçivələr və şəraitlər daxilində izdivac etməsi şər`ən caiz olan bir qadınla müvəqqəti olaraq izdivac etsin.

Birinci halda əksər hallarda müvəffəqiyyətsizliyə uğrayır. Baxmayaraq ki, müəyyən az saylı adamlar cinsi əməlin hər növ qeydindən uzaq gəzərək səbr və müqavimət göstərə bilər, lakin bu üslub hamı üçün icra olunası deyildir. İkinci yolu seçənlərin axır-aqibəti də biçarəlikdən, puçluqdan ibarətdir və bu, islam nəzərindən haram və qadağan olan bir iş sayılır. Zərurət bəhanəsilə bu işə icazə verilməsi təfəkkürü də bir növ ideoloji azğınlıq və əyri düşüncə sayılır. Deməli, yalnız üçüncü yol qalır ki, islam da onu təklif etmişdir. Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in dövründə də ona əməl olunurdu, lakin sonralar

bu barədə ixtilaf yarandı.

Qeyd olunmalıdır ki, müvəqqəti izdivacdan – müt`ədən qaçaraq onu qanunsuz bir iş hesab edənlər bilməlidirlər ki, bütün islam fəqihləri və mühəqqiqləri mə`na baxımından onun oxşarını daimi əqddə qəbul etmişlər. Belə ki, ər-arvad daimi əqd bağlayır, lakin hər ikisinin niyyəti bu olur ki, bir ildən, yaxud daha az, ya da daha çox müddətdən sonra təlaq vasitəsilə bir-birindən ayrılsınlar. Aydındır ki, belə bir bağlılıq zahirdə daimi, həqiqətdə isə müvəqqətidir. Belə daimi nikahla müt`ə arasında olan fərq bundan ibarətdir ki, müt`ə zahirdə də, batində də məhdud və müvəqqətidir, lakin bu növdən olan daimi izdivac zahirdə daimi, batində isə məhduddur. Bütün islam fəqihləri tərəfindən qəbul olunan bu növ izdivacı qəbul edənlər necə olur ki, müt`ə nikahına icazə verməkdən qorxub qaçırlar?

Müt`ə izdivacının mahiyyəti ilə tanış olduqdan sonra onun halal olması və məşru` (şəriət qanunu) halına salınmasının dəlillərini araşdırır və söhbətimizi iki mərhələdə davam etdiririk: 1-İslamın əvvəllərində müt`ə nikahının qanuni bir iş olmasıæ 2-Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in dövründə bu şəriət hökmünün qüvvədən salınmaması.

Müt`ənin qanuni və şər`i bir iş olmasının dəlili aşağıdakı ayədir:

فَمَا اسْتَمْتَعْتُمْ بِهِ مِنْهُنَّ فَآتُوهُنَّ أُجُورَهُنَّ فَرِيضَةً

**“Hərgah qadınlardan bəhrələnsəniz (siğə etmək istəsəniz) onların muzdunu (müəyyən olunmuş mehriyyəni) verin”.**[121]

Bu ayədəki kəlmələr aşkar şəkildə bəyan edir ki, o müvəqqəti izdivacla əlaqədar nazil olmuşdur, çünki:

1-Bu ayədə “istəmtə`tum” kəlməsi işlənmişdir ki, zahirdə müvəqqəti nikah barəsindədir. Əgər daimi nikah nəzərdə tutulsaydı hökmən əlavə əlamət və şahid qeyd edilməli idi.

2-”Ucurəhunnə” kəlməsi “qadınların muzdu” mə`nasın-dadır ki, bu da məqsədin müt`ə olmasına dair aşkar bir şahiddir. Çünki daimi nikahda “mehriyyə” və “sədaq” kimi kəlmələrdən istifadə edilir.

3-Şiə və sünnü müfəssirlərinin nəzərinə əsasən qeyd olunan ayə müvəqqəti nikah barəsində nazil olmuşdur.

Cəlaləddin Süyuti “Əd-durrul-mənsur” adlı təfsir kitabında ibni Cəridən və Sədidən nəql edir ki, yuxarıdakı ayə müt`ə barəsində nazil olub.[122]

Əbu Cə`fər Məhəmməd ibni Cərir Təbəri öz təfsirində Sədidən, Mücahiddən və ibni

---

121 “Nisa” surəsi, ayə:24
Diqqət: Ərəb dilində fe`llər ya üç hərfli, ya da dörd hərflidir. Bunların hər birinin də hərfləri ya əslidir, ya da bə`zisi əsli, bə`zisi isə artırılmışdır. Hər üç hərfi əsli olan fe`llərə misal: sə-hi-bə صَحِبَ – yoldaş oldu. Bu fe`lə bə`zi hərflər artırılmaqla yeni mə`nalı bir kəlmə düzəlir, məsələn, həmin fe`lə bir əlif artırılır sa-hə-bə: صَاحَبَ və mə`nası dəyişərək “qarşılıqlı söhbət etdi”, “müsahib oldu” olur. Üç hərfli fe`llərdən yeni mə`nalı bir kəlmə almaq üçün onlar ərəb dilində “bablar” adlanan formalara salınır ki, hər birinin də müəyyən qaydaları vardır. İlk növbədə əgər üç hərfi əsli olan fe`lin məsdərində artıq hərf varsa, onu çıxarıb əsli hərfləri o bablara salmaqla yeni kəlmə əldə edilir. Məsələn, müt`ə مُتْعَةkəlməsi üç hərfli bir fe`lin məsdəridir, onu istif`al babına aparmaq istədikdə ondakı “mərbutə ta”nı atıb əsli hərflərini (ع.ت,م) istif`al babına aparırıq. Bu zaman onun birinci şəxsdəki (əlbəttə, ərəb dilindəki birinci şəxs) forması “istəmtəə”, إِسْتَمْتَعَ- 9-cu şəxsdəki forması isə “istəmtə`tum” إِسْتَمْتَعْتُمْ olur. “Müt`ə”nin mə`nası ləzzət almaq, istimta`nın (bu, ayədəki “istəmtə`tum” fe`linin məsdəridir) mə`nası isə ləzzət tələb etməkdir. (Çünki istif`al babının mə`nası “tələb etmək”dir.) Deməli ayənin mə`nası belə olur: “Onlardan (qadınlardan) hansı müddətdə müt`ə tələb edərək (yə`ni onları siğə edərək) ləzzət almaq istəsəniz, onların muzdunu (mehriyyəsini) verin.” Amma daimi əqd isə nikah kökündən olan ənkəhə, yaxud zovc kökündən olan zəvvəcə kəlməsi ilə bəyan edilir. (Mütərcimdən)

122 “Durrul-Mənsur”, 2-ci cild, səh.140

Abbasdan nəql edir ki, bu ayə müvəqqəti nikah ilə əlaqədar nazil olmuşdur.[123]

4-"Sihah" və "Müsnəd" müəllifləri, eləcə də rəvayət kitablarının müəllifləri də bu həqiqəti qəbul etmişlər. Misal olaraq, Müslim ibni Həccac özünün "Səhih" kitabında ("Səhihi Müslim"də) Cabir ibni Əbdüllahdan və Sülmət ibni Əkvə`dən belə rəvayət edir:

فَقَالَ اَنَّ رَسُولَ اللهِ قَدْ اَذِنَ لَكُمْ اَنْ تَسْتَمْتِعُوا يَعْنِي مُتْعَةَ النِّسَاءِ خَرَجَ عَلَيْنَا مُنَادِي رَسُولِ اللهِ

*"Peyğəmbər (s.ə.v.v)-in carçısı bizə tərəf gəlib dedi: Rəsuli Əkrəm sizin istimta etməyinizə (qadınlardan ləzzət almağınıza, onları siğə etməyinizə) icazə verdi. Yə`ni qadınları müt`ə etməyi nəzərdə tuturdu."*[124]

Bu barədə "Səhih" və "Müsnəd"lərdə mövcud olan rəvayətlər həddindən artıq çoxdur və bu kiçik kitaba sığa bilməz. Deməli islamın əvvəllərində, eləcə də Peyğəmbər (s.ə.v.v)-in həyatda olduğu müddətdə müt`ənin şəriət qanunu olması bütün islam alim və müfəssirlərinin qəbul etdiyi bir məsələdir.[125]

İndi belə bir sual yaranır: görəsən müt`ə ayəsinin hökmü nəsx olunmuş və qüvvədən salınmışdırmı? Çox az adam tapmaq olar ki, müt`ənin Peyğəmbər (s.ə.v.v)-in dövründə şəriət qanunu olmasında şəkk etmiş olsun. Əsas münaqişəli məsələ bu hökmün öz qüvvəsində qalması və qüvvədən salınmaması ilə əlaqədardır. İslam rəvayətləri və tarixi göstərir ki, bu ilahi hökmə əməl olunması Ömərin xilafəti dövrünə qədər müsəlmanlar arasında adi bir iş idi, amma xəlifə müəyyən məqsədlərlə onu qadağan etdi.

Müslim öz "Səhih" kitabında nəql edir ki, ibni Abbas və ibni Zübeyr qadınları müt`ə etmək və təməttö` həcci barəsində ixtilafa düşdülər, Cabir ibni Əbdüllah dedi:

ثُمَّ نَهَانَا عَنْهُمَا عُمَرُ فَلَمْ نَعُدْ لَهُمَا فَعَلْنَاهُمَا مَعَ رَسُولِ اللهِ

*"Biz Peyğəmbər (s.ə.v.v)-lə birlikdə olanda hər ikisini yerinə yetirirdik. Sonra Ömər bizi bu işdən çəkindirdi. Bundan sonra bu işi görmədik."*[126]

Cəlaləddin Süyuti öz təfsirində Əbdür-Rəzzaqdan, Əbu Davuddan, ibni Cəridən, onlar da Həkəmdən rəvayət edirlər ki, ondan müt`ə ayəsinin nəsx olunub-olunmaması barəsində soruşulduqda dedi: Xeyr, nəsx olunmayıb. Əli (ə) da buyurdu:

لَوْ لَا اَنَّ عُمَرَ نَهَي عَنِ الْمُتْعَةِ مَا زَنَي اِلاَّشَقِيٌّ

**"Əgər Ömər müt`əni qadağan edib onun qarşısını almasaydı bədbəxt insanlardan başqa heç kəs zinaya mürtəkib olmazdı."**[127]

Əli ibni Məhəmməd Quşçi yazır: Ömər ibni Xəttab minbərdə olarkən dedi:

اَيُّهَا النَّاسُ ثَلَاثٌ كُنَّ عَلَي عَهْدِ رَسُولِ اللهِ اَنَا اَنْهَي عَنْهُنَّ وَ اُحَرِّمُهُنَّ وَ اُعَاقِبُ عَلَيْهِنَّ وَ هِيَ مُتْعَةُ النِّسَاءِ وَ مُتْعَةُ الْحَجِّ وَ حَيَّ عَلَي خَيْرِ الْعَمَلِ

*"Ey insanlar! Üç şey Peyğəmbərin dövründə var idi ki, mən onları qadağan edir və*

---

123 "Camiul-bəyan fi təfsiril-Qur`an", 5-ci cüz, səh.9

124 "Səhihi Müslim", 4-cü cüz, səh.130, Misir çapı.

125 Nümunə olaraq bu mənbələrdən bə`zilərini qeyd edirik: 1-"Səhihi Buxari", təməttö` babı, 2-"Müsnədi Əhməd", 4-cü cild, səh.436 və 3-cü cild, səh.356æ 3-"Əl-Müvəttəə" (Malik), 2-ci cild, səh.30, 4-"Sünəni Beyhəqi", 7-ci cild, səh.306, 5-"Təfsiri Təbəri", 5-ci cild, səh.9, 6-"Nəhayə" (ibni Əsir) 2-ci cild, səh.249, 7-"Təfsiri Razi", 3-cü cild, səh.201, 8-"Tarixi ibni Xulləkan", 1-ci cild, səh.359, 9-"Əhkamul-Qur`an" (Cəssas), 2-ci cild, səh.178, 10-"Muhaziratu Rağib", 2-ci cild, səh.94, 11-"Əl-Camiul-Kəbir" (Süyuti), 8-ci cild, səh.293, 12-"Fəthul-Bari" (ibni Həcər), 9-cu cild, səh.141

126 "Sünəni Beyhəqi", 7-ci cild, səh.206, "Səhihi Müslim", 1-ci cild, səh.395

127 "Durrul-Mənsur", 2-ci cild, səh.140

*onu görənləri cəzalandıracağam. Onlar qadın müt`əsi, təməttö həcci və namazda "həyyə əla xeyril-əməl" deməkdir."*[128]

Qeyd olunmalıdır ki, bu barədə mövcud olan rəvayətlər həddindən artıq çoxdur.[129] Bunu da nəzərə alaq ki, müt`ə nikahın və izdivacın qismlərindəndir. Nikah daimi və müvəqqəti olaraq iki yerə bölünür. Müvəqqəti nikah əqdi bağlanan qadın insanın həyat yoldaşı (zövcəsi) sayılıræ kişi də o qadının əri (zövcü) hesab olunur. Təbiidir ki, belə izdivac da, izdivacla əlaqədar ayələrə daxildir. Qur`an buyurur:

وَالَّذِينَ هُمْ لِفُرُوجِهِمْ حَافِظُونَ اِلَّا عَلَي اَزْوَاجِهِمْ اوْ مَا مَلَكَتْ اَيْمَانُهُمْ

**"O kəslər ki, özlərini zövclərindən, yaxud onların mülkiyyətində olan kənizlərindən başqasından pak saxlayarlar."**[130]

Müvəqqəti əqd ilə və qeyd olunan şərtlər çərçivəsində əqd olunan bir qadın "illa əla əzvacihim" (yə`ni öz ərlərindən başqasından) kəlməsinin nümunələridir və onun çərçivəsindən xaric də deyildir. Yə`ni bir qadın müt`ə nikahı ilə əqd olunaraq bir kişinin əqdinə keçirilsə, onun həyat yoldaşı və zövcəsi sayılacaq, "əzvacihim" kəlməsi də ona aid olunacaqdır.

"Mu`minin" surəsinin qeyd olunan ayəsi qadınlardan iki qrupu üçün cinsi əlaqəni icazə verir: Biri həyat yoldaşı, digəri isə kənizlər. Müvəqqəti nikah ilə izdivac olunan qadın birinci qismə (həyat yoldaşlarına) daxildir. "Mu`minun" surəsində qeyd olunan ayənin "Nisa" surəsindəki müt`ə ayəsini nəsx edib qüvvədən saldığını iddia edənlərin sözü doğrudan da qəribədir! Hamımızın bildiyimiz kimi, nəsx edən ayə nəsx olunan ayədən sonra nazil olmalıdır, lakin bu ayələrdə hadisə tamamilə əksinədir: "nəsx edən" ünvanı ilə təsəvvür olunan "Mu`minun" surəsinin 5-6-cı ayələri məkkidir, (yə`ni Məkkeyi-Mükərrəmədə, Peyğəmbər (s.ə.v.v)-in Mədinəyə hicrət etməsindən qabaq nazil olmuşdur), amma müt`ə ayəsinin yerləşdiyi "Nisa" surəsi isə mədənidir (yə`ni Mədinə şəhərində Peyğəmbər (s.ə.v.v)-in hicrətindən sonra nazil olmuşdur.) İndi soruşuruq ki, məkki surəsində yerləşən bir ayə mədəni surəsinin ayəsini necə qüvvədən sala bilər?!

Müt`ə ayəsinin Peyğəmbər (s.ə.v.v)-in zamanında qüvvədən düşməməsini göstərən aşkar dəlillərdən biri də onun həmin dövrdə nəsx olunmasını inkar edən çoxlu rəvayətlərdir. Belə ki, Cəlaləddin Süyuti "Əd-durrul-mənsur" adlı təfsir kitabında onları nəql edib, onun ətraflı şərhi də yuxarıda qeyd olundu.[131]

Mövzunun sonunda bu məsələni qeyd etməliyik ki, "Səqəleyn" hədisinin tələbinə görə islam ümmətinin hidayətinə səbəb olan, Qur`andan heç vaxt ayrılmayan Əhli-beyt imamları da müt`ənin qanuni və şər`i bir iş olmasını, heç vaxt qüvvədən düşməməsini aşkar şəkildə bəyan etmişlər.[132] İslam dininin bəşər cəmiyyətinin çətinliklərini hər bir zamanda həll etməyə qadir olması müddəası da belə bir nikahın qanuni olmasına – qeyd olunan şərtlərə riayət etməklə – tə`kid edir. Çünki müasir dövrdə cavanların fəsad və əxlaqsızlıqdan nicat verilməsi yollarından biri də xüsusi şəraitlər daxilində müvəqqəti

---

128 "Şərhu təcrid" (Quşçi), imamət bəhsi, səh.484

129 Daha artıq mə`lumat əldə etmək üçün aşağıdakı mənbələrə müraciət edə bilərsiniz.
1-"Müsnədi Əhməd", 3-cü cild, səh.356 və 363, 2-"Əl-Bəyan vəttəbyin" (Cahiz), 2-ci cild, səh.223, 3-"Əhkamul-Qur`an" (Cəssas) 1-ci cild, səh.342, 4-"Təfsiri-Qurtəbi", səh.370, 5-"Əl-Məbsut" (Sərəxsi Hənəfi) kitabul-həcc, babul-Qur`an, 6-"Zadul-Məad" (ibni Qəyyim), 1-ci cild, səh.444, 7-"Kənzul-ummal", 8-ci cild, səh.293, 8-"Müsnədi Əbu Davud", səh.247, 9-"Tarixi-Təbəri", 5-ci cild, səh.32, 10-"Əl-Müstəbin" (Təbəri), 11-"Təfsiri-Razi", 3-cü cild, səh.200-202, 12-"Təfsiri Əbu Həyyan", 3-cü cild, səh.218

130 "Muminun" surəsi, ayə:5-6

131 "Durrul-Mənsur", 2-ci cild, səh.140-141.

132 "Vəsailuş-şiə", 14-cü cild, nikah kitabı 1-ci bab, səh.436

izdivacat icazə verilməsidir.

SUAL: 19

## NƏ ÜÇÜN ŞİƏLƏR TÜRBƏTƏ SƏCDƏ EDİRLƏR?

Cavab: Bə`ziləri belə təsəvvür edir ki, şəhidlərin türbətinə, yaxud da adi torpaqa səcdə etmək ona pərəstiş etmək mə`nasınadır və bir növ şirk sayılır.

Bu sualın cavabında qeyd etməliyik ki, “əs-sücudu lillah” və “əs-sücudu ələl-ərz” ifadələri arasında aydın fərqlər vardır. Qeyd olunan sual göstərir ki, bə`ziləri bu iki ifadə arasında heç bir fərq qoya bilməmişlər. Şübhəsiz, “əs-sücudu lillah” cümləsinin mə`nası “səcdə Allah üçündür” deməkdir, halbuki “əs-sücudu ələl-ərz”in mə`nası budur ki, səcdə yerə edilməlidir. Başqa sözlə desək, biz torpağa səcdə etməklə Allah qarşısında səcdə edirik və ümumiyyətlə bütün dünya müsəlmanları müəyyən bir şeyin üzərinə səcdə edirlər. Halbuki onların səcdələri Allah üçündür. Allah evinin bütün ziyarətçiləri Məscidul-Həramın daşlarına səcdə edirlər, onların əsas hədəfi də Allaha səcdə etməkdir.

Deməli torpağa, bitkiyə və s. kimi şeylərə səcdə etməyin mə`nası onlara pərəstiş etmək deyil, əksinə Allah üçün səcdə etmək və Allahın hüzurunda bəndəçilik izhar etməkdir. Eləcə də aydın olur ki, “türbətə səcdə etmək”, “türbət üçün səcdə etmək”dən başqadır. Digər tərəfdən Allah-Taala buyurur:

وَلِلّهِ يَسْجُدُ مَنْ فِي السَّمَاوَاتِ وَالأَرْض

**“Göylərdə və yerdə olanların hamısı Allah üçün səcdə edir.”**[133]

Peyğəmbəri Əkrəm (s.ə.v.v) buyurur:

جُعِلَتْ لِيَ الأَرْضُ مَسْجَدًا وَ طَهُورًا

**“Torpaq (yer) mənim üçün səcdəgah və pakizəlik vasitəsi qərar verilmişdir.”**[134]

Deməli Allah üçün səcdənin türbətə və yerə səcdə ilə nəinki heç bir ziddiyyəti yoxdur, əksinə tamamilə uyğun bir işdir. Çünki torpağa və bitkiyə səcdə etmək Allah qarşısında bəndəçiliyin son həddini göstərir.

Şiənin nəzəriyyəsinin daha aydın olması məqsədilə imam Sadiq (ə)-ın dəyərli kəlamını qeyd edirik:

قُلْتُ لِاَبِي عَبْدِ اللهِ عليه السلام اَخْبِرْنِي عَمَّايَجُوزُ السُّجُودُ عَلَيْهِ وَ عَمَّا لَا Kعَنْ هُشَامِ بْنِ الْحَكَمِ قَالَ
اَلسُّجُودُ لَا يَجُوزُ اِلاَّ عَلَي الأَرْضِ اَوْ مَا اَنْبَتَتِ الأَرْضُ اِلاَّ مَا اُكِلَ وَ لُبِسَ فَقُلْتُ لَهُ Kيَجُوزُ؟ قَالَ
جُعِلْتُ فِدَاكَ مَا الْعِلَّةُ فِي ذلِكَ؟ قَالَ لِاَنَّ السُّجُودَ هُوَ الْخُضُوعُ لِلّهِ عَزَّوَ جَلَّ فَلَا يَنْبَغِي اَنْ يَكُونَ عَلَي مَا
يُؤْكَلُ وَ يُلْبَسُ لِاَنَّ اَبْنَاءَ الدُّنْيَا عَبِيدُ مَا يَاْكُلُونَ وَ يَلْبِسُونَ وَ السَّاجِدُ فِي سُجُودِهِ فِي عِبَادَةِ اللهِ عَزَّ وَ جَلَّ
فَلَا يَنْبَغِي اَنْ يَضَعَ جَبْهَتَهُ فِي سُجُودِهِ عَلَي مَعْبُودِ اَبْنَاءِ الدُّنْيَا الَّذِينَ اغْتَرُّوا بِغُرُورِهَاوَالسُّجُودُ عَلَي
الأَرْضِ اَفْضَلُ لِاَنَّهُ اَبْلَغُ فِي التَّوَاضُعِ وَ الْخُضُوعِ لِلّهِ عَزَّوَجَلَّ

**Hüşam ibni Həkəm deyir: imam Sadiq (ə)-dan üzərinə səcdə edilməsi səhih olan şeylər barəsində soruşduqda, buyurdu: “Səcdə yalnız yerə və ondan cücərənlərə – yeməlilərdən və geyməlilərdən başqa – edilməlidir.” Dedim: “Sənə fəda olum, bunun səbəbi nədir?” Buyurdu: “Səcdə Allah üçün itaət və bəndəçilik əlamətidir və yeməlilərin və içməlilərin üzərinə edilməsi layiq deyildir. Çünki dünyapərəstlər yemək və geymək qullarıdır, halbuki insan səcdə zamanı Allaha pərəstiş edir, deməli öz alnını dünyapərəstlərin mə`budu olan, onların məftun olduqları şeylərin üzərinə qoyması yaxşı deyildir. Torpağa səcdə edilməsi daha**

---

[133] “Rə`d” surəsi, ayə:15

[134] “Səhihi Buxari”, Səlat kitabı, səh.91

**yüksək və daha yaxşıdır, çünki böyük Allahın müqabilində bəndəçilik və xüzu etməklə daha münasibdir."**[135]

Bu kəlam göstərir ki, səcdə yalnız ona görə torpağa edilməlidir ki, bu iş yeganə Allahın müqabilində bəndəçilik və xüzu ilə tam uyğundur.

Burada başqa bir sual yaranır ki, şiələr nə üçün yalnız torpağa və bə`zi bitkilərə səcdə etməyi caiz bilir, amma hər bir şeyə səcdə etməyi caiz bilmirlər?

Cavabda deməliyik ki, bir ibadətin özü müqəddəs islam şəriətinin tərəfindən gəldiyi kimi, onun şərtləri, hissələri və yerinə yetirilmə qaydası da Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in tərəfindən, onun sözü və ya rəftarı ilə bəyan edilməlidir. Çünki Qur`ani-Kərimin hökmünə görə Peyğəmbər (s.ə.v.v) təqvalı insanların hamısına nümunədir. İndi Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in əməl və rəftarını göstərən hədislərdən bə`zilərini qeyd edirik. Belə ki, onların hamısı Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in həm torpağa, həm də ondan cücərən şeylərə səcdə etməsini göstərir. Bu da eynilə şiələrin inancından ibarətdir:

İslam mühəddislərindən bir qrupu "Səhih" və "Müsnəd" kitablarında Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in, torpağı özü üçün səcdəgah təqdim etməsini göstərən sözünü bəyan etmişlər:

جُعِلَتْ لِيَ الأَرْضُ مَسْجَدًا وَ طَهُورًا

**"Torpaq mənim üçün səcdəgah və paklıq səbəbi qərar verilmişdir."**[136]

Bu hədisdəki şəriət qanunu mə`nasını ifadə edən "cuilə" (qərar verilmək, qanun halına salınmaq) kəlməsindən aydın olur ki, bu, islam dini ardıcılları üçün ilahi bir hökmdür. Deməli səcdənin torpağa, daşa və yer səthini təşkil edən sair hissələrə səcdə edilməsinin qanuni bir iş olması sübuta yetir.

2-Rəvayətlərdən bir qrupu göstərir ki, Peyğəmbəri Əkrəm (s.ə.v.v) müsəlmanlara, səcdə zamanı alınlarını torpağa qoymasını əmr etmişdir. Belə ki, Ümmü Sələmə (Peyğəmbər (s.ə.v.v)-in zövcəsi) o həzrətin belə buyurduğunu nəql edir:

تَرِّبْ وَجْهَكَ لِلّٰهِ

**"Üzünü (səcdədə) Allah üçün torpağa qoy."**[137]

Peyğəmbər (s.ə.v.v)-in kəlamındakı (əmr formasında olan) "tərrib" ifadəsindən iki məsələ aydın olur:

a) İnsan səcdə zamanı öz alnını türbətin üzərinə – torpağa qoymalıdır.

b) Bu əməl, ona əmr edildiyi üçün icra olunması vacib olan bir fərmandır, çünki tərrib kəlməsi "turab" kökündən alınmış və əmr formasında bəyan edilmişdir.

3-Bu barədə Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in davranışı müsəlmanların yolunu açaq-aşkar bəyan edir. Vail ibni Həcər deyir:

رَاَيْتُ النَّبِيَّ صَلَّي اللهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ اِذَاسَجَدَوَضَعَ جَبْهَتَهُ وَاَنْفَهُ عَلَي الأَرْضِ

**"Peyğəmbəri Əkrəm** (s.ə.v.v) **səcdə edərkən alnını və burnunu torpağa qoyurdu."**[138]

Ənəs ibni Malik, ibni Abbas, eləcə də Peyğəmbər (s.ə.v.v)-in həyat yoldaşlarından

---

135 "Biharul-ənvar", cild, 85 səh.147 "İləluş-şəraye"dən nəqlən

136 "Sünəni Beyhəqi", 1-ci cild, səh.212, "Səhihi Buxari", 1-ci cild, kitabus-səlat, səh.91, "İqtizaus-siratul-mustəqim" (ibni Teymiyyə), səh.332

137 "Kənzul-ummal", 7-ci cild, Hələb çapı, səh.465, 19809-cu hədis

138 "Əhkamul-Qur`an" (Cəssas Hənəfi), 3-cü cild, səh.209, Beyrut çapı

Ayişə və Ümmü Sələmə, həmçinin mühəddislərdən çoxu belə rəvayət etmişlər:

يُصَلِّي عَلَي الْخُمْرَةِ,كَانَ رَسُولُ اللهِ

**“Peyğəmbər (bir növ həsir olan və xurma lifindən toxunan) xümrəyə səcdə edirdi.”**[139]

Peyğəmbər (s.ə.v.v) səhabələrindən olan Əbu Səid deyir:

دَخَلْتُ عَلَي رَسُولِ اللهِ صَلَّي اللهُ عَلَيْهِ وَآلِهِ وَ سَلَّم وَ هُوَ يُصَلِّي عَلَي حَصِيرٍ

**“Peyğəmbəri Əkrəm** (s.ə.v.v)**-in hüzuruna getdim, halbuki o, həsirə namaz qılırdı.”**[140]

Bu söz şiənin səcdənin torpaqdan cücərən, amma yeməli və içməli olmayan şeylərə caiz olması ilə əlaqədar nəzəriyyəsinə aşkar bir dəlildir.

4-Peyğəmbər (s.ə.v.v)-in səhabə və tabeinlərinin əməl və rəftarı da o həzrətin sünnəsinə dəlalət edir. Cabir ibni Əbdüllah Ənsari deyir:

وَ سَلَّم فَآخُذُ قَبْضَةً مِنَ الْحِصَاءِلِتَبْرُدَ فِي "كُنْتُ أُصَلِّي الظُّهْرَ مَعَ رَسُولِ اللهِ صَلَّي اللهُ عَلَيْهِ وَآلِهِ
كَفِّي اَضَعُها لِجَبْهَتِي اَسْجُدُ عَلَيْها لِشِدَّةِ الْحَرِّ

*Zöhr namazını Peyğəmbər (s.ə.v.v)-lə qılırdım. Bir ovuc çınqıl götürüb əlimdə saxladım ki, soyusun və səcdə zamanı alnımı onların üzərinə qoyum. Bu da kəskin isti olduğuna görə idi.”*

Ravi sonra əlavə edir: *“Əgər bədənində olan libasa səcdə etmək caiz olsaydı bu iş daş parçalarını götürüb soyutmaqdan daha asan olardı.”*[141]

İbni Sə`d (209-cu ildə vəfat edib) özünün “Ət-təbəqatul-kubra” adlı kitabında belə yazır:

كَانَ مَسْرُوقٌ اِذَا خَرَجَ يَخْرُجُ بِلِبْنَةٍ يَسْجُدُ عَلَيْهَا فِي السَّفِينَةِ

*“Məsruq ibni Əcdə` səfər zamanı özü ilə bir kərpic aparırdı ki, gəmidə onun üzərinə səcdə etsin.”*[142]

Qeyd olunmalıdır ki, Məsruq ibni Əcdə` Peyğəmbər (s.ə.v.v)-in tabeinlərindən və ibni Məs`udun səhabələrindən idi. “Təbəqatul-kubra” kitabının müəllifi onu Kufə əhlinin Peyğəmbəri Əkrəm (s.ə.v.v)-dən sonra birinci təbəqəsində, eləcə də Əbu Bəkr, Ömər, Osman, Əli və Əbdüllah ibni Məs`uddan rəvayət edən şəxslər cərgəsində qeyd etmişdir.

Bu söz səcdə etmək üçün özü ilə birlikdə torpaq, türbət və daş parçası aparanların işini şirk və bid`ət hesab edənlərin sözlərinin əsassız olduğunu isbat edir və göstərir ki, islam tarixinin önündə gedən şəxslər də bu işi görmüşlər.[143]

Nafe deyir:

اِنَّ ابْنَ عُمَرَ كَانَ اِذَا سَجَدَ وَ عَلَيْهِ الْعِمَامَةُ يَرْفَعُهَا حَتَّي يَضَعَ جَبْهَتَهُ بِالأَرْضِ

*“Əbdüllah ibni Ömər səcdə edərkən alnındakı parçanı kənara çəkirdi ki, öz alnını torpağa qoysun.”*[144]

---

139 “Sünəni Beyhəqi”, 2-ci cild, səh.421, Kitabus-səlat

140 “Sünəni Beyhəqi”, 2-ci cild, səh.421

141 “Sünəni Beyhəqi”, 1-ci cild, səh.439, Kitabus-səlat, babu ma ruviyə fittə`cili biha fişiddətil-hər

142 “Ət-təbəqatul-Kubra”, 6-cı cild, səh.79, Məsruq ibni Əcdə`in həyatı.

143 Digər şahidlərdən əlavə mə`lumat almaq üçün Əllamə Əmininin “Sirətuna” kitabına müraciət edə bilərsiniz.

144 “Sünəni Beyhəqi”, 2-ci cild, səh.105

Rəzin deyir:

كَتَبَ اِلَيَّ عَلِيُّ ابْنُ عَبْدِ اللهِ ابْنِ عَبَّاسٍ رَضِيَ اللهُ عَنْهُ اَنِ ابْعَثْ اِلَيَّ بِلَوْحٍ مِنْ اَحْجَارِ الْمَرْوَةِ اَسْجُدْ عَلَيْهِ

*Əli ibni Əbdüllah ibni Abbas mənə yazdı: "Mərvə dağının daşlarından bir parçasını mənim üçün göndər ki, ona səcdə edim."*[145]

5-Digər tərəfdən, islam mühəddislərinin nəql etdikləri bə`zi rəvayətlər Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in səcdə zamanı öz alınlarındakı parçanı alınları ilə yer arasında qoyan şəxslərin işini qadağan etməsini göstərir. Saleh Səbai deyir:

وَ سَلَّم رَاَي رَجُلاً يَسْجُدُ بِجَنْبِهِ وَ قَدِ اعْتَمَّ عَلَي جَبْهَتِهِ فَحَسَرَ "اِنَّ رَسُولَ اللهِ صَلَّي اللهُ عَلَيْهِ وَآلِهِ وَ سَلَّم عَنْ جَبْهَتِهِ"رَسُولُ اللهِ صَلَّي اللهُ عَلَيْهِ وَآلِهِ

*"Peyğəmbər (s.ə.v.v) bir şəxsi öz yanında səcdə halında müşahidə etdiæ o, öz alnına əmmamə bağlamışdı. Peyğəmbər (s.ə.v.v) əmmaməni onun alnından kənara çəkdi."*[146]

Əyaz ibni Əbdüllah Qurəşi deyir:

اِرْفَعْ عِمَامَتَكَ وَ اَوْمَاَ اِلَي جَبْهَتِهِKرَجُلاً يَسْجُدُ عَلَي كُورِ عِمَامَتِهِ فَاَوْمَاَ بِيَدِهِ رَاَي رَسُولُ اللهِ

*"Rəsuli Əkrəm (s.ə.v.v) bir kişini səcdə halında gördüæ o, öz əmmaməsinin küncünə səcdə edirdi. Ona işarə etdi ki, əmmaməni kənara çəksin və bu zaman onun alnına işarə etdi."*[147]

Bu rəvayətlərdən aydın olur ki, yerə, torpağa səcdə etmək Peyğəmbər (s.ə.v.v)-in dövründə də inkarolunmaz və gün kimi aydın olan məsələlərdən biri idi. Hətta əgər müsəlmanlardan biri əmmaməsinin bir ucunu alnı ilə yerin arasına qoyaraq alnını yerə yapışdırmırdısa Peyğəmbər (s.ə.v.v) bu işi qadağan edirdi.

6-"Səqəleyn" hədisinə əsasən Qur`andan heç vaxt ayrılmayan, digər tərəfdən də Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in Əhli-beyti sayılan şiələrin mə`sum rəhbərləri də öz kəlamlarında bu həqiqətə işarə etmişlər. İmam Sadiq (ə) buyurur:

اَلسُّجُودُ عَلَي الاَرْضِ فَرِيضَةٌ وَ عَلَي الْخُمْرَةِ سُنَّةٌ

**"Yerə səcdə etmək Allahın hökmü, həsirə səcdə etmək Peyğəmbər** (s.ə.v.v)**-in sünnəsidir."**[148]

Başqa bir hədisdə buyurur:

اَلسُّجُودُ لاَيَجُوزُ اِلاَّ عَلَي الاَرْضِ اَوْ عَلَي مَا اَنْبَتَتِ الاَرْضُ اِلاَّ مَا اُكِلَ وَ لُبِسَ

**"Səcdə yalnız yerdən göyərən, amma yeməli və geyilməli olmayan şeylərə caizdir."**[149]

NƏTİCƏ:

Qeyd olunan dəlillərdən aydın olur ki, təkcə Əhli-beytin rəvayətləri deyil, eləcə də Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in sünnəsi, o həzrətin səhabələri və tabeinlərinin rəftar və əməlləri səcdənin yer və ondan cücərən şeylərin (yeyilməli və geyilməlilərdən başqa) üzərinə səcdə etməyin zərurətinə şəhadət verir.

---

145 "Əxbaru Məkkə", 3-cü cild, səh.151

146 "Sünəni Beyhəqi", 2-ci cild, səh.105

147 "Sünəni Beyhəqi", 2-ci cild, səh.105

148 "Vəsailuş-şiə", 3-ci cild, səh.593 Kitabus-səlat ma yəscudu ələyhim babı 7-ci hədis

149 "Vəsailuş-şiə", 3-cü cild, səh.593, ma yuscədu ələyh, babı 7-ci hədis

Bundan əlavə, qeyd olunan şeylərin üzərinə səcdə etmək caizdir, halbuki sair şeylərə səcdə etməyin caiz olması şübhəli və ixtilaflıdır, deməli nicat və qurtuluş yolu olan ehtiyatın tələbinə görə yaxşı olar ki, səcdə zamanı həmin qeyd olunan şeylərlə kifayətlənsin.

Bunu da qeyd etmək lazımdır ki, bu, fiqhi bir məsələdir və bu kimi fər`i məsələlərdə islam fəqihləri arasındakı fikir ayrılığı çox gözə dəyir, lakin belə bir fiqhi ixtilaf nigaranlığa səbəb olmamalıdır. Çünki bu kimi ixtilaflar dörd sünnü məzhəbləri arasında da mövcuddur. Belə ki, malikilərin nəzərinə görə burunu səcdəgaha qoymaq müstəhəbdir, halbuki hənbəlilər onu vacib bilir, onun tərk olunmasının da səcdənin batil olunmasına səbəb hesab edirlər.[150]

[150] "Əl-fiqhu ələl-məzahibil-ərbəə", 1-ci cild, səh.161, Misir çapı, Kitabus-səlat, məbhəsus-sücud

SUAL: 20

## NƏ ÜÇÜN ŞİƏLƏR ZİYARƏT ZAMANI HƏRƏMİN QAPI DİVARINI ÖPÜR VƏ TƏBƏRRÜK EDİRLƏR?

Cavab: İlahi övliyaların əsərlərinə təbərrük etmək müsəlmanların arasında yaranmış təzə bir məsələ deyildir və bu əməlin Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in və səhabələrin həyatı dövrünə gedib çatan dərin kökləri vardır. Təkcə Peyğəmbər (s.ə.v.v) və onun köməkçiləri deyil, hətta əvvəlki peyğəmbərlər də bu məsələyə diqqət yetirmişlər. İndi Allah övliyalarının əsərlərinə təbərrük etməyin şər`i cəhətdən qanuni bir iş olmasını kitab və sünnə nəzərindən qeyd edirik:

1-Qur`anda buyurulur: Yusif (ə) özünü qardaşlarına təqdim edərək onları bağışladığı zaman buyurdu:

اذْهَبُواْ بِقَمِيصِي هَذَا فَأَلْقُوهُ عَلَي وَجْهِ اَبِي يَأْتِ بَصِيرًا وَأْتُونِي بِاَهْلِكُمْ اَجْمَعِينَ

**“Mənim bu köynəyimi özünüzlə aparın və atamın (Yə`qubun) üzünə atın ki, gözləri sağalsın.”**[151]

Sonra buyurulur:

فَلَمَّا اَنْ جَاءَ الْبَشِيرُ اَلْقَاهُ عَلَي وَجْهِهِ فَارْتَدَّ بَصِيرًا

**“Müjdə verən köynəyi onun (Yə`qubun) üzünə atanda gözləri açıldı.”**[152]

Qur`anın bu bəyanı bir ilahi peyğəmbərin (Yə`qubun) digər bir peyğəmbərin (həzrəti Yusifin) köynəyinə təbərrük etməsinə aşkar bir dəlildir, hətta göstərir ki, qeyd olunan köynək həzrəti Yə`qubun gözlərinin sağalmasına belə, səbəb olmuşdu. Məgər iddia etmək olarmı ki, bu iki əziz peyğəmbərin əməlləri tovhid və yeganəpərəstlik çərçivələrindən xaricdir?!

2-Peyğəmbəri Əkrəm (s.ə.v.v) Allah evini təvaf edərkən Həcərul-əsvədə istilam edir (bədənini ona sürtür), yaxud öpürdü. Buxari özünün “Səhih” kitabında yazır: Bir nəfər Əbdüllah ibni Ömərdən Həcərul-əsvədə istilam etmək barəsində soruşduqda o dedi:

يَسْتَلِمُهُ وَ يُقَبِّلُهُ رَاَيْتُ رَسُولَ للهِ

**“Peyğəmbər** (s.ə.v.v)**-in Həcərul-əsvədə istilam edib onu öpdüyü gördüm.”**[153]

Halbuki əgər bir daşa əl sürtmək və öpmək Allaha şərik qoşmaq olsaydı tovhid carçısı olan Peyğəmbər (s.ə.v.v) heç vaxt belə bir iş görməzdi.

3-”Sihah” və “Müsnəd”lərdə, tarix və sünən kitablarında Peyğəmbər (s.ə.v.v) səhabələrinin o həzrətin əsərlərinə, o cümlədən paltarına, dəstəmazının suyuna, su qabına və s. kimi şeylərinə təbərrük etməsi barəsinə çoxlu rəvayətlər mövcuddur. Onlara müraciət etməklə bu işin qanuni və şər`i məsələ olmasında azacıq belə şəkk-şübhəyə yer qalmır. Bu barədə mövcud olan rəvayətlərin sadalanması bu kitaba sığmaz, lakin nümunə olaraq onlardan bir neçəsini qeyd edirik:

a) Buxari “Səhih” kitabında Peyğəmbəri Əkrəm (s.ə.v.v) və o həzrətin dostlarının xüsusiyyətlərini şərh edən uzun bir rəvayət əsnasında belə deyir:

اِذَا تَوَضَّاَ كَادُوا يَقْتَتِلُونَ عَلَي وُضُوئِهِ

---

[151] “Yusif” surəsi, ayə:93

[152] “Yusif” surəsi, ayə:96

[153] “Səhihi Buxari”, 2-cüz, Həcc kitabı, təqbilul həcər babı, səh.151-152, Misir çapı

*“Peyğəmbər (s.ə.v.v) dəstəmaz alanda az qalırdı ki, müsəlmanlar (o həzrətin dəstəmaz suyunu təbərrük etmək üçün) bir-birilə vuruşalar.”*[154]

b) İbni Həcər deyir:

اِنَّ النَّبِيَّ صَلَّي اللهُ عَلَيْهِ وَآلِهِ وَ سَلَّم كَانَ يُؤْتَي بِالصِّبْيَانِ فَيُبْرِكُ عَلَيْهِمْ

*“Uşaqları Peyğəmbər (s.ə.v.v)-in yanına gətirirdilər və o həzrət təbərrük olaraq onlara dua edirdi.”*[155]

v) Məhəmməd Tahir Məkki deyir:

"كَانَ رَسُولُ اللهِ صَلَّي اللهُ عَلَيْهِ وَآلِهِ وَ سَلَّم اِذَا صَلَّي الْغَدَاةَ جَاءَ خُدَّمُ الْمَدِينَةِ بِآنِيَتِهِمْ فِيهَا الْمَاءُ فَمَا يُؤْتِي بِاِنَاءٍ اِلاّ غَمَسَ يَدَهُ فِيهَا فَرُبَّمَا جَاؤُوهُ فِي الْغَدَاةِ الْبَارِدَةِ فَيَغْمِسُ يَدَهُ فِيهَا

*“Ümmü Sabitin belə dediyi rəvayət olunmuşdur: Peyğəmbər (s.ə.v.v) mənim yanıma gəldi, dirəkdən asılmış məşkin (tuluğun) ağzından su içdi, mən də qalxıb məşkin ağzını kəsdim.” Sonra əlavə edərək deyir:) Bu hədisi Tirmizi rəvayət edərək demişdir: Hədis səhih və həsəndir. Bu hədisin şərhçisi “Riyazus-salihin” kitabında deyir: Ümmü Sabit məşkin ağzını kəsmişdi ki, Peyğəmbər (s.ə.v.v)-in mübarək ağzı dəyən yerini saxlasın və ona təbərrük etsin. Həmçinin səhabələr çalışırdılar ki, Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in su içdiyi yerlərdən su içsinlər.”*[156]

"كَانَ رَسُولُ اللهِ صَلَّي اللهُ عَلَيْهِ وَآلِهِ وَ سَلَّم اِذَا صَلَّي الْغَدَاةَ جَاءَ خُدَّمُ الْمَدِينَةِ بِآنِيَتِهِمْ فِيهَا الْمَاءُ فَمَا يُؤْتِي بِاِنَاءٍ اِلاّ غَمَسَ يَدَهُ فِيهَا فَرُبَّمَا جَاؤُوهُ فِي الْغَدَاةِ الْبَارِدَةِ فَيَغْمِسُ يَدَهُ فِيهَا

*“Mədinənin xidmətçiləri sübh namazı zamanı su qabları ilə Peyğəmbər (s.ə.v.v)-in yanına gedirdilər, Peyğəmbər (s.ə.v.v) mübarək əlini o qabların hər birinin suyuna batırırdı. Çox hallarda soyuq sübh çağları o həzrətin hüzuruna çatırdılar, yenə də Peyğəmbər (s.ə.v.v) təbərrük üçün əlini o qablara salırdı.”*[157]

Bununla da Allah övliyalarına və onların əsərlərinə təbərrük etməyin caizliyini göstərən dəlillərin möhkəmliyi və şiələri bu əmələ görə şirk və Allahdan qeyrisinə pərəstişlə müttəhim edənlərin tovhidin və şirkin mə`nasını düzgün şəkildə təhlil edə bilməmələri aydın olur. Çünki şirk və Allahdan başqasına pərəstişin mə`nası budur ki, Allaha pərəstişlə yanaşı digər bir varlığı da Allah hesab edərək ona pərəstiş edək, yaxud Allahın işlərini ona aid edərək onu varlığın əslində və yaxud tə`sir qoymada müstəqil və Allahdan ehtiyacsız qələmə verək. Halbuki şiələr Allah övliyalarının əsərlərini, onların özləri kimi, Allahın məxluqu və yaratdığı bilir, belə ki, həm vücuda gəlməyin özündə, həm də tə`sir qoymaqda yeganə Allaha ehtiyaclıdırlar.

Şiələr yalnız öz rəhbərlərinin və dində irəlidə olanların ehtiramını saxlamaq, onlara riyasız məhəbbət bəslədiklərini göstərmək üçün onların əsərlərinə təbərrük edirlər. Şiələr Peyğəmbəri Əkrəm (s.ə.v.v) və onun Əhli-beytini ziyarət edərkən zərihi öpür, sonra onun qapısına əl sürtürlər. Səbəbi də yalnız budur ki, Peyğəmbər (s.ə.v.v)-ə, onun pak itrətinə eşq-məhəbbət bəslədiklərini göstərsinlər. Bu da bir insani duyğulardan qaynaqlanan bir məsələdir ki, aşiq olan insanlarda təcəlli edir. Gözəl bəyanlı şair deyir:

---

[154] “Səhihi Buxari”, 3-cü cild, ma yəcuzu minəşşuruti fil-islam babı, əşşurutu fil-cihad vəl-musalihə babı, səh.195

[155] “Əl-isabə”, 1-ci cild, kitabın xütbəsi, səh.7, Misir çapı

[156] “Təbərrüküs-səhabə” (Məhəmməd Tahir Məkki), birinci fəsil, səh.29

[157] “Səhihi Müslim”, 7-ci cüz, Kitabul-fəzail, Qurbun-Nəbi babı, səh.79. Əlavə mə`lumat almaq üçün aşağıda qeyd olunan mənbələrə müraciət edə bilərsiz: 1-”Səhihi Buxari”, Kitabi Əşribə, 2-”Əl-müvəttəə” (Malik), 1-ci cild, səh.138 Peyğəmbərə salavat göndərmək babı, 3-”Usdul-Ğabə”, 5-ci cild, səh.90, 4-”Müsnədi Əhməd”, 4-cü cild, səh.32, 5-”Əl-İstiyab” (“Əl-İsabə”nin haşiyəsində), 3-cü cild, səh.631, 6-”Fəthul-Bari”, 1-ci cild, səh.281-282

*اَمُرَّ عَلَي الدِّيَارِ دِيَارَ سَلْمَي أُقَبِّلُ ذَا الْجِدَارَ وَ ذَا الْجِدَارا*
*وَ مَا حُبُّ الدِّيَارِ شَغَفْنَ قَلْبِي وَ لكِنْ حُبُّ مَنْ سَكَنَ الدِّيَارَا*

*"Səlma"nın diyarından keçirəm, Bu divarı, o divarı öpürəm*

*O diyarı sevmək mənim qəlbimi şad etmir, Lakin onda sakin olan şəxsin məhəbbəti məni vəcdə gətirmişdir.*

SUAL: 21

## NƏ ÜÇÜN ŞİƏLƏR ƏLİ İBNİ ƏBİ TALİB (Ə)-IN ÖVLADLARINI (HƏSƏN VƏ HÜSEYNİ) PEYĞƏMBƏRİ ƏKRƏM (S.Ə.V.V)-İN ÖVLADI HESAB EDİRLƏR?

Cavab: Təfsir, tarix və rəvayət kitablarını araş-dırmaqla aydın olur ki, bu söz təkcə şiələrə aid deyildir, hətta bunu da demək olar ki, bütün müsəlman mühəqqiqləri hansı qrupdan olmalarına baxmayaraq bu məsələdə yekdil fikrə malikdirlər. Biz Qur`ana, Peyğəmbər (s.ə.v.v) hədislərinə və məşhur müfəssirlərin sözlərinə istinad edərək bu məsələnin aydın dəlillərini qeyd edirik.

Qur`ani-Kərim insanın sülbi (öz nəslindən olan) övladlarını onun övladı hesab edir, eləcə də onun övladlarından–istər qız, istərsə də oğlan–doğulanları (nəvə-nəticələri) onun övladları hesab edir. Qur`an və sünnə baxımından bu mətləbə dair çoxlu şahidlər vardır ki, onlardan bə`zilərini qeyd edirik:

1-Qur`ani-Məcid aşağıdakı ayədə həzrəti İsanı İbrahimin övladlarından hesab edir, halbuki İsa Məryəmin oğludur və ana tərəfdən həzrəti İbrahimə çatır:

وَوَهَبْنَا لَهُ اِسْحَاقَ وَيَعْقُوبَ كُلاًّ هَدَيْنَا وَنُوحًا هَدَيْنَا مِن قَبْلُ وَمِن ذُرِّيَّتِهِ دَاوُودَ وَسُلَيْمَانَ وَاَيُّوبَ وَيُوسُفَ وَمُوسَي وَهَارُونَ وَكَذَلِكَ نَجْزِي الْمُحْسِنِينَ وَزَكَرِيَّا وَيَحْيَي وَعِيسَي وَاِلْيَاسَ كُلٌّ مِنَ الصَّالِحِينَ

**“Biz ona (İbrahimə) Yə`qubu və İshaqı əta etdik, hamısını düz yola hidayət etdik. Nuhu da İbrahimdən qabaq və İbrahimin övladlarından Davud, Suleyman, Əyyub, Yusif, Musa, Harunu da hidayət etdik. Biz yaxşı əməl sahiblərinə belə mükafat verərik (həmçinin İbrahimin övladlarından) Zəkəriyyə, Yəhya və İsanı (hidayət etdik).”**[158] İslam alimləri bu ayəni imam Həsənlə Hüseynin Peyğəmbər (s.ə.v.v)-in övladları olmasına dair dəlil hesab etmişlər. Onlardan birini qeyd edirik. Cəlaləddin Süyuti belə nəql edir:

ٍ بَلَغَنِي اَنَّكَ تَزْعَمُ اَنَّ الْحَسَنَ وَ الْحُسَيْنَ مِنْ ذُرِّيَّةِ النَّبِيِّ **K**اَرْسَلَ الْحَجَّاجُ اِلَي يَحْيَي بْنِ يَعْمُرَ فَقَالَ تَجِدُهُ فِي كِتَابِ اللهِ وَ قَدْ قَرَاْتَهُ مِنْ اَوَّلِهِ اِلَي آخِرِهِ فَلَمْ اَجِدْهُ قَالَ اَلَسْتَ تَقْرَاُ سُورَةَ الاَنْعَامِ؟ وَ مِنْ ذُرِّيَّتِهِ دَاوُودَ وَ سُلَيْمَانَ- حَتَّي بَلَغَ - وَ يَحْيَي وَ عِيسَي؟ قَالَ بَلَي قَالَ اَلَيْسَ عِيسَي مِنْ ذُرِّيَّةِ اِبْرَاهِيمَ وَ لَيْسَ لَهُ اَبٌ؟ قَالَ صَدَقْتَ

Bir gün Həccac, Yəhya ibni Yə`murun ardınca bir adam göndərib onu çağırtdırdı və dedi: “Mənə belə xəbər çatıb ki, sən Həsənlə Hüseynin Peyğəmbərin övladı olduğunu deyirsən və bu barədə də Qur`anda bir dəlil tapmısan, halbuki mən Qur`anı əvvəldən axıra qədər oxumuşam, amma bu mətləbə dair dəlil görməmişəm.” Yəhya ibni Yə`mur dedi: Sən “Ən`am” surəsinin **“Və min zurriyyətihi Davudə və Suləymanə”...** ayəsini oxumamısanmı ki, axırda “Yəhya və İsa” deyə buyurulur?!” Həccac dedi: “Əlbəttə ki, oxumuşam.” Yəhya dedi: “Qur`anın bu ayəsində həzrəti İsa İbrahimin övladı hesab edilmişdir, halbuki onun atası yox idi (və ana tərəfdən İbrahimə gedib çatırdı).” Həccac cavab verdi: “Sənin sözün doğrudur.”[159]

Həm bu ayədən, həm də təfsirçilərin sözlərindən aydın olur ki, təkcə şiələr deyil, eləcə də bütün müsəlman alimləri imam Həsənlə imam Hüseyni Peyğəmbər (s.ə.v.v)-in

---

[158] Ən`am” surəsi, ayə:84-85

[159] “Durrul-Mənsur”, 3-cü cild, səh.28, Beyrut çapı

övladı və onun zürriyyəsindən hesab edirlər.

2-Müddəamızın düzlüyünə şəhadət verən digər bir ayə "Ali İmran" surəsindəki "Mübahilə" ayəsidir. İndi "Mübahilə" ayəsinin özünü və müfəssirlərin bu barədəki sözlərini qeyd edirik:

فَمَنْ حَآجَّكَ فِيهِ مِن بَعْدِ مَا جَاءَكَ مِنَ الْعِلْمِ فَقُلْ تَعَالَوْاْ نَدْعُ اَبْنَاءَنَا وَاَبْنَاءَكُمْ وَنِسَاءَنَا وَنِسَاءَكُمْ وَاَنْفُسَنَا واَنْفُسَكُمْ ثُمَّ نَبْتَهِلْ فَنَجْعَلْ لَّعْنَةُ اللهِ عَلَي الْكَاذِبِينَ

**"(Ey Peyğəmbər,) Allahın vəhyi sənə gəldikdən sonra hər kəs səninlə (İsa barəsində) mübahisə və ehticac məqamına gəlsə de: Gəlin övladlarımızı və övladlarınızı, qadınlarımızı və qadınlarınızı, canlarımızı və canlarınızı çağıraq, sonra bir-birimizə qarğış edib Allahın lə`nətini yalançılara yağdıraq."**[160]

Müfəssirlər deyirlər: Qeyd olunan ayə "Mübahilə" adı ilə məşhurdur və Peyğəmbər (s.ə.v.v)-in Nəcran məsihilərinin başçısı ilə mübahisə etməsindən və onların inadkarlıq göstərməsindən sonra nazil olmuşdur. Belə ki, Peyğəmbəri Əkrəm (s.ə.v.v) Allahın fərmanı ilə Əliyyibni Əbi Talib, Fatimeyi Zəhra, imam Həsən və imam Hüseyn (ə)-la birlikdə mübahilə aparmaq üçün yola düşdü. Məsihi başçıları Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in və onun Əhli-beytinin nurani simalarını müşahidə etdikdə qorxuya düşdülər və o həzrətdən istədilər ki, mübahilə və qarğış fikrindən dönsün. Peyğəmbər (s.ə.v.v) də onların təkliflərini qəbul etdi, müqavilə bağlamaqla bu hadisə sona çatdı.

Həm sünnü, həm də şiə alimləri bu məsələ barəsində yekdil nəzərdədirlər ki, mübahilə günü imam Əli, Fatimə, imam Həsən və imam Hüseyn (ə) Peyğəmbər (s.ə.v.v)-lə yanaşı idilər. Bu da göstərir ki, "əbnaəna" (yə`ni bizim övladlarımız) kəlməsində məqsəd imam Həsən imam Hüseyndir, deməli bu ayədə Həsən və Hüseyn Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in övladları kimi qələmə verilmişdir.

Qeyd olunmalıdır ki, müfəssirlər mübahilə ayəsi ilə əlaqədar çoxlu rəvayətlər nəql etdikdən sonra onun səhih olduğuna – müddəamızın səhihliyinə şəhadət vermişlər. Nümunə üçün onlardan bir neçəsini qeyd edirik:

a) Süyuti Hakimdən, ibni Mərdəveyhdən, Əbu Nəimdən, onlar da Cabir ibni Əbdüllahdan nəql edərək deyir:

اَنْفُسَنَاوَاَنْفُسَكُم رَسُولُ اللهِK عَلِيٌّ وَ اَبْنَائُهُمَا الْحَسَنُ وَ الْحُسَيْنُ وَ نِسَاءَنَاK فَاطِمَةُK

*"Ənfusəna" (bizim canlarımız) dedikdə məqsəd Əliyyibni Əbi Talib, "əbnaəna" (övladlarımız) dedikdə məqsəd Həsən və Hüseyn, "nisaəna" (qadınlarımız) dedikdə isə məqsəd Fatimeyi-Zəhradır.*[161]

b) Fəxruddin Razi öz təfsirində yuxarıdakı rəvayəti qeyd etdikdən sonra deyir:

وَاعْلَمْ اَنَّ هذِهِ الرِّوَايَةَ كَالْمُتَّفَقِ عَلَي صِحَّتِهَا بَيْنَ اَهْلِ التَّفْسِيرِ وَ الْحَدِيثِ

*"Bil ki, bu rəvayət təfsir və hədis alimlərinin, düzgünlüyü barədə yekdil nəzər verdikləri hədislərdəndir."*[162]

Sonra əlavə edir:

اَلْمَسْاَلَةُ الرَّابِعَةُ هذِهِ الاَيَةُ دَالَّةٌ عَلَي اَنَّ الْحَسَنَ وَ الْحُسَيْنَ كَانَا اِبْنَيْ رَسُولِ اللهِK وَعَدَ اَنْ يَدْعُوَ اَبْنَاءَهُ فَدَعَا الْحَسَنَ وَ الْحُسَيْنَ فَوَجَبَ اَنْ يَكُونَ اِبْنَيْهِ

*"Qeyd olunan ayənin mə`nası budur ki, Həsən və Hüseyn (ə) Peyğəmbər (s.ə.v.v)-in*

---

160 "Ali İmran" surəsi, ayə:61

161 "Durrul-Mənsur", 2-ci cild, səh.39, Beyrut çapı

162 "Təfsiri Məfatihil-Ğeyb", 2-ci cild, səh.488, Misir çapı, 1308

*övladıdır, çünki qərara alınmışdı ki, Rəsuli Əkrəm öz övladlarını çağırsın, buna görə də Həsən və Hüseyni çağırdı."*[163]

v) Əbu Əbdillah Qurtəbi də öz təfsirində belə yazır:

اَبْنَاءَنَا دَلِيلٌ عَلَي اَنَّ اَبْنَاءَ الْبَنَاتِ يُسَمَّوْنَ اَبْنَاءً

*"(Qeyd olunan ayədəki) "əbnaəna" kəlməsi göstərir ki, insanın qız tərəfindən olan övladları da onun öz övladları kimidir."*[164]

3-Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in sözləri imam Həsən və imam Hüseynin o həzrətin öz övladı olmasına aşkar bir dəlildir. O həzrətin sözlərindən ikisini qeyd edirik:

a) Peyğəmbəri Əkrəm (s.ə.v.v) imam Həsən və imam Hüseyn (ə) barəsində buyurur:

هذَانِ اِبْناىَ مَنْ اَحَبَّهُمَا فَقَدْ اَحَبَّنِي

**"Həsən və Hüseyn mənim iki övladımdıræ hər kəs onları sevsə məni sevmişdir."**[165]

b) Peyğəmbəri Əkrəm (s.ə.v.v) imam Həsən və imam Hüseynə (ə) işarə edərək buyurmuşdur:

اِنَّ ابْنَيَّ هذَيْنِ رَيْحَانَتَيَّ مِنَ الدُّنْيَا

**"Mənim bu iki övladım dünyadan olan iki reyhanımdır."**[166]

---

163 Yenə orada

164 "Əl-Camiu li əhkamil-Qur`an", 4-cü cild, səh.104, Beyrut çapı.

165 "Tarixi Mədinətu Dəməşq" (ibni Əsakir), imam Hüseyn (ə)-ın tərcümeyi-halı, səh.59, hədis-6, Beyrut çapı, 1400-cü qəməri ili

166 Yenə orada, səh.62, hədis-112

SUAL: 22

## NƏ ÜÇÜN ŞİƏLƏR XİLAFƏTİ PEYĞƏMBƏRİ ƏKRƏM (S.Ə.V.V) TƏRƏFİNDƏN TƏ`YİN OLUNAN HESAB EDİR?

Cavab: Aydındır ki, müqəddəs islam dini dünya səviyyəli və əbədi bir dindir. Peyğəmbər (s.ə.v.v) həyatda olduğu dövrdə islam ümmətinin rəhbərliyini öz öhdəsinə almışdı. Onun vəfatından sonra ümmətin ən ləyaqətli şəxsi ümmətə rəhbərlik etməli idi. Peyğəmbər (s.ə.v.v)-dən sonra islam ümmətinə rəhbərlik məqamının Peyğəmbər (s.ə.v.v)-in tərəfindən və Allahın əmri ilə tə`yin olunma əsasındamı, yoxsa seçki yolu ilə olan bir məqam olması ilə əlaqədar iki nəzəriyyə mövcuddur. Şiələrin inancına görə ümmətə rəhbərlik məqamı, Peyğəmbər (s.ə.v.v)-in canişini Allah tərəfindən tə`yin edilməlidir, halbuki sünnülərin inancına görə bu məqam seçki yolu ilə baş verir və Peyğəmbəri (s.ə.v.v)-dən sonra ölkə işlərini idarə edən bir şəxsi məhz ümmət seçməlidirlər. (İctimai hesablamalar xilafətin Allah tərəfindən tə`yin olunmalı olmasına şahiddir.)

Şiə alimləri xilafət məqamının Allah tərəfindən tə`yin olunması ilə əlaqədar özlərinin e`tiqadiyyat kitablarında çoxlu dəlillər bəyan etmişlər. Amma əsas məsələ Peyğəmbər (s.ə.v.v)-in dövrünə hakim olan şəraitin düzgün təhlil edilib araşdırılmasıdır, bu da şiələrin nəzəriyyəsinin düzgün olmasına tam dəlalət edir.

Peyğəmbər (s.ə.v.v)-in risaləti dövründə islam aləminin daxili və xarici siyasətinin araşdırılması göstərirdi ki, o həzrətin canişini Allahın tərəfindən və Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in öz əli ilə seçilməlidir. Çünki islam cəmiyyəti üçlük təşkil edən təhlükə – məhv olunma ilə daim təhdid olunurdu. (Roma imperatorluğu, İran padşahlığı və daxili münafiqlər.) Eləcə də ümmətin mənafeyi bunu tələb edirdi ki, Peyğəmbəri Əkrəm (s.ə.v.v) onlara siyasi bir rəhbər tə`yin etməklə bütün ümməti xarici düşmənlər müqabilində vahid cərgədə qərar versin, düşmənlərin onlara nüfuz edib (daxili ixtilaflar da buna daha çox kömək edirdi) onlara istila altına almasının qarşısını alsın.

### BİR QƏDƏR İZAH

Bu təhlükəli üçbucağın bir tilini Roma imperatorluğu təşkil edirdi. Bu böyük qüdrət Ərəbistan yarımadasının şimalında yerləşirdi və Peyğəmbər (s.ə.v.v) bu barədə daim nigarançılıq hissi keçirir, ömrünün axır vaxtlarına qədər Roma barəsində fikirləşirdi.

Müsəlmanlar ilk dəfə hicrətin 8-ci ilində məsihi dinində olan Roma ordusu ilə Fələstində qarşılaşmışdı. Bu müharibə Cə`fər ibni Təyyar, Zeyd ibni Harisə və Əbdüllah ibni Rəvahə kimi üç böyük sərkərdənin şəhid edilməsi və islam ordusunun məğlubiyyəti ilə sona çatmışdı. İslam ordusunun küfr ordusu müqabilində geri çəkilməsi Qeysər ordusunun daha da cür`ətlənməsinə səbəb olmuşdu, onların daim islam mərkəzinə yürüş etmələri təhlükəsi var idi. Buna görə də Peyğəmbər (s.ə.v.v) hicrətin 9-cu ilində böyük bir ordu ilə Şam sərhədlərinə doğru hərəkət etdi ki, hər növ hərbi toqquşmalara şəxsən rəhbərlik etsin. Başdan-başa əzab-əziyyətlə yanaşı olan bu səfərdə islam ordusu özünün keçmiş heysiyyətini qaytarıb öz siyasi həyatını yeniləşdirə bildi.

Bu nisbi qələbə Peyğəmbər (s.ə.v.v)-i qane etmədi. O, öz xəstəliyindən bir neçə gün qabaq islam ordusunun (Üsamənin rəhbərliyi ilə) Şama doğru hərəkət edib döyüş meydanında hazır olmasını əmr etmişdi.

Düşmənin ikinci tərəfi İran şahlığı idi. Hətta İran şahı Xosrov narahatlığın

şiddətindən Peyğəmbərin məktubunu cırıb yerə tökmüş, onun səfirini təhqir etmiş və Yəmənin hakiminə yazmışdı ki, Məhəmmədi tutsun, imtina etdiyi surətdə onu qətlə yetirsin. Xosrov Pərvizin Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in dövründə ölməsinə baxmayaraq Yəmən nahiyəsinin istiqlaliyyət məsələsi (o, uzun illər İran dövlətinin müstəmləkəsi olmuşdu) İran şahlarının nəzərindən uzaq qalmamışdı, iranlı siyasətçilərin malik olduqları təkəbbür belə bir qüdrətin varlığına dözməyə heç vaxt icazə vermirdi.

Üçüncü təhlükə daxildəki münafiqlər idi. Onlar müsəlmanların əleyhinə daim casusluq edərək nifaq, onların arasında təfriqə salıb təxribat işləri aparırdılar. Hətta Peyğəmbər (s.ə.v.v)-in özünə qarşı belə sui-qəsd hazırl-ayaraq Təbuk-Mədinə yolunda onu öldürmək istəyirdilər. Bə`ziləri də zümzümə edərək deyirdilər ki, Peyğəmbərin vəfatı ilə islam hərəkatı sona çatacaq, hamı xilas olacaqdır.[167]

Münafiqlərin təxribatçılıq qüdrətləri o qədər güclü idi ki, Qur`an "Ali-İmran", "Nisa", "Maidə", "Ənfal", "Tövbə", "Ənkəbut", "Əhzab", "Muhəmməd", "Fəth", "Mücadilə", "Hədid", "Münafiqun" və "Həşr" surələrində onların barəsində söhbət açır.[168]

İslamın məhv edilməsi yolunda pusquda duran düşmənlərin varlığı ilə belə, Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in bünövrəsi yenicə qurulmuş islam cəmiyyətini qorumaq üçün onlara dini, siyasi və sair işlərdə bir rəhbər təqdim etməməsi düzgün olardımı?!

İctimai hesablamalar göstərir ki, Peyğəmbəri Əkrəm (s.ə.v.v) özündən sonra ümmət üçün bir rəhbər tə`yin etməklə yarana biləcək hər növ ixtilafların qarşısını almalı, möhkəm və dayanaqlı bir müdafiə xətti yaratmaqla islam vəhdətini sığortalamalı idi. Hər növ xoşagəlməz hadisələrin qarşısını (Peyğəmbər (s.ə.v.v)-in vəfatından sonra hər tayfanın "rəhbər bizdən olmalıdır" deməsinin qarşısını) almaq üçün rəhbər tə`yin edib onu camaata təqdim etməkdən başqa bir çıxış yolu yox idi. Bu ictimai hesablamalar ümmətin Peyğəmbər (s.ə.v.v)-dən sonrakı rəhbərinin məhz o həzrətin tərəfindən tə`yin olunmasının zəruri olması barəsindəki nəzəriyyənin səhihliyini göstərir.

## PEYĞƏMBƏRİ ƏKRƏM (S.Ə.V.V)-İN AŞKAR BUYRUQLARI

Bu kimi ictimai zəminələr digər səbəblər üzündən Peyğəmbər (s.ə.v.v) be`sətinin ilk dövrlərindən e`tibarən ömrünün axırlarına qədər daim canişinlik məsələsini irəli çəkmiş, öz canişinini həm risalətinin ilk dövründə və nübüvvətini aşkar şəkildə e`lan etmək üçün qohum-əqrəbasını də`vət etdiyi bir məclisdə, həm də ömrünün axırlarında (Həccətul-vidadan qayıdarkən Qədir-Xum adlı yerə), həmçinin həyatının müxtəlif dövrlərində də bəyan etmişdir ki, o həzrətin kəlamlarının üç nümunəsini kitabın əvvəlində (ikinci sualın cavabında) onların mö`təbər sənədini islam mühəddislərinin və alimlərinin kitablarından verməklə bəyan etmişik.

İslamın əvvəllərində mövcud olan ictimai şəraiti nəzərə almaqla, Peyğəmbər (s.ə.v.v)-in, Əmirəl-mö`minin Əli (ə)-ı özündən sonrakı canişin kimi təqdim etməsi barəsindəki kəlamlarına müraciət etməklə aydın olur ki, Peyğəmbər (s.ə.v.v)-dən sonra islam ümmətinə rəhbərin məhz o həzrət tərəfindən tə`yin olunması qaçılmaz və zəruri bir məsələ imiş.

---

[167] "Tur" surəsi, ayə:30

[168] Ustad Cə`fər Sübhaninin "Füruği əbədiyyət" kitabından

SUAL: 23

## ALLAHDAN BAŞQASINA AND İÇMƏK ŞİRKDİRMİ?

Cavab: “Tovhid” və “şirk”in təfsirini Qur`an ayələri və Peyğəmbər (s.ə.v.v) sünnəsində axtarmaq lazımdır. Çünki Qur`an ayələri və Peyğəmbər (s.ə.v.v)-in davranışı haqq ilə batilin, tovhidlə şirkin tanınmasında dəyərli me`yarlardır. Deməli, yaxşı olar ki, hər bir düşüncə və rəftarı təəssübdən uzaq olan oyaq vicdanların hüzurunda vəhy məntiqi və Peyğəmbər (s.ə.v.v)-in həyat üslubu ilə dəyərləndirək.

İndi isə Allahdan başqasına and içməyin caiz olmasını Qur`an ayələri və Peyğəmbər (s.ə.v.v) sünnəsindən xatırladırıq:

1-Qur`ani-Məcid özünün əbədi ayələrinin bə`zilərində müəyyən məxluqlara, o cümlədən Peyğəmbər (s.ə.v.v)-in canına, insanın ruhuna, yazı simvolu olan qələmə, günəşə, aya, ulduza, gecə-gündüzə, asimana, yerə, zamana, dağlara və dəryalara and içmişdir. İndi onların bə`zilərini nəzərinizə çatdırırıq:

لَعَمْرُكَ اِنَّهُمْ لَفِي سَكْرَتِهِمْ يَعْمَهُونَ

**“(Ey Peyğəmbər,) And olsun sənin canına, bunlar öz məstliklərində (nəfsani istəklərində) sərgərdandırlar!”**[169]

وَالشَّمْسِ وَضُحَاهَا وَالْقَمَرِ اِذَا تَلَاهَا وَالنَّهَارِ اِذَا جَلَّاهَا وَاللَّيْلِ اِذَا يَغْشَاهَا وَالسَّمَاءَ وَمَا بَنَاهَا
وَالْاَرْضِ وَمَا طَحَاهَا وَنَفْسٍ وَمَا سَوَّاهَا فَاَلْهَمَهَا فُجُورَهَا وَتَقْوَاهَا

**“And olsun günəşə və onun şüasına, and olsun aya günəşin ardınca çıxdığı zaman, and olsun günə –dünyanı işıqlandırdığı zaman, and olsun gecəyə dünyanı qaranlıq pərdəyə bürüdüyü zaman, and olsun asimana və o kəsə ki, asimanı bina etmişdir, and olsun yerə və o kəsə ki, onu açmışdır, and olsun ruha (insana) və o şəxsə ki, onu yaratmış, yaxşını və pisi ona ilham etmişdir...”**[170]

وَالنَّجْمِ اِذَا هَوَي

**“And olsun ulduza o zaman ki, enər.”**[171]

وَالْقَلَمِ وَ مَا يَسْطُرُونَ

**“And olsun qələmə və (onların) yazdıqlarına.”**[172]

وَ الْعَصْرِ اِنَّ الاِنْسَانَ لَفِي خُسْرٍ

**“And olsun zamana (əsrə) ki, bütün insanlar ziyankarlıqdadır.”**[173]

وَالْفَجْرِ وَ لَيَالٍ عَشْرٍ

**“And olsun sübh çağına və onluq təşkil edən gecələrə.”**[174]

وَالطُّورِوَكِتَابٍ مَّسْطُورٍ ي رَقٍّ مَّنشُورٍ وَالْبَيْتِ الْمَعْمُورِ وَالسَّقْفِ الْمَرْفُوعِ وَالْبَحْرِ الْمَسْجُورِ

**“And olsun Turi-Sina dağına, and olsun yazılmış kitaba (Qur`ana), mənşur səhifələrdə yazılana, and olsun Beyti Mə`mura (abad olunmuş evə), and olsun**

---

169 “Hicr” surəsi, ayə:72

170 “Şəms” surəsi, ayə:1-8

171 “Nəcm” surəsi, ayə:1

172 “Qələm” surəsi, ayə:1

173 “Əsr” surəsi, ayə:1-2

174 “Fəcr” surəsi, ayə:1-2

**qaldırılmış tağa, and olsun təlatümlü dəryaya.”**[175]

Həmçinin yaradılış dünyasının müxtəlif təzahürlərinə and içmək “Naziat”, “Mürsəlat”, “Büruc”, “Tariq”, “Bələd”, “Tin”, “Zuha” surələrində gözə çarpır. Şübhəsiz, əgər Allahdan başqasına and içmək şirkə səbəb olsaydı yeganəpərəstliyin qaynağı və əbədi tovhidin carçısı olan Qur`an heç vaxt bu işi görməzdi. Əgər bu növ and içmələr yalnız Allaha məxsus olsaydı, bu məsələ Qur`an ayələrində mütləq xatırladılmalı idi ki, səhvə yol verilməsin.

2-Bütün dünya müsəlmanları Peyğəmbər (s.ə.v.v)-i özlərinə nümunə seçir, haqqı batildən, düzü əyridən seçmək üçün o həzrətin əməl və rəftarlarını bir me`yar hesab edirlər. Müsəlman mühəqqiqləri, eləcə də “Səhih” və “Müsnəd” müəllifləri Peyğəmbər (s.ə.v.v)-in Allahdan başqasına and içdiyi çoxlu halları qeyd etmişlər. Hənbəlilərin rəhbəri Əhməd ibni Hənbəl özünün “Müsnəd” kitabında Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in belə buyurduğunu rəvayət edir:

فَلَعمْرِي لَاَنْ تَكَلَّمَ بِمَعْرُوفٍ وَ تَنْهي” عَنْ مُنْكَرٍ خَيْرٌ مِنْ اَنْ تَسْكُتَ

**“Canıma and olsun, əgər əmr be mə`ruf və nəhy əz münkər etsəm sakit olmaqdan daha yaxşıdır.”**[176]

Müslim özünün “Səhih” kitabında (sünnülərin “Sihahi sittə” kitabından biridir) belə qeyd edir:

اَمَّا وَ اَبِيكَ لَتُنَبَّاَنَّهُ اَنْ K فَقَالَ يَا رَسُولَ اللهِ اَيُّ الصَّدَقَةِ اَعظَمُ اَجْرًا؟ فَقَالَ جَاءَ رَجُلٌ اِلَي النَّبِيِّ
تَصَدَّقَ وَ اَنْتَ صَحِيحٌ شَحِيحٌ تَخْشَي الْفَقْرَ وَ تَاْمَلُ الْبَقَاءَ

**“Bir nəfər Peyğəmbər** (s.ə.v.v)**-dən soruşdu: Hansı sədəqənin mükafatı daha yaxşıdır? Buyurdu: Atana and olsun, ondan agah olacaqsanæ və o da bundan ibarətdir ki, salamatlıq halında və həris ola-ola, fəqirlikdən qorxub qalmağa ümidin olan halda sədəqə verəsən.”**[177]

Dünya müsəlmanlarının böyük bir qismini Allahdan başqasına and içdiklərinə görə müşrik hesab edən şəxslər Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in bu aşkar rəftarını necə izah edirlər?!

3-Qur`an ayələri və Peyğəmbər (s.ə.v.v) sünnəsindən əlavə o həzrətin yaxın adamlarının rəftarı da Allahdan başqasına and içməyin caizliyinə dəlalət edir. Əliyyibni Əbi Talib (ə) özünün fəsahətli və yüksək söz ustalığına malik olan xütbələrinin çoxunda öz canına and içərək buyurur:

وَلَعمرِي لَيُضَعَّفَنَّ لَكُمُ التِّيه مِنْ بَعْدِي اَضْعَافًا

**“And olsun canıma, məndən sonra sizin sərgərdançılığınız neçə qat artacaqdır!”**[178]

Başqa bir yerdə buyurur:

وَلَعمرِي لَاِنْ لَمْ تَنْزَعْ عَنْ غَيِّكَ وَ شِقَاقِكَ لَتَعْرِفَنَّهُمْ عَنْ قَلِيلٍ يَطْلُبُونَكَ

**“And olsun canıma, əgər öz azğınçılığından və bədbəxtçiliyindən əl çəkməsən, səni axtaranları tanıyacaqsan.”**[179]

---

175 “Tur” surəsi, ayə:1-6

176 “Müsnədi Əhməd”, 5-ci cild, səh.224-225

177 “Səhihi Müslim”, 3-cü cüz, Misir çapı, Kitabuz-zəkat, bəyanu ənnə əfzələssədəqəti sədəqətus-səhihiş-şəhih babı, səh.92 və 94

178 “Nəhcül bəlağə” (Məhəmməd Əbdüh), 161-ci xütbə.

179 Sair hallara agah olmaq üçün 168, 182, 187-ci xütbələrə, 6 və 54-cü məktublara baxa bilərsiniz.

Aydındır ki, bu qədər aşkar rəvayətlər müqabilində heç bir növ şəxsi rə`yə və istihsana istinad etmək olmaz, həmçinin Allahın Qur`anda buyurduqlarını, Peyğəmbər (s.ə.v.v)-in öz üslubunu və onun yaxın adamlarının (Əli (ə) kimi) tutduğu rəftarı heç bir əsasla xəta hesab etmək, onları şirklə müttüəhim etmək olmaz.

## NƏTİCƏ

Qeyd olunan dəlillərin məcmusundan aydın olur ki, Allahdan başqasına and içməyin şər`i və qanuni bir iş olması Qur`an ayələri, Peyğəmbər (s.ə.v.v) sünnəsi və mö`minlərin rəftarı nəzərindən danılmaz bir prinsipdir, onun tovhid və yeganəpərəstliklə azacıq belə, ziddiyyəti yoxdur. Deməli əgər bir rəvayətin zahiri mə`nası, qəti dəlillərlə sübuta yetən hökmlərlə müxalif olarsa onu elə bir mə`naya yozmaq lazımdır Qur`anın və rəvayətlərin danılmaz prinsipi ilə uyğunlaşsın.

Bu barədə bə`zən müəmmalı bir rəvayətə işarə olunur, biz də onun aşkar mə`nasını qeyd edərək cavabını veririk:

يَقُولُ وَ هُوَ عُمَرَ سَمِعَ اللهِ رَسُولَ اِنَّ**K** كَانَ مَنْ وَ بِآبَائِكُمْ تَحْلِفُوا اَنْ يَنْهَاكُمْ اللهَ اِنَّ فَقَالَ اَبِي وَ
حَالِفًا فَلْيَحْلُفْ بِاللهِ اَوْ يَسْكُتْ

*“Peyğəmbəri Əkrəm (s.ə.v.v) eşitdi ki, Ömər öz atasına and içir. Buyurdu: Allah sizi öz atalarınıza and içməkdən çəkindirmişdir. Hər kəs and içsə ya Allaha and içsin, ya da sakit olsun.”*[180]

Bu hədisin, Allahdan başqasına and içməyin caizliyini aşkar şəkildə göstərən Qur`an ayələri və rəvayətlərin müqabilində olmasına baxmayaraq onların müqabilində heç bir tə`sirə malik deyildir. Lakin bu rəvayətlərlə əvvəldə qeyd olunan rəvayətlərin arasındakı təzadı aradan qaldırmaq üçün demək lazımdır ki, Ömərin öz atasına and içməsinin Peyğəmbəri Əkrəm (s.ə.v.v) tərəfindən qadağan edilməsi, eləcə də onun kimi başqa şəxslərin öz atalarına and içməsinin qarşısının alınmasının səbəbi budur ki, onların ataları əsas e`tibarilə bütpərəst və müşrik olmuşlar. Kafir və bütpərəst insan o qədər ləyaqətsizdir ki, onlara and içmək olmaz.

[180] “Sunəni Kubra”, 10-cu cild, səh.29, “Sünəni Nəsai”, 7-ci cild, səh.4-5

SUAL: 24

## İLAHİ ÖVLİYALARA TƏVƏSSÜL ETMƏK ŞİRKƏ SƏBƏB OLURMU VƏ BİD`ƏT SAYILIRMI?

Cavab: Təvəssül – insanın yüksək ilahi məqama çatmaq üçün özü ilə Allah arasında vasitə qərar verdiyi dəyərli bir varlıqdır. İbni Mənzur "Lisanul-ərəb" adlı lüğət kitabında deyir:

تَوَسَّلَ اِلَيْهِ بِكَذَا تَقَرَّبَ اِلَيْهِ بِحُرْمَةِ آصِرَةٍ تَعْطِفُهُ عَلَيْهِ

*"Filan varlıqla ona təvəssül etdi" – yə`ni onun nəzərini cəlb edən məqam və ehtiram vasitəsilə ona yaxınlaşdı".*[181]

Qur`ani-Kərim buyurur:

يَا اَيُّهَا الَّذِينَ آمَنُواْ اتَّقُواْ اللّهَوَابْتَغُواْ اِلَيْهِ الْوَسِيلَةَ وَجَاهِدُواْ فِي سَبِيلِهِ لَعَلَّكُمْ تُفْلِحُونَ

**"Ey iman gətirənlər, Allah qarşısında təqvalı (pərhizkar) olun və Onun dərgahına doğru vasitə hazırlayın. Allah yolunda cihad edin, bəlkə nicat tapasınız."**[182]

Böyük lüğət alimi olan Covhəri "Sihahul-lüğət" kitabında "vəsilə" sözünü tə`rifini belə demişdir:

اَلْوَسِيلَةُ ما يُتَقَرَّبُ بِهِ اِلَي الْغَيْرِ

*"Vəsilə odur ki, onunla başqa bir kəsə yaxınlaşılsın."*

Deməli, onun vasitəsilə təvəssül etdiyimiz dəyərli varlıq bə`zən dəyərli və saleh əməllər, Allaha xalis pərəstişdir (ki, güclü bir vasitə kimi insanı Allah dərgahına yaxınlaşdırır), bə`zən də Allah yanında böyük məqam və ehtirama layiq görülən bir insandan ibarətdir.

## TƏVƏSSÜLÜN NÖVLƏRİ

Təvəssülü üç qismə bölmək olar:

1-Yaxşı əməllərə təvəssül etmək: Cəlaləddin Süyuti **"vəbtəğu iləyhil-vəsilətə"** ayəsinin təfsirində belə bir rəvayət nəql edir:

تَقَرَّبُوا اِلَي اللهِ بِطَاعَتِهِ وَ الْعَمَلِ بِمَا يُرْضِيهِKوَابْتَغُوا اِلَيْهِ الْوَسِيلَةَ  قَالَ٠عَنْ قُتَادَةَ فِي قَوْلِهِ تَعَالَي

*"Qütadə "vəbtəğu iləyhil-vəsilətə" ayəsi barəsində deyir: Yə`ni Allaha itaət etməklə, Onun razılığına səbəb olan əməllər vasitəsilə Allah dərgahına yaxınlaşın."*[183]

2-Layiqli bəndələrin dualarına təvəssül etmək. Belə ki, Qur`ani-Kərim Yusifin qardaşlarının dilindən belə hekayət edir:

قَالُوا يَا اَبَانَا اسْتَغْفِرْ لَنَا ذُنُوبَنَا اِنَّا كُنَّا خَاطِئِينَ قَالَ سَاَسْتَغْفِرُ لَكُمْ رَبِّي اِنَّهُ هُوَ الْغَفُورُ الرَّحِيمُ

**"(Yə`qubun övladları öz atalarına) dedilər: Ey ata, böyük Allahdan bizim günahlarımızın bağışlanmasını istə, çünki biz səhvə yol vermişik. Yə`qub dedi: Tezliklə öz Pərvərdigarımdan sizin üçün bağışlanmaq istəyəcəyəm. Həqiqətən O, çox mehriban və bağışlayandır."**[184]

---

181 "Lisanul-Ərəb", 11-ci cild, səh.724

182 "Maidə" surəsi, ayə:34

183 "Durrul-Mənsur", 2-ci cild, səh.280, Beyrut çapı

184 "Yusif" surəsi, ayə:7-8

Bu ayədən mə`lum olur ki, Yə`qubun övladları atasının dua etməsinə və istiğfar istəməsinə təvəssül etdilər, onu öz günahlarının bağışlanması üçün bir vasitə seçdilər. Həzrət Yə`qub da nəinki onların təvəssülünə e`tiraz etmədi, əksinə onlara istiğfar və`dəsi də verdi.

3-Allah yanında böyük məqama, xüsusi hörmət və ehtirama layiq görülən mə`nəvi şəxsiyyətlərə təvəssül edərək Allah dərgahına yaxınlaşmaq.

Bu növ təvəssül də islamın əvvəllərində Peyğəmbər (s.ə.v.v) səhabələri tərəfindən qəbul olunub.

İndi Peyğəmbər (s.ə.v.v) səhabələrinin, eləcə də islam aləminin böyük şəxsiyyətlərinin rəftar və hədisləri sayəsində bu məsələnin dəlillərini xatırladırıq:

1-Əhməd ibni Hənbəl özünün "Müsnəd" kitabında Osman ibni Hüneyfdən belə rəvayət edir:

اُدْعُ اللهَ اَنْ يُعَافِيَنِي قَالَ K وَ سَلَّمَ فَقَالَ"اِنَّ رَجُلاً ضَرِيرَ الْبَصَرِ اَتَي النَّبِيَّ صَلَّي اللهُ عَلَيْهِ وَ آلِهِ
اِنْ شِئْتَ دَعَوْتُ لَكَ وَ اِنْ شِئْتَ اَخَّرْتُ ذَاكَ فَهُوَ خَيْرٌ فَقَالَ اُدْعُهُ فَاَمَرَهُ اَنْ يَتَوَضَّاَ فَيُحْسِنَ وُضُوئَهُ
اَللَّهُمَّ اِنِّي اَسْاَلُكَ وَ اَتَوَجَّهُ اِلَيْكَ بِنَبِيِّكَ مُحَمَّدٍ نَبِيِّ الرَّحْمَةِ يَا Kفَيُصَلِّيَ رَكْعَتَيْنِ وَ يَدْعُوَ بِهذَا الدُّعَاءِ
مُحَمَّدُ اِنِّي تَوَجَّهْتُ بِكَ اِلَي رَبِّي فِي حَاجَتِي هذِهِ فَتَقْضِيَ لِيَ اللَّهُمَّ شَفِّعْهُ فِيَّ

*"Kor bir kişi Peyğəmbər (s.ə.v.v)-in hüzuruna gəlib dedi: "Allahdan istə, mənim gözlərimə şəfa versin." Peyğəmbər (s.ə.v.v) buyurdu: "İstəsən dua edərəm, istəsən də duanı tə`xirə salaram və bu, daha yaxşıdır." Kor kişi ərz etdi: "Dua edin." Peyğəmbər (s.ə.v.v) ona göstəriş verdi ki, dəstəmaz alsın və dəstəmaz alarkən diqqətli olsun, sonra iki rək`ət namaz qılıb belə dua etsin: "Pərvərdigara, mən Səndən istəyir və sənin rəhmət Peyğəmbərin olan Muhəmmədin vasitəsilə Sənə üz gətirirəm. Ey Muhəmməd, mən öz hacətim barəsində sənin vasitənlə Pərvərdigarıma təvəssül edirəm ki, hacətimi yerinə yetirəsən. Pərvərdigara, onu mənim şəfaətçim qərar ver!"*[185]

Bu hədisin düzgünlüyü bütün mühəddislər tərəfindən qəbul olunmuşdur, belə ki, Hakim Nişapuri "Müstədrək" kitabında hədisi nəql etdikdən sonra onu "səhih" ünvanı ilə vəsf edir. İbni Macə də onu Əbu İshaqdan nəql edərək deyir: "Bu, səhih rəvayətdir." Tirmizi "Əbvabul-əd`iyyə" kitabında bu rəvayətin səhih olduğunu tə`kid edir. Məhəmməd Nəsib Rəfai də "Ət-təvəssülü ila həqiqətit-təvəssül" kitabında deyir:

لَا شَكَّ اَنَّ هذَا الْحَدِيثَ صَحِيحٌ وَ مَشْهُورٌ وَ قَدْ ثَبَتَ فِيهِ بِلَا شَكٍّ وَ لَا رَيْبٍ
وَ سَلَّمَ لَهُ"اِرْتِدَادُ بَصَرِ الأَعْمَي بِدُعَاءِ رَسُولِ اللهِ صَلَّي اللهُ عَلَيْهِ وَ آلِهِ

*"Şəkk yoxdur ki, bu hədis səhih və məşhurdur... Bu rəvayətdə sübut olunmuşdur ki, Peyğəmbər (s.ə.v.v)-in duası ilə o kor kişinin gözləri açılmışdır."*[186]

Bu rəvayətdən aydın olur ki, ehtiyacın tə`min olunması üçün Peyğəmbər (s.ə.v.v)-ə təvəssül etmək caizdir. Hətta Rəsuli Əkrəm (s.ə.v.v) o kor kişiyə əmr edir ki, yuxarıda qeyd olan şəkildə dua etsin, Peyğəmbər (s.ə.v.v)-i özü ilə Allah arasında vasitə qərar verməklə Allahdan istəsin. Elə bu da Allah dərgahında əziz olanlara və ilahi övliyalara təvəssül etməyin mə`nasıdır.

2-Əbu Əbdullah Buxari özünün "Səhih" kitabında yazır:

Kاِنَّ عُمَرَ ابْنَ الْخَطَّابِ رَضِيَ اللهُ عَنْهُ كَانَ اِذَا قَحَطُوا اِسْتَسْقَي بِالْعَبَّاسِ ابْنِ عَبْدِ الْمُطَّلِبِ فَقَالَ

---

185 "Müsnədi Əhməd", 4-cü cild, səh.138, Osman ibni Hüneyfin rəvayətinin bir qismini "Müstədrək" (Hakim) 1-ci cild, səh.313-də qeyd etmişdiræ "Sünəni ibni Macə", 1-ci cild, səh.441, "Əttac", 1-ci cild, səh.286, "Əl-camius-səğir" (Süyuti), səh.59, "Ət-təvəssülü vəl-vəsilətu" (ibni Teymiyyə), səh.98

186 "Ət-təvəssülü ila həqiqətit-təvəssül", səh.158, Beyrut çapı

اَللَّهُمَّ اِنَّا كُنَّا نَتَوَسَّلُ اِلَيْكَ بِنَبِيِّنَا فَتَسْقِيَنَا وَ اِنَّا نَتَوَسَّلُ اِلَيْكَ بِعَمِّ نَبِيِّنَا فَاسْقِنَا قَالَ فَيُسْقَوْنَ

*"Hər vaxt qəhətlik baş versəydi Ömər ibni Xəttab Abbas ibni Əbdül-Müttəlibin vasitəsilə, onu vasitə qərar verərək Allahdan yağış istəyir və deyirdi: "Pərvərdigara! Peyğəmbər (s.ə.v.v)-in sağlığında ona təvəssül edirdik və Sən rəhmət yağışını bizə nazil edirdin. İndi Peyğəmbər (s.ə.v.v)-in əmisi ilə Sənin dərgahına təvəssül edirik ki, bizi sirab edəsən." Və bu duadan sonra (yağış yağır və) sirab olurdular."*[187]

3-Allah övliyalarına təvəssül etmək o qədər adi işlərdəndir ki, islamın əvvəllərindəki müsəlmanlar da öz şe`rlərində Peyğəmbər (s.ə.v.v)-i özləri ilə Allah arasında bir vasitə qərar verirdilər. Səvad ibni Qarib Peyğəmbəri Əkrəm (s.ə.v.v) üçün bir qəsidə oxudu. Onun bə`zi beytləri belədir:

وَ اَشْهَدُ اَنْ لَا رَبَّ غَيْرُهُ وَ اَنَّكَ مَأمُونٌ عَلَي كُلِّ غَالِبٍ وَ اَنَّكَ اَدْنَي الْمُرْسَلِينَ وَسِيلَةً اِلَي اللهِ يَابْنَ الأَكْرَمِينَ الأَطَائِبِ

*"Şəhadət verirəm ki, Allahdan başqa heç bir mə`bud yoxdur, sən hər bir məxfi və örtülü olan şeyə əmanətdarsan. Və şəhadət verirəm ki, sən, ey pakların və əzizlərin övladı, başqa peyğəmbərlərin arasında Allah dərgahına ən yaxın olan bir vasitəsən."*[188]

Peyğəmbər (s.ə.v.v) bu şe`ri Səvad ibni Qaribdən eşitdi, amma onun belə sözlər deməsinin qarşısını əsla almadı, onu şirk və bid`ətlə müttəhim etmədi.

İmam Şafeyi də özünün aşağıda qeyd olunan iki beytində bu həqiqətə işarə edir:

*آلُ النَّبِيُّ ذَرِيعَتِي هُمْ اِلَيْهِ وَسِيلَتِي*
*اَرْجُو بِهِمْ اُعْطَي غَدًا بِيَدِي الْيَمِينِ صَحِيفَتِي*

*"Peyğəmbərin xanədanı mənim Allah dərgahına olan vəsiləmdir.*
*Ümidvaram ki, onların xatirinə əməl dəftərim mənim sağ əlimə verilə."*[189]

İlahi övliyalara təvəssül etməyin caizliyi ilə əlaqədar gəlib çatan rəvayətlərin çoxluğu ilə belə, yuxarıda qeyd olunan rəvayətlər sayəsində təvəssül məsələsi sünnə, səhabələrin yolu və böyük islam alimlərinin nəzərindən bəyənilən bir iş olması aydın olur.

Bununla da Allah dərgahında əziz olan şəxslərə təvəssül etməyi şirk və bid`ət hesab edənlərin sözünün əsassız olduğu sübuta yetir.

---

187 "Səhihi Buxari", 2-ci cüz, kitabul-cüm`ə, babul-istisqa, səh.27, Misir çapı

188 "Əd-durərus-səniyyə" (Seyyid Əhməd ibni Zeyni Dehlan), səh.29, Təbəranidən nəqlən.

189 "Əs-səvaiqul-muhriqə" (ibni Həcər Əsqəlani), səh.178, Qahirə çapı

SUAL: 25

## ALLAH ÖVLİYALARININ TƏVƏLLÜDÜNÜ BAYRAM KEÇİRMƏK BİD`ƏT, YAXUD ŞİRKDİRMİ?

Cavab: Allahın layiqli və saleh bəndələrinin xatirəsini əzizləmək, o cümlədən onların təvəllüd günlərini bayram keçirməyin əql sahibləri nəzərindən bəyənilən bir iş olmasına baxmayaraq bu barədə hər növ şübhənin aradan qaldırılması üçün onun şər`ən icazə verilən bir iş olmasının dəlillərini qeyd edirik:

1-Bu kimi mərasimlərin keçirilməsi onlara məhəbbət izhar etmək üçündür.

Qur`an Peyğəmbəri Əkrəm (s.ə.v.v) və onun Əhli-beyti ilə dostluq göstərib onlara məhəbbət bəsləməyi müsəlmanlara əmr edib buyurur:

قُل لَّا أَسْأَلُكُمْ عَلَيْهِ أَجْرًا إِلَّا الْمَوَدَّةَ فِي الْقُرْبَى

**“(Ey Peyğəmbər,) de: Mən sizdən ən yaxın adamlarıma məhəbbət bəsləməkdən başqa bir şey istəmirəm.”**[190]

Şübhəsiz, ilahi övliyaların təvəllüd münasibətləri ilə əlaqədar bayram keçirmək insanların onlara eşq və məhəbbətlərinin cilvəsidir ki, bu da Qur`an nəzərindən qəbul olunur.

2-Bu mərasimlərin keçirilməsi Peyğəmbəri Əkrəm (s.ə.v.v)-ə hörmət və tə`zimdir.

Qur`an Peyğəmbəri Əkrəm (s.ə.v.v)-ə kömək etməkdən əlavə, onun məqamını yüksək dəyərləndirməyi də səadət və xoşbəxtlik amili kimi qeyd edir:

فَالَّذِينَ آمَنُواْ بِهِ وَعَزَّرُوهُ وَنَصَرُوهُ وَاتَّبَعُواْ النُّورَ الَّذِيَ أُنزِلَ مَعَهُ أُوْلَئِكَ هُمُ الْمُفْلِحُونَ

**“O kəslər ki, Peyğəmbərə iman gətirib onu əzizlədilər və ona kömək etdilər, ona göndərdiyimiz nura itaət etdilər, məhz onlar nicat tapanlardır.”**[191]

Bu ayədən aydın olur ki, Peyğəmbəri Əkrəm (s.ə.v.v)-i əzizləmək islam nəzərindən bəyənilən bir işdir, eləcə də onun əziz xatirəsini canlandıran mərasimlərin, o həzrətin yüksək məqamını xatırladan mərasimlərin keçirilməsi də Allahın razı olduğu işlərdir. Çünki bu ayədə nicat tapanlar üçün dörd sifət bəyan edilmişdir:

**a) İman:** “Əlləzinə amənu bihi” – yə`ni o kəslər ki, ona iman gətirmişlər.

**b) Onun nuruna itaət etmək:** “Vəttəbəun-nurəlləzi unzilə məəhum”: ona nazil olunan nura itaət edərlər.

**v) Ona kömək etmək:** “və nəsəruhu” ona kömək etdilər.

**q) Peyğəmbər** (s.ə.v.v)**-in məqamına tə`zim etmək və ehtiram göstərmək:** “və əzzəruhu” onu əzizlədilər.

Deməli, Peyğəmbəri Əkrəm (s.ə.v.v)-ə ehtiram göstərmək və ona tə`zim etmək – ona iman gətirib kömək etmək və göstərişlərinə əməl etməkdən əlavə – zəruri bir işdir və Peyğəmbər (s.ə.v.v)-i əzizləmək “vəəzzəruhu” ifadəsinə əməl yetirməkdir.

3-Bu kimi mərasimlərin keçirilməsi Allah-Taalaya tabe olmaqdır.

Allah-taala Peyğəmbər (s.ə.v.v)-i tə`rifləyərək buyurur:

وَ رَفَعْنَا لَكَ ذِكْرَكَ

**“Sənin adını dünyada yüksəltdik.”**[192]

---

[190] “Şura” surəsi, ayə:23

[191] “Ə`raf” surəsi, ayə:157

[192] “İnşirah” surəsi, ayə:4

Bu şərif ayədən mə`lum olur ki, Allah-Taala Peyğəmbər (s.ə.v.v)-in əzəmət və cəlalının bütün dünyada yayılmasını istəyir və Özü də Qur`an ayələrində onu tə`rifləyir.

Biz də öz asimani kitabımıza tabe olaraq böyük, əzəmətli mərasimlər təşkil etməklə kamal və fəzilət nümunəsi olan o böyük şəxsiyyətin məqamını əzizləyir və bu yolla da aləmlərin Pərvərdigarına tabe olmuş oluruq. Aydındır ki, bu mərasimləri keçirməkdə müsəlmanların əsas hədəfi Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in şə`nini yüksək tutmaqdan başqa bir şey deyildir.

4-Vəhyin nazil olması süfrənin nazil olmasından heç də az deyil.

Qur`ani-Məcid ilahi peyğəmbər olan İsanın dilindən belə hekayət edir:

قَالَ عِيسَي ابْنُ مَرْيَمَ اللَّهُمَّ رَبَّنَا انزِلْ عَلَيْنَا مَآئِدَةً مِنَ السَّمَاءِ تَكُونُ لَنَا عِيداً لِّأَوَّلِنَا وَآخِرِنَا وَآيَةً مِّنكَ وَارْزُقْنَا وَانتَ خَيْرُ الرَّازِقِينَ

**“İsa ibni Məryəm dedi: Pərvərdigara, ey bizim Rəbbimiz, bizə asimandan bir süfrə göndər ki, bizim hamımız üçün bayram, Sənin tərəfindən bir nişanə olsunæ bizə ruzi ver, çünki sən ruzi verənlərin ən yaxşısısan.”**[193]

Həzrəti İsa (ə) Allahdan istəyir ki, onlara asimani bir süf-rə nazil etsin və onun nazil olma gününü bayram keçirsinlər.

Biz soruşuruq: Əziz bir ilahi peyğəmbər asimani süfrə olan, insanın sadəcə cismi cəhətdən ləzzət almasına səbəb olan bir ruzinin nazil olmasını bayram keçirirsə (və bu iş şirk və bid`ət sayılmırsa) dünya müsəlmanlarının ilahi vəhy nazil olmasını, bütün insanların xilaskarı və bəşər cəmiyyətinə yeni həyat verən bir şəxsin – Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in milad gününü bayram keçirməsi şirk və bid`ət sayılarmı?!

5-Müsəlmanların adət-ən`ənəsi

İslam dini ardıcılları qədim dövrlərdən e`tibarən Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in əziz xatirəsinin dirçəldilməsi üçün təşkil etdikləri mərasimi davam etdirmişlər. Hüseyn ibni Məhəmməd Diyar Bəkri “Tarixul-Xəmis” kitabında belə yazır:

وَ لَا يَزَالُ اَهْلُ الاِسْلَامِ يَحْتَفِلُونَ بِشَهْرِ مَوْلُودِهِ عَلَيْهِ السَّلَامُ وَ يَعْمَلُونَ الْوَلَائِمَ وَ يَتَصَدَّقُونَ فِي لَيَالِيهِ بِاَنْوَاعِ الصَّدَقَاتِ وَ يُظْهِرُونَ السُّرُورَ وَ يَزِيدُونَ فِي الْمَبَرَّاتِ وَ يَعْتَنُونَ بِقِرَائَةِ مَوْلِدِهِ الْكَرِيمِ وَ يظْهر عَلَيْهِمْ مِنْ بَرَكَاتِهِ كُلَّ فَضْلٍ عَمِيمٍ

*“Dünya müsəlmanları tarix boyu Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in doğum ayında bayram keçirir, bu ayın gecələrində ehsan və sədəqə verir, şadlıq keçirir, müxtəlif yaxşılıqlar edir, onun təvəllüd münasibətilə şe`r oxuyurlaræ bu işlərlə onun hərtərəfli rəhmət və bərəkəti hamıya aşkar olur.”*[194]

Deməli, Qur`an və müsəlmanların adət-ən`ənəsindən ilahi övliyaların əziz xatirələrini dirçəltmək üçün keçirilən mərasimlərin caiz və layiqli bir iş olması barəsində ümumi bir hökm əldə olunur. Beləliklə Allah dərgahında əziz olan şəxsiyyətlərin təvəllüdlərini bayram keçirməyi şirk və bid`ət hesab edənlərin sözlərinin tam əsassız olduğu aydın olur. Çünki bid`ət o şeydir ki, xüsusi, yaxud ümumi şəkildə, Qur`an və sünnədən istifadə edilmədən bir şey icazə verilmiş olsun, halbuki Qur`an ayələrindən, müsəlmanların əbədi adət-ən`ənələrindən qeyd olunan məsələnin külli hökmü əldə olundu. Həmçinin bu mərasimlər yalnız Allahın layiqli bəndələrinə ehtiram göstərmək, eləcə də onların Allahın bəndələri və Allaha ehtiyaclı olmalarına e`tiqad bəsləməklə keçirilir. Deməli qeyd olunan əməl tovhid və yeganəpərəstliklə tamamilə uyğundur və

---

[193] “Maidə” surəsi, ayə:114

[194] “Tarixul-Xəmis” (Hüseyn ibni Muhəmməd ibni Həsən Diyar Bəkri), Beyrut çapı, 1-ci cild, səh.223

ilahi övliyaların təvəllüdləri ilə əlaqədar bayram mərasimi keçirməyin şirk olduğunu deyənlərin sözləri tam əsassızdır.

SUAL: 26

## NƏ ÜÇÜN ŞİƏLƏR BEŞLİK NAMAZI ÜÇ VAXTDA QILIRLAR?

Cavab: Əvvəlcə məsələnin aydın olması üçün fəqihlərin bu barədəki nəzərlərini qeyd edirik:

1-Bütün islam məzhəbləri bu məsələdə yekdil nəzərə malikdirlər ki, Ərəfədə hər iki namazı – zöhr və əsr namazını zöhr vaxtında birlikdə, arada fasilə salınmadan qılmaq olar. Həmçinin Müzdəlifədə də məğrib və işa namazlarının vaxtında qılmaq caizdir.

2-Hənəfilər deyirlər: Zöhr və əsr, məğrib və işa namazını bir vaxtda (arada fasilə salmadan) qılmaq yalnız Ərəfədə və Müzdəlifədə caizdir, sair hallarda isə caiz deyildir.

3-Hənbəlilər, malikilər və şafeilər deyirlər: Zöhrlə əsr, məğriblə işa namazlarını xüsusi bir vaxtda bir yerdə qılmaq qeyd olunan iki yerdən başqa, səfər halında da caizdir. Onlardan bə`ziləri iki namazı birlikdə qılmağı zərurət halına (məsələn, yağış yağanda, namaz qılan şəxs xəstə olanda, yaxud düşməndən qorxu törənəndə) aid edərək caiz bilmişlər.[195]

4-Şiələr inanırlar ki, zöhr və əsrin, eləcə də məğrib və işa namazının həm xüsusi, həm də müştərək vaxtları vardır:

a) Zöhr namazının xüsusi vaxtı şər`i zöhrdən (günəşin şaquli vəziyyətdən qərbə tərəf keçdiyi zamandan) dörd rək`ətlik namaz qılına biləcək vaxt keçənə qədərdir. Bu məhdud müddətdə yalnız zöhrü qılmaq olar.

b) Əsr namazının xüsusi vaxtı o zamandır ki, qüruba qədər əsr namazını qılmaq qədər vaxt qalmış olsun.

v) Zöhr ilə əsr namazı arasında müştərək vaxt, zöhr namazının xüsusi vaxtının axırından başlanır və əsr namazının xüsusi vaxtının əvvəlinə qədər davam edir.

Şiələrin əqidəsi budur ki, bu müştərək vaxtın bütünlüy-ündə zöhr və əsr namazını birlikdə və arada fasilə salmadan qılmaq olar. Lakin sünnülər inanırlar ki, şər`i zöhrün əvvə-lindən hər bir şeyin kölgəsinin onun özü qədər oluncaya qədər vaxt zöhr namazına məxsusdur və bu müddətdə əsr namazını qılmaq olmaz. Ondan sonra məğribə qədər əsr namazına məxsusdur və zöhr namazını həmin vaxtda qılmaq olmaz.

q) Məğrib namazının məxsus vaxtı şər`i məğribdən başlanır və üç rək`ətlik namaz qılmaq qədər vaxt keçənə qədər davam edir. Bu məhdud müddətdə yalnız məğrib namazını qılmaq olar.

d) İşa namazının məxsus vaxtı şər`i cəhətdən gecə yarısına yalnız işa namazını qılmaq qədərində vaxt qalana qədərdir. Bu qısa müddətdə yalnız işa namazını qılmaq olar.

e) Məğrib və işa namazları arasında müştərək olan vaxt. Bu, məğrib namazına məxsus olan vaxtdan başlayır və işa namazının məxsus vaxtına qədər davam edir.

Şiələr inanırlar ki, bu müştərək müddət ərzində məğrib və işa namazlarını birlikdə, arada fasilə salmadan qılmaq olar. Lakin sünnülər deyirlər ki, qürubun əvvəlindən məğribdəki şəfəqin aradan getdiyi vaxta qədər məğrib namazına məxsusdur və bu müddətdə işa namazı qılına bilməz. Şəfəqin aradan getdiyi vaxtdan şər`i gecə yarısına qədər işa namazına məxsusdur və bu vaxt ərzində məğrib namazını qılmaq olmaz.

Nəticə budur ki, şiənin nəzəriyyəsinə əsasən şər`i zöhr çatdığı zaman həm zöhr

---

[195] “Əl-fiqhu ələl-məzahibil-ərbəə”, kitabus-səlat, əl-cəm`u bəynəs-səlat təqdimən və tə`xirən

namazını qılıb ardınca da əsri qılmaq olar, həm də zöhr namazını əsr namazının məxsus vaxtının əvvəllərinə qədər tə`xirə salmaq və zöhrü, əsr namazının xüsusi vaxtı çatmamışdan sona çatdırıb bundan sonra əsr namazını qılmaq olar. Beləliklə zöhr və əsr namazları arasında fasilə salınmır, baxmayaraq ki, zöhr namazını günorta daxil olandan sonra, əsr namazını isə hər bir şeyin kölgəsi onun özü qədər olduğu vaxt qılmaq müstəhəbdir.

Həmçinin şər`i məğrib olan zaman məğrib namazını qılıb ardınca da işa namazını qıla bilərik. Ya da məğrib namazını işa namazının xüsusi vaxtlarına yaxın olan bir vaxta qədər tə`xirə salaraq, işa namazının xüsusi vaxtı çatmadan məğrib namazını qılıb qurtarmalı, sonra işa namazını qıla bilərik. Beləliklə məğrib və işa namazlarını bir yerdə qılmış oluruq. Amma müstəhəbdir ki, məğrib namazı şər`i məğribdən sonra, işa namazı da məğribdəki şəfəq saraltısı aradan gedəndən sonra qılınsın.

Bu, şiənin nəzəriyyəsidir, lakin sünnülər zöhrlə əsr, məğriblə işa namazlarını birlikdə qılmağı mütləq şəkildə: heç bir yerdə və heç bir vaxtda caiz bilmirlər. Deməli münaqişəli məsələ iki namazın hər bir zamanda və hər bir məkanda birlikdə qılınmasıdır, belə ki, hər iki namaz onlardan birinin əda vaxtında qılınmış olsun (məsələn, Ərəfə və Müzdəlifədəki iki namaz kimi).

5-Bütün müsəlmanlar bu barədə yekdil fikirdədirlər ki, Peyğəmbər (s.ə.v.v) iki namazı bir yerdə qılmışdır, lakin bu rəvayətin təfsirində iki nəzər vardır:

a) Şiələrin nəzərinə görə məqsəd budur ki, zöhr namazının ilk vaxtlarında (əlbəttə, zöhr namazını qılından sonra) əsr namazını, həmçinin məğrib namazının ilk vaxtlarında (məğrib namazını qıldıqdan sonra) işanı da qılmaq olar. Bu məsələ hər hansı xüsusi bir məkan, zaman, yaxud şəraitlə bağlı deyildiræ hər bir yerdə və hər bir vaxtda caizdir.

b) Digərləri isə deyirlər ki, rəvayətdə məqsəd budur ki, zöhr namazı onun axır vaxtında, əsr namazı da onun əvvəl vaxtındaæ eləcə də məğrib namazı onun axır vaxtında, işa namazı isə əvvəl vaxtında qılınmalıdır.

Məsələnin aydın olması üçün bu barədə mövcud olan rəvayətləri araşdıracaq və isbat edəcəyik ki, bu hədislərdə ardıcıl qılmaq dedikdə məqsəd şiənin nəzəridir. Yə`ni iki namazı onlardan birinin vaxtında qılsınlar, nəinki onlardan birini axır vaxtda, digərini isə əvvəl vaxtda.

İndi rəvayətləri qeyd edirik:

1-Hənbəlilərin rəisi Əhməd ibni Hənbəl öz “Müsnəd”ində Cabir ibni Zeydin belə rəvayət etdiyini yazır:

وَ ״ صَلَّيْتُ مَعَ رَسُولِ اللهِ صَلَّي اللهُ عَلَيْهِ وَ آلِهِKاَخْبَرَنِي جَابِرُ بْنُ زَيْدٍ اَنَّهُ سَمِعَ ابْنَ عَبَّاسٍ يَقُولُ سَلَّمَ ثَمَانِيًا جَمِيعًا وَ سَبْعًا جَمِيعًا قَالَ قُلْتُ لَهُ يَا اَبَا الشَّعْثَاءِ اَظُنُّهُ اَخَّرَ الظُّهْرَ وَ عَجَّلَ الْعَصْرَ وَ اَخَّرَ الْمَغْرِبَ وَ عَجَّلَ الْعِشَاءَ قَالَ وَ اَنَا اَظُنُّ ذلِكَ

*“Cabir ibni Zeyd deyir: ibni Abbasın belə dediyini eşitdim: Peyğəmbər (s.ə.v.v)-lə səkkiz rək`əti (zöhrlə əsri) və yeddi rək`əti (məğriblə işanı) birlikdə qıldıq. O deyir ki, Əbu Şə`şaya dedim: Mən belə fikirləşirəm ki, Peyğəmbər zöhr namazını tə`xirə saldı və əsr namazını tez qıldıæ eləcə də məğrib namazını tə`xirə saldı və işa namazını tez qıldı. (Əbu Şə`sa) dedi: Mən də belə fikirləşirəm.”*[196]

Bu rəvayətdən aydın olur ki, Peyğəmbəri Əkrəm (s.ə.v.v) hər iki namazı: zöhrlə əsri, eləcə də məğriblə işanı arada fasilə salmadan birlikdə qılmışdır.

---

[196] “Müsnədi Əhməd”, 1-ci cild, səh.221

2-Əhməd ibni Hənbəl Əbdüllah ibni Şəqiqdən aşağıdakı rəvayəti nəql edir:

خَطَبَنَا اِبْنُ عَبَّاسٍ يَوْمًا بَعْدَ الْعَصْرِ حَتَّي غَرُبَتِ الشَّمْسُ وَ بَدَتِ النُّجُومُ وَ عَلَّقَ النَّاسُ يُنَادُونَهُ الصَّلَوةَ الصَّلَوةَ قَالَ فَغَضِبَ قَالَ اَتُعَلِّمُنِي Kالصَّلَوةُ وَ فِي الْقَوْمِ رَجُلٌ مِنْ بَنِي تَمِيمٍ فَجَعَلَ يَقُولُ وَ سَلَّمَ جَمَعَ بَيْنَ الظُّهْرِ وَ الْعَصْرِ، وَ الْمَغْرِبِ وَ "بِالسُّنَّةِ؟ شَهِدْتُ رَسُولَ اللهِ صَلَّي اللهُ عَلَيْهِ وَ آلِهِ الْعِشَاءِ قَالَ عَبْدُ اللهِ فَوَجَدْتُ فِي نَفْسِي مِنْ ذلِكَ شَيْئًا فَلَقِيْتُ اَبَا هُرَيْرَةَ فَسَاَلْتُهُ فَوَافَقَهُ

*"Bir gün İbni Abbas əsr namazından sonra bizim üçün o qədər çıxış etdi ki, günəş batdı, ulduzlar göründü, camaat "Namaz! Namaz" deyə səsləndilər. Bu zaman Bəni-Səlim qəbiləsindən bir kişi hey namaz kəlməsini təkrarlayırdı. İbni Abbas qəzəblənib dedi: Sən mənə Peyğəmbər (s.ə.v.v) sünnəsinimi öyrətmək istəyirsən?! Mən özüm şahid idim ki, Peyğəmbər (s.ə.v.v) zöhrlə əsr, məğriblə işa namazlarını birlikdə qılmışdı. Əbdüllah deyir: Mənim üçün bu məsələdə şübhə yarandı, ona görə də Əbu Hüreyrənin görüşünə gedən zaman bu barədə soruşdum. O da ibni Abbasın sözünü təsdiqlədi."*[197]

Bu hədisdə səhabələrdən ikisi – Əbdüllah ibni Abbas və Əbu Hüreyrə təsdiq etmişlər ki, Peyğəmbər (s.ə.v.v) zöhrlə əsri, məğriblə işanı bir yerdə qılmış, ibni Abbas da Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in əməlinə tabe olaraq belə etmişdir.

3-Malikiyyə firqəsinin başçısı Malik ibni Ənəs "Əl-Müvəttəə" kitabında belə yazır:

الظُّهْرَ وَ الْعَصْرَ جَمِيعًا وَالْمَغْرِبَ وَالْعِشَاءَ جَمِيعًا فِي غَيْرِ خَوْفٍ وَ لاَ سَفَرٍ صَلَّي رَسُولُ اللهِ

*"Rəsuli Əkrəm (s.ə.v.v) zöhrlə əsr, məğriblə işa namazlarını birlikdə qılırdı, halbuki nə düşməndən qorxu var idi, nə də səfərdə idi."*[198]

4-Malik ibni Ənəs Məaz ibni Cəbələdən belə nəql edir:

يَجْمَعُ بَيْنَ الظُّهْرِ وَ الْعَصْرِ وَ الْمَغْرِبِ وَ الْعِشَاءِ فَكَانَ رَسُولُ اللهِ

*"Peyğəmbəri Əkrəm (s.ə.v.v) zöhrlə əsr, məğriblə işa namazlarını birlikdə qılırdı."*[199]

5-Malik ibni Ənəs Nafedən, o da Əbdüllah ibni Ömərdən belə nəql edir:

اِذَا عَجَلَ بِهِ السَّيْرُ يَجْمَعُ بَيْنَ الْمَغْرِبِ وَ الْعِشَاءِ كَانَ رَسُولُ اللهِ

*"Hər vaxt Peyğəmbər (s.ə.v.v) bir yolu tələsən halda keçsəydi məğriblə işa namazını birlikdə qılardı."*[200]

6-Malik ibni Ənəs Əbu Hüreyrədən belə rəvayət edir:

وَ سَلَّمَ كَانَ يَجْمَعُ بَيْنَ الظُّهْرِ وَ الْعَصْرِ فِي سَفَرِهِ اِلَي تَبُوك"اِنَّ رَسُولَ اللهِ صَلَّي اللهُ عَلَيْهِ وَ آلِهِ

*"Peyğəmbəri Əkrəm (s.ə.v.v) Təbuk yolunda zöhrlə əsr namazını birlikdə qılırdı."*[201]

7-Malik Nafedən belə rəvayət edir:

اِنَّ عَبْدَ اللهِ ابْنَ عُمَرَ كَانَ اِذَا جَمَعَ الْعُمَرَاءُ بَيْنَ الْمَغْرِبِ وَ الْعِشَاءِ فِي الْمَطَرِ جَمَعَ مَعَهُمْ

*"Hər vaxt əmirlər məğriblə işa namazını birlikdə qılırdılarsa Əbdüllah ibni Ömər də hər iki namazını birlikdə qılırdı."*[202]

---

197 "Müsnədi Əhməd", 1-ci cild, səh.251

198 "Müvəttəə" (Malik), əs-səlat kitabı, Beyrut çapı, səh.125, hədis-178æ "Səhihi-Müslim", 2-ci cild, səh.151, Beyrut çapı, əl-cəm`u bəynəs-səlateyni fil-həzər babı.

199 "Müvəttəə" (Malik), səlat bölməsi, səh.134 hədis 176, Beyrut çapı, 1403, "Səhihi Müslim", Misir çapı, 2-ci hissə, səh.152

200 "Müvəttəə", Beyrut çapı, səh.125 hədis-177

201 "Müvəttəə", səh.124, hədis-175

202 Yenə orada, səh.125, hədis-179

8-Malik ibni Ənəs, Əli ibni Hüseyndən nəql edir:

كَانَ رَسُولُ اللهِ صَلَّي اللهُ عَلَيْهِ وَ آلِهِ وَ سَلَّمَ اِذَا اَرَادَ اَنْ يَسِيرَ يَوْمَهُ جَمَعَ بَيْنَ الظُّهْرِ وَ الْعَصْرِ وَ اِذَا اَرَادَ اَنْ يَسِيرَ لَيْلَهُ جَمَعَ بَيْنَ الْمَغْرِبِ وَ الْعِشَاءِ

*"Hər vaxt Peyğəmbər (s.ə.v.v) gündüz yol getmək istəsəydi zöhrlə əsr namazını birlikdə qılardıœ hər vaxt gecə getmək istəsəydi məğriblə işa namazlarını birlikdə qılardı."*[203]

9-Məhəmməd Zərqani "Müvəttəə"nin şərhində Əbi Şə`sadan belə nəql edir:

اِنَّ ابْنَ عَبَّاسٍ صَلَّي بِالْبَصْرَةِ الظُّهْرَ وَ الْعَصْرَ لَيْسَ بَيْنَهُمَا شَيْءٌ وَ الْمَغْرِبِ وَ الْعِشَاءِ لَيْسَ بَيْنَهُمَا شَيْءٌ

*"Əbdüllah ibni Abbas Bəsrədə zöhrlə əsr namazını birlikdə qıldı. Belə ki, onların arasında fasilə salmırdı. Məğriblə işa namazlarını da arada fasilə olmadan qılırdı."*[204]

10-Zərqani Təbəranidən, o da ibni Məs`uddan belə nəql edir:

جَمَعَ النَّبِيُّ صَلَّي اللهُ عَلَيْهِ وَ آلِهِ وَ سَلَّمَ بَيْنَ الظُّهْرِ وَ الْعَصْرِ وَ بَيْنَ الْمَغْرِبِ وَ الْعِشَاءِ فَقِيلَ لَهُ فِي ذلِكَ فَقَالَ Kصَنَعْتُ هذَا لِئَلاَّ تَحْرِجَ اُمَّتِي

*Peyğəmbəri Əkrəm (s.ə.v.v) zöhrlə əsr, məğriblə işa namazlarını arada fasilə olmadan qıldı. Ondan bu barədə soruşulduqda buyurdu:* **"Səbəbi budur ki, ümmətim çətinliyə, əzab-əziyyətə düşməsin."**[205]

11-Müslim ibni Həccac ("Səhih-Müslim"in müəllifi) Əbu Zübeyrdən, o da Səid ibni Cübeyrdən, o da ibni Abbasdan belə rəvayət edir:

صَلَّي رَسُولُ اللهِ صَلَّي اللهُ عَلَيْهِ وَ آلِهِ وَ سَلَّمَ الظُّهْرَ وَ الْعَصْرَ جَمِيعًا بِالْمَدِينَةِ فِي غَيْرِ خَوْفٍ وَ لَا سَفَرٍ

*"Peyğəmbər (s.ə.v.v) Mədineyi-Münəvvərədə düşmən-dən heç bir qorxu olmadan, eləcə də səfərdə olmadan zöhrlə əsr namazını birlikdə qıldı."*[206] Sonra ibni Abbas Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in bu işdə məqsədini soruşdu. Həzrət buyurdu: **"Ona görə ki, ümmətimdən heç kəsin zəhmətə düşməməsini istəmirəm."**[207]

12-Müslim özünün "Səhih"ində ibni Cübeyrdən, o da ibni Abbasdan belə rəvayət edir:

جَمَعَ رَسُولُ اللهِ صَلَّي اللهُ عَلَيْهِ وَ آلِهِ وَ سَلَّمَ بَيْنَ الظُّهْرِ وَ الْ◌◌صْرِ وَ الْمَغْرِبِ وَ الْعِشَاء فِي الْمَدِينَةِ مِنْ غَيْرِ خَوْفٍ وَ لا مَطَرٍ

*"Peyğəmbəri Əkrəm (s.ə.v.v) Mədineyi-Münəvvərədə zöhrlə əsr, məğriblə işa namazlarını birlikdə qıldı. Halbuki nə düşməndən qorxu var idi, nə də yağış yağırdı."*[208] *Səid ibni Cübeyr sonra deyir: İbni Abbasdan "Peyğəmbər (s.ə.v.v) nə üçün belə bir iş gördü?" - deyə soruşdum, dedi: Ona görə ki, ümmətini zəhmətə salmaq istəmirdi."*[209]

13-Buxari özünün "Səhih" kitabında "babu tə`xiriz-zöhri iləl-əsr" ünvanlı xüsusi bir

---

203 Yenə orada, səh.125, hədis-181

204 "Şərhi Zərqani", Misir çapı, 1-ci cüz, səh.294

205 Yenə orada, səh.294

206 "Səhihi Müslim", 2-ci cild, Misir çapı, səh.151

207 Yenə orada, qeyd olunan hədislə əlaqədar

208 Yenə orada, səh.152

209 Yenə orada, səh.152

babı bu məsələ üçün ayırmışdır.[210] Bu ünvanın özü də zöhr namazını bir qədər tə`xirə salıb əsr namazının vaxtında hər ikisini bir yerdə qılmağın caiz olmasına aşkar dəlildir. Sonra Buxari həmin bölmədə aşağıdakı hədisi qeyd edir.

وَ سَلَّمَ صَلَّي بِالْمَدِينَةِ سَبْعًا وَ ثَمَانِيًا الظُّهْرَ وَ الْعَصْرَ وَ الْمَغْرِبَ وَ ″اِنَّ النَّبِيَّ صَلَّي اللهُ عَلَيْهِ وَ آلِهِ الْعِشَاءَ

*“Peyğəmbər (s.ə.v.v) yeddi rək`əti (məğriblə işanı) və səkkiz rək`əti (zöhrlə əsri) Mədinədə birlikdə qıldı.”*

Bu rəvayətdən aydın olur ki, təkcə zöhrü tə`xirə salıb əsr namazının vaxtında qılmaq yox, həm də (cümlə quruluşundan mə`lum olduğu kimi) Peyğəmbəri Əkrəm (s.ə.v.v)-ə tabe olaraq məğrib namazını da tə`xirə salıb işa namazı ilə birlikdə qılmaq olar.

14-Buna görə də Buxari başqa bir yerdə yazır:

وَ سَلَّمَ ″ صَلَّي النَّبِيُّ صَلَّي اللهُ عَلَيْهِ آلِهِKقَالَ اِبْنُ عُمَرَ وَ اَبُو اَيُّوبَ وَ ابْنُ عَبَّاسٍ رَضِيَ اللهُ عَنْهُمْ الْمَغْرِبَ وَ الْعِشَاءَ

*“Əbdüllah ibni Ömər, Əbu Əyyub (Ənsari) və Əbdüllah ibni Abbas demişlər: Peyğəmbəri Əkrəm (s.ə.v.v) məğriblə işa namazını (arada fasilə olmadan) qıldı.”*[211]

Buxari bu rəvayətdən belə nəticə almaq istəyirdi ki, Peyğəmbər (s.ə.v.v) məğriblə işa namazını birlikdə qılmışdır. Çünki onun məqsədi heç də Peyğəmbər (s.ə.v.v)-in ümumiyyətlə namaz qılmasını isbat etmək olmamışdır.

15-Müslim özünün “Səhih” kitabında belə yazır:

الصَّلَوةَ فَسَكَتَ ثُمَّ قَالَ لَا اُمَّ لَكَ اَتُعَلِّمُنَا بِالصَّلَوةِ K الصَّلَوةَ، فَسَكَتَ ثُمَّ قَالَKقَالَ رَجُلٌ لِاِبْنِ عَبَّاسٍ وَ سَلَّمَ ″وَ كُنَّا نَجْمَعُ بَيْنَ الصَّلَاتَيْنِ عَلَي عَهْدِ رَسُولِ اللهِ صَلَّي اللهُ عَلَيْهِ وَ آلِهِ

*“Bir nəfər ibni Abbasa dedi: “Namaz!” İbni Abbas bir söz demədi, o kişi yenidən “namaz!” deyə səsləndi. İbni Abbas yenə dinmədi. Üçüncü dəfə “namaz!” dedikdə ibni Abbas dedi: La ümmə lək – anasız qalasan! Mənə namaz öyrətmək istəyirsənmi? Halbuki biz Peyğəmbəri Əkrəm (s.ə.v.v)-lə iki namazı birlikdə qılırdıq.”*[212]

16-Müslim yenə rəvayət edir:

وَ سَلَّمَ جَمَعَ بَيْنَ الصَّلَوةِ في سَفْرَةٍ سَافَرَهَا في غَزْوَةِ تَبُوك ″اِنَّ رَسُولَ اللهِ صَلَّي اللهُ عَلَيْهِ وَ آلِهِ مَا حَمَلَهُ عَلَي ذٰلِكَ؟ K فَقُلْتُ لِاِبْنِ عَبَّاسٍKفَجَمَعَ بَيْنَ الظُّهْرِ وَ الْعَصْرِ وَ الْمَغْرِبِ وَ الْعِشَاءِ قَالَ سَعيدٌ اَرَادَ اَنْ لَا يخْرِجَ اُمَّتَهُKقَالَ

*“Peyğəmbər (s.ə.v.v) “Təbuk” müharibəsinə gedən zaman zöhrlə əsr, məğriblə işa namazlarını birlikdə qılırdı. Səid ibni Cübeyr deyir: İbni Abbasdan bunun səbəbini soruşduqda dedi: Peyğəmbəri Əkrəm (s.ə.v.v)-i istəyirdi ki, öz ümmətini çətinliyə, əzab-əziyyətə salmasın.”*[213]

17-Müslim Məazın dilindən belə hekayət edir:

وَ سَلَّمَ في غَزْوَةِ تَبُوك فَكَانَ يصَلِّي الظُّهْرَ وَ الْعَصْرَ ″خَرَجْنَا مَعَ رَسُولِ اللهِ صَلَّي اللهُ عَلَيْهِ وَ آلِهِ جَمِيعًا وَ الْمَغْرِبَ وَ الْعِشَاءَ جَمِيعًا

*“Peyğəmbər (s.ə.v.v)-lə “Təbuk” müharibəsinə getdik. O həzrət zöhrlə əsr və*

---

[210] “Səhihi Buxari”, 1-ci hissə, səh.110, namaz bölməsi, “Tə`xiruz-zuhri iləl-əsr” babı, Misir çapı, “Əmiriyyə” nüsxəsi, 1314-cü il

[211] “Səhihi Buxari”, 10-cu cüz, səh.113, Misir çapı, 1314-cü il

[212] “Səhihi Müslim”, 2-ci cüz, səh.153

[213] “Səhihi Müslim”, 2-ci cüz, səh.151, Misir çapı

*məğriblə işa namazlarını birlikdə qılırdı."*[214]

18-Malik ibni Ənəs "Əl-müvəttəə" kitabında yazır:

عَنِ ابْنِ شَهَابٍ اَنَّهُ سَاَلَ سَالِمَ ابْنَ عَبْدِ اللهِ K هَلْ يُمجَعُ بَينَ الظُّهْرِ وَ الْعَصْرِ في السَّفَرِ؟ فَقَالَK
نَعَمْ لَا بَأْسَ بِذلِكَ اَلَمْ تَرَ اِلَيَ صَلَاةِ النَّاسِ بِعَرَفَةَ؟

*"İbni Şəhab Salim ibni Əbdüllahdan soruşdu: Səfərdə zöhrlə əsr namazı birlikdə qılınırmı? Cavab verdi: Bəli, eybi yoxdur. Camaatın "Ərəfə" günündəki ("Ərəfat" çölündəki) namazını görmürsənmi?!"*[215]

Qeyd olunmalıdır ki, müsəlmanların "Ərəfə" günündə, "Ərəfat"da zöhrlə əsrin hər ikisini zöhr namazının vaxtında və arada fasilə salınmadan qılmaları caizdir. Burada Salim ibni Əbdüllah da deyir: Camaat Ərəfatda hər iki namazı birlikdə qıldıqları kimi, Ərəfatdan başqa yerlərdə də onları birlikdə qıla bilərlər.

19-Müttəqi Hindi "Kənzul-ummal" kitabında yazır:

قَالَ عَبْدُ اللهِ Kجَمَعَ لَنَا رَسُولُ اللهِ ِ الْعِشَاءِ وَ الْمَغْرِبِ وَ الْعَصْرِ وَ الظُّهْرِ بَيْنَ مُسَافِرٍ غَيْرَ مُقِيمًا
فَقَالَ رَجُلٌ لِاِبْنِ عُمَرَ Kلِمَ تَرِيَ النَّبِيَّ ِ قَالَ؟ فَعَلَ ذلِكَ Kجَمَعَ رَجُلٌ اِنْ اُمَّتَهُ يحْرِجَ لَا لِاَنْ

*Əbdüllah ibni Ömər deyir: "Peyğəmbəri Əkrəm (s.ə.v.v) öz yaşayış yerində (vətənində) olduğu, səfərə getmədiyi zaman zöhrlə əsri, məğriblə işanı birlikdə qılırdı." Bir nəfər ibni Ömərdən soruşdu: "Nə üçün Peyğəmbər (s.ə.v.v) belə bir iş görürdü?" Cavab verdi: "Ona görə ki, əgər bir şəxs iki namazı bir yerdə qılmaq istəyərsə öz ümmətini əzab əziyyətə məşəqqətə salmasın."*[216]

20-Həmçinin "Kənzul-ummal" kitabında belə oxuyuruq:

عَنْ جَابِرٍ اَنَّ رَسُولَ اللهِ صَلَّي اللهُ عَلَيْهِ وَ آلِهِ وَ سَلَّمَ جَمَعَ بَيْنَ الظُّهْرِ وَ الْعَصْرِ بِاَذَانٍ وَ اِقَامَتَيْنِ"

*"Cabir ibni Əbdüllah deyir: Peyğəmbər (s.ə.v.v) zöhrlə əsr namazlarını bir azan, iki iqamə ilə – birlikdə qıldı."*[217]

21-"Kənzul-ummal" kitabında yuxarıdakı hədisin davamında belə qeyd olunur:

عَنْ جَابِرٍ اَنَّ رَسُولَ اللهِ صَلَّي اللهُ عَلَيْهِ وَ آلِهِ وَ سَلَّمَ غَربَتْ لَهُ الشَّمْسُ بِمَكَّةَ فَجَمَعَ بَيْنَهُمَا بِسَرفٍ

*"Cabir ibni Əbdüllah deyir: Peyğəmbər (s.ə.v.v) Məkkədə olan zaman günəş qüruba endi, Sərf məntəqəsinə*[218] *çatdıqda məğriblə işa namazını birlikdə qıldı."*[219]

22-"Kənzul-ummal" kitabında ibni Abbasdan belə rəvayət olunur:

"جَمَعَ رَسُولُ اللهِ صَلَّي اللهُ عَلَيْهِ وَ آلِهِ وَ سَلَّمَ بَيْنَ الظُّهْرِ وَ الْعَصْرِ وَ الْمَغْرِبِ وَ الْعِشَاءِ بِالْمَدينَةِ
قَالَ Kقُلْتُ لِاِبْنِ عَبَّاسٍKبغَيْرِ سَفَرٍ وَ لَا مَطَرٍ قَالَ Kلِمَ تَرَاهُ فَعَلَ ذلِكَ؟ اَرَادَ التَّوْسِعَةَ عَلَي اُمَّتِهِ

*"Peyğəmbər (s.ə.v.v) Mədineyi-Münəvvərədə zöhrlə əsr, məğriblə işa namazlarını birliklə qıldı. Halbuki səfərdə deyildi, yağış da yağmırdı. Ravi deyir: İbni Abbasdan "nə üçün Peyğəmbər (s.ə.v.v) iki namazı birlikdə qıldı?" - deyə sual etdikdə cavab verdi: Çünki Peyğəmbəri Əkrəm (s.ə.v.v) istəyirdi ki, ümmətinin əməl və rəftarında genişlik (asanlıq) icad etmiş olsun."*[220]

---

214 Yenə orada, səh.152

215 "Əl-müvəttəə", Beyrut çapı, səh.125, hədis:180

216 "Kənzul-ummal", kitabus-səlat, əl-babur-rabiu fi səlatil-musafir, babul-cəm`, cild-8, səh.246, Hələb çapı, 1391

217 "Kənzul-ummal", kitabus-səlat, babur-rabiu fi səlatil-müsafir, 8-ci cild, səh.847, Hələb çapı

218 "Sərf" Məkkənin doqquz milliyində yerləşən bir yerin adıdır.

219 Yenə orada

220 "Kənzul-ummal", 8-ci cild

# NƏTİCƏ

Yuxarıda qeyd olunan rəvayətlərə əsasən şiənin nəzərindən iki namazın birlikdə qılınmasının səhih olmasını göstərən aşkar dəlilləri yekunlaşdırırıq:

1-İki namazın bir vaxtda (birlikdə) qılınması müsəlmanların işinin asanlaşdırılması və onların əzab-əziyyətə düşməsinin qarşısını almaq üçündür.

Rəvayətlərdən çoxu bu həqiqəti göstərir ki, əgər zöhrlə əsr, məğriblə işa namazlarının bir yerdə qılınması caiz olmasaydı müsəlmanların işlərində əzab-əziyyət, məşəqqət yaranardı. Buna görə də Peyğəmbəri Əkrəm (s.ə.v.v) müsəlmanların işlərində bir növ genişlik, asanlıq yaratmış, iki namazı bir vaxtda qılmağa icazə vermişdir. (Bu barədə 10, 16, 19 və 22-ci hədislərə müraciət edə bilərsiniz.) Aydındır ki, əgər bu rəvayətlərdə məqsəd zöhr və əsr namazlarını sünnülərin nəzərində onun axırıncı vaxtına (hər bir şeyin kölgəsinin özü qədər uzanan vaxta) qədər tə`xirə salıb əsr namazını onun öz vaxtının əvvəlində qılmaqdırsa – belə ki, hər iki namaz bir-birinin ardınca öz vaxtının daxilində qılınmış olsun– belə bir iş nəinki asanlıq deyil, əksinə həddindən artıq məşəqqət və əzab-əziyyətə səbəb olur. Halbuki iki namazın birlikdə qılınmasında əsas məsələ müsəlmanların işini asanlaşdırmaqdır.

Deməli məqsəd budur ki, iki namazı, onlardan birini vaxtın axırında, digərini isə vaxtın əvvəlində qılmaq deyil, onların müştərək vaxtlarının hər bir vaxtında, məsələn bu vaxtın əvvəlində, yaxud axırında qılmaq olar.

2-Ərəfədə iki namazın ardıcıl qılınması iki namazın birlikdə qılınmasının keyfiyyətini izah edir.

Bütün islam firqələri Ərəfədə zöhrlə əsr namazının birlikdə qılınmasını caiz hesab etmişlər.[221] Digər tərəfdən, qeyd olunan rəvayətlərdən bə`ziləri bu mə`nanı tə`kidləndirir ki, iki namazı bu cür qılmaq başqa yerlərdə də Ərəfədə olduğu kimidir. Bu nəzərdən Ərəfə günləri ilə sair günlər arasında, Ərəfat diyarı ilə sair yerlər arasında heç bir fərq yoxdur. (Bu barədə 18-ci hədisə müraciət edə bilərsiniz.)

Deməli, bütün müsəlmanların fikir birliyinə əsasən zöhr və əsr namazlarını Ərəfədə zöhrün vaxtında qılmaq caiz olduğu kimi Ərəfədən başqa yerlərdə də belə etmək olar.

3-Səfərdə iki namazın bir yerdə qılınması iki namazın ardıcıl qılınma keyfiyyətini bəyan edir.

Digər tərəfdən, hənbəli, maliki və şafei fəqihləri səfərdə iki namazı fasiləsiz qılmağı caiz bilmişlər. Həmçinin qeyd olunan rəvayətlər göstərir ki, bu məsələdə səfərlə qeyri-səfər arasında heç bir bir fərq yoxdur və Peyğəmbər (s.ə.v.v) həm səfərdə, həm də vətəndə olduğu zaman iki namazı birlikdə qılarmış. (Bu barədə 3, 11, 13, 19 və 22-ci hədislərə baxa bilərsiniz.) Deməli səfərdə iki namazı bir vaxtda qılmaq caiz olduğu kimi, (şiələrin dediyi kimi) səfərdən qeyri hallarda da caizdir.

4-Zərurət halında iki namazın birlikdə qılınması ixtiyar halında iki namazı birlikdə qılmağın keyfiyyətini bəyan edir.

"Səhih" və "Müsnəd" kitablarında mövcud olan çoxlu rəvayətlər bu həqiqəti göstərir ki, Peyğəmbər (s.ə.v.v) və o həzrətin səhabələri zərurət halında, o cümlədən yağış yağanda, düşməndən təhlükə törənəndə, yaxud xəstəlik vaxtında şiələrin dediyi kimi iki namazı birlikdə, bir vaxtda qılırmışlar. Buna görə də müxtəlif islam firqələrindən olan fəqihlərin çoxu bə`zi zərurət hallarında bu işin caizliyi barəsində fətva

---

[221] "Əl-fiqhu ələl-məzahibil-ərbəə", kitabus-səlat, əl-cəm`u beynəs-səlateyn təqdimən və tə`xirən

vermişlər, halbuki qeyd olunan rəvayətlər aşkar şəkildə göstərir ki, bu cəhətdən də zərurətlə başqa hallar arasında heç bir fərq yoxdur. Peyğəmbər (s.ə.v.v) də yağış yağmayan, düşməndən qorxu olmayan hallarda iki namazı birlikdə qılmışdır. (Bu barədə 3, 11, 12, 22-ci hədislərə baxa bilərsiniz.)

5-Peyğəmbər (s.ə.v.v) səhabələrinin əməl və rəftarları iki namazın birlikdə qılınmasını bəyan edir.

Qeyd olunan rəvayətlər arasında belə bir məsələ ilə qarşılaşırıq ki, Peyğəmbər (s.ə.v.v) səhabələrindən çoxu iki namazı bir vaxtda, fasilə olmadan qılmışlar. Belə ki, Əbdüllah ibni Abbas məğrib namazını tə`xirə salaraq hava tam qaralandan, ulduzlar çıxandan sonra başqalarının "namaz!", "namaz!" deyə fəryadlarına baxmayaraq onlara e`tina etməmiş, nəhayət gecədən bir qədər keçdikdən sonra məğriblə işa namazını birlikdə qılmışdır, e`tiraz edənlərin cavabında isə "mən özüm şahid idim ki, Peyğəmbər (s.ə.v.v) də belə namaz qılırdı" – demiş, Əbu Hüreyrə də onun sözünü təsdiqləmişdir. (Bu barədə 2, 7, 9, 15-ci rəvayətlərə baxa bilərsiniz.)

Qeyd olunan rəvayətlərə əsasən heç bir şəkk-şübhəyə yer qalmır ki, ibni Abbas şiələrin e`tiqadı əsasında iki namazı bir vaxtda qılmışdır.

6-Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in əməl və rəftarı iki namazın birlikdə qılınmasını bəyan edir.

21-ci hədisdən aydın olur ki, Peyğəmbəri Əkrəm (s.ə.v.v) məğrib zamanı hələ Məkkədə idi. O, məğrib namazını tə`xirə saldı, nəhayət Məkkədən doqquz mil məsafədə yerləşən Sərf məntəqəsində hər iki namazı birlikdə, bir vaxtda qıldı. Halbuki əgər o həzrət məğribin əvvəlində Məkkə şəhərindən hərəkət etmiş olsaydı belə, nəqliyyat vasitələrinin yavaş hərəkət etdiyinə görə təbiidir ki, Sərf məntəqəsinə gecədən bir miqdar keçəndə çatmışdı, buna görə də məğriblə işa namazını işa namazının vaxtında qılmışdır.

Yuxarıda qeyd olunan və hamısı sünnülərin "Sihah" və "Müsnəd" kitablarından çıxarılan hədislərin məcmusundan şiələrin nəzəriyyəsi – yə`ni zöhrlə əsr, məğriblə işa namazlarını birlikdə qılmağın düzgünlüyü, eləcə də onun bütün şərait, məkan və zamanlarda ümumi olması sübuta yetir.

SUAL: 27

## ŞİƏLƏRİN FİQHİ MƏNBƏLƏRİ HANSILARDIR?

Cavab: Şiələr Allahın kitabı Qur`ana və Peyğəmbər (s.ə.v.v) sünnəsinə tabe olaraq şər`i hökmləri aşağıda qeyd olan dörd əsas mənbədən əldə edirlər:

1-Allahın kitabı, 2-Peyğəmbər (s.ə.v.v)-in sünnəsi, 3-İcma, 4-Əql.

Qeyd olunan mənbələr arasında Allahın kitabı və Peyğəmbər (s.ə.v.v) sünnəsi şiə fiqhinin əsas mənbəyi sayılır ki, onların barəsində ixtisarla söhbət edəcəyik.

## ALLAHIN KİTABI-QUR`AN

Şiə məktəbinin ardıcılları Qur`anı özlərinin ən mühüm fiqhin mənbəyi, ilahi hökmləri tanımağın əsas me`yarı hesab edirlər. Çünki onların rəhbərləri fiqhi hökmləri əldə etmək üçün asimani kitabı ən yüksək bir mənbə hesab etmişlər. Belə ki, hər bir söz və nəzəriyyə Qur`an ilə müqayisə olunur, onunla uyğun olduğu surətdə qəbul olunur, əks halda isə ona e`tina olunmur. Şiənin 6-cı rəhbəri imam Sadiq (ə) bu barədə buyurur:

كُلُّ حَدِيثٍ لَا يُوَافِقُ كِتَابَ اللهِ فَهُوَ زُخْرُفٌ

**“Hər söz Qur`anla uyğun olmasa batil və əsassızdır.”**[222]

Həmçinin imam Sadiq (ə) Peyğəmbəri Əkrəm (s.ə.v.v)-dən belə bir hədis nəql edir:

اَيُّهَا النَّاسُ مَا جَاءَكُمْ عَنِّي يُوَافِقُ كِتَابَ اللهِ فَاَنَا قُلْتُهُ وَ مَا جَاءَكُمْ يخالِفُ كِتَابَ اللهِ فَلَمْ اَقُلْهُ

**“Ey insanlar mənə nisbət verilən hər bir söz əgər Allahın kitabı ilə uyğun olsa məndəndir, əgər onunla uyğun olmasa məndən deyildir.”**[223]

Bu iki hədisdən aydın olur ki, müsəlmanların asimani kitabı – Qur`an şiə rəhbərlərinin nəzərində şər`i hökmlərin əldə edilməsinin ən mö`təbər və möhkəm mənbə hesab olunur.

## SÜNNƏ

Sünnə dedikdə Peyğəmbər (s.ə.v.v)-in sözü, əməli və ya başqasının işini təsdiqləməsi (buna təqrir deyilir) nəzərdə tutulur və şiə fiqhinin ikinci əsas mənbəsi sayılır. Peyğəmbər (s.ə.v.v)-in Əhli-beytindən olan mə`sum imamlar da Peyğəmbər (s.ə.v.v) sünnəsini müstəqil şəkildə nəql edənlər olub onun elminin xəzinədarları kimi qələmə verilir. Əlbəttə Peyğəmbər (s.ə.v.v)-in sözləri digər mö`təbər yollarla da gəlib çatsa şiələr tərəfindən qəbul olunur.

Biz burada iki yöndən araşdırma aparırıq:

## PEYĞƏMBƏRİ ƏKRƏM (S.Ə.V.V) SÜNNƏSİNƏ İSTİNAD ETMƏYİN DƏLİLLƏRİ

Şiə rəhbərləri öz ardıcıllarına, Qur`ana əməl etməyi tövsiyə etməklə yanaşı onları Peyğəmbər (s.ə.v.v) sünnəsinə əməl etməyi də tövsiyə edir, kitab və sünnəni birbirilə yanaşı vəsf edirlər. İmam Sadiq (ə) buyurur:

وَ اِلّاَفَالَّذِي جَاءَكُمْ ٖاِذَا وَرَدَ عَلَيْكُمْ حَديثٌ فَوَجَدْتُمْ لَهُ شَاهِدًا مِنْ كِتَابِ اللهِ اَوْ مِنْ قَوْلِ رَسُولِ اللهِ
بِهِ اَوْلَي بهِ

---

[222] “Üsuli-Kafi”, 1-ci cild, fəzlul-elm kitabı babul-əxzi bis-sunnəti və şəvaidil-Kitab, 3-cü hədis

[223] Yenə orada, 5-ci hədis

**“Hər vaxt sizə bir hədis gəlib çatsa və Allahın kitabında, Peyğəmbər** (s.ə.v.v)**-in sözlərində ona dair bir şahid tapsanız qəbul edin, əks halda o söz onu deyən şəxs daha layiqdir.”**[224]

İmam Baqir (ə) Peyğəmbər (s.ə.v.v) sünnəsinə istinad etməyi camiuş-şərait fəqihin əsas şərti hesab edərək buyurur:

اِنَّ الْفَقِيهَ حَقَّ الْفَقِيهِ، اَلزَّاهِدُ فِي الدُّنْيَا، اَلرَّاغِبُ فيِ الآخِرَةِ، الْمُتَمَسِّكُ بِسُنَّةِ النَّبيِّ

**“Həqiqi fəqih o kəsdir ki, dünyadan çəkinsin, qiyamət aləminə rəğbətli (müştaq) olsun və Peyğəmbər** (s.ə.v.v) **sünnəsinə sarılsın.”**[225]

Şiənin böyük rəhbərləri Allahın kitabı və Peyğəmbər (s.ə.v.v) sünnəsi ilə müxalifət etməyi hətta küfr hesab etmişlər. İmam Sadiq (ə) bu barədə buyurur:

فَقَدْ كَفَرَ مَنْ خَالَفَ كِتَابَ اللهِ وَ سُنَّةَ مُحَمَّدٍ

**“Hər kəs Allahın kitabı (Qur`an) və Peyğəmbər** (s.ə.v.v)**-in sünnəsi ilə müxalifət etsə şübhəsiz kafir olmuşdur.”**[226]

Deməli, şiələr hər bir sair islam firqələrindən öncə Peyğəmbər (s.ə.v.v) sünnəsinə dəyər verir. Bununla da şiələrin Peyğəmbər (s.ə.v.v) sünnəsi ilə yad olduğunu iddia edərək onları müttəhim edənlərin sözünün əsassız olduğu sübuta yetir.

## ƏHLİ-BEYT HƏDİSLƏRİNƏ İSNAD ETMƏYİN DƏLİLLƏRİ

Şiələrin Peyğəmbər (s.ə.v.v) Əhli-beytinin hədisləri barəsindəki nəzərinin aydın olması üçün bu barədə bir neçə məsələni araşdırırıq:

a) Mə`sum rəhbərlərin hədislərinin mahiyyətiæ

b) Peyğəmbər (s.ə.v.v) Əhli-beytinə istinad etməyin zərurəti və e`tibarının dəlilləri.

İndi aşkar dəlillər əsasında və ixtisara riayət etməklə hər iki məsələni araşdırırıq.

## PEYĞƏMBƏRİ ƏKRƏM (S.Ə.V.V) İTRƏTİNİN HƏDİSLƏRİNİN MAHİYYƏTİ

Şiənin nəzərində bəşəriyyət üçün şəriət və qanun qoymağa yalnız aləmlərin Rəbbi olan Allahın haqqı vardır. Belə ki, müqəddəs şəriətin hökm və qanunları da Allahın Öz Peyğəmbərinin vasitəsilə insanlara çatdırılır. Aydındır ki, Peyğəmbər (s.ə.v.v) yalnız vəhyin alınmasında və Allah ilə insanların arasında şəriət qoyulmasına bir vasitədir. Deməli şiələrin Əhli-beyt ¢ hədislərini öz fiqhi mənbələrindən biri hesab etmələrinin səbəbi bu deyildir ki, onun Peyğəmbər (s.ə.v.v) sünnəsi müqabilində müstəqil bir yol olduğuna inansınlaræ əksinə Əhli-beytin (ə) hədisləri yalnız buna görə mö`təbər sayılır ki, onlar Peyğəmbər (s.ə.v.v) sünnəsinin bəyan ediciləridir. Deməli şiənin mə`sum imamlarının özlərindən heç bir sözü yoxdur, hamısı Peyğəmbər (s.ə.v.v) sünnəsindən ibarətdir.

Bu müddəanı isbat etmək üçün yaxşı olar ki, imamların öz sözlərini qeyd edək:

1-İmam Sadiq (ə) ondan sual soruşan bir şəxsə belə cavab vermişdir:

---

224 “Üsuli-Kafi”, 1-ci cild, hədis:2

225 Yenə orada, hədis:8

226 Yenə orada, hədis:6

لَسْنَا نَقُولُ بِرَاينَا مِنْ شيءٍ ,مَهْمَا اَجَبْتُكَ فِيهِ بِشَيْءٍ فَهُوَ عَنْ رَسُولِ اللهِ

**“Sənə verdiyim hər bir cavab Peyğəmbər** (s.ə.v.v)**-dəndir. Biz özümüzdən heç bir rə`y demirik.”**[227]

Başqa bir hədisdə buyurur:

حَدِيثِي حَدِيثُ اَبِي وَحَدِيثُ اَبِي حَدِيثُ جَدِّي،وَحَدِيثُ جَدِّي حَدِيثُ الْحُسَيْنِ،وَ حَدِيثُ الْحُسَيْنِ حَدِيثُ وَحَدِيثُ ,الْحَسَنِ، وَحَدِيثُ الْحَسَنِ حَدِيثُ اَمِيرِ الْمُؤْمِنِينَ وَ حَدِيثُ اَمِيرِ الْمُؤْمِنِينَ حَدِيثُ رَسُولِ اللهِ رَسُولِ اللهِ قَوْلُ اللهِ عَزَّ وَ جَلَّ

**“Mənim sözüm atamın (imam Baqirin) sözü, atamın sözü babamın (imam Əliyyibni Hüseynin) sözü, babamın sözü Hüseyn ibni Əlinin, Hüseynin sözü Həsən ibni Əlinin, imam Həsənin sözü Əmirəl-mö`minin, onun sözü Peyğəmbər** (s.ə.v.v)**-in sözü, Peyğəmbər** (s.ə.v.v)**-in sözü də böyük Allahın kəlamıdır.”**[228]

2-İmam Muhəmməd Baqir (ə) Cabirə belə buyurdu:

عَنْ جَبْرَئِيلَ عَنِ اللهِ عَزَّ وَ جَلَّ وَ كُلَّمَا اُحَدِّثُكَ بِهذَا الإِسْنَادِ ,حَدَّثَنِي اَبِي عَنْ جَدِّي رَسُولِ اللهِ

**“Atam mənim üçün babam Rəsuli Əkrəm** (s.ə.v.v)**-dən, o da Cəbrəildən, Cəbrəil də böyük Allahdan rəvayət etmişdir. Sənin üçün rəvayət etdiklərim bu sənəd əsasındadır.”**[229]

Qeyd olunan rəvayətlərə əsasən şiələrin mə`sum rəhbərlərinin hədislərinin mahiyyəti, yə`ni Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in sünnəsindən ibarət olması aydın olur.

## PEYĞƏMBƏR (S.Ə.V.V) ƏHLİ-BEYTİNƏ İSTİNAD ETMƏYİN ZƏRURƏTİ VƏ E`TİBARININ DƏLİLLƏRİ

Sünnü və şiə mühəddisləri inanırlar ki, Peyğəmbər (s.ə.v.v) özündən sonra iki dəyərli əmanət qoyub getmiş, bütün müsəlmanları onlara tabe olmağa çağırmış, insanların hidayət və səadətini o ikisinə sarılmaqda hesab etmişdir. Bunlardan biri Allahın kitabı Qur`an, digəri isə Peyğəmbər (s.ə.v.v)-in Əhli-beyti və itrətidir. Burada nümunə olaraq bə`zi rəvayətləri qeyd edirik:

1-Tirmizi özünün “Səhih” kitabında Cabir ibni Əbdüllah Ənsaridən, Rəsuli Əkrəm (s.ə.v.v)-in belə buyurduğunu nəql edir:

كِتَابَ اللهِ وَ عِتْرَتِي اَهْلَ بَيْتِيKيَا اَيُّهَا النَّاسُ اِنِّي قَدْ تَرَكْتُ فِيكُمْ مَا اِنْ اَخَذْتُمْ بِهِ لَنْ تَضِلُّوا

**“Ey insanlar, mən sizin aranızda iki şeyi əmanət qoyuram, əgər onlara sarılsanız heç vaxt yolunuzu azmazsınız: Allahın kitabı və mənim itrətim.”**[230]

2-Tirmizi həmin kitabda digər bir hədis nəql edir:

قَالَ رَسُولُ اللهِ صَلَّي اللهُ عَلَيْهِ وَ سَلَّمَ اِنِّي تَارِكٌ فِيكُمْ مَا اِنْ تَمَسَّكْتُمْ بِهِ لَنْ تَضِلُّوا بَعْدِي اَحَدُهُمَا كِتَابَ اللهِ حَبْلٌ مَمْدُودٌ مِنَ السَّمَاءِ اِلَي الأَرْضِ وَ عِتْرَتِي اَهْلُ بَيْتِي وَ لَنْ يَفْتَرِقَا Kاَعْظَمُ مِنَ الآخَرِ حَتَّي يَرِدَا عَلَيَّ الْحَوْضَ فَانْظُرُوا كَيْفَ تَخْلُفُونِي فِيهِمَا

**“Rəsuli Əkrəm** (s.ə.v.v) **buyurdu: Mən sizin aranızda iki şeyi əmanət qoyuram, əgər onlara sarılsanız məndən sonra heç vaxt yolunuzu azmazsınız. Onlardan biri digərindən üstündürəæ Allahın kitabı asimanla yer arasında bağlılıq vasitəsidir,**

227 “Camiu əhadisiş-şiə”, 1-ci cild, səh.129

228 Yenə orada, səh.127

229 Yenə orada, səh.128

230 “Səhihi Tirmizi”, kitabul-mənaqib, mənaqibu Əhli-beytin-Nəbi babı, 5-ci cild, Beyrut çapı, səh.662, 3786-cı hədis

**digəri isə mənim Əhli-beytimdir. Onlar "Kovsər" hovzunda mənə gəlib çatana qədər heç vaxt bir-birindən ayrılmazlar. Baxın görün, məndən sonra bu iki əmanətlə necə rəftar edəcəksiniz!"**[231]

3-Müslim ibni Həccac özünün "Səhih" kitabında Peyğəmbər (s.ə.v.v)-in belə buyurduğunu nəql edir:

اَلَا اَيُّهَا النَّاسُ فَاِنَّمَا اَنَا بَشَرٌ يُوشِكُ اَنْ يَأْتِيَ رَسُولُ رَبِّي فَأُجِيبَ وَ اَنَا تَارِكٌ فِيكُمْ ثِقْلَيْنِ اَوَّلُهُمَا كِتَابُ اللهِ فِيهِ الْهُدَي وَ النُّورُ فَخُذُوا بِكِتَابِ اللهِ وَاسْتَمْسِكُوا بِهِ فَحَثَّ عَلَي كِتَابِ اللهِ وَ رَغَّبَ فِيهِ ثُمَّ قَالَ وَ اَهْلُ بَيْتِي اُذَكِّرُكُمُ اللهَ فِي اَهْلِ بَيْتِي،اُذَكِّرُكُمُ اللهَ فِي اَهْلِ بَيْتِي،اُذَكِّرُكُمُ اللهَ فِي اَهْلِ بَيْتِي

**"Ey insanlar, mən də bir bəşərəm, Allahın göndərdiyinin (Əzrail) mənim ardımca gəlməsi yaxındır. Mən də ona müsbət cavab verəcəyəm. Mən sizin aranızda iki ağır və dəyərli əmanət qoyuram. Onlardan biri Allahın kitabıdır ki, onda hidayət və nur vardır, Allahın kitabına sarılın! (Sonra camaatı Qur`ana rəğbətləndirib buyurdu:) Və (ikincisi də) Əhli-beytimdir. Sizi Əhli-beytimə (onların hüquqlarına riayət etməyə) tövsiyə edirəm (bu cümləni üç dəfə təkrar etdi)."**[232]

4-Mühəddislərdən bir qrupu Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in belə buyurduğunu nəql etmişlər:

اِنِّي تَارِكٌ فِيكُمُ الثَّقَلَيْنِ كِتَابَ اللهِ وَ اَهْلَ بَيْتِي وَ اِنَّهُمَا لَنْ يَفْتَرِقَا حَتَّي يَرِدَا عَلَيَّ الْحَوْضَ

**"Mən sizin aranızda iki ağır, dəyərli əmanət qoyub gedirəm. Biri Allahın kitabı Qur`an, digəri isə Əhli-beytimdir. Bunlar "Kovsər" hovzunda mənim yanıma gəlib çatana qədər heç vaxt biri-birindən ayrılmayacaqlar."**[233]

Bu barədə mövcud olan hədislər həddindən artıq çoxdur və bu kiçik kitaba sığmaz. Böyük alim Seyyid Mirhamid Hüseyn bu rəvayətlərin sənədlərini "Əbəqatul-ənvar" kitabında (6 cilddə) bir yerə toplamışdır.

Qeyd olunan rəvayətlərdən aydın olur ki, Peyğəmbər (s.ə.v.v)-in Əhli-beytinə sarılmaq və onlara tabe olmaq Allahın kitabı və Peyğəmbər (s.ə.v.v) sünnəsi baxımından islamın zəruri məsələlərindəndir, Peyğəmbər (s.ə.v.v) Əhli-beytinin sözlərinə əhəmiyyət verməmək isə insanın azğınlığa düşməsinə səbəb olur. Belə bir sual yarana bilər ki, Peyğəmbər (s.ə.v.v)-in itrətivə Əhli-beyti kimlərdir ki, onlara itaət etmək Allahın fərmanı ilə bizə vacib olmuşdur?

Mö`təbər rəvayətlərə istinadən Peyğəmbəri Əkrəm (s.ə.v.v) Əhli-beytinin kimlər olduğunu araşdırırıq.

## PEYĞƏMBƏR (S.Ə.V.V)-İN ƏHLİ-BEYTİ KİMLƏRDİR?

Qeyd olunan rəvayətlərdən aydın olur ki, Peyğəmbəri Əkrəm (s.ə.v.v) bütün müsəlmanları öz Əhli-beytinə tabe olmağa çağırmış, özündən sonra onları Qur`anla yanaşı insanların müraciət yeri kimi təqdim etmiş və tam aşkar şəkildə buyurmuşdur ki, **"Qur`an və itrət heç vaxt bir-birindən ayrılmayacaq."**

Deməli, Əhli-beytin kimlər olduğunu araşdırmalıyıqæ belə ki, onlar Peyğəmbər

---

[231] Yenə orada, səh.663, hədis:3788

[232] "Səhihi Müslim", 7-ci cild, (Misir çapı) səh.122, 123

[233] "Müstədrək" (Hakim), 3-cü cüz, səh.148, "Əs-səvariqul-mühriqə", 11-ci bab, 1-ci fəsil, səh.149æ Bu məzmunun oxşarı aşağıdakı mənbələrdə də qeyd olunub: "Müsnədi Əhməd", 5-ci cüz, səh.182 və 189, "Kənzul-ummal", 1-ci cüz, "əl-e`tisamu bil-kitabi vəs-sünnə" babı, səh.44

(s.ə.v.v) tərəfindən Qur`anla yanaşı təqdim edildiyi üçün ismət məqamına malik olmalı və islam maarifinin zülal çeşməsindən bəhrələnməlidirləræ əks halda Allahın kitabından ayrılmış olacaqlar. Halbuki Peyğəmbər (s.ə.v.v) buyurmuşdur: **“Qur`an və itrət Kovsər hovzunda mənə gəlib çatana qədər bir-birində ayrılmazlar.”**

Beləliklə Əhli-beytin özləri və onların bariz səciyyələrinin dəqiq şəkildə tanınmasının zəruri bir məsələ olması aydınlaşır ki, bu da yalnız Peyğəmbər (s.ə.v.v) itrətindən olan şiə imamları ilə uyğun gəlir.

İndi isə islam mühəddislərinin rəvayətlərinə əsaslanan dəlillərimizi bəyan edirik:

1-Müslim ibni Həccac “Səqələyn” hədisini bəyan etdikdən sonra yazır: “Yəzid ibni Həyyan Zeyd ibni Ərqəmdən soruşdu: Peyğəmbər (s.ə.v.v)-in Əhli-beyti kimlərdir? Onlar Peyğəmbər (s.ə.v.v)-in zövcələridirmi? Zeyd ibni Ərqəm cavabında dedi:

لاَ وَ ايْمُ اللهِ اِنَّ الْمَرْاَةَ تَكُونُ مَعَ الرَّجُلِ الْعَصْرَ مِنَ الدَّهْرِ ثُمَّ يُطَلِّقُهَا فَتَرْجِعُ اِلَي اَبِيهَا وَ قَوْمِهَا، اَهْلُ بَيْتِهِ اَصْلُهُ وَ عُصْبَتُهُ الَّذِينَ حُرِمُوا الصَّدَقَةَ بَعْدَهُ

**“Xeyr (belə deyil)! Allaha and olsun, qadın bir zaman müddətində kişi ilə yanaşıdıræ kişi o qadına təlaq verə bilər, bu zaman o, atasının, qohum-əqrəbasının yanına qayıdar. Peyğəmbər** (s.ə.v.v)**-in Əhli-beyti o kəslərdir ki, əsl – yə`ni dərin qohumluq əlaqələrinə malik və onun ən yaxın adamlarından olsunæ o kəslər ki, Peyğəmbər** (s.ə.v.v)**-dən sonra sədəqə almaq onlara haramdır.”**[234]

Bu rəvayət göstərir ki, Peyğəmbər (s.ə.v.v)-in itrəti (onlara sarılmaq Allahın kitabına sarılmaq kimi vacibdir) dedikdə məqsəd o həzrətin zövcələri deyilæ onun Əhli-beyti cismi (fiziki) baxımdan o həzrətə mənsub edilməkdən əlavə, onunla mə`nəvi bağlılığa və xüsusi ləyaqətə malik olmalıdırlar ki, dünya müsəlmanlarının müraciət yeri kimi Qur`anla yanaşı qərar verilə bilsinlər.

2-Peyğəmbəri Əkrəm (s.ə.v.v) təkcə Əhli-beytin vəsfini bəyan etməklə kifayətlənmədi, onların sayının on iki nəfər olduğunu da aşkar şəkildə buyurdu. Müslim Cabir ibni Səmrətdən belə hekayət edir:

سَمِعْتُ رَسُولَ اللهِ صَلَّي اللهُ عَلَيْهِ وَ آلِهِ وَ سَلَّمَ يَقُولُ" **K** لاَ يَزَالُ الاَسْلاَمُ عَزِيزًا اِلَي اِثْنَيْ عَشَرَ خَلِيفَةً **K** ثُمَّ قَالَ كَلِمَةً لَمْ اَفْهَمْهَا فَقُلْتُ لِاَبِي مَا قَالَ؟ فَقَالَ كُلُّهُمْ مِنْ قُرَيْشٍ

**“Rəsuli Əkrəm** (s.ə.v.v)**-in belə buyurduğunu eşitdim: “İslam on iki xəlifə ilə əziz olacaqdır.” Sonra bir söz dedi, amma mən onu başa düşmədim, atamdan “nə dedi?” deyə soruşduqda cavab verdi: Hamısı Qureyşdəndir.”**[235]

Müslim Peyğəmbər (s.ə.v.v)-dən digər bir hədis nəql edir:

لاَ يَزَالُ اَمْرُ النَّاسِ مَاضِيًا مَا وَلِيُّهُمْ اِثْنَا عَشَرَ رَجُلاً

**“İslam ümmətinə on iki nəfər hökmranlıq edincəyə qədər onların işləri ləyaqətlə ötüb keçəcəkdir.”**[236]

Bu iki rəvayət şiələrin dediyi *“on iki imam Peyğəmbər (s.ə.v.v)-dən sonra ümmətin həqiqi rəhbərləridir”* - deyə sözlərinin düzlüyünə aşkar dəlildir. Çünki Peyğəmbər (s.ə.v.v)-in vəfatından bilavasitə sonra müsəlmanların bütün işlərində müraciət yeri sayılan, islamın əzəmət və şövkətinə səbəb olan on iki xəlifə yalnız Əhli-beyt imamlarından ibarətdir və digər nümunəsi yoxdur. Belə ki, əgər müsəlmanların

---

[234] “Səhihi Müslim”, 7-ci cild, (Misir çapı), səh.123

[235] “Səhihi Müslim”, 6-cı cild, səh.3, Misir çapı

[236] Yenə orada

istilahında “raşidin xəlifələri” adı ilə tanınan dörd xəlifəni çıxsaq, tarixin şəhadət verdiyi kimi Bəni-üməyyə və Bəni-Abbas tayfalarından olan sair hakimlər özlərinin yaramaz əməlləri ilə islamın abır-heysiyyətini aparmış, islam ümmətini və müsəlmanları rüsvayçı vəziyyətə salmışlar. Deməli Peyğəmbər (s.ə.v.v)-in Qur`anla yanaşı qərar verib dünya müsəlmanlarının müraciət yeri kimi təqdim etdiyi Əhli-beyt dedikdə məqsəd o həzrətin Əhli-beytindən olan on iki imamdan ibarətdiræ onlar Peyğəmbər (s.ə.v.v) sünnəsinin qoruyucuları və onun elminin daşıyıcılarıdır.

3-Əmirəl-mö`minin Əliyyibni Əbi Talib (ə) da müsəlmanların rəhbərinin Bəni-Haşimdən olmasını demişdir, bu da şiələrin Əhli-beytin tanınmasındakı sözlərinin düzgünlüyünə aşkar şəkildə dəlalət edir. O həzrət buyurur:

اِنَّ الأَئِمَّةَ مِنْ قُرَيْشٍ غُرِسُوا فِي هذَا الْبَطْنِ- مِنْ بَنِي هَاشِمٍ لاَ تَصْلَحُ عَلَي مَنْ سِوَاهُمْ وَ لاَ تَصْلَحُ الْوُلاَةُ مِنْ غَيْرِهِمْ

**“İmamlar Qüreyşdən, Bəni-Haşim tayfasından qərar verilmişdir. Onlardan başqalarının insanlara vilayətə (rəhbərliyə) ləyaqəti yoxdur, digər hakimlərin rəhbərlikləri əsassızdır.”**[237]

## NƏTİCƏ:

Rəvayətlərin məcmusundan iki həqiqət aşkar olur:

1-Peyğəmbər (s.ə.v.v) Əhli-beytinə sarılıb onlara tabe olmaq Allahın kitabına itaət etməklə yanaşı, vacibdir.

2-Qur`anın bərabəri və bütün müsəlmanların hər bir sahədəki mərcəyi (müraciət yeri) kimi təqdim olunan Əhli-beyt aşağıdakı xüsusiyyətlərə malikdir:

a) Onların hamısı Qüreyşdən, Bəni-Haşim tayfasındandır.

b) Onların hamısı Peyğəmbər (s.ə.v.v)-lə elə yaxınlığa malikdirlər ki, sədəqə onlara haramdır.

v) Onların hamısı ismət məqamına malikdirləræ əks halda əməli olaraq Qur`ani-Məciddən ayrılardılar, halbuki Peyğəmbər (s.ə.v.v) buyurur ki, o ikisi – Qur`an və itrət Kovsər hovuzunda mənə gəlib çatana qədər bir-birindən ayrılmazlar.

q) Onların sayı on iki nəfərdir ki, Peyğəmbər (s.ə.v.v)-dən sonra biri digərindən sonra müsəlmanların rəhbəri olmalıdır.

ğ) Bu on iki xəlifə islamın əzəmət və şövkətinə səbəb olur.

Rəvayətlərdə də qeyd olunan bu xüsusiyyətləri nəzərə almaqla aydın olur ki, Peyğəmbər (s.ə.v.v)-in “Əhli-beyt” dedikdə məqsədi (Peyğəmbər onlara tabe olmağı bütün müsəlmanlara tövsiyə etmişdir) o həzrətin itrətindən olan on iki pak imamdır ki, şiələr də onlara tabe olaraq özünün fiqhi hökmlərini onlardan əxz etmələri ilə iftixar edirlər.

---

[237] “Nəhcül-bəlağə” (Sübhi Saleh), xütbə-144

SUAL: 28

## ƏBU TALİB DÜNYADAN İMANLA GETMİŞDİRMİ Kİ, SİZ ONU ZİYARƏT EDİRSİNİZ?!

Cavab: Əbdülmüttəlibin oğlu, Əli (ə)-ın əziz atası Peyğəmbər (s.ə.v.v)-in əmisi olan Əbu Talib şiələrin nəzərində Peyğəmbər (s.ə.v.v)-in nübüvvətinə iman gətirmiş, islamın əvvəllərindəki bütün çətinliklərdə o həzrətin vəfadar köməkçisi olmuşdur.

## ƏBU TALİBİN AİLƏSİ

Onun dünyaya gəldiyi ailənin sərpərəstliyini Peyğəmbər (s.ə.v.v)-in babası və İbrahim (ə) məktəbinin ardıcılları-nın qəhrəmanı, yə`ni Əbdülməttəlib öhdəsinə almışdı. Ərəbis-tan yarımadasının tarixində azacıq araşdırma aparmaqla mə`lum olur ki, Əbdülmüttəlib bütün həyatı boyunda qarşıya çıxan ən böhranlı şəraitlərdə və təhlükəli vəziyyətlərdə Allaha pərəstişdən və tovhid ayinini himayə etməkdən əl çəkməmiş, usanmamışdır. Əbrəhə Kə`bəni dağıtmaq üçün fil ordusu ilə Məkkəyə yürüş etdikdə yolda Əbdülmüttəlibin dəvələrindən bə`zilərini müsadirə etdi, o, öz dəvələrini almaq üçün getdikdə Əbrəhə təəccüblə soruşdu: Nə üçün öz dəvələrinin qaytarmaq əvəzinə mənim ordumun qayıtmasını və Kə`bə evini dağıtmaq fikrindən dönməyimi istəmirsən?! Əbdülmüttəlib Allaha iman və e`timadla dolu olan bir ruhla cavab verdi:

اَنَا رَبُّ الاِبِلِ وَ لِلْبَيْتِ رَبٌّ يَمْنَعُهُ (يحْمِيهِ)

**“Mən dəvələrimin sahibiyəm, bu evin Kə`bənin də bir sahibi vardır ki, onu qoruyub himayə edəcəkdir.”**[238]

Sonra Məkkəyə yollandı, Kə`bənin həlqəsindən yapışaraq dedi:

*يَا رَبِّ لا اَرْجُو لَهُمْ سِوَاكَا يَا رَبِّ فَامْنَعْ مِنْهُمْ حمَاكَا*

*اِنَّ عَدُوَّ الْبَيْتِ مَنْ عَادَاكَا اِمْنَعْهُمْ اَنْ يُخْرِبُوا فِنَاكَا*

*“Pərvərdigara! Mən Səndən başqa bir kəsə ümid bəsləmirəm. Pərvərdigara, Özünün əmin-amanlıq hərəmini bu düşmənlərdən saxla! Bu evin düşmənləri Səninlə müharibəyə qalxıblar, onların Sənin evini viran etmələrinin qarşısını al!”*[239]

Bu və bu kimi başqa gözəl sözlər Əbu Talibin atası Əbdülmüttəlibin möhkəm imana, Allaha pərəstiş ruhuna malik olmasını göstərir. Buna görə də Yə`qubi öz tarixində Əbdülmüttəliblə əlaqədar belə deyir:

رَفَضَ عِبَادَةَ الأَصْنَامِ وَ وَحَّدَ للهَ عَزَّ وَ جَلَّ

*“Əbdülmüttəlib heç vaxt bütə pərəstiş etmədiæ o, yeganə Allaha inanırdı.”*[240]

İndi Allaha pərəstiş edən bu mö`min atanın öz övladı Əbu Talib barəsində necə fikirləşdiyinə nəzər salaq.

## ƏBDÜLMÜTTƏLİBİN NƏZƏRİNDƏ ƏBU TALİB

Tarixdən aydın olur ki, batini pak olan, müəyyən qeybi xəbərləri verən bə`zi şəxslər Əbdülmüttəlibi Peyğəmbər (s.ə.v.v)-in parlaq gələcəyindən və nübüvvətə çatacağından agah etmişdilər. Seyf ibni Ziyəzin Həbəşistanda hakimiyyətə çatdığı zaman

---

[238] “Kamil” (ibni Əsir), 1-ci cild, səh.261, Misir çapı, 1348-ci il

[239] Yenə orada

[240] “Tarixi Yə`qubi”, 2-ci cild, səh.7, Nəcəf çapı

Əbdülmüttəlib bir hey`ətlə birlikdə onun yanına getdi və gözəl bir xütbə söylədikdən sonra Həbəşistanın hakimi ona müjdə verdi ki, sənin ailəndə əzəmətli bir peyğəmbər dünyaya gələcəkdir. Sonra onun xüsusiyyətləri barəsində belə dedi:

اِسْمُهُ مُحَمَّدٌ يَمُوتُ اَبُوهُ وَ اُمُّهُ وَ يَكْفُلُهُ جَدُّهُ وَ عَمُّهُ

*"Onun adı Muhəmməddir. Atası və anası öləcək, babası və əmisi onun sərpərəstliyini öhdəsinə alacaqdır."*[241]

Sonra bu gələcək peyğəmbərin sifətləri barəsində daha artıq xəbər verərək dedi:

يَعْبُدُ الرَّحْمَانَ وَ يُدْحِضُ الشَّيْطَانَ وَ يخْمدُ النِّيرَانَ وَ يَكْسُرُ الاَوْثَانَ، قَوْلُهُ فَصْلٌ وَ حُكْمُهُ عَدْلٌ وَ يَاْمُرُ بِالْمَعْرُوفِ وَ يَفْعَلُهُ وَ يَنْهَي عَنِ الْمُنْكَرِ وَ يُبْطِلُهُ

*"Yeganə və rəhman Allaha pərəstiş edər, şeytanın qarşısını alar, odları söndürər, bütləri sındırıb tökər. Onun sözləri haqla batilin ayırd edilməsində me`yar, fərmanı ədalət əsasındadır. Camaatı yaxşı işlərə də`vət edər, özü də yaxşı əməl sahibidirœ onları pis işlərdən çəkindirər, özü də pis işlərdən çəkinib onu batil bilər."*[242]

Sonra Əbdülmüttəlibə dedi:

اِنَّكَ لَجَدُّهُ يَا عَبْدَ الْمُطَّلِبِ غَيْرَ كِذْبٍ

*"Şübhəsiz, sən onun babasısan."*[243]

Əbdülmüttəlib bu şad xəbəri eşidəndən sonra şükr səcdəsi etdi, o mübarək mövludun barəsində belə dedi:

اِنَّهُ كَانَ لِي اِبْنٌ وَ كُنْتُ بِهِ مُعْجِبًا وَ عَلَيْهِ رَقِيبًا وَ اِنِّي زَوَّجْتُهُ كَرِيمَةً مِنْ كَرَائِمِ قَوْمِي آمَنَةَ بِنْتَ وَهَبِ ابْنِ عَبْدِ مَنَافِ ابْنِ زُهْرَةَ فَجَاءَتْ بِغُلَامٍ فَسَمَّيْتُهُ مُحَمَّدًا مَاتَ اَبُوهُ وَ اُمُّهُ وَ كَفِلْتُهُ اَنَا وَ عَمُّهُ (يَعْنِي اَبَا طَالِبٍ)

*"Bir oğlum var idi ki, onu çox istəyirdim. Amənə adlı əziz bir qadını – Vəhəb ibni Əbdi Mənafın qızını onun əqdinə keçirtdim. O qadın bir oğlan uşağı dünyaya gətirdi, adını Muhəmməd qoydum. Bir müddətdən sonra ata-anası dünyadan getdi, mən və onun əmisi Əbu Talib onun sərpərəstliyini öhdəmizə aldıq."*[244]

Bu sözlərdən aydın olur ki, Əbdülmüttəlib bu yetim uşağın gələcəyindən agah olduğu üçün özündən sonra bu uşağa sərpərəstlik etməyi ən əziz oğlu Əbu Talibə həvalə etdi, başqalarını bu səadətli işdən uzaq etdi. Deməli Əbu Talib özünün mö`min və tovhidçi atasının nəzərində elə bir iman və təqvaya malik idi ki, Peyğəmbərə sərpərəstlik etməyə yalnız onu layiqli hesab edirdi.[245]

İndi əlavə olaraq Əbu Talibin imanının sair dəlillərini qeyd edirik:

## ƏBU TALİBİN İMANININ DƏLİLLƏRİ

1-Əbu Talibin elmi-ədəbi əsərləri

İslam alimləri və tarixçiləri Əbu Talibdən gözəl qəsidələr nəql etmişlər ki, onun elmi və ədəbi misraları arasından həqiqi imanını dərk etmək olar. Biz onun çoxlu qəsidələrindən bə`zilərini qeyd edirik:

---

241 "Sireyi Hələbi", 1-ci cild, səh.136-137, Beyrut çapı, səh.114-115

242 Yenə orada

243 Yenə orada

244 Yenə orada ("Sireyi Hələbi"), 1-ci cild, səh.137, Misir çapı

245 Əlavə mə`lumat üçün: "Sireyi Hələbi", Misir çapı, 1-ci cild, səh.134, "Si-reyi ibni Hişam", Beyrut çapı, 1-ci cild, səh.89, "Əbu Talib–Qureyş mö`mini", səh.109, Beyrut çapı, "Təbəqatul-Kubra", 1-ci cild, səh.117, Beyrut çapı.

*لِيَعْلَمْ خِيَارُ النَّاسِ اَنَّ مُحَمَّدًا نَبِيٌّ كَمُوسَي وَ الْمَسِيحِ ابْنِ مَرْيَمَ*
*اَتَانَا بِهُدَيٍ مِثْلَ مَا اَتَيَا بِهِ فَكُلٌّ بِاَمْرِ اللهِ يَهْدِي وَ يَعْصِمُ*

*"Şərif və alicənab insanlar bilsinlər ki,*
*Muhəmməd də Musa və İsa kimi bir peyğəmbərdir,*
*O ikisinin malik olduğu asimani nuraniyyətə o da malikdir,*
*Bütün peyğəmbərlər Allahın fərmanı ilə insanları hidayət etdilər və günahlardan çəkindirdilər."*[246]

*اَلَمْ تَعْلَمُوا اَنَّا وَجَدْنَا مُحَمَّدًا رَسُولاً كَمُوسَي خُطَّ فِي اَوَّلِ الْكُتُبِ*
*وَ اَنَّ عَلَيْهِ فِي الْعِبَادِ مَحَبَّةً وَ لاَ حيفَ فِيمَنْ خَصَّهُ اللهُ بِالْحُبِّ*

*"Bilmirsinizmi ki, biz Muhəmmədin, Musa kimi asimani kitablarda bəyan olunan bir peyğəmbər olduğunu gördük?*
*Camaat onu sevirlər və Allah onun məhəbbətini qəlblərdə qərar verdiyi bir şəxsə zülm rəva görməməlidirlər.*[247]

*لَقَدْ اَكْرَمَ اللهُ النَّبِيَّ مُحَمَّدًا فَاَكْرَمُ خَلْقِ اللهِ فِي النَّاسِ اَحْمَدُ*
*وَ شَقَّ لَهُ مِنِ اسْمِهِ لِيُجِلَّهُ فَذُو الْعَرْشِ مَحْمُودٌ وَ هذَا مُحَمَّدُ*

*Böyük Allah Öz Peyğəmbəri Muhəmmədi əzizlədi,*
*Buna görə də Allahın məxluqlarının ən sevimlisi Əhməddir.*
*Allah Peyğəmbərin adını Öz adından müştəq etmişdir ki, onun məqamını əzizləsin.*
*Ərş sahibi olan Pərvərdigar Məhmud (tə`riflənmiş), Onun Peyğəmbəri isə Əhməddir (çox həmd-səna edəndir).*[248]

*وَ اللهِ لَنْ يَصِلُوا اِلَيْكَ بِجَمْعِهِم حَتَّي اُوَسَّدَ فِي التُّرَابِ دَفِينَا*
*فَاصْدَعْ بِاَمْرِكَ مَا عَلَيْكَ غَضَاضَةٌ وَاَبْشِرْ بِذلِكَ وَ قَرَّ مِنْكَ عُيُونَا*
*وَ دَعَوْتَنِي وَ عَلِمْتُ اَنَّكَ نَاصِحِيز وَلَقَدْ دَعَوْتَ وَ كُنْتَ ثَمَّ اَمِينَا*
*مِنْ خَيْرِ اَدْيَانِ الْبَرِيَّةِ دِينَا وَلَقَدْ عَلِمْتُ بِاَنَّ دِينَ مُحَمَّدٍ*

*"Ey Allahın Rəsulu, Allaha and olsun, mən torpaqda aram oluncaya (yə`ni ölüncəyə) qədər düşmənlər heç vaxt səni ələ keçirə bilməyəcəklər.*
*Belə isə heç nədən qorxma, sənə əmr olunan şeyləri aşkar et, müjdə ver, gözlərə nuranilik bağışla.*
*Sən məni öz dininə çağırdın, mən də bilirəm ki, sən mənim xeyrimi istəyirsən və öz də`vətində möhkəm və düzsən.*
*Mən aydın şəkildə bildim ki, Muhəmmədin ayini dünya dinlərinin ən yaxşısıdır."*[249]

اَنِّي عَلَي دِينِ النَّبِيِّ اَحْمَدْ          يَا شَاهِدَ اللهِ عَلَيَّ فَاشْهَدْ
مَنْ ضَلَّ فِي الدِّينِ فَاِنِّي مُهْتَدِي

*"Ey Allahın mənə olan şahidi, mənim Muhəmmədin dininə imanıma şahid olæ hər kəs yolunu azsa da mən hidayət əhliyəm."*[250]

---

[246] "Əl-Hüccə", səh.57, "Müstədrək" (Hakim), 2-ci cild, səh.623, Beyrut çapı

[247] "Tarixi ibni Kəsir", 1-ci cild, səh.42, "Nəhcül-bəlağə"nin şərhi (ibni Əbil Hədid), 14-cü cild, səh.72

[248] "Nəhcül bəlağə"nin şərhi (ibni Əbil Hədid), 14-cü cild, səh.78, "Tarixi ibni Əsakir", 1-ci cild, səh.75, "Tarixi ibni Kəsir", 1-ci cild, səh.266, "Tarixul Xəmis", 1-ci cild, səh.254

[249] "Xəzanətul-ədəb" (Bəğdadi), 1-ci cild, səh.261, "Tarixi ibni Kəsir", 3-cü cild, səh.42, "Nəhcül-bəlağə"nin şərhi (ibni Əbil Hədid) 14-cü cild, səh.55, "Fəthul Bari", 7-ci cild, səh.153-155, "Əl-İsabə", 4-cü cild, səh.116, Misir çapı, 1358, "Divani Əbi Talib", səh.12

[250] "Nəhcül bəlağə"nin şərhi (ibni Əbil Hədid) 14-cü cild, səh.78, "Divani Əbu Talib", səh.75

d) Əbu Talib ömrünün son anlarında aşağıda qeyd olunan beytlərlə Bəni-Haşim başçılarının Peyğəmbəri kamil şəkildə himayə etmələrini tövsiyə edir:

أُوْصِي بِنَصْرِ نَبِيِّ الْخَيْرِ اَرْبَعَةً اِبْنِي عَلِيًّا وَ شَيْخَ الْقَوْمِ عَبَّاسًا
وَ حَمْزَةَ الأَسَدَ الْحَامِي حَقِيقَتَهُ وَ جَعْفَرًا اَنْ تذودُوا دُونَهُ النَّاسَا
كُونُوا فِدَاءً لَكُمْ اُمِّي وَ مَا وَلَدَتْ فِي نَصْرِ اَحْمَدَ دُونَ النَّاسِ اَتْرَاسَا

*Dörd nəfərə xeyir Peyğəmbərinə kömək etməyi tövsiyə edirəm: oğlum Əliyə, qəbiləmizin böyüyü Abbasa,*

*Allahın şiri Həmzəyə–o, həmişə əziz Peyğəmbəri himayə etmişdir–və (oğlum) Cə`fərə ki, ona kömək edəsiniz*

*Və siz – əzizlərim sizə fəda olsun – həmişə Allahın Rəsulu üçün düşmənlər müqabilində sipər olun!”*[251]

Hər bir insaflı və təqvalı insan Əbu Talibin Allaha və Peyğəmbər (s.ə.v.v)-ə iman və əqidəsini kamil və aşkar şəkildə bəyan edən bu gözəl əbədi əsərlərini müşahidə etməklə şiələrin onun həqiqi mə`nada mö`min olması barəsindəki nəzərinin düzgünlüyünü anlayır, bə`zi yazıçıların xüsusi siyasi hədəflərlə Qureyşin mö`mini, Peyğəmbərin əmisi, islamın əvvəllərində yaranan ən ağır şəraitlərdə şəriətin böyük keşikçisinə yağdırdıqları ittihamlardan təəssüf hissi keçirir.

2-Əbu Talibin Peyğəmbər (s.ə.v.v)-lə olan rəftarı onun imanlı olmasını göstərir.

Məşhur islam yazıçıları və tarixçilərinin hamısı onun Peyğəmbər (s.ə.v.v)-in yolundakı misilsiz fədakarlıqlarını xatırlatmışdır. Bu da onun dərin e`tiqadını bəyan edir. Əbu Talib islamı müdafiə etmək və Peyğəmbərin keşiyini çəkmək üçün “Əbu Talib” dərəsindəki üç illik sərgərdançılığa və iqtisadi mühasirəyə dözərək Peyğəmbər (s.ə.v.v)-in yanında olmağı Qureyşə rəislikdən üstün hesab etdi, müsəlmanların iqtisadi mühasirəsinin axırına qədər o həzrətin yanında qaldı və belə bir üzücü şəraitdə bütün çətinliklərə canla-başla sinə gərdi.[252]

Bundan əlavə, Əbu Talib özünün əziz övladı Əlini Peyğəmbər (s.ə.v.v)-lə yanaşı çağırdı və ondan istədi ki, islamın əvvəllərində mövcud olan bütün çətin şəraitlərdə o həzrətin yanında olsun. İbni Əbil Hədid “Nəhcül-bəlağə”nin şərhində Əbu Talibin öz oğlu Əli (ə)-a belə dediyini nəql edir: *“Allahın Rəsulu səni yalnız xeyir işlərə də`vət edir, belə isə daim onunla yanaşı ol.”*[253]

Aydındır ki, Əbu Talibin Peyğəmbər (s.ə.v.v)-ə etdiyi bu qədər dəyərli xidmətlər və onun islamı qorumaqdakı xalis və riyasız fədakarlıqları onun imanına güclü bir dəlildir. Buna görə də böyük islam alimi ibni Əbil Hədid Əbu Talibin Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in canının və onun pak dininin qorunub hifz olunmasında ifa etdiyi həyati rola işarə edərək onu belə tə`rifləyir:

وَ لَوْ لَا اَبُو طَالِبٍ وَ ابْنُهُ لَمَا مثّلَ الدِّين شَخْصًا فَقَامَا
فَذاكَ بِمَكَّةَ آوَي وَ حَامَي وَ هذَا بِيَثْرِبَ جَسَّ الْحمَامَا
وَ مَا ضَرَّ مَجْدُ اَبِي طَالِبٍ جَهُولٌ لغي اَوْ بَصِيرٌ تَعَامَي

[251] “Mütəşabihatul-Qur`an” (ibni Şəhraşub), “Həcc” surəsinin təfsirində

[252] Əlavə mə`lumat almaq üçün aşağıdakı mənbələrə müraciət edin: 1-”Sireyi Hələbi”, 1-ci cild, səh.134 Misir çapı, 2-”Tarixul-Xəmis”, 1-ci cild, səh.253-254, Beyrut çapı, 3-”Sireyi ibni Hişam”, 1-ci cild, Beyrut çapı, səh.189, 4-”Nəhcül bəlağə”nin şərhi (ibni Əbil Hədid), 14-cü cild, səh.52, 5-”Tarixi Yə`qubi”, 2-ci cild, Nəcəf çapı, 6-”Əl-İsabə”, 4-cü cild, səh.115, Misir çapı, 7-”Təbəqatul-Kubra”, 1-ci cild, səh.119, Beyrut çapı, 1380

[253] “Nəhcül bəlağə”nin şərhi, 14-cü cild, səh.53

*"Əgər Əbu Talib və onun övladı (Əli) olmasaydı islam dini heç vaxt möhkəmlənə bilməzdi.*

*O, Məkkədə Peyğəmbərə pənah verərək onu himayə etdi, onun övladı da Yəsribdə (Peyğəmbərə kömək etmək yolunda) ölümün ağuşuna atıldı.*

*Heç kəs Əbu Talibin əzəmətinə xələl gətirə bilməz: nə bihudə danışan cahillər, nə də özünü nadanlığa vuran agahlar."*[254]

## 3-ƏBU TALİBİN VƏSİYYƏTİ ONUN İMANINA AŞKAR DƏLİLDİR

Məşhur islam tarixçiləri, o cümlədən Hələbi Şafei özünün "Sirə" kitabında, Məhəmməd Diyar Bəkri "Tarixul-Xəmis" kitabında Əbu Talibin ömrünün axırında öz qövmünü Peyğəmbərə kömək etməyə səsləməsi ilə əlaqədar sözlərini qeyd etmişlər:

يَا مَعْشَرَ قُرَيْشٍ كُونُوا لَهُ وُلاَةً وَ لِحِزْبِهِ حُمَاةً وَ اللهِ لاَ يَسْلُكُ اَحَدٌ مِنْكُمْ سَبِيلَهُ اِلاَّ رَشَدَ وَ لاَ يَأْخُذُ اَحَدٌ يَهْدِيهِ اِلاَّ سَعُدَ وَ لَوْ كَانَ لِنَفسِي مُدَّةٌ وَ لِاَجَلِي تَاَخُّرٌ لَكَفَفْتُ عَنْهُ الْهَزَائِزَ وَ لَدَفَعْتُهُ عَنْهُ الدَّوَاهِيَ، ثُمَّ هَلَكَ

*"Ey mənim qohum-əqrəbam! Məhəmmədi sevib ona tabe olun və onun hizbini (islamı) himayə edin. Allaha and olsun, hər kəs onun hidayət nuruna tabe olsa səadətə çatar. Əgər mənim ömrüm davam etsəydi və əcəl mənə möhlət versəydi, şübhəsiz, onun çətinliklərini aradan qaldırardım. Bunu deyib canını tapşırdı."*[255]

4-Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in Əbu Talibi sevməsi onun imanlu olmasına dəlildir.

Peyğəmbər (s.ə.v.v) öz əmisi Əbu Talibi müxtəlif münasibətlərlə əlaqədar tə`rifləmiş, onu sevdiyini izhar etmişdir. Biz yalnız iki nümunəni qeyd etməklə kifayətlənirik:

a) Tarixçilərdən bir qrupu nəql etmişlər ki, Peyğəmbər (s.ə.v.v) Əqil ibni Əbu Talibə belə buyurdu:

اِنِّي اُحِبُّكَ حُبَّيْنِ حُبًّا لِقَرَابَتِكَ مِنِّي وَ حُبًّا لِمَا كُنْتُ اَعْلَمُ مِنْ حُبِّ عَمِّي اِيَّاكَ

**"Mən səni iki cəhətə görə sevirəm: Birincisi mənimlə qohum olduğuna görədir, digəri isə buna görədir ki, əmim Əbu Talibin səni sevdiyini bilirəm."**[256]

b) Hələbi də özünün "Siyrə" kitabında Peyğəmbər (s.ə.v.v)-in Əbu Talibin məqamını tə`rifləyərək belə buyurduğunu yazır:

مَا نَالَتْ قُرَيْشٌ مِنِّي شَيْئًا اَكْرَهُهُ (اَيْ اَشَدُّ الْكَرَاهَةِ) حَتَّي مَاتَ اَبُو طَالِبٍ

**"Nə qədər ki, Əbu Talib sağ idi, Qureyş kafirləri mənə işgəncə, əzab-əziyyət verə bilmirdilər."**[257]

Aydındır ki, Peyğəmbər (s.ə.v.v)-in Əbu Talibə məhəbbət bəsləməsi və onun yüksək məqamını tə`rifləməsi onun xalis imanına bir dəlildir. Çünki Peyğəmbəri Əkrəm (s.ə.v.v) Qur`an ayələrinin buyurduğuna görə yalnız mö`minləri sevirdi, kafir və müşriklərə qarşı isə ciddi, şiddətli idi. Qur`an bu barədə buyurur:

مُحَمَّدٌ رَّسُولُ اللهِ وَالَّذِينَ مَعَهُ اَشِدَّاءُ عَلَي الْكُفَّارِ رُحَمَاءُ بَيْنَهُمْ

**"Muhəmməd Allahın peyğəmbəridir, onunla birgə olanlar kafirlərlə qarşı çox**

---

[254] Yenə orada, səh.84

[255] "Tarixul-Xəmis", 1-ci cild, səh.300-301, Beyrut çapıæ "Sireyi-Hələbi", 1-ci cild, səh.391 Misir çapı

[256] "Tarixul-Xəmis", 1-ci cild, səh.163, "Əl-istiyab", 2-ci cild, səh.509

[257] "Sireyi Hələbi", 1-ci cild, səh.931, Misir çapı

**sərt və qəliz, öz aralarında isə çox mehribandırlar."**[258]

Başqa bir ayədə buyurulur:

لَا تَجِدُ قَوْمًا يُؤْمِنُونَ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ يُوَادُّونَ مَنْ حَادَّ اللَّهَ وَرَسُولَهُ وَلَوْ كَانُوا آبَاءَهُمْ اَوْ اَبْنَاءَهُمْ اَوْ اِخْوَانَهُمْ اَوْ عَشِيرَتَهُمْ أُوْلَئِكَ كَتَبَ فِي قُلُوبِهِمُ الْإِيمَانَ

**"Heç vaxt Allaha və Onun Peyğəmbərinə imanlı olan şəxslərin, Allahın və Rəsulunun düşmənlərini sevsmələrini görməzsən, hərçənd o düşmənlər ataları, övladları, qardaşları və qohum-əqrəbaları olsa belə. Allah məhz onların qəlblərinə iman sətirləri həkk etmişdir."**[259]

Qeyd olunan ayələri nəzərə almaqla, onları Peyğəmbəri Əkrəmin Əbu Talibə məhəbbət bəsləməsi və onu müxtəlif əlamətdar hadisələrlə əlaqədar tə`rifləməsi ilə müqayisə etməklə Əbu Talibin Allaha və Peyğəmbərə yüksək iman dərəcəsindən bəhrələnməsində heç bir şəkk-şübhəyə yer qalmır.

5-Peyğəmbər (s.ə.v.v) səhəbələrinin şahidliyi

Peyğəmbər (s.ə.v.v) səhabələrindən bir qrupu Əbu Talibin dərin imanına şahidlik etmişlər ki, onlardan bə`zilərini qeyd edirik:

a) Mə`lumatsız bir şəxs Əli (ə)-ın hüzurunda Əbu Talibin məqamına ittiham yağdırmağa başladı. O həzrət qəzəbli halda buyurdu:

وَ الَّذِي بَعَثَ مُحَمَّدًا بِالْحَقِّ نَبِيًّا لَوْ شَفَعَ اَبِي فِي كُلِّ مُذْنِبٍ عَلَي وَجْهِ الأَرْضِ **K**مَهْ فَضَّ اللّهُ فَاكَ لَشَفَّعَهُ اللّهُ

**"Sakit ol! Allah ağzını sındırsın! Muhəmmədi peyğəmbərliyə göndərən Allaha and olsun, əgər atam Əbu Talib hər bir günahkarın şəfaətini öhdəsinə almaq istəsə Allah onu hökmən şəfaətçi edər."**[260]

Başqa bir yerdə buyurur:

كَانَ وَ اللهِ اَبُو طَالِبٍ عَبْدُ مَنَافِ ابْنِ عَبْدِ الْمُطَّلِبِ مُؤْمِنًا مُسْلِمًا يَكْتُمُ اِيمَانَهُ مَخَافَةً عَلَي بَنِي هَاشِمٍ اَنْ تَنَابَذَهَا قُرَيْشٍ

**"Allaha and olsun ki, Əbu Talib Əbdülmənaf ibni Əbdül-müttəlib mö`min və müsəlman idi, öz imanını Qureyş kafirlərindən gizlədirdi ki, onlar Bəni-Haşimlə düşmənçilik etməsinlər."**[261]

İmam Əli (ə)-ın bu sözləri Əbu Talibin güclü imanını təsdiq etməkdən əlavə, onu ilahi övliyalar cərgəsində qeyd etmişdir, belə ki, o, hətta Allahın izni ilə başqalarının şəfaətçisi də ola bilər.

b) Əbuzər Qifari Əbu Talibin barəsində belə deyir:

وَ اللهِ الَّذِي لَا اِلَهَ اِلاّ هُوَ، مَا مَاتَ اَبُو طَالِبٍ رَضِيَ اللّهُ عَنْهُ حَتَّي اَسْلَمَ

*"Yeganə olan Allah and olsun ki, Əbu Talib islamı qəbul etməmiş dünyadan getmədi."*[262]

v) Abbas ibni Əbdülmüttəlib və Əbu Bəkr ibni Əbu Quhafədən də çoxlu sənədlərlə belə rəvayət olunur:

---

258 -"Fəth" surəsi, ayə:9

259 Həmçinin "Mumtəhinə" surəsinin 1-ci ayəsi, "Tövbə" surəsinin 23-cü ayəsi və "Maidə" surəsinin 54 və 81-ci ayələri bu mə`naya şahiddir.

260 "Əl-Hüccə", səh.24

261 Yenə orada, səh.24

262 "Nəhcül bəlağə"nin şərhi (ibni Əbil Hədid), 14-cü cild, səh.71

لَا اِلهَ اِلاَّ اللّهُ مُحَمَّدٌ رَسُولُ اللّهِKاِنَّ اَبَا طَالِبٍ مَا مَاتَ حَتَّي قَالَ

*"Əbu Talib "la ilahə illəllah, Muhəmmədun Rəsulullah" deməmiş dünyadan getməmişdir."*[263]

6-Əhli-beyt ¢-ın nəzərindən Əbu Talib

Əhli-beyt imamlarının hamısı Əbu Talibin möhkəm və güclü imana malik olmasını aşkar şəkildə bəyan etmiş, müxtəlif əlamətdar hadisələrlə əlaqədar Peyğəmbərin bu fədakar köməkçisini müdafiə etmişlər. Biz onlardan iki nümunə qeyd etməklə kifayətlənirik.

a) İmam Baqir (ə) buyurur:

لَوْ وُضِعَ اِيمَانُ اَبِي طَالِبٍ فِي كَفَّةِ مِيزَانٍ وَ اِيمَانُ هذَا الْخَلْقِ فِي الْكَفَّةِ الأُخْرَي لَرَجَحَ اِيمَانُهُ

**"Əgər Əbu Talibin imanını tərəzinin bir gözünə, bu insanların imanını isə digər gözünə qoysalar, şübhəsiz, Əbu Talibin imanı ağır gələr."**[264]

b) İmam Sadiq (ə) Peyğəmbərdən belə nəql edir:

اِنَّ اَصْحَابَ الْكَهْفِ اَسَرُّوا الاِيمَانَ وَ اَظْهَرُوا الْكُفْرَ فَآتَاهُمُ اللّهُ اَجْرَهُمْ مَرَّتَيْنِ وَ اِنَّ اَبَا طَالِبٍ اَسَرَّ الاِيمَانَ وَ اَظْهَرَ الشِّرْكَ فَآتَاهُ اللّهُ اَجْرَهُ مَرَّتَيْنِ

**"Əshabi-Kəhf (müəyyən məsləhətlərə görə) öz imanlarını gizlədərək zahirdə özlərini kafir kimi göstərirdilər. Allah da onlara iki dəfə savab verdi. Əbu Talib də öz imanını və müsəlmançılığını gizlədir və (müəyyən məsləhətlərə görə) zahirdə özünü müşrik kimi göstərirdi. Allah da ona iki qat savab verdi."**[265]

Qeyd olunan dəlillərin məcmusundan aydın olur ki, Əbu Talib aşağıdakı yüksək məqamlara malik idi:

1-Allaha və Peyğəmbəri Əkrəm (s.ə.v.v)-ə güclü iman.

2-Peyğəmbər (s.ə.v.v)-ə riyasız, xalis kömək etmək və islam yolunda fədakarlıq.

3-Peyğəmbər (s.ə.v.v) tərəfindən misilsiz dərəcədə sevilmək.

4-Allah dərgahında şəfaət məqamından bəhrələnmək.

Bununla da ona vurulan yersiz ittihamların əsassız olduğu sübuta yetir.

Həmçinin, qeyd olunanlardan iki həqiqət aşkar olur:

1-Əbu Talibin imanı Peyğəmbəri Əkrəm (s.ə.v.v) və o həzrətin səhabələri, həmçinin Əmirəl-mö`minin və Əhli-beyt ¢-ın sair imamları tərəfindən qəbul olunur.

2-Ona vurulan yersiz ittihamların heç bir əsası yoxdur və yalnız siyasi hədəflərə görə, Əhli-beytlə və Əbu Talib övladları ilə mübarizə aparan, onlara dərin düşmənçilik bəsləyən Bəni Üməyyə və Bəni Abbas şahlarının təhrik edilməsi üçün baş vermişdir.

İndi yaxşı olar ki, o cənabın böyük şəxsiyyətini sındırmaq üçün istifadə edilən və "Zəhzah hədisi" adı ilə məşhur olan ən böyük bəhanəni araşdıraq, Qur`an ayələri, Peyğəmbərin danılmaz sünnəsi və sağlam əql nəzərindən onun əsassız olduğunu isbat edək.

## "ZƏHZAH" HƏDİSİNİN ARAŞDIRILMASI

Bə`zi yazıçılar, o cümlədən Buxari və Müslim Süfyan ibni Səid Suri, Əbdülməlik

[263] "Əl-Qədir", 7-ci cild, səh.389, Beyrut çapı, 1378 hicri qəməri, Vəki`nin təfsirindən nəqlən

[264] "Nəhcül-bəlağə"nin şərhi (ibni Əbil Hədid), 14-cü cild, səh.68, "Əl-Hüccə", səh.18

[265] "Nəhcül bəlağə"nin şərhi (ibni Əbil Hədid), 14-cü cild, səh.70, "Əl-Hüccə", səh.115

ibni Ümeyr, Əbdül Əziz ibni Məhəmməd Dəravərdi, Leys ibni Səid kimi ravilərə istinad edərək Peyğəmbərdən aşağıdakı hədisi nəql etmişlər:

a)

وَجَدْتُهُ فِي غَمَرَاتٍ مِنَ النَّارِ فَاَخْرَجْتُهُ اِلَي ضَحْضَاحٍ

*"(Onu Əbu Talibi) odla dolu bir yerdə tapdım, sonra onu "Zəhzah"a apardım."*[266]

b)

لَعَلَّهُ تَنْفَعُهُ شَفَاعَتِي يَوْمَ الْقِيَامَةِ فَيُجْعَلُ فِي ضَحْضَاحٍ مِنَ النَّارِ يَبْلُغُ كَعْبَيْهِ يَغْلِي مِنْهُ دِمَاغُهُ

*"Bəlkə də qiyamət günündə mənim şəfaətim ona – Əbu Talibə fayda çatdıra, sonra cəhənnəm odunun "Zəhzah"ında qərar tutar ki, dərinliyi onun ayaqlarının çıxıntısına qədər çatar, belə ki, onun beyni qaynayar."*[267]

Əbu Talibin aydın imanını göstərən çoxlu dəlillər və rəvayətlər namərdcəsinə olan bu böyük töhmət və iftiranın (Zəhzah hədisinin) əsassız olduğunu isbat edir, lakin məsələyə daha aydınlıq gətirmək üçün "Zəhzah" hədisini iki yöndən araşdırırıq:

1-Onun sənədlərinin əsassız olmasıæ

2-Onun mətninin Allahın kitabı və Peyğəmbər sünnəsi ilə müxalif olması.

## ZƏHZAH HƏDİSİNİN SƏNƏDLƏRİ ƏSASSIZDIR

Qeyd olunduğu kimi "Zəhzah" hədisinin raviləri aşağıda-kılardır:

Süfyan ibni Səid Suri, Əbdülməlik ibni Ümeyr, Əbdül Əziz ibni Məhəmməd Dəravərdi və Leys ibni Sə`d. İndi sünnülərin rical alimlərinin (onlar mühəddislərin hansı vəziyyətdə olmalarını araşdırırlar) bu barədə olan sözlərinə istinad edərək adları qeyd olunan ravilərin vəziyyətini araşdırırıq:

a) Süfyan ibni Səid Suri

Əbu Əbdillah Məhəmməd ibni Əhməd ibni Osman Zəhəbi (sünnülərin böyük şəxsiyyətli rical alimidir) onun barəsində belə deyir:

كَانَ يُدَلِّسُ عَنِ الضُّعَفَاءِ

*"Süfyan ibni Suri zəif ravilərdən saxta (qondarma) hədisləri hekayət edirdi."*[268]

Bu söz göstərir ki, Süyfan Suri hədisləri təhrif edir, zəiflərdən, yaxud vəziyyətləri aşkar olmayan ravilərdən hədis nəql edirdi. Deməli, onun hədisləri e`tibar dərəcəsindən düşür.

b) Əbdülməlik ibni Ümeyr

Zəhəbi onun barəsində yazır:

طَالَ عُمْرُهُ وَ سَاءَ حِفْظُهُ قَالَ اَبُو حَاتَمٍ **K** لَيْسَ بِحَافِظٍ تَغَيَّرَ حِفْظُهُ وَ قَالَ اَحْمَدُ **K** ضَعِيفٌ يُخَلِّطُ وَ قَالَ اِبْنُ مُعِينٍ **K** مُخَلِّطٌ وَ قَالَ ابْنُ خَرَاشٍ **K** كَانَ شعْبَةَ لَا يَرْضَاهُ وَ ذَكَرَ الْكُوسَجُ عَنْ اَحْمَدَ اَنَّهُ ضَعَّفَهُ جِدًّا

*"Onun ömrü uzun oldu, hafizəsində xələl yarandı."* Əbu Hatəm deyir: "Onun hədisi qoruyub saxlamaq qüdrəti yox idi, hafizə qüvvəsi də dəyişilmişdi." Əhməd ibni Hənbəl də deyir: *"Əbdülməlik ibni Ümeyr zəif və səhvlə doludur (yə`ni əsassız və saxta rəvayətləri nəql edirdi)."* İbni Muin deyir: *"O, düzgün olmayan hədisləri düzgün*

---

266 Zəhzah – dərinliyi insan boyundan az olan çuxura deyilir.

267 "Səhihi Buxari", 5-ci cild, mənaqib babları, qissətu Əbu Talib babı, səh.52, Misir çapı və 8-ci cild, kitabul-ədəb künyətul-müşrik babı, səh.46

268 "Mizanul e`tidal" (Zəhəbi), 2-ci cild, səh.169, Beyrut çapı, 1382

*hədislərlə qarışdırmışdır."* İbni Xəraş deyir: *"Şö`bə də ondan razı deyildi".* Kushəc, Əhməd ibni Hənbəldən hekayət edir ki, o, *Əbdülməlik ibni Ümeyrin şiddətlə zəif olduğunu demişdir.*[269]

Bu sözlərin məcmusundan aydın olur ki, Əbdülməlik ibni Ümeyr aşağıdakı sifətlərə malik olmuşdur:

1-Hafizəsiz və unutqandıræ

2-Zəifdir (rical elmi istilahında), yə`ni onun rəvayətlərinə e`timad olunmazæ

3-Səhvləri çoxduræ

4-Düzgün hədisləri düzgün olmayan hədislərlə qarışdırırmış.

Aydındır ki, bu sifətlərdən hər biri təklikdə Əbdülməlik ibni Ümeyrin hədislərinin əsassız olduğunu göstərir, halbuki onda bu sifətlərin hamısı mövcuddur.

v) Əbdül Əziz ibni Məhəmməd Dəravərdi

Sünnülərin rical alimləri onu unutqan və hafizəsiz hesab etmiş və demişlər ki, onun rəvayətlərinə əsaslanmaq olmaz. Əhməd ibni Hənbəl onun barəsində deyir:

اِذَا حَدَّثَ مِنْ حِفْظِهِ جَاءَ بِبَوَاطِيلَ

*"Hər vaxt hifzdən (əzbərdən) rəvayət desəydi əsassız və dəxli olmayan mətləblər deyirdi."*[270]

Əbu Hatəm də onun barəsində *"onun sözlərinə əsaslanmaq olmaz"* deyirdi.

Əbu Zəraə onu "səyyiul-hifz", yə`ni hafizəsi pis olan şəxs kimi təqdim etmişdir.[271]

q) Leys ibni Sə`d

Rical elmində yazılan sünnü kitablarına müraciət etməklə aydın olur ki, adları Leys olan ravilərin hamısı tanınmaz və məchul, yaxud zəif adamlar olmuşlar ki, onların hədislərinə e`timad etmək, onu dəlil gətirmək olmaz.[272]

Leys ibni Sə`d də rəvayətlərdə zəif və laqeyd bir adam olmuşdur. Belə ki, o, hədis eşitmək və rəvayəti nəql etdiyi şəxslər barəsində səhlənkarlıq edirmiş. Yəhya ibni Muin onun barəsində deyir:

اِنَّهُ كَانَ يَتَسَاهَلُ فِي الشُّيُوخِ وَ السِّمَاعِ

*"Leys ibni Sə`d rəvayəti nəql edən adamlar barəsində, eləcə də hədis eşitməkdə səhlənkarlığa yol verirdi."*[273]

Nəbati onu zəiflər cərgəsində bilmiş, onun adını özünün yalnız zəif raviləri təqdim edən "Ət-təzlilu ələl-kamil" kitabında bəyan etmişdir.[274]

Deməli, "Zəhzah" hədisinin raviləri son dərəcə zəif olmuşdur və onların hədisinə e`timad etmək olmaz.

## "ZƏHZAH" HƏDİSİNİN MƏZMUNU ALLAHIN KİTABI VƏ PEYĞƏMBƏR SÜNNƏSİ İLƏ UYĞUN GƏLMİR

Qeyd olunan hədisdə Peyğəmbəri Əkrəm (s.ə.v.v)-ə belə bir nisbət verilir ki, guya o

---

269 "Mizanul-e`tidal", 2-ci cild, səh.660, Beyrut çapı

270 Yenə orada, səh.634

271 Yenə orada, səh.634

272 "Mizanul-e`tidal", 3-cü cild, Beyrut çapı, səh.420-421

273 Yenə orada, səh.423

274 "Şeyxul-Əbtəh", səh.75æ "Mizanul-e`tidal", 3-cü cild, səh.423

həzrət Əbu Talibi cəhənnəm atəşinin içindən, atəşin nisbətən az olduğu yerə aparmış və beləliklə də onun əzabının yüngülləşməsinə səbəb olmuş, yaxud qiyamət günündə ona şəfaət etməsini arzu etmişdir, halbuki Qur`an ayələri və Peyğəmbər sünnəsinə əsasən peyğəmbərlərin şəfaəti və əzabın yüngülləşdirilməsi yalnız mö`minlər və müsəlmanlara aiddir. Deməli əgər Əbu Talib kafir olsaydı Peyğəmbər heç vaxt onun əzabını yüngülləşdirə, yaxud ona şəfaət edə bilməzdi.

Deməli hətta Əbu Talibi kafir hesab edənlərin öz sözlərinə əsasən belə, "Zəhzah" hədisinin möhtəvasinin əsassız olduğunu sübuta yetir.

İndi isə bu məsələni Allahın kitabı və Peyğəmbər sünnəsi əsasında aydınlaşdırırıq:

a) Qur`ani-Kərim buyurur:

وَالَّذِينَ كَفَرُوا لَهُمْ نَارُ جَهَنَّمَ لَا يُقْضَى عَلَيْهِمْ فَيَمُوتُوا وَلَا يُخَفَّفُ عَنْهُمْ مِنْ عَذَابِهَا كَذَٰلِكَ نَجْزِي كُلَّ كَفُورٍ

**"Cəhənnəm atəşi kafirlər üçündüræ nə onlar üçün ölüm gəlib çatar ki, ölsünlər, nə də onların əzabı yüngülləşdirilər. Biz kafirlərə belə cəza verərik!"**[275]

b) Peyğəmbər (s.ə.v.v)-in sünnəsi də kafirlər üçün şəfaəti inkar edir. Əbuzər Qifari Peyğəmbər (s.ə.v.v)-dən belə nəql edir:

أُعْطِيْتُ الشَّفَاعَةَ وَ هِيَ نَائِلَةٌ مِنْ أُمَّتِي مَنْ لَا يُشْرِكُ بِاللّهِ شَيْئًا

**"Mənim şəfaətim ümmətimdən müşrik olmayanlara çatar."**

Deməli "Zəhzah" hədisinin mətni də Əbu Talibi kafir hesab edənlərin sözünə əsasən əsassızdır, Allahın kitabı və Peyğəmbər (s.ə.v.v) sünnəsi ilə müxalifdir.

## NƏTİCƏ

Qeyd olunanlardan mə`lum olur ki, "Zəhzah" hədisi həm sənəd, həm də məzmun və mətn baxımından e`tibarsızdır və ona istinad etmək olmaz. Beləliklə Əbu Talibin qüvvəli imanını sarsıtmaq üçün sığınacaq kimi istifadə edilən saxta hədis batil olur və Qüreyş mö`mini, Peyğəmbəri Əkrəmin ən yaxın silahdaşının parlaq çehrəsi daha nurani bir simada cilvələnir.

275 "Fatir" surəsi, ayə:36

SUAL: 29

## ŞİƏLƏRİN NƏZƏRİNCƏ CƏBRƏİL RİSALƏTİ ÇATDIRMAQDA XƏYANƏT EDƏRƏK QUR`ANI ƏLİ İBNİ ƏBİ TALİBİN ƏVƏZİNƏ PEYĞƏMBƏRƏ NAZİL ETMİŞDİRMİ?

Cavab: Bə`zi mə`lumatsız və ya şiələrə qarşı qərəzli olan şəxslər tərəfindən vurulan bu ittihamın əsassız olduğunu göstərməkdən öncə yaxşı olar ki, onun köklərini araşdıraq:

## BU İTTİHAMIN KÖKLƏRİ

Bə`zi Qur`an ayələrindən və bu ayələrlə əlaqədar hədislərdən aydın olur ki, yəhudilərin batil inancına görə Cəbrəil risaləti çatdırarkən xəyanət etmişdir. Belə ki, Mütəal-Allah ona yol göstəriş vermişdi ki, nübüvvəti İsrail sülaləsində qərar versin, lakin o, Allahın əmrinə itaətsizlik edərək onu İsmailin övladlarında qərar vermişdir. Buna görə də yəhudilər Cəbraili düşmən hesab edir,[276] “xanəl-Əmin” (Cəbrail xəyanət etdi) cümləsini öz şüarları seçirlər. Buna görə də Qur`an onları tənqid etmək, sözlərinin əsassız olduğunu isbat etmək üçün aşağıdakı ayədə Cəbrəili əmanətdar bir mələk kimi təqdim edərək buyurur:

نَزَلَ بِهِ الرُّوحُ الْاَمِينُ عَلَي قَلْبِكَ لِتَكُونَ مِنَ الْمُنْذِرِينَ

**“Ruhul-əmin (Cəbrəil) Qur`anı sənin qəlbinə nazil etdi ki, (insanları) ilahi əzabdan qorxudanlardan olasan.”**[277]

Digər bir ayədə buyurulur:

قُلْ مَنْ كَانَ عَدُوًّا لِّجِبْرِيلَ فَاِنَّهُ نَزَّلَهُ عَلَي قَلْبِكَ بِاِذْنِ اللهِ مُصَدِّقاً لِّمَا بَيْنَ يَدَيْهِ وَ هُدًي وَبُشْرَي لِلْمُؤْمِنِينَ

**“De: Hər kəs Cəbrəillə düşmənçilik etsə (bilməlidir ki,) həqiqətən o, Allahın izni ilə Qur`anı sənin qəlbinə nazil etmişdir.”**[278]

Bu ayələrdən və onların təfsirindən aydın olur ki, yəhudilər müəyyən səbəblərə görə Cəbrəili düşmən hesab edir, onu əzab mələyi adlandırır və risalətin çatdırılmasında xəyanətlə müttəhim edirdilər.

Deməli, “xanəl-Əmin” şüarının kökü və mənşəyi yəhud qövmünün xurafatlarındandır. Şiələrə qarşı dərin kinə aparan bə`zi cahil yazıçılar da yəhudilərin yolunu gedərək şiələrə bu töhməti vurmuşlar.

## ŞİƏ NƏZƏRİNDƏN NÜBÜVVƏT

Şiələr Allahın kitabı, Peyğəmbərin sünnəsi və Əhli-beyti-nin aydın rəvayətlərinə tabe olaraq təkcə Muhəmməd ibni Əbdüllahı Allahın fərmanı ilə dünya səviyyəli bir risalətə məb`us olunan peyğəmbər hesab etmir, həm də o həzrətin peyğəmbərlərin sonuncusu və ilahi elçilərin ən üstünü, fəzilətlisi olmasına inanırlar. Şiənin böyük rəhbəri Əliyyibni Əbi Talib özünün dəyərli kəlamlarında bu həqiqəti belə izhar edir:

وَ اَشْهَدُ اَنْ لاَ اِلَهَ اِلاَّ اللهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ وَ اَشْهَدُ اَنَّ مُحَمَّدًا عَبْدُهُ وَ رَسُولُهُ خَاتَمُ النَّبِيِّينَ وَ حُجَّةُ

---

[276] “Təfsiri Fəxr Razi”, 1-ci cild, səh.436-437, Misir çapı, 1308

[277] “Şüəra” surəsi, ayə:194

[278] “Bəqərə” surəsi, ayə:97

اللهِ عَلَي الْعَالَمِينَ

**"Şəhadət verirəm ki, yeganə və misilsiz Allahdan başqa heç bir mə`bud yoxduræ şəhadət verirəm ki, Muhəmməd Allahın bəndəsi, Onun Peyğəmbəri, peyğəmbərlərin sonuncusu və Allahın bütün aləmdəkilərə olan höccətidir."**[279]

İmam Sadiq (ə)-da buyurur:

لَمْ يَبْعَثِ اللهُ عَزَّ وَ جَلَّ مِنَ الْعَرَبِ اِلاَّ خَمْسَةَ اَنْبِيَاءٍ هُودًا وَ صَالِحًا وَ اِسْمَاعِيلَ وَ شُعَيْبًا وَ مُحَمَّدًا خَاتَمَ النَّبِيِّينَ

**"Allah ərəb qövmü arasından yalnız beş peyğəmbər seçmişdir: Hud, Sad, İsmail, Şüeyb və peyğəmbərlərin sonuncusu olan həzrəti Muhəmməd."**[280]

Bu şərif hədis son dərəcə şiələrə nisbət verilən yersiz itti-hamların əsassız olduğunu açıq-aşkar şəkildə isbat edir və həzrət Muhəmməd ibni Əbdüllahı peyğəmbərlərin sonuncusu kimi təqdim edir.[281]

Deməli, bütün dünya şiələri Cəbrəili risalətin çatdırıl-masında əmanətdar hesab edir və Muhəmməd ibni Əbdüllahı haqq peyğəmbər, ilahi peyğəmbərlərin sonuncusu olaraq qəbul edir, Əliyyibni Əbi Talibi isə o həzrətin vəsisi və canişini bilirlər.

Burada həm sünnü, həm də şiələr tərəfindən yekdil nəzərlə qəbul edilən, onların mö`təbər kitablarında bəyan edilən bir hədisi sizin nəzərinizə çatdırırıq. "Mənzilət" hədisi ilə tanınan bu hədisdə Peyğəmbəri Əkrəm (s.ə.v.v) özünün risalətinin xatəmiyyətini (sonuncu risalət olmasını) bəyan etdikdən sonra Əli (ə)-ı özünün vəsi və canişini kimi təqdim edir:

اَمَا تَرْضَي اَنْ تَكُونَ مِنِّي بِمَنْزِلَةِ هَارُونَ مِنْ مُوسَي اِلاَّ اَنَّهُ لاَ نَبِيَّ بَعْدِي

**"Razı olmazsanmı ki, səninlə mənim münasibətim Harunla Musanın münasibəti kimi olsunæ (yə`ni Harun Musanın vəsisi və canişini olduğu kimi sən də mənim xəlifəm canişinim olasan)æ bu fərqlə ki, məndən sonra heç bir peyğəmbər gəlməyəcəkdir."**[282]

Sənəd nəzərindən islamın böyük mühəddislərinin–istər sünnü, istərsə şiə–e`timad etdiyi bu rəvayət, aşağıdakı məsələlərdə şiələrin sözünün düzgün olmasını çatdırır:

1-Muhəmməd ibni Əbdüllah (s.ə.v.v) Allah peyğəm-bərlərinin ən əzizi və ilahi elçilərin sonuncusudur ki, böyük Allahın əmri ilə əbədi və dünya səviyyəli risalətə seçilmişdir, ondan sonra heç bir peyğəmbər gəlməyəcəkdir.

2-Əliyyibni Əbi Talib (ə) Peyğəmbər (s.ə.v.v)-in haqq canişini və vəsisi, həmçinin ondan sonra müsəlmanlar arasındakı xəlifəsidir.

---

279 "Nəhcüs-səadə", 1-ci cild, səh.188, Beyrut çapı, "Kafi" 8-ci cild, səh.67

280 "Biharul-ənvar", 11-ci cild, səh.42, Beyrut çapı, 403-cü il

281 Şiələrin nəzərindən Peyğəmbər (s.ə.v.v)-in peyğəmbərlərin sonuncusu (xətm edəni) olmasını göstərən rəvayətlər barəsində əlavə mə`lumat almaq üçün Ustad Cə`fər Sübhaninin "Məfahimul-Qur`an" kitabına baxa bilərsiniz.

282 Bu hədisin çoxlu mənbələri vardır, o cümlədən: 1-"Səhihi Buxari", 6-cı cild, səh.3 Misir çapı, "Təbuk qəzvəsi" bölməsi, 2-"Səhihi Müslim", 7-ci icld səh.120, Misir çapı, Fəzailul-Əli babı, 3-"Sünəni ibni Macə", 1-ci cild, səh.55 Misir çapı, Fəzailu əshabin-Nəbi babı, 4-"Müstədrək" (Hakim), 3-cü cild, səh.109 Beyrut çapı, 5-"Müsnədi Əhməd", 1-ci cild, səh.170, 177, 179, 182, 184, 185 və 3-cü cild, səh.32, 6-"Səhihi Tirmizi", 2-ci cild, səh.21, Beyrut çapı, Əliyyibni Əbi Talibin fəzilətləri babı, 7-"Mənaqib" (ibni Məğazili), səh.27, Beyrut çapı, 1403-cü il, 8-"Biharul-Ənvar", 37-ci cild, səh.254, Beyrut çapı, 1430, 9-"Əl-Əxbar" (Şeyx Səduq), səh.74, Beyrut çapı, 10-"Kənzul-Fəvaid", 2-ci cild, səh.168, Beyrut çapı, 1405-ci il

SUAL: 30

## TƏQİYYƏNİN ME`YARI NƏDİR?

Cavab: Təqiyyə bir şəxsin müxaliflər qarşısında öz batini e`tiqadlarını, imanını gizlətməsi mə`nasınadır. Bu işdə məqsəd də dünyəvi ziyanların, mə`nəvi və dini xəsarətlərin qarşısını almaqdır. Bu, hər bir müsəlmanın şər`i vəzifəsidir və Qur`ani-Kərimin hökmünə əsaslanır.

## QUR`AN NƏZƏRİNDƏN TƏQİYYƏ

Qur`ani-Məciddə bu məsələ ilə əlaqədar çoxlu ayələr mövcuddur. Onlardan bə`zilərini qeyd edirik:

a)

لَا يَتَّخِذِ الْمُؤْمِنُونَ الْكَافِرِينَ اَوْلِيَاءَ مِنْ دُوْنِ الْمُؤْمِنِينَ وَ مَنْ يَفْعَلْ ذَلِكَ فَلَيْسَ مِنَ اللهِ فِي شَيْءٍ اِلاَّ اَن تَتَّقُواْ مِنْهُمْ تُقَاةً

**“İman əhli mö`minləri boşlayaraq kafirlərlə dostluq etməməlidir. Hər kəs belə etsə Allahla heç bir rabitəsi olmayacaqdıræ onlardan (kafirlərdən) qorxaraq təqiyyə edənlərdən başqa.”**[283]

Bu ayə həqiqətdə göstərir ki, kafirlərlə dostluq yalnız təqiyyə şəraitində, canın qorunması üçün caizdir və yalnız bu halda onlarla zahirdə dostluq etmək olar.

b)

مَنْ كَفَرَ بِاللهِ مِنْ بَعْدِ ايمَانِهِ اِلاَّ مَنْ اُكْرِهَ وَ قَلْبُهُ مُطْمَئِنٌّ بِالاِيمَانِ وَلكِن مَنْ شَرَحَ بِالْكُفْرِ صَدْرًا فَعَلَيْهِمْ غَضَبٌ مِنَ اللهِ وَ لَهُمْ عَذَابٌ عَظِيمٌ

**“Hər kəs Allaha iman gətirdikdən sonra kafir olsa – zorla, məcburiyyət üzündən küfr izhar edən, qəlbi isə (imana) xatircəm olanlardan başqa. Lakin öz qəlblərini küfrlə dolduran şəxslərə gəldikdə isə, onlar üçün ağır əzab və qəzəb olacaqdır.”**[284]

Müfəssirlər bu ayənin şə`ni-nüzulunda qeyd edirlər ki, bir gün Əmmar ibni Yasir atası və anası ilə birlikdə düşmənlər tərəfindən tutuldu. Kafirlər onlara təzyiq göstərib tələb etdilər ki, islamdan dönsünlər, küfr və şirkə e`tiraf etsinlər. Əmmarla gələnlərin hamısı Allahın birliyinə və Peyğəmbərin risalətinə şəhadət verdilər, buna görə də onlardan bə`ziləri şəhid edildi, digərləri də islam düşmənləri tərəfindən ağır işgəncələrə mə`ruz qaldılar. Lakin Əmmar öz batini meylinin əksinə olaraq təqiyyə etdi, zahirdə kafirlərin dediklərini dilinə gətirdi və işgəncədən, ölümdən xilas oldu.

Peyğəmbərin yanına gəldikdə öz sözündən çox nigaran və pərişan oldu. Peyğəmbər ona toxtaqlıq verdi və yuxarıdakı ayə bu barədə nazil oldu.[285] Bu ayədən və müfəssirlərin sözlərindən aydın olur ki, canı qorumaq və maddi-mə`nəvi xəsarətlərin qarşısını almaq üçün batini e`tiqadı gizlətmək elə Peyğəmbərin dövründə də baş vermiş və islam tərəfindən qəbul olunmuşdur.

## ŞİƏ NƏZƏRİNDƏN TƏQİYYƏ

---

283 “Ali İmran” surəsi, ayə:28

284 “Nəhl” surəsi, ayə:106

285 “Durrul-Mənsur”, 4-cü cild, səh.131, Beyrut çapı

Bəni-Üməyyənin və Bəni-Abbasın zalım hakimləri tarix boyu şiələrə çox ağır işgəncə vermiş, onların kökünü kəsmək fikrində olmuşlar,[286] buna görə də şiələr Qur`anın göstərişinə görə təqiyyə etmiş, əsl əqidələrini gizlətmiş, bununla da həm öz canlarını qorumuş, həm də sair müsəlman qardaşlarını ağır şəraitlərdən xilas etmişlər. Aydındır ki, zülm, zorakılıq və haqsızlıqla dolu olan bir şəraitdə şiələrin tamamilə məhv olması ilə nəticələnəcək təhdid və zülm tufanından xilas olmaq üçün təqiyyədən başqa bir yol təsəvvür olunmurdu. Deməli, əgər zalım padşahlar və onların əlaltıları şiələrlə qəddar rəftar etməsəydilər, onlara düşmən münasibət bəsləməsəydilər, onlara qarşı amansız rəftarı hakimiyyətlərinin sərlövhəsi qərar verməsəydilər şiələrin təqiyyə etməsinə heç bir əsas olmazdı.

Qeyd olunmalıdır ki, təqiyyə təkcə şiələrə məxsus deyil, bu, sair müsəlmanlarda da vardır. Belə ki, onlar da bütün islami məzhəblərlə müxalifət edən, qaniçən düşmənlər (xəvaric, hər bir haram işə əl atan zalım hökumətlər və s.) müqabilində qərarlaşıb onlarla qarşılaşmağa qüdrətləri olmadığı halda təqiyyə şəraitinə keçir və öz canlarını qoruyub saxlamaq üçün əqidələrini gizlədirdilər. Əgər islam cəmiyyətinin bütün üzvləri bir-biri ilə qarşılıqlı anlaşma şəraitində yaşasaydılar müsəlmanlar arasında təqiyyəyə heç bir yer qalmazdı.

## NƏTİCƏ

Qeyd olunanlardan aşağıdakı nəticələr alınır:

1-Təqiyyənin kökü Qur`andadır, Peyğəmbər (s.ə.v.v) səhabələrinin və o həzrətin özünün tə`kidi də islamın əvvəllərində onun caiz olmasına bir əsasdır.

2-Şiələrin təqiyyə etməkdə məqsədi özlərinin rəhmsizcəsinə qətlə yetirilmələrinin qarşısını almaq və bu məzhəbi məhv olmaqla təhdid edən zülm tufanlarını dəf etmək olmuşdur.

3-Təqiyyə təkcə şiələrə məxsus deyil, sair müsəlman firqələrinin də arasında mövcuddur.

4-Təqiyyə kafirlərdən çəkinməklə, islami əqidələri müşriklərdən gizlətməkdə bitmiræ əksinə müsəlmanların canının qorunmasından ibarət olan təqiyyənin me`yarı daha ümumidir, müqavimət göstərmə qüdrətinin olmadığı hər bir qaniçən düşmən müqabilində müqavimət göstərməyə imkan olmayan və ya mübarizə şəraiti yaranmayan halda batini əqidənin gizlədilməsi zəruri bir məsələdir.

5-İslam cəmiyyətinin ayrı-ayrı fərdləri qarşılıqlı anlaşma şəraitində yaşasaydılar, təqiyyəyə ümumiyyətlə yer qalmazdı.

---

[286] Şiələrin Bəni-Üməyyə və Bəni-Abbas padşahları tərəfindən rəhmsizcəsinə qətlə yetirilməsi barəsində əlavə mə`lumat almaq üçün “Məqatilit-Talibiyyin” (Əbul Fərəc İsfahani), “Şühədaul-Fəzilət” (Əllamə Əmini), “Əş-şiətu vəl-hakimun” (Məhəmməd Cavad Muqniyə) və s. kitablarına baxa bilərsiniz.

SUAL: 31

## ŞİƏLƏR VƏTR NAMAZINI VACİB BİLİRMİ?

Cavab: Vətr namazı gecə namazının nafilələrindən biridir ki, onun Peyğəmbər (s.ə.v.v)-in ardıcılları üçün yerinə yetirilməsi müstəhəbdir. Lakin şiə fəqihləri Allahın kitabı və sünnə sayəsində müəyyən işləri Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in yalnız özünə məxsus olan xüsusiyyətləri kimi qeyd etmişlər ki, onlardan biri də vətr namazının o həzrətə vacib olmasıdır. Əllamə Hilli "Təzkirətul-füqəha" kitabında Peyğəmbər (s.ə.v.v)-in özünə məxsus olan 70 xüsusiyyət qeyd edərək sözünün əvvəlində deyir:

فَاَمَّا الْوَاجِبَاتُ عَلَيْهِ دُونَ غَيْرِهِ مِنْ اُمَّتِهِ اُمُورٌ **K** الف-اَلسِّوَاكُ، ب-اَلْوَتْرُ، ج-الاُضْحِيَّةُ، رُوِيَ عَنْهُ قَالَ اَنَّهُ **K** ثَلَاثٌ كُتِبَ عَلَيَّ وَ لَمْ تُكْتَبْ عَلَيْكُمْ **K** السِّوَاكُ وَ الْوِتْرُ وَ الاُضْحِيَّةُ

*"Bir neçə şey bütün ümmətə deyil, yalnız Peyğəmbəri Əkrəm (s.ə.v.v)-ə vacib olmuşdur, o cümlədən: a) dişə misvak vurmaqœ b) vətr namazı, v) qurbanlıq kəsmək. Peyğəmbəri Əkrəm (s.ə.v.v)-dən belə rəvayət olunmuşdur:* **"Üç şey sizə deyil, yalnız mənə vacib olmuşdur: "Dişə misvak vurmaq, vətr namazı qılmaq və qurbanlıq kəsmək."**[287]

Deməli, şiələrin nəzərində vətr namazı Peyğəmbər (s.ə.v.v)-ə vacib olmuşdur, sair müsəlmanlara isə müstəhəbdir.

---

[287] "Təzkirətul-fuqəha", 2-ci cild, Nikah kitabı

SUAL: 32

## İLAHİ ÖVLİYALARIN QEYBİ QÜDRƏTİNƏ E`TİQAD BƏSLƏMƏK ŞİRKƏ SƏBƏB OLURMU?

Cavab: Aydındır ki, hərgah bir insan başqasından kömək istəsə, o da həmin işi yerinə yetirməyə qadir olsa onda bu qüdrət iki cür təsəvvür olur:

1-Bə`zən bu qüdrət maddi və təbii qüvvələr çərçivəsində olur. Məsələn, bir şəxs başqasından ona bir qab su verməsini istəyir.

2-Bə`zən bu qüdrət qeybi qüdrət olur, maddi və təbii qüvvələrin fövqündə və onlardan xaricdə olur. Məsələn, bir kəs İsa ibni Məryəm (ə) kimi Allahın layiqli bəndələrinin əlacsız xəstəlikləri müalicə edə bilməsinə, özünün müqəddəs nəfəsi ilə onlara şəfa verə bilməsinə inansın.

Aydındır ki, belə bir qeybi qüdrətə inanmaq Allahın qüdrət və iradəsinə arxalınıb istinad etməklə olsa, heç vaxt şirkə səbəb olmaz. Çünki maddi və təbii qüdrəti insana əta edən Allah, qeybi qüdrətləri də Özünün bə`zi saleh bəndələrinə əta edə bilər.

İndi yuxarıdakı sualın cavabında deyirik ki, ilahi övliyaların qeybi qüdrətlərinə e`tiqad bəsləmək iki cür təsəvvür olunur:

1-Bir şəxs üçün, "müstəqil tə`sirin mənşəyi" ünvanı ilə qeybi qüdrətin olmasına inanmaq və o qüdrəti əsl cilvələndirək, belə ki, Allahın işini Allahdan asılı olmayan şəkildə ona isnad verək. Şübhəsiz, Allahın qüdrətinə bağlı olmayan belə bir müstəqil qüdrətə e`tiqad bəsləmək şirkə səbəb olur. Çünki bu halda Allahdan başqasının müstəqil qüdrətə və əsalətə malik olduğuna inanır, Allahın işini ona mənsub edirik, halbuki bütün qüvvələrin mənşəyi aləmlərin rəbbi olan Allahdır.

2-Allahın layiqli bəndələrindən bə`zisinin qeybi qüdrətə malik olmasına inanmaq və eyni zamanda onun, Allahın sonsuz qüdrətindən qaynaqlandığını bilmək. İlahi övliyalar Allahın izni ilə bu sonsuz qüdrətin büruz etmə və cilvələnmə vasitəsidir, onlar özləri heç bir vəch ilə müstəqil deyilləræ əksinə həm öz varlıqlarında, həm də qeybi qüdrətdən istifadə etməklərində böyük Allaha arxalanırlar. Aydındır ki, belə bir e`tiqad ilahi övliyaları Allah hesab etmək, yaxud ilahi işləri onlara aid etmək mə`nasına deyildir, çünki bu halda Allahın saleh bəndəsi Allahın izni və Onun qaçılmaz iradəsi ilə özünün Allah verən qeybi qüdrətindən istifadə edərək onu izhar edir. Qur`ani-Kərim bu barədə buyurur:

وَ مَا كَانَ لِرَسُولٍ اَنْ يَأْتِيَ بِآيَةٍ اِلاَّ بِإِذْنِ اللهِ

**"Heç bir peyğəmbər (öz yanından) mö`cüzə gətirə bilməzæ yalnız Allahın izni ilə gətirə bilər."**[288]

Deməli belə bir e`tiqad nəinki şirkə səbəb olmur, əksinə tovhid və yeganəpərəstlik prinsipi ilə tamamilə uyğundur.

### Qur`an nəzərindən Allah övliyalarının qeybi qüdrəti

İslamın asimani kitabı tam aşkar şəkildə Allahın izni ilə belə bir mö`cüzəli qüdrətə layiq olan layiqli bəndələrdən bir qrupunun adını çəkir. Onlardan bə`zilərini qeyd edirik:

1-Həzrəti Musa (ə)-ın qeybi qüdrəti

Mütəal-Allah Öz peyğəmbəri Musaya fərman verir ki, əsanı daş parçasına vursunæ bu zaman ondan içməli, sərin su axmağa başlayır:

وَ اِذِ اسْتَسْقَي مُوسَي لِقَوْمِهِ فَقُلْنَا اضْرِب بِعَصَاكَ الْحَجَرَ فَانفَجَرَتْ مِنْهُ اثْنَتَا عَشْرَةَ عَيْنًا

[288] "Rə`d" surəsi, ayə:38

**“Musa öz qövmü üçün Allahdan su istədikdə ona dedik: “Öz əsanı daşa vur!” (Bu zaman) ondan 12 çeşmə yarılıb axmağa başladı.”**[289]

2-Həzrəti İsanın qeybi qüdrəti

İsa (ə)-ın qeybi qüdrəti Qur`anın müxtəlif yerlərində bəyan olmuşdur. Onlardan bir nümunəni qeyd edirik:

اَنِّي اَخْلُقُ لَكُمْ مِنَ الطِّينِ كَهَيْئَةِ الطَّيْرِ فَاَنفُخُ فِيهِ فَيَكُونُ طَيْرًا بِاِذْنِ اللهِ وَ اُبْرِيءُ الاَكْمَهَ وَ الاَبْرَصَ وَاُحْيِي الْمَوْتَي بِاِذْنِ اللهِ

**“İsa dedi: Mən palçıqdan bir heykəl düzəldib ona üfürürəm, Allahın izni ilə həqiqi bir quş surətinə düşürææ anadangəlmə koru, xora xəstəliyinə tutulanı Allahın izni ilə sağaldıram, Allahın izni ilə ölüləri diriltdirəm...”**[290]

3-Həzrəti Süleymanın qeybi qüdrəti

Qur`an Süleyman peyğəmbərə əta olunan qeybi qüdrətləri belə bəyan edir:

وَ وَرِثَ سُلَيْمَانُ دَاوُودَ وَقَالَ يَا اَيُّهَا النَّاسُ عُلِّمْنَا مَنْطِقَ الطَّيْرِ وَ اُوتِيْنَا مِن كُلِّ شَيْءٍ اِنَّ هَذَا لَهُوَ الْفَضْلُ الْمُبِينُ

**“Süleyman Davudun varisi oldu və dedi: Ey insanlar, bizə quşların dili öyrədilib, hər növ ne`mətlər bizə əta olunub. Həqiqətən bu, aşkar fəzl və mərhəmətdir.”**[291]

Şübhəsiz, Musanın əsasının daşa dəyməsi ilə böyük bir daş parçasından içməli su axması, yaxud İsa tərəfindən palçıqdan həqiqi quş yaradılması, əlacsız xəstəliklərə şəfa verilməsi, ölülərin dirildilməsi, həmçinin Süleyman peyğəmbərin quşların dilini bilməsi xariqul-adə bir iş olub, təbii qanunlardan kənardadır ki, bu da qeybi qüdrətin aşkar bir nümunəsidir. Halbuki Qur`anın bu və digər çoxlu ayələri Allahın layiqli bəndələrinin qeybi qüdrətini bəyan edir. Qur`anın bu aşkar məzmununa – ilahi övliyaların xariqul-adə qüdrətə malik olmasını göstərən bu ayələrə inanmağımız şirkə, yaxud dində bid`ətə səbəb olarmı?!

Saleh bəndələrin qeybi qüdrətinə inanmaq onları Allah hesab etmək, yaxud Allahın işlərini onlara aid etmək mə`nasına deyildir. Çünki belə bir e`tiqad onların ilahiləşdirilməsinə səbəb olsaydı, onda Qur`an nəzərindən Musa, İsa, Süleyman və sair peyğəmbərlər mə`bud hesab olunmalı idi, halbuki bütün müsəlmanların bildiyi kimi, Qur`ani-Kərim Allah övliyalarını Allahın bəyənilmiş bəndələri hesab edir.

Deməli, Allah dərgahında əziz olan insanların qeybi qüdrətinə iman gətirmək əgər Allahın sonsuz və yenilməz qüdrətinə arxalanmaqla yanaşı olarsa, həmçinin onların Allahın qüdrətinin göstərilməsi üçün bir nümunə və vasitə olduğuna e`tiqadla yanaşı olarsa nəinki şirk deyil, əksinə həqiqi tovhidlə tamamilə uyğundur. Çünki tovhidin me`yarı budur ki, dünyada olan bütün qüdrət və qüvvələri Allaha mənsub edək, bütün qüdrət və hərəkətlərin mənşəyinin Allah olduğunu bilək.

---

[289] “Bəqərə” surəsi, ayə:60

[290] “Ali İmran” surəsi, ayə:49

[291] “Nəml” surəsi, ayə:16

SUAL: 33

## NƏ ÜÇÜN İMAMƏT MƏQAMI RİSALƏT MƏQAMINDAN ÜSTÜNDÜR?

Cavab: Bu suala cavab vermək üçün əvvəlcə nübüvvət, risalət və imamət kəlmələrinin Qur`anda gəldiyi kimi hər birinin ayrılıqda dəqiq mə`nasını izah edirik ki, imamət məqamının bu iki məqamdan nə üçün üstün olması aydın olsun.

1-Nübüvvət məqamı

"Nəbi" kəlməsi "mühüm və böyük xəbər" mə`nasını ifadə edən "nə-bə-ə" kökündən alınmışdır. Buna görə də "nəbi" kəlməsinin mə`nası "böyük xəbər daşıyan şəxs", "böyük xəbər verən şəxs" deməkdir. Peyğəmbər mə`nasını ifadə edən nəbi kəlməsi Qur`an terminində elə bir insana deyilir ki, Allahdan müxtəlif yollarla ilahi vəhyi alır, heç bir insanın vasitə olmadığı halda Allah tərəfindən xəbər verir. Alimlər bu kəlmənin tə`rifini belə vermişlər:

اِنَّهُ مُؤَدٍّ مِنَ اللهِ بِلَا وَاسِطَةٍ مِنَ الْبَشَرِ

*"Nəbi o kəsdir ki, başqa bir insanın vasitəçiliyi olmadan Allahın vəhyini insanlara çatdırsın."*[292]

Deməli, nəbinin vəzifəsi ilahi vəhyin bəyan olunma çərçivəsindədir və ona ilham olunanları camaata bəyan etməklə məhdudlanır. Qur`an bu barədə buyurur:

فَبَعَثَ اللهُ النَّبِيِّينَ مُبَشِّرِينَ وَ مُنْذِرِينَ

**"Allah, peyğəmbərləri müjdə verənlər və qorxudanlar olaraq seçdi (göndərdi)."**[293]

2-Risalət məqamı

Vəhy terminində "rəsul" kəlməsi o peyğəmbərlərə deyilir ki, vəhyi almaq və Allah tərəfindən xəbər verməkdən əlavə, ilahi risaləti təbliğ etmək məs`uliyyətini də (Allah tərəfindən) öz öhdəsinə alsın, bu risaləti insanlara çatdırsın. Qur`ani-Məcid bu barədə buyurur:

فَإِنْ تَوَلَّيْتُمْ فَاعْلَمُواْ أَنَّمَا عَلَي رَسُولِنَا الْبَلاَغُ الْمُبِينُ

**"Əgər (haqdan) üz döndərsəniz bilin ki, Bizim Rəsulumuzun (Peyğəmbərin) risaləti aydın şəkildə bəyan etməkdən əlavə heç bir mə`muriyyəti yoxdur."**[294]

Deməli, risalət məqamı nəbiyə əta olunan digər məqamdır. Başqa sözlə desək, nübüvvət və risalət məfhumlarının hər biri Allah tərəfindən vəhy əldə edən peyğəmbərlərin xüsusiyyətlərinin birinə işarə edir. Belə ki, peyğəmbərlər vəhyi alır, vəhy daşıyıcıları olduğuna görə nəbi adlanır, həmçinin peyğəmbərliyi (risaləti) təbliğ etmək vəzifəsini öhdələrinə aldıqlarına görə isə rəsul adlandırılır.

Qeyd olunanlardan belə nəticə alınır ki, peyğəmbərlər nübüvvət və risalət çərçivəsində qərarlaşana qədər yalnız insanlara halal-haramı e`lan edir, onları düz yola hidayət edən xoşbəxtlik və səadət yollarını göstərirlər. Onların Allah tərəfindən xəbər vermək, yaxud onların öhdəsinə qoyulan vəzifəni yerinə yetirməkdən başqa heç bir mə`muriyyət və məs`uliyyətləri yoxdur.

3-İmamət məqamı

Qur`an nəzərindən ilahi imamət məqamı yuxarıda qeyd olunan iki məqamdan

---

292 "Rəsailul-əşr" (Şeyx Tusi), səh.111

293 "Bəqərə" surəsi, ayə:213

294 "Maidə" surəsi, ayə:92

tamamilə fərqlənir, o, bəşər cəmiyyətlərinə rəhbərlik və onların işlərini tədbir etmək kimi daha geniş ixtiyarlara malikdir. İndi nurani Qur`an ayələrinə istinad edərək bu məsələ ilə əlaqədar aşkar dəlillərimizi nəzərinizə çatdırırıq:

1-Qur`ani-Kərim böyük ilahi peyğəmbər olan İbrahim Xəlilə imamət məqamının verilməsini belə bəyan edir:

وَاِذِ ابْتَلَي اِبْرَاهِيمَ رَبُّهُ بِكَلِمَاتٍ فَاَتَمَّهُنَّ قَالَ اِنِّي جَاعِلُكَ لِلنَّاسِ اِمَامًاقَالَ وَمِنْ ذُرِّيَّتِي

**“Yada sal o zamanı ki, böyük Allah Öz peyğəmbəri İbrahimi bir neçə imtahanla sınaqdan keçirtdi, o da ilahi imtahanlardan üzüağ çıxdı, bu zaman Allah buyurdu: “Mən səni insanlara imam və rəhbər qərar verirəm.” İbrahim dedi: Bu rəhbərliyi mənim övladlarıma da əta edərsənmi?...”**[295]

Bu kəlamdan iki həqiqət aşkar olur:

a) Qeyd olunan ayə imamətin nübüvvət və risalət məfhumundan fərqləndiyini göstərir. Çünki İbrahim (ə) bu ilahi imtahanlardan öncə (onlardan biri də övladını qurban etmək barədə qərara gəlməsi idi) uzun illər nübüvvət məqamında idi. Bu da aşağıdakı dəlillə isbat olunur:

İbrahim qocaman yaşlarında olanda böyük Allah ona övlad (İsmaili və İshaqı) əta etdi. Qur`an onun dilindən nəql edərək belə buyurur:

اَلْحَمْدُ لِلّهِ الَّذِي وَهَبَ لِي عَلَي الْكِبَرِ اِسْمَاعِيلَ وَ اِسْحَقَ

**“Həmd olsun o Allaha ki, qocalıq dövründə mənə İsmaili və İshaqı əta etdi.”**[296]

Deməli, ilahi imtahanlardan biri olan İsmailin Allah yolunda qurbanlıq edilməsi ardınca böyük imamət məqamı İbrahimə verildi. O, bu imtahanı ömrünün son çağlarında vermiş və insanlara imam seçilmişdi, halbuki ondan əvvəl uzun müddət nübüvvət məqamında idi. (Çünki o, övlad sahibi olmazdan əvvəl nübüvvət nişanəsi olan ilahi vəhy ona nazil olmuşdu.)[297]

b) Həmçinin **“və izibtəla İbrahimə Rəbbuhu bi kəlimatin”** ayəsindən mə`lum olur ki, ilahi imamət və cəmiyyətə rəhbərlik məqamı nübüvvət və risalətdən çox-çox yüksək bir mərtəbədir. Çünki Qur`anın bəyan etdiyi kimi, həzrəti İbrahim (ə) nübüvvət və risalət məqamına çatdıqdan, ağır imtahanlardan çıxıb üzü ağ olduqdan sonra imamət məqamı ona verilir. Səbəbi də aydındıræ çünki ilahi imamət məqamı vəhyin əxz olunub risalətin insanlara təqdim olunması vəzifəsindən əlavə, ümmətə rəhbərlik və cəmiyyətin işlərinin düzgün şəkildə idarə olunmasını, onların kamal və səadətə çatdırılmasını da öhdəsinə alır. Təbiidir ki, belə bir məqam xüsusi əzəmətə malikdir ki, ona nail olmaq ardıcıl və ağır imtahanlardan çıxmadan mümkün deyildir.

2-Yuxarıdakı ayədən mə`lum olur ki, İbrahim (ə)-in qarşısına çıxan ağır imtahanlardan başı uca çıxdıqdan sonra Mütəal-Allah cəmiyyətə rəhbərlik və imamət məqamını ona vermişdir. Bu zaman İbrahim (ə) Allahdan o məqamın öz övladlarında da olmasını istəmişdi.

Qur`anın digər bir ayəsinə əsasən mə`lum olur ki, Mütəal-Allah İbrahim (ə)-ın istəyini qəbul etmiş, nübüvvət məqamından sonra cəmiyyətin rəhbərliyini və ümmətə hakimiyyəti də onun saleh övladlarına əta etmişdir. Qur`an bu barədə buyurur:

فَقَدْ آتَيْنَآ آلَ اِبْرَاهِيمَ الْكِتَابَ وَالْحِكْمَةَ وَآتَيْنَاهُمْ مُلْكًا عَظِيمًا

**“Biz İbrahim övladlarına (asimani) kitab, hikmət və böyük bir hakimiyyət əta**

---

295 “Bəqərə” surəsi, ayə:124

296 “İbrahim” surəsi, ayə:39

297 Bu barədə “Saffat” surəsinin 99-102, “Hicr” surəsinin 53-54, “Hud” surəsinin 70-71-ci ayələrinə müraciət edin.

**etdik.**[298]

Bu ayədən mə`lum olur ki, imamət və cəmiyyətə rəhbərlik nübüvvətdən tamamilə fərqli olan bir məqamdır ki, Mütəal-Allah onu Öz peyğəmbəri İbrahimə, ağır imtahanları verdikdən sonra əta etmişdir. İbrahim (ə) Allahdan bu mənsəbi – cəmiyyətə hökuməti və rəhbərliyi öz övladlarında da qərar verməsini istədikdə Allah bu yüksək məqamın onun övladlarından ədalətli olanlarda qalmasını qəbul etdi və onlara asimani kitab, risalət və nübüvvət rəmzi olan hikmət və böyük mülk (rəhbərlik və hakimiyyət) əta etdi. Beləliklə, İbrahim (ə)-ın istəyi və duası qəbul olundu. Buna görə də onun zürriyyəsindən bə`ziləri, o cümlədən Yusif, Davud, Sü-leyman və s. nübüvvət məqamından əlavə, cəmiyyətə rəhbərlik və hökumət məqamına da çatmışdılar. Deməli, imamət məqamı nübüvvət və risalətdən başqa bir məqa-mdır, onun ixtiyar və mə`suliyyətlərinin geniş olmasına görə çox yüksək dəyərə və üstün mövqeyə malikdir.

## İMAMƏT MÖVQEYİNİN ÜSTÜNLÜYÜ

Yuxarıda deyilənlərdən aydın olur ki, nəbi və rəsulun əhatə dairəsi nübüvvət və risalətin daşıyıcıları olması baxımından yalnız təzəkkür vermək və yolu işıqlandırmaqdır. Hərgah nəbi, yaxud rəsul imamət məqamına çatsalar daha böyük və ağır mə`suliyyətləri öhdələrinə almış olurlar, bunun ardınca da nümunəvi və səadətli cəmiyyət yaratmaq üçün müqəddəs şəriət qanunlarını icra etməyə və ilahi proqramları həyata keçirməyə vəzifəli olurlar ki, öz ümmətlərini hər iki dünyanın xoşbəxtliyi olan bir yolda qərar versinlər.

Aydındır ki, belə böyük və ağır mə`suliyyətləri qəbul etmək böyük mə`nəvi əzəmət, qüdrət və xüsusi ləyaqət tələb edir. Daim təmayüllərlə mübarizəni tələb edən, üzü-cü çətinliklərlə yanaşı olan bu vəzifə Allah yolunda daha artıq ürəyiyananlığı, yüksək dərəcədə səbirliliyi gərəkli edir və bu da Allah eşqi olmadan, Onun razılığını cəlb etmədən mümkün deyildir. Buna görə də Öz layiqli bən-dələrinin ən fəzilətlisini, yə`ni islam Peyğəmbərini ümmə-tə rəhbərlik və imamət məqamına seçərək onu iftixarlı etdi, cəmiyyətə rəhbərliyi və hökuməti onlara əta etdi.

## NÜBÜVVƏTLƏ İMAMƏT BİR-BİRİNİ GƏRƏKLİ EDİRMİ?

Bu sualın cavabının ardınca digər bir sual irəli çıxır: O da bundan ibarətdir ki, nübüvvət məqamına çatan hər bir peyğəmbər hökmən imam da olmalıdır və yaxud imamət məqamına malik olan bir şəxs mütləq peyğəmbər də olmalıdırmı?

Bu sualın cavabı mənfidir. İndi bu məsələni vəhy əsasında izah edirik. Qur`andakı Talut və onun zalım Calutla mübarizəsi ilə əlaqədar olan ayələrdən aydın olur ki, həzrəti Musanın vəfatından sonra Mütəal-Allah nübüvvət məqamını İşmuil adlı bir şəxsə əta etdi, halbuki imamət, rəhbərlik və hökuməti Talutun öhdəsinə qoymuşdu. Hadisə belə olmuşdu:

Musanın vəfatından sonra Bəni-İsraildən bir qrupu öz əsrinin peyğəmbərinə dedilər: Bizim üçün bir rəhbər tə`yin et ki, onun sərkərdəliyi altında cihad edək. Peyğəmbərləri onlara dedi:

اِنَّ اللهَ قَدْ بَعَثَ لَكُمْ طَالُوتَ مَلِكًا قَالُوٓاْ اَنَّي يَكُونُ لَهُ الْمُلْكُ عَلَيْنَا وَ نَحْنُ اَحَقُّ بِالْمُلْكِ مِنْهُ وَ لَمْ يُؤْتَ سَعَةً مِّنَ الْمَالِ قَالَ اِنَّ اللهَ اصْطَفَاهُ عَلَيْكُمْ وَ زَادَهُ بَسْطَةً فِي الْعِلْمِ وَالْجِسْمِ وَ اللهُ يُؤْتِي مُلْكَهُ مَنْ يَشَاءُ وَ اللهُ وَاسِعٌ عَلِيمٌ

298 “Nisa” surəsi, ayə:55

**“Həqiqətən Allah Talutu sizin üçün rəhbər tə`yin etdi. Bəni-İsrail qövmü dedi: Necə o bizə sərkərdə ola bilər, halbuki bu işə biz daha artıq layiqik və onun çoxlu mal-dövləti, sərvəti yoxdur?! Peyğəmbərləri dedi: Böyük Allah onu sizə seçmiş, ona daha artıq elm və fiziki qüvvə əta etmişdir. Allah Öz mülkünü, istədiyi hər kəsə əta edər. Allah geniş ehsan və elm sahibidir.”**[299]

Bu ayədən aşağıdakı məsələlər aydın olur:

1-Müəyyən məsləhətlər nübüvvətin imamətdən və rəhbərlikdən ayrı olmasını tələb edə bilər, eyni bir zamanda nübüvvət bir kəsin, ümmətə rəhbərlik isə başqa bir şəxsin ola bilər və hər biri ona verilən mənsəb ilə əlaqədar ləyaqətə malik ola bilər. Bu iki məqamın bir-birindən ayrılması mümkün olduğuna görə Bəni-İsrail heç vaxt “ey Peyğəmbər, sən ondan daha layiqlisən” - deyə e`tiraz etmədilər, əksinə e`tiraz məqamında sadəcə olaraq “biz ondan daha artıq layiqik” - dedilər.

2-Talutun bu məqamını Allah ona bağışlamışdı. Çünki ayədə “Allah Talutu sizə rəhbər seçdi”, eləcə də “Allah onu sizə seçmişdir” – deyə buyurulur.

3-Talutun ilahi məqam və mənsəbi orduya sərkərdəlikdə xülasələnmirdiæ əksinə o, Bəni-İsrail qövmünün rəhbəri və sərkərdəsi idi (çünki məlik–hakimiyyəti öhdəsinə alan şəxsə deyilir). O gündə bu rəhbərlikdən məqsədin Bəni-İsrailə Allah yolundakı cihadda rəhbərliyi olmasına baxmayaraq, onun bu ilahi məqamı ona sair işləri də görməyə icazə verirdi ki, hamısı da hökumət işlərindən idi. Çünki həmin ayənin sonunda buyurulur:

اِنَّ اللهَ قَدْ بَعَثَ لَكُمْ طَالُوتَ مَلِكًا

**“Allah Öz mülkünü istədiyi hər kəsə bağışlayır.”**

4-Cəmiyyətə, ümmətə imamət və rəhbərliyin ən mühüm şərti çoxlu elmə, fiziki və mə`nəvi cəhətdən kifayət qədər qüdrətə malik olmaqdır, xüsusilə o dövrün rəhbərləri ordu ilə birlikdə hərəkətdə və fəaliyyətdə olmalı idi.[300]

Deməli, nübüvvətlə imamət bir-birini gərəkli etmiræ bə`zən bir insan nübüvvət məqamına çata bilər, lakin ümmətin rəhbərliyini öhdəsinə almaq vəzifəsinə malik olmaya biləræ yaxud bir şəxs Allah tərəfindən ümmətə rəhbər tə`yin oluna bilər, amma peyğəmbər olmaya bilər. Bə`zən Mütəal-Allah hər iki məqamı ləyaqəti olan bir şəxsə əta edir. Qur`anda buyurulur:

فَهَزَمُوهُمْ بِإِذْنِ اللهِ وَقَتَلَ دَاوُدُ جَالُوتَ وَ آتَاهُ اللهُ الْمُلْكَ وَالْحِكْمَةَ وَعَلَّمَهُ مِمَّا يَشَاءُ

**“Talutun ordusu Calutun ordusunu darmadağın etdi və bu zaman Davud peyğəmbər Calutu öldürdü. Allah ona (peyğəmbərlikdən əlavə) cəmiyyətin rəhbərliyini və hikməti əta etdi, istədiyi şeyləri ona öyrətdi.”**[301]

---

299 “Bəqərə” surəsi, ayə:247

300 Ustad Cə`fər Sübhaninin “Mənşuri Cavid – Qur`an” kitabından

301 “Bəqərə” surəsi, ayə:251

SUAL: 34

## TOVHİDİN ŞİRKDƏN SEÇİLMƏSİNDƏ ME`YAR NƏDİR?

Cavab: Tovhid və şirk məsələləri ilə əlaqədar bəhslərdə ən mühüm şey onların me`yarını tə`yin etməkdir ki, bu məsələ əsaslı şəkildə həll edilsin. Çünki bunlar tam şəkildə həll edilməyincə onların əsasında qurulan sair fər`i (təfərrüati) məsələlər də heç vaxt həll olunmayacaqdır. Buna görə də tovhid və şirki müxtəlif yönlərdən, amma qısa şəkildə araşdırırıq:

1-Zatda tovhid

Zatda tovhid iki cür bəyan edilir:

a) Allah (kəlam elminin tə`birincə Vacibulvücud) birdir və Onun oxşarı yoxdur. Bu da məhz Qur`anda müxtəlif ifadələrlə yad edilən tovhiddir:

لَيْسَ كَمِثْلِهِ شَيْءٌ

**“Heç kəs Onun oxşarı və misli deyildir.”**[302]

Başqa ayədə buyurulur:

وَ لَمْ يَكُنْ لَهُ كُفُوًا اَحَدٌ

**“Heç bir şey Ona bərabər ola bilməz.”**[303]

Əlbəttə, tovhidin bu növü bə`zən avam camaat arasında başqa cür təfsir edilir ki, özünə ədəd baxımından olan bir mə`na alır, yə`ni “Allah birdir, iki deyildir” deyilir. Bu qəbildən olan tovhid Allahın ilahiyyət məqamına layiq deyildir.

b) Allahın zatı mürəkkəb deyil, bəsitdir, çünki bir varlığın hər hansı zehni və ya xarici hissələrdən təşkil olunması onun hissələrinə olan ehtiyacı sayılır və ehtiyac da imkanın (mümkünül-vücud olmağın) nişanəsidir, imkan daim illətə (səbəbə) olan ehtiyacla yanaşıdır, halbuki, bunların heç biri Vacibul-vücud məqamı ilə uyğun gəlmir.

2-Xəlq etməkdə (xaliqiyyətdə) tovhid

Xaliqiyyətdə tovhid həm əql, həm də nəql tərəfindən qəbul olunan tovhid mərhələlərindən biridir. Əql nəzərindən Allahdan başqa mövcud olan hər bir şey bütün kamal və camaldan məhrumdur, onların malik oduqları hər bir şeyi Allahın zatən qəni olan feyzindən qaynaqlanır. Dünyada kamal və camal cilvələrinin hamısı Allah tərəfindəndir.

Qur`an ayələrindəndə xaliqiyyətə dair çoxlu nümunələr vardır ki, onlardan birini qeyd edirik:

قُلِ اللهُ خَالِقُ كُلِّ شَيْءٍ وَ هُوَ الْوَاحِدُ الْقَهَّارُ

**“De: Allah hər bir şeyin xaliqidir və O, yeganə və qalibdir.”**[304]

Deməli, xaliqiyyətdə tovhid məsələsi ilahiyyatçılar arasında ümumiyyətlə ixtilafa səbəb ola bilməz. Əsas məsələ yaradıl-ışdakı tovhiddir ki, bu barədə iki növ təfsir qeyd olunur:

a) Dünya varlıqları arasında mövcud olan hər növ səbəb-nəticə qanunu bütünlüklə səbəblərin yaradanı və illətlərin əsası olan Allaha qayıdıræ həqiqətdə müstəqil və əsil xaliq Allahdır, Ondan başqasının öz mə`lulunda tə`siri də mütləq Onun icazəsi və izni ilə baş verir. Bu nəzəriyyədə dünyadakı səbəb-nəticə qanununa (bəşər elmi də onu kəşf

---

[302] “Şura” surəsi, ayə:11

[303] “İxlas” surəsi, ayə:4

[304] “Rə`d” surəsi, ayə:16

etmişdir) e`tiraf olunur. Lakin eyni halda bu sistemlərin məcmusu hər hansı bir növdə Allahdan asılıdır və nizamları yaradan, onlara səbəbkarlıq xasiyyəti verən, hər şeyə tə`sir bağışlayan yalnız Odur.

b) Dünyada yalnız bir xaliq vardır, o da Allahdır. Varlıq aləmində heç bir növ tə`sir qoyma və tə`sirlənmə müstəqil şəkildə mövcud deyildir: Allah bütün təbii varlıqların bilavasitə xaliqidir, hətta bəşər qüdrəti də Onun fe`lində tə`sir qoya bilmir.

Deməli, varlıq aləmində birdən artıq səbəb yoxdur və o da elmdə "təbii səbəblər" adı ilə tanınan hər bir şeyin yerindədir.

Əlbəttə, xaliqiyyətdə tovhid üçün belə bir təfsiri bə`zi əşairə alimləri irəli sürür, lakin onların məşhur şəxsiyyətlərindən bə`ziləri, o cümlədən İmamul-Hərəmeyn[305] və son zamanlar Şeyx Məhəmməd Əbdüh özünün "Tovhid" risaləsinə bu nəzəriyyəni inkar edərək birinci nəzəriyyəni seçmişdir.

3-Tədbirdə (idarəçilikdə) tovhid

Yaratmaq Allaha məxsus olduğu kimi, varlıq aləminin idarə olunması da Onun öhdəsinədir və varlıq aləmində yalnız bir tədbirçi vardır. Xaliqiyyətdə tovhidi isbat edən dəlillər elə tədbirdəki tovhidi də isbat edir. Qur`anın çoxlu ayələrində Allah dünyanın yeganə idarəedicisi kimi təqdim edilir və buyurulur: **"De: Yoxsa Allahdan başqa mə`budlar, rəblər axtaraq, halbuki O, hər bir şeyin tədbirçisidir."**[306]

Əlbəttə, xaliqiyyətdəki tovhid barəsində qeyd olunan iki təfsir tədbir tovhidində də irəli çəkilir və bizim nəzərimizdə tədbirdə tovhid dedikdə məqsəd müstəqil tədbirin yalnız Allaha aid olunmasıdır. Deməli, bütün aləm varlıqları arasındakı müəyyən təbii tədbirlərin hamısı Allahın iradə və istəyindən qaynaqlanır. Qur`ani-Kərim haqqa bağlı olan bu cür tədbirçilərə işarə edərək buyurur: **"And olsun o kəslərə ki, varlıq aləmini idarə edirlər."**[307]

4-Hakimiyyətdə tovhid

Hakimiyyətdə tovhid dedikdə bu nəzərdə tutulur ki, hökumət sabit bir haqq kimi Allaha məxsusdur, cəmiyyətin ayrı-ayrı fərdlərinə hakim yalnız Odur. Qur`anda belə buyurulur: **"İnil-hukmu illa lillah - hakimiyyət (haqqı) yalnız Allaha məxsusdur."**[308]

Deməli, başqalarının da hökuməti Onun icazəsi və istəyi ilə olmalıdır ki, layiqli insanlar cəmiyyətin idarə olunma işini öhdələrinə alsınlar və camaatı əbədi səadətə və kamala doğru hidayət etsinlər. Qur`an bu barədə buyurur:

يَا دَاوُودُ إِنَّا جَعَلْنَاكَ خَلِيفَةً فِي الْأَرْضِ فَاحْكُمْ بَيْنَ النَّاسِ بِالْحَقِّ

**"Ey Davud, Biz səni yer üzündə Öz nümayəndəmiz qərar verdik, belə isə camaat arasında haqq əsasında hökm (hökmranlıq) et."**[309]

5-İtaətdə tovhid

İtaətdə tovhidin mə`nası budur ki, zatən itaət olunmalı, eləcə də əsalətən itaət olunması lazım olan şəxs yalnız Allahdır. Buna əsasən başqalarına, o cümlədən Peyğəmbərə, imama, fəqihə, ata-anaya və s.-yə itaət etməyin zərurəti Allahın iradəsi və əmri ilədir.

---

305 "Miləl və nihəl" (Şəhristani), 1-ci cild

306 "Ən`am" surəsi, ayə:164

307 "Naziat" surəsi, ayə:5

308 "Yusuf" surəsi, ayə:40

309 "Sad" surəsi, ayə:26

6-Şəriət və qanun qoymaqda tovhid

Qanunçuluqda tovhidin mə`nası budur ki, qanun qoymaq haqqı yalnız Allaha məxsusdur. Buna əsasən Qur`an ilahi qanunlar çərçivəsindən xaric olan hər növ hökmü küfr, fisq və zülm kimi qiymətləndirərək buyurur:

وَ مَنْ لَمْ يَحْكُمْ بِمَا اَنْزَلَ اللّهُ فَأُوْلَئِكَ هُمُ الْكَافِرُونَ

**"Hər kəs Allahın nazil etdikləri əsasda hökm etməzsə kafirdir."**[310]

وَ مَنْ لَمْ يَحْكُمْ بِمَا اَنْزَلَ اللّهُ فَأُوْلَئِكَ هُمُ الظَّالِمُونَ

**"Hər kəs Allahın nazil etdikləri əsasda hökm etməsə, fasiqdir."**[311]

وَ مَنْ لَمْ يَحْكُمْ بِمَا اَنْزَلَ اللّهُ فَأُوْلَئِكَ هُمُ الْفَاسِقُونَ

**"Hər kəs Allahın nazil etdikləri əsasda hökm etməsə zalımdır."**[312]

7-İbadətdə tovhid

İbadətdə tovhidlə əlaqədar ən mühüm bəhs ibadətin mə`nasının ayırd edilməsidir. Çünki bütün müsəlmanlar bu məsələdə yekdil nəzərə malikdirlər ki, ibadət yalnız Allaha məxsusdur və Ondan başqasına pərəstiş etmək olmaz. Qur`an bu barədə buyurur:

اِيّاكَ نَعْبُدُ وَ اِيّاكَ نَسْتَعِينُ

**"Yalnız Sənə ibadət edir və yalnız Səndən kömək istəyirik."**[313]

Qur`an ayələrindən mə`lum olur ki, bu məsələ bütün ilahi peyğəmbərlərin də`vətində müştərək bir prinsip olmuş və onların hamısı bu məsələni təbliğ etmək üçün göndərilmişlər. Qur`ani-Kərim bu barədə buyurur:

وَ لَقَدْ بَعَثْنَا فِي كُلِّ اُمَّةٍ رَسُولاً اَنِ اعْبُدُواْ اللّهَ وَاجْتَنِبُواْ الطَّاغُوتَ

**"Hər bir ümmətin arasından bir peyğəmbər göndərdik ki, Allaha pərəstiş edin, tağutlardan (tüğyançılardan) uzaq olun."**[314]

Deməli, pərəstişin yalnız Allaha məxsus olması, Ondan başqa heç bir şeyə ibadət edilməməsi kimi danılmaz prinsip barəsində heç bir münaqişə yoxdur və hər kəs yalnız bu prinsipi qəbul etdikdən sonra müvəhhid (tovhidçi) adlana bilər. Əsas məsələ ibadətin qeyri-ibadətdən ayırd edilməsinin me`yarındadır. Məsələn, müəllimin, ata-ananın, alimlərin əlini öpmək, haqq sahibləri qarşısında hər hansı növ tə`zim etmək onlara ibadət etmək sayılırmı, yoxsa ibadət mütləq şəkildə olan xüzu mə`nasına deyildir, əksinə onda müəyyən şərtlər də vardır ki, həmin şərtlər həyata keçməyincə heç bir xüzu, hətta səcdə həddində olsa belə, özünə ibadət yönü almır?

İndi bu kimi təvazökarlıq və tə`zimlərin ibadət olub-olmamasını araşdırmalıyıq və bu, çox bir mühüm məsələdir.

## İBADƏT BARƏSİNDƏ DÜZGÜN OLMAYAN ÇIXARIŞLAR

Bə`zi yazıçılar ibadəti "xüzu" və ya "son dərəcə xüzu" kimi təfsir etmiş, lakin bə`zi Qur`an ayələrini izah etmək istədikdə çıxılmaz vəziyyətdə qalmışlar. Qur`an aşkar şəkildə buyurur ki, Adəmə səcdə etmək mələklərə əmr olundu:

وَ اِذْ قُلْنَا لِلْمَلاَئِكَةِ اسْجُدُوا لِآدَمَ

---

[310] "Maidə" surəsi, ayə:44

[311] "Maidə" surəsi, ayə:40

[312] "Maidə" surəsi, ayə:45

[313] "Həmd" surəsi, ayə:4

[314] "Nəhl" surəsi, ayə:36

**“Mələklərə dedik: Adəmə səcdə edin.”**[315]

Adəmə edilən səcdə eynilə Allah qarşısında edilən səcdə kimi idi, halbuki birincisi təvazökarlıq izhar etmək, ikincisi isə ibadət və pərəstiş məqsədi ilədir. İndi eyni vəziyyətdə edilən bu iki səcdənin nə üçün müxtəlif mahiyyətə malik olduğunu araşdıraq. Qur`an bir yerdə Yə`qub peyğəmbərin öz övladları ilə həzrəti Yusifə səcdə etdiyindən xəbər verərək buyurur:

وَ رَفَعَ اَبَوَيْهِ عَلَي الْعَرْشِ وَ خَرُّواْ لَهُ سُجَّدًا وَ قَالَ يَا اَبَتِ هَذَا تَأْوِيلُ رُؤْيَايَ مِن قَبْلُ قَدْ جَعَلَهَا رَبِّي حَقًّا

**“Yusüf atasını və anasını taxtda oturtdu, onların hamısı onun üçün səcdəyə düşdülər və Yusüf dedi: Ey ata, bundan qabaq gördüyüm yuxunun tə`vili (yozumu) bu idi və Allah onun haqq olmasını isbat etdi.”**[316]

Qeyd olunmalıdır ki, həzrəti Yusifin “bundan qabaq gördü-yüm yuxu” deməkdə məqsədi on bir ulduzun günəş və ayla birlikdə ona səcdə etməsi yuxusudur. Belə ki, bu barədə buyurulur:

اِنِّي رَاَيْتُ اَحَدَ عَشَرَ كَوْكَبًا وَ الشَّمْسَ وَ الْقَمَرَ رَاَيْتُهُمْ لِي سَاجِدِينَ

**“Mən yuxuda on bir ulduzun günəş və ayla birlikdə mənə səcdə etdiyini gördüm.”**[317]

Həzrəti Yusif öz yaxın adamlarının səcdə etməsini əvvəllər gördüyü yuxunun yozumu hesab etdiyindən aydın olur ki, on bir ulduz dedikdə məqsəd on bir qardaşı, günəş və ay dedikdə isə ata və anası imiş. Deməli, təkcə onun qardaşları deyil, ilahi peyğəmbər olan atası da ona səcdə etmişdir. İndi belə bir sual yaranır: Nə üçün onların son dərəcə bəndəçilik, xüzu sayılan səcdəsi ibadət hesab olunmur?

## GÜNAHDAN DA PİS OLAN BƏHANƏ!

Yuxarıda işarə olunan bə`zi yazıçılar bu sualın cavabında çıxılmaz vəziyyətdə qalarkən belə demişlər: Bu səcdə və xüzular Allahın fərmanı ilə olduğundan şirk deyildir. Lakin bu cavabın çox naşı bir söz olması aydındır. Çünki əgər bir əməlin mahiyyəti şirk olsa heç vaxt Allah ona əmr etməz, çünki Allah buyurur:

قُلْ اِنَّ اللهَ لاَ يَأْمُرُ بِالْفَحْشَاءِ اَتَقُولُونَ عَلَي اللهِ مَا لاَ تَعْلَمُونَ

**“De: Allah (heç kimi) pis işlərə əmr etməz. Yoxsa bilmədiyiniz şeyi Allaha aid edirsiniz?!”**[318]

Ümumiyyətlə, Allahın fərmanları bir şeyin mahiyyətini dəyişmir. Əgər bir insanın qarşısında xüzu etməyin həqiqəti ona pərəstişdirsə və Allah da ona əmr versə nəticəsi özünəpərəstiş etməyə dair fərman olacaqdır.

## İRADIN CAVABI VƏ İBADƏTİN HƏQİQİ MƏ`NASI

Mə`lum oldu ki, Allahdan başqasına pərəstiş etməyin qadağan (haram) olması bütün dünya tovhidçiləri tərəfindən qəbul olunur. Digər tərəfdən, mələklərin Adəmə, eləcə də həzrəti Yə`qubun və övladlarının Yusifə səcdə etməsi onlara pərəstiş hesab olunmur. İndi görək hansı səbəbə görə bir əməl bir dəfə ibadət adlanır, digər dəfə həmin

---

[315] “Bəqərə” surəsi, ayə:34

[316] “Yusif” surəsi, ayə:100

[317] “Yusif” surəsi, ayə:4

[318] “Ə`raf” surəsi, ayə:28

xüsusiyyətlə ibadətdən xaric olur.

Qur`an ayələrinə müraciət etməklə aydın olur ki, ibadət – bir varlıq qarşısında elə xüzu etməkdir ki, onu Allah hesab etmək və Allahın işlərini ona aid etməklə yanaşı olsun. Bu bəyanla aydın olur ki, Allaha və ya Onun ilahi işləri yerinə yetirməyə qüdrətli olmasına e`tiqad məhz həmin məsələdir ki, hərgah xüzu ilə yanaşı olsa bu əmələ ibadət mahiyyəti verir.

Dünya müşrikləri – istər Ərəbistan yarımadasında yaşayanlar olsun, istərsə də sairləri – Allahın məxluqu hesab etdikləri bə`zi varlıqların qarşısında xüzu və xüşu edir, lakin eyni zamanda inanırdılar ki, Allahın işlərindən bir qismi (onun ən aşağı səviyyəsi günahları bağışlamaq haqqı və şəfaət məqamına malik olmaqdır) onlara həvalə edilmişdir. Babil müşriklərindən bir qrupu səma cisimlərinə pərəstiş edirdilər, amma onları özlərinin xaliqi və yaradanı deyil, rəbbi (tərbiyə edəni), həmçinin dünyanı və insanı idarə edən varlıqlar hesab edirdilər. Həzrəti İbrahim (ə)-ın onlarla apardığı mübahisələr həmin e`tiqad əsasında baş vermişdi. Çünki Babil müşrikləri heç vaxt günəşi, ayı və ulduzları "Yaradan" hesab etmirdilər, əksinə bunları qüdrətli məxluqlar hesab edir və deyirdilər ki, dünya işlərinin idarə olunması onlara həvalə edilmişdir. İbrahim (ə)-ın Babil müşrikləri ilə apardığı mübahisəni bəyan edən ayələr də məhz "rəbb" kəlməsi üzərində tə`kid edir. ("Ən`am", ayə 76-77) və rəbb kəlməsi də ixtiyarında olan şeyin tədbirçisi və sahibi mə`nasınadır. Ərəblər ev sahibinə "rəbbul-beyt", əkin sahəsinin sahibinə "rəbbuz-ziy`ə deyirlər, çünki evin və əkin sahəsinin idarə olunması onun sahibinin öhdəsinə qoyulur.

Qur`ani-Məcid Allahı varlıq aləminin yeganə tədbirçisi, pərvəriş verəni kimi təqdim edərək müşriklərlə mübarizəyə qalxır və onları yeganə Allaha pərəstişə də`vət edərək buyurur:

اِنَّ اللهَ رَبِّي وَرَبُّكُمْ فَاعْبُدُوهُ هَذَا صِرَاطٌ مُّسْتَقِيمٌ

**"Böyük Allah mənim rəbbim və sizin rəbbinizdir, belə isə Ona pərəstiş edin, budur düzgün yol."**[319]

Başqa bir ayədə buyurulur:

ذَلِكُمُ اللهُ رَبُّكُمْ لاَ اِلَهَ اِلاَّ هُوَ خَالِقُ كُلِّ شَيْءٍ فَاعْبُدُوه

**"O Allah sizin rəbbinizdir, Ondan başqa heç bir mə`bud yoxdur, hər bir şeyin yaradanıdır, elə isə Ona pərəstiş edin."**[320]

"Duxan" surəsində buyurulur:

لَا اِلَهَ اِلَّا هُوَ يُحْيِي وَ يُمِيتُ رَبُّكُمْ وَ رَبُّ آبَائِكُمُ الْاَوَّلِينَ

**"Yeganə olan Pərvərdigardan başqa heç bir mə`bud yoxdur, həyat verir, öldürür, həm sizin, həm də ata-babalarınızın pərvərdigarı, onların işini tədbir edəndir."**[321]

Qur`anda İsa (ə)-ın dilincə buyurulur:

وَ قَالَ الْمَسِيحُ يَا بَنِي اِسْرَائِيلَ اعْبُدُواْ اللهَ رَبِّي وَ رَبَّكُمْ

**"Həzrəti İsa dedi: Ey Bəni-İsrail, həm mənim, həm də sizin rəbbiniz olan Allaha pərəstiş edin!"**[322]

---

319 "Ali-İmran" surəsi, ayə:51

320 "Ən`am" surəsi, ayə:102

321 "Duxan" surəsi, ayə:8

322 "Maidə" surəsi, ayə:70

Qeyd olunanlardan aydın olur ki, qarşı tərəfin rəbb və mə`bud olmasına e`tiqaddan uzaq olan, ilahi işlər ona nisbət verilməyən xüzu, hərçənd xüzunun son həddində olsa belə, ibadət hesab oluna bilməz.

Deməli, övladın ata-ana, ümmətin Peyğəmbər (s.ə.v.v) qarşısında xüzu etməsi heç vaxt onlara ibadət hesab oluna bilməz. Beləliklə, aşağıda qeyd olunan məsələlərdən çoxu: ilahi övliyaların əsərlərinə təbərrük etmək, onların qəbirlərinin zərihlərini və qapı-divarlarını öpmək, Allah dərgahında əziz və hörmətli olan şəxsiyyətlərə təvəssül etmək, layiqli bəndələrini çağırmaq, onların doğum və vəfat günlərini qeyd etmək və sair kimi işlərin agah olmayan bə`zi şəxslərin nəzərində Allahdan başqasına pərəstiş və şirk hesab olunmasına baxmayaraq, Allahdan qeyrisinə ibadət hüdudlarından tamamilə xaricdir.

## SUAL: 35

### NƏ ÜÇÜN ŞİƏLƏR SÜNNÜLƏRİN ƏKSİNƏ OLARAQ DƏSTƏMAZ ALARKƏN QOLLARINI AŞAĞIDAN YUXARIYA TƏRƏF DEYİL, YUXARIDAN AŞAĞI YUYUR VƏ AYAQLARINI YUMAQ ƏVƏZİNƏ ONLARA MƏSH ÇƏKİRLƏR?

Bildiyimiz kimi, dəstəmaz namazın müqəddimati işlərindən biridir. "Maidə" surəsində bu haqda buyurulur:

يَا اَيُّهَا الَّذينَ آمَنُوا اِذاقُمْتُمْ اِليَ الصَّلاةِ فَاغْسِلُوا وُجُوهَكُمْ وَ اَيْدِيَكُمْ اِليَ الْمَرافِقِ وَ امْسَحُوا بِرُؤُوسِكُمْ وَ اَرْجُلَكُمْ اِليَ الْكَعْبَيْنِ

"**Ey iman gətirənlər! Namaz üçün ayağa qalxdıqda, üzünüzü və əllərinizi - dirsəyə qədər - yuyun, başınıza və ayaqlarınıza kə`beynə qədər məsh edin.**"[323]

Birinci cümlədə "əydi" sözü işlənmişdir. Bu söz ərəb dilində "əl" sözünün cəm formasıdır. "Yəd" sözü ərəb dilində müxtəlif mə`nalarda işlədilir. Məsələn: bə`zi vaxtlar yalnız barmaqlara, bə`zi vaxtlar biləkdən barmaqlara qədər olan hissəyə, bə`zi vaxtlar dirsəkdən barmaqlara qədər yerə və bə`zi vaxtlar da çiyindən aşağıya (qola) deyilir.

Digər tərəfdən dəstəmazda qolun dirsəkdən barmaqların ucunadək hissəsi yuyulmalı olduğundan, Qur`ani-kərim "iləl-mərafiq" sözünü bu üzvün nə qədər yuyulmasınıi tə`yin etmək üçün buyurmuşdur. Deməli, "iləl-mərafiq" ifadəsindəki "ila" sözü qolun hansı istiqamətdə (yuxarıdan aşağı və ya əksinə) yuyulmasını deyil, yuyulacaq miqdarı tə`yin etmək üçündür. Çünki bir şeyin necə yuyulması xalq arasında olan adətə bağlıdır. Adətən təmizlik işlərində həmişə yuxarıdan aşağı istiqamətdə yuyurlar. Məsələnæ həkim xəstəyə, ayaqlarını dizə qədər yumasını göstəriş verdikdə onun ayaqlarını aşağıdan yuxarı deyil, əksinə yuxarıdan aşağıya tərəf yuyurlar. Elə buna görə də şiə məzhəbi dəstəmazda üz və əllərin yuxarıdan aşağı yuyulmasını göstəriş vermiş və bunun əksini düzgün bilməmişdir.

Dəstəmazda ayrı bir məsələ də ayaqlara məsh etməkdən ibarətdir. Şiə fiqhinə əsasən, dəstəmaz vaxtı ayaqları yumaq deyil, məsh çəkmək lazımdır. Onların dəlili də "Maidə" surəsinin 6-cı ayəsinin zahiri məfhumudur. Bu ayəyə əsasən dəstəmaz alan şəxs iki iş görməlidir: üzü və əlləri yumaq, başa və ayaqlara məsh çəkmək. Bu mətləb ayədəki iki cümlənin müqayisəsindən başa düşülür:

1-Üzlərinizi və əllərinizi dirsəkdən yuyun.

2-Baş və ayaqlarınıza kə`bəynə qədər məsh çəkin.

Biz bu iki cümləni əvvəllər fiqhi hökmlərlə tanış olmayan ərəbdilli bir şəxsə göstərdikdə, şübhəsiz *"bizim vəzifəmiz üzümüzü və əllərimizi yuyub, baş və ayaqlarımıza məsh etməkdir"* deyə cavab verəcəkdir.

Ərəb qrammatikasına əsasən, "ərcüləkum" (ayaqlarınıza) sözü "və" bağlayıcısı vasitəsilə "birüusikum" (başlarınıza) kəlməsinə bağlanmalı və nəticədə ayaqlara məsh etmək mə`nası ifadə olunmalıdır. Həmçinin (ayaqlarınız) sözünü heç vaxt "əydiyəkum" (qollarınız) sözünə aid edib ayaqları (məsh etmək əvəzinə) yumaq olmaz. Çünki belə halda mə`tuf (yə`ni "və ərcüləkum" kəlməsi) ilə mə`tufun-əleyh (yə`ni "və əydiyəkum" kəlməsi) arasında mö`tərizə cümləsi olan "fəmsəhu birüusiküm" gələcəkdir ki, bu da ərəb qrammatikasında düzgün bir ifadə olmayıb, mə`nanın tam dəyşməsinə səbəb olacaqdır. Həmçinin bu zəminədə "ərcüləkum" kəlməsini kəsrə və ya fəthə ilə oxumağın

---

[323] "Maidə" surəsi, ayə 6.

heç bir fərqi yoxdur: hər iki surətdə ərcüləkum" qollarınız, kəlməsi, "birüusikum" - başlarınız kəlməsinə bağlanacaq və təkcə onun zahirində ətf edildikdə onu məcrur, məhəllinə ətf (aid) etdikdə isə mənsub ediləcəkdir. Əhli-beyt ¢-dan nəql olunmuş mö`təbər rəvayətlərə əsasən, dəstəmaz iki əməldən ibarətdir: "Ğəslətani" – iki üzvü yumaq və "məshətani" - iki üzvə məsh çəkmək. Həzrət İmam Baqir (ə) da Peyğəmbərin (s) necə dəstəmaz almasını nəql edərək o Həzrətin ayaqlarına məsh çəkməsindən xəbər verir.

Qeyd etmək lazımdır ki, dəstəmaz alarkən təkcə Əhli-beyt ¢ imamları ayaqlarına məsh çəkmir, həm də bir çox səhabələr və tabein bu nəzərdə olmuşdur. Lakin sonralar müəyyən səbəblərə əsasən, müsəlmanlar məsh etməyi yumaqla əvəz etmişlər. Bu haqda fiqhi kitablarda ətraflı mə`lumat qeyd olunmuşdur.